

# AĞLIN ZİRVƏSİNDƏ SÖNƏN BİR ÇIRAQ

*Ağlın işığından ölüm qorxaraq,*
*Əbədi hökmünü dandı təzədən.*
*Ağlın zirvəsində sönən bir çıraq*
*Min-min ürəklərdə yandı təzədən.*

**Bakı - 2015**

REDAKTOR, ÖN SÖZÜN
MÜƏLLİFİ VƏ TƏRTİBÇİ: **Buludxan XƏLİLOV,**
*filologiya üzrə elmlər doktoru, professor*

TƏRTİBATIN İDEYA RƏHBƏRİ: **Elnarə ÖMƏROVA**

**"Ağlın zirvəsində sönən bir çıraq".**
Bakı, "Bakı Çap Evi", 2015, 252 səh.

*Kitabda tanınmış jurnalist, gözəl insan, sədaqətli dost, mahir təşkilatçı, etibarlı sirdaş, mehriban və qayğıkeş ailə başçısı İbrahim Ömərovun həyat və fəaliyyətinin xarakterik məqamları öz əksini tapır. Həmçinin dostlarının, doğmalarının, yaxınlarının və tanışlarının bir qisminin ürək sözləri, xatirələri özünə yer alır.*

© B.Xəlilov, 2015

# ÖN SÖZ:
# İnsan sığınacaqlara doğru tələsir

*"Mənim başlanğıcım mənim sonumdur,*
*mənim sonum mənim başlanğıcımdır".*

*Tomas Eliot,*
*Ədəbiyyat üzrə Nobel mükafatçısı*

İnsanın bu dünyaya gəlişindən başlamış, bu dünyadan gedişi də daxil olmaqla – hamısı sığınacaq axtarmaqdır. Hələ ana bətnində olan uşaq ana bətnini sığınacaq kimi qəbul edir. Ana bətnində sığınacaq tapmış uşaq burada qala bilmir, bu heç mümkün də deyil. Buradakı sığınacaq müddəti qurtardıqdan sonra uşaq dünyaya gəlir, ömrünün sonuna qədər bu dünyada sığınacaq axtarır. Bağçaya gedir, burada sığınacaq axtarır. Məktəbə gedir, burada sığınacaq axtarır. Ali təhsil alır, burada sığınacaq axtarır. Ailə qurur, yenə də sığınacaq axtarır. Ev alır, yenə də sığınacaq axtarır. Nəhayət, insan ölür, yenə də sığınacaq axtarır. Ölmüş insanı tabuta qoyur və qəbiristanlığa aparırlar. Tabut da, qəbiristanlıq da sığınacaqdır. Ölən insan dəfn olunur. Ən son sığınacaq budur. İstəsə də, istəməsə də, sığınacaq axtaran insan son mənzili – torpağı sığınacaq kimi qəbul edir. Beləliklə, insan üçün həyat başdan-başa sığınacaqlardan ibarət olur. Bu işin bir tərəfi. İkinci tərəfi odur ki, insan həyatı boyu sığınacaqlara doğru tələsir. Heç özü bu barədə düşünmədən çalışır, vuruşur və nəhayət, torpaq adlı sığınacaqda rahatlanır...

Sığınacaq deyəndə ədəbiyyat üzrə Nobel mükafatı laureatı Herman Hessenin “Sığınacaq” essesindən bir məqam yada düşür: “Mən yenə də nəyin dalınca gedəcəyimi, nəyi rəhbər tutacağımı, öz qanımı nəyə verəcəyimi tapdım, anladım. Bu nə istəkdi, nə də arzu, bu – məqsəddir.

Bu məqsəd – yenə də sığınacaqdır. Ancaq nə mağaradır, nə də gəmi. Mən o sığınacağı öz içimdə axtarıram, dağlardan, mağaralardan etibarlı, tabutdan, qəbir çalasından etibarlı və rahat, tək qaldığım, dünyanın əli yetmədiyi məkan, yaxud nöqtə axtarıram. Budur mənim məqsədim. Ora heç nə keçə bilməz, çünki ora mənimlə yoğrulub.

Qoy orada lap boran və ağrılar olsun, qoy orada lap qan da tökülsün.

Mən hələ bu məqsədimdən çox uzaqdayam, mən hələ yolun lap başlanğıcındayam, ancaq indi bu, əsl mənim yolumdur. Adi arzu deyil.

Ey dərin sığınacaq! Sənə heç bir tufan yetməz, səni alov yandıra bilməz, səni heç bir müharibə dağıda bilməz. Öz cismimin dərinliyində balaca yuva! Daxma, balaca tabut, balaca beşik, mən sənə can atıram”. (Herman Hesse. Seçilmiş əsərləri. – Bakı: “Şərq – Qərb”, 2010, s.532-533).

Bu dünyada hərəyə bir şey lazımdır: kimiyə gecə, kimiyə gündüz, kimiyə mərdlik, kimiyə namərdlik, kimiyə məğrurluq, kimiyə mütilik, kimiyə qayğı, kimiyə etinasızlıq, kimiyə haqq-ədalət, kimiyə ədalətsizlik, kimiyə nə isə... Ancaq hamıya – hər bir kəsə sığınacaq mütləq lazımdır. Bütün ömrü boyu sığınacaqlar uğrunda çarpışan insanı daha çətin sınaqlar, həm də uğurlar, nailiyyətlər gözləyir. Ancaq insanın sonu yenə də sığınacaqdır. Axtara-axtara, özümüz də bilmədən və hərəmiz bir yolla sığınacağımızı tapırıq. Deməli, son məqsədimiz sığınacağımızı tapmaqdır. Biz insanlar son məqsəd kimi dünyaya

sığınacaq axtarışına gəlmişik və hələ də sığınacaq axtarışındayıq. Bir sözlə, insan ömrü boyu sığınacaqlara doğru tələsir. Son sığınacaq hər bir kəsin qismətinə alın taleyi kimi yazılıbdır. Kimsə son sığınacaqdan qaça bilərmi?! Kimsə son sığınacağı haqqında düşünürmü?! Dünyanın qəribə işləri var. Bir atanın, bir ananın övladlarının son sığınacağı bir olmur! Məncə, hər bir şeyin fəlsəfəsinə varmaq lazımdır. Görün ədəbiyyat üzrə Nobel mükafatçısı Ernest Heminquey necə deyib: "Hər insanın ölümü mənim ömrümü gödəldir, çünki mən Bəşəriyyətin ayrılmaz bir parçasıyam və elə ona görə də kilsə zənginin harayını eşidəndə heç vaxt soruşma ki, kimdir dünyadan köçən; Sənsən dünyadan köçən". (bax: Ernest Heminquey. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2010, s.7)

Ancaq insanın ölməsi, son sığınacağını tapması məğlubiyyət deyil. Ədəbiyyat üzrə Nobel mükafatçısı Uilyam Folkner demişkən: "Mən insanın ölümü fikrini rədd edir, buna inanmıram; insan nəinki duruş gətirəcək, mən qəti əminəm ki, o – qalib gələcək". Ernest Heminqueyin sözləri ilə desək: "İnsan övladı məğlubiyyət üçün yaranmayıb; insanı məhv etmək olar, lakin onu məğlub etmək mümkünsüzdür". Bir azərbaycanlı şairin dediyi kimi: "Ölüm ölmək deyil ki, Vətənə qayıdışdır". Ədəbiyyat üzrə Nobel mükafatçısı Tomas Eliotun belə fikri var: "Mənim başlanğıcım mənim sonumdur, mənim sonum mənim başlanğıcımdır". Bu mənada hələ bilmək olmaz ki, kimin başlanğıcıdır, kimin isə sonudur. Ancaq bu da bir həqiqətdir ki, dünya yaranandan indiyə qədər insan məğlubolmazdır. Nəsillər dəyişir, bir-birini əvəz edir. İnsanlar isə qurub-yaradır və fəaliyyət göstərirlər. Deməli, insan məğlubedilməzdir.

***Buludxan Xəlilov,***
*filologiya üzrə elmlər doktoru, professor*

# SƏNİN YERİN GÖRÜNÜR, QAYIT GƏL



**Buludxan Xəlilov,**
*filologiya üzrə elmlər doktoru, professor*

## Əziz dost, nə vaxt qayıdıb gələcəksən?!

14 mart 2014-cü il... Sübh tezdən işə gedirdim. İşə piyada gedirdim. Birdən əl telefonuma zəng gəldi. Baxdım ki, zəng vuran dostumuz Seyiddir. Onun adı Cavanşirdir, ancaq əsil-nəcabətli seyid nəslindən olduğu üçün ona bütün dostlar belə (Seyid) deyirlər. Fikirləşdim ki, bu vaxt nə zəngdir, görəsən. Heç ağlıma gəlmədi ki, onun mənə verdiyi xəbər bu qədər acı olarmış. Seyid telefonda mənə dedi ki, Suraxanıya gəl. Dedim nə olub. Dedi ki, gəl, bilərsən. Əl çəkmədim, dedim ki, nə olub. Gördü ki, əl çəkmirəm. Dedi ki, dostumuz İbrahim yoxdur. Dedim ki, necə yəni yoxdur?! O dedi ki, yoxdur da... İnfarkt oldu, dünyasını dəyişdi. Qolumdakı saat səhər tezdən 6:37 dəqiqəni göstərirdi. Yer-göy başıma fırlandı. Özümün özümlə söhbətim belə oldu:

*Soyuqmuş bu qara torpağın üzü*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*
*Günbəgün, aybaay üyüdür bizi*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*

*Bunları babamız, nənəmiz deyib,*
*Bunları atamız, anamız deyib,*
*Kim deyib, düz deyib, çox təmiz deyib,*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*

*Ay Seyid, bu nə dərd, bu nə xəbərdi,*
*Ömrümün bu çağı qəddimi gərdi.*
*Bəlkə bir yalandı, ya kimsə gördü?!*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*



*İbrahim dostu Buludxanla*

* * *

Bu bəd xəbərdən 3-4 gün əvvəl bazar günü görüşmüşdük. Mənə zəng vurmuşdu ki, sizə gəlirəm. Dedim ki, gözləyirəm, gəl. Gəldi xeyli söhbət etdik. Həmişə olduğu kimi ruhlu idi, həyat eşqi güclü idi. O qədər sevinirdi ki, hərəkətlərində də sevincini gizlətmirdi. Hətta pianinoda öz bildiyi kimi, özünəməxsus şəkildə bir mahnı da ifa etdi. Planlarımızdan, görəcəyimiz işlərdən danışdıq. Bir-birimiz barədə xoş sözlər dedik. Həmişə olduğu kimi zarafatımızdan da qalmadıq. Məndən ayrılanda həyətə qədər birlikdə çıxdıq. Həyətdə də xeyli söhbət etdik. Məndən ayrılanda dedi ki, üzümüzə gələn həftənin ya altıncı, ya da bazar günü dostlarla birlikdə görüşəcəyik. Bu görüşümüzün olacağına arxayın oldum və onunla nə zəngləşə bildim, nə də görüşə bildim. Hərdən özümü qınayıram ki, bəlkə zəngləşərdik, bəlkə görüşərdik. Bəlkə zəngləşsək, bəlkə görüşsək, bu hadisə baş verməzdi. Açığı deyim ki, bu bəlkələr də məni yaman yorur. Nə isə... Artıq bu bəlkələrdən keçib. Artıq ağlıma gəlməyən, yatsam belə, yuxuma girməyən hadisə baş verib. Artıq İbrahim onu tanıyanların hər birindən ayrı düşüb. O, hər gün, hər an onu tanıyanları, onun dostlarını, onun əzizlərini, doğmalarını ağladır. Onda insanı hisslər, duyğular o qədər güclü idi ki, onun fiziki yoxluğu ağlatmaya bilmir. Bu ağrı hamını – dostu, tanışı, qohumu, qardaşı, bu hadisəni eşidən hər bir kəsi ağlatdı, ağladır və ağladacaqdır.

**Ağladı**

*Ürəyin qəflətən susdu həmin gün*
*Göy üzü buluddan qara bağladı*
*Dost-aşna matəmə büründü bütün,*
*Adını eşidən bəndə ağladı.*

*Çatanda xəbərin yaxına, yada,*
*Hamını bir anda qaladı oda.*
*Son anda dayın da yetmədi dada,*
*Çalışıb-vuruşub gendə ağladı.*

*Əzəldən bağlıydın ölümsüzlüyə*
*Bu qədər vədəsiz köç etdin niyə?*
*Ömrünü xərclədin dost-tanış deyə,*
*Dostların hamıdan öndə ağladı.*

*Dostların gözündə yaş giləlndi*
*Ananın gözündən leysan ələndi,*
*Matəmə bürüdün şəhəri, kəndi,*
*Güc-qüvvət qalmadı, can da ağladı.*

*Qanrılıb baxanda qardaşlarına,*
*Ürəyim dözmədi, göz yaşlarına,*
*Bu dərdi duymayan uşaqlarına,*
*Baxanda hərə bir yanda ağladı.*

*Bu necə qismətdi, bu necə paydı,*
*Əzrayıl vədəsiz ömrünə qıydı,*
*İbrahim, ölümün dəli haraydı,*
*Qəhərdən Buludlu xan da ağladı.*

* * *

Həyatda insanın aciz olduğu məqamlar var... Belə məqamlarda insanın əlindən heç nə gəlmir. İnsanın heç nəyə gücü çatmır. Yadımdadır ki, dostum İbrahimin qəfildən ölümü dostları, qohumları, tanışları – hamını aciz bir vəziyyətə salmışdı: 14 mart

2014-cü il dəfn mərasimi, yas yeri İbrahimin özünün yaşadığı evdə deyil, atası evində – Suraxanıda təşkil olunmuşdu. Dəfn mərasiminə İbrahimin iki balaca övladını – oğullarını da gətirmişdilər: Alını və Nizamini. Uşaqlar məni görüb üstümə qaçdılar:

-Buludxan əmi, nə olub?!

Çaşıb qaldım. Bir anlıq özümü itirdim. Bilmədim ki, nə deyim:

-Sizi kim gətirib bura?

Uşaqlar bir ağızdan:

-Dayımız İlqar.

Onlar nə olduğunu, nə baş verdiyini başa düşmürdülər. Mən isə onlara nə baş verdiyini, nə olduğunu deyə bilmirdim. Deməyə çox aciz idim. Heç demədim də. Dostumuz, şərqşünas alim Məsiağa Məhəmmədi üzümə baxırdı və mənim nə çəkdiyimi yaxşı başa düşürdü. Dostumuz Mahir isə kənara çəkilmişdi. Özünü elə aparırdı ki, guya aciz deyil. Amma belə deyildi. Acizdən də aciz idi. O, bizdən ayrıldı və İbrahimlə vidalaşmaq üçün içəri daxil oldu, beş-altı dəqiqədən sonra çölə çıxdı:

-Buludxan, mən İbrahimlə vidalaşdım, görüşdüm.

Heç bilmirdim ki, nə edim. Çaşıb qalmışdım. Hər şey mənə yuxu kimi gəlirdi. Birdən elə bil yuxudan ayıldım:

-Mən görüşə bilmərəm, mən vidalaşa bilmərəm. O, diridir, canlıdır, ölməyibdir. Sən nə danışırsan?!

Qəfildən elə hönkürdüm ki, Məsiağa məni qucaqlayıb ağlamaq məcburiyyətində qaldı. Mən onda çox aciz idim. Acizliyin nə olduğunu dərk edirdim. Acizlik bizim hər birimiz üçün sınaqdır. Anamı itirəndə də, atamı itirəndə də aciz idim. Belə aciz olduğum məqamlar olub...

Özünü guya aciz aparmayan Mahir sonda aciz olduğunu təsdiq etdi. Belə ki, dəfndən sonra məzarı qucaqlayıb hönkür-



hönkür ağlayırdı. Biz onu qəbiristanlıqdan birtəhər çıxardıq, zorla çıxardıq. Acizlik onu da yükləmişdi. Dünyada aciz olmayan insan yoxdur. Biz kiməsə ruh, can verə bilərik?! Yox! Əsla! Bu Allahın işidir. Deməli, acizik. Bu acizlikdir ki, biz İbrahimə də ruh, can verə bilmədik.

Həyatda nə qazanmışamsa, alın tərimlə, zəhmətimlə, bir də istedadımın gücünə qazanmışam. Xeyirxahlarım da olub... Bədxahlarım da olub... Xeyirxahlarıma minnətdaram. Heç kəsin xeyirxahlığını unutmamışam və unutmaram da. Əgər hansısa bir xeyirxahımın xeyirxahlığının əvəzini qaytara bilməmişəmsə, bu məndən asılı olmayan, gücümdə olmayan bir

iş olubdur. Ancaq bütün xeyirxahlarıma etdikləri xeyirxahlığa görə həmişə özümü borclu saymışam və belə də olacaqdır. İnsan olan hər bir kəs borclu olduqlarını unutmamalıdır. Ancaq bununla belə, bədxahlarım da sağ olsunlar. Onlar olmasaydı, xeyirxahların qədir-qiyməti azalardı. Nə isə...

Mən dostu da elə-belə qazanmamışam. Min cür sınaqlardan keçirmişəm. Açığı deyim ki, yoxlamışam, imtahana çəkmişəm, bəzən də ərk etmişəm. Necə ki, mən İbrahimi bu cür qazanmışdım. Qazandıqlarımın hər biri zəhmət hesabına olduğu üçün onun qədirini bilirəm. Dostum İbrahimin də qədirini bilirdim. Axı onu sınaqlardan keçirmişdim, axı onu qazanmışdım. Ona görə də onu itirmək mənə çox ağırdır. Onun itkisi ilə bağlı keçirdiklərimi sözlə ifadə etmək də çətindir. Kiməsə bağlanıramsa, dost kimi qəbul edirəmsə, ondan ayrılmaq, onu itirmək mənə ağır başa gəlir. Sədaqətim və sadiqliyim imkan vermir ki, belə hadisələri adi qəbul edəm. Axı qazandığım o qədər çox da deyil ki, itirəndə adi qəbul edəm. İbrahim qazandıqlarım içərisində ən qiymətlisi və dəyərlisi idi. Bunu heç nə ilə müqayisə etmək olmaz.

Dostluğun vacib şərtləri var. İnam, etibar, sədaqət və s. Məncə, dostluğun birinci şərti etibardır. Bu etibarı İbrahimdən həmişə görmüşdüm. Yeganə adam idi ki, mən onunla hər şeyi bölüşürdüm. O, bu etibarı qazanmışdı. Saatlarla oturub bölüşərdik. Bir-birimizi səbirlə dinləyər, bir-birimizə səbirlə qulaq asardıq. Adətən işin çoxluğundan əksər vaxt gecə – saat 8-dən, 9-dan sonra görüşərdik. Bəzən isə bazar və bayram günləri bir-birimizi axtarırdıq. Demək olar ki, hər gün görüşürdük. Bunu mənəvi tələbata çevirmişdik. Bizim hər gün bir-birimizlə görüşməyimiz gündəlik işlərimizdən biri idi. Bir yerdə saysız-hesabsız söhbətlərimiz, taleyüklü məsələlərin həlli ilə bağlı qarşılıqlı anlaşmamız indi xatirəyə çevrilibdir. Mən nə qədər

varamsa, o xatirələri zaman-zaman vərəqlərə köçürəcəyəm. Dost sədaqətinin, dost etibarının nə olduğunu anladacağam. Bir dəfə gəldən-getdən danışdıq, eyni zamanda mənim bir kitabımın üz qabığını işlədik. Yeri gəlmişkən, İbrahimin kitabın içini və üz qabığını hazırlamaqda zövqü, istedadı əvəzsiz idi. Nə isə... Başımız o qədər işə qarışdı ki, bir də gördük ki, gecə saat 12-dir. Birdən mənim yadıma düşdü ki, atam üçün baş-ayaq almalıyam. O vaxt atamın ayağı sınmışdı, həkim xaş yeməsini məsləhət bilmişdi. Mən xaşı axşamdan hazırladıb səhər tezdən atama aparmalıydım. Onda 4-cü mikrorayonda olurdum. Xaşı isə hazırladıb hal-hazırda yaşadığım atamın evinə gətirməliydim. Bunu İbrahimə dedim. Onun maşınına oturub şəhəri ələk-vələk elədik. Hər yer bağlı idi. Baş-ayaq tapa bilmədik. Qanım çox qaraldı. Gecə saat 12-ni çoxdan keçmişdi. İbrahim məni maşını ilə gətirib 4-cü mikrorayonda olduğum evimizin qabağında saldı. Evə qalxdım. Evdəkilər niyə gec gəldiyimi bilirdilər. Bilirdilər ki, işdən sonra çap etdirəcəyim kitabların əyər-əskiyini qaydasına salıram. Ancaq əliboş gəlməyimin səbəbini soruşdular. Hadisəni onlara olduğu kimi danışdım. Birdən əl telefonuma zəng gəldi. Gördüm ki, İbrahimdir. Mənə dedi ki, aşağı düş, baş-ayaq gətirmişəm. Gecə vaxtı – hər yerin bağlı olduğuna baxmayaraq, o, bunu necə tapdı, hardan tapdı, bilmədim. Heç soruşmağa vaxtım da olmadı. Ancaq bildim ki, o, bunu nəyin bahasına olursa-olsun etdi. Ona görə etdi ki, təki mən qayğılı olmayım. Eşitsəydi ki, dişim ağrayıb, başım ağrayıb ona deməmişəm, məndən inciyərdi. Niyə mənə deməmisən, ay professor, - deyərdi. Mənim üçün əlindən nə gəlirdisə, onu da edərdi. Təki mənim problemim, qayğım olmasın.

Əziz dost, əziz ruh qardaşım, əziz mənəvi qardaşım, bütün məqamlarda dopdolu qardaşım, həyatı və insanları sevən,

məhz səmimi və təbii sevən qardaşım, sənin yerin boşdur! Bu boşluğu hər an, hər dəqiqə, hər saat, hər gün hiss edirəm. Əl telefonuma əl atıram. Sənə zəng vurub görüşmək istəyirəm. Ancaq... Ancaq yadıma düşür ki, sən Allahın dərgahındasan. Ehtiyat edirəm. Dəhşətli dərəcədə ehtiyat edirəm. Ehtiyat edirəm telefonumun yaddaşında olan nömrənə zəng vurmağı. Bilirsənmi, mənə nə qədər ağır gələr ki, o biri başdan telefonumda bu sözlər səslənsin: telefon söndürülüb, ya da ki əhatə dairəsindən kənardadır, yaxud da telefonun nömrəsi müəyyən olunmayıb, ya da ki cavab verilməyə və sair, və ilaxır. Sənin nömrələrin mənim telefonumun yaddaşında əbədi qalacaqdır. Ancaq zəng etməyə cəsarət etməyəcəyəm. Ona görə ki, eşidəcəyim söz məni sarsıda bilər. Səndə həyat eşqi o qədər güclü idi ki, elə bilirəm ki, harasa qonaq getmisən, qayıdıb gələcəksən. Bəzən isə düşünürəm ki, xarici ölkələrin hansınasa ezamiyyətə getmisən, tezliklə qayıdacaqsan. Axı sən son vaxtlar Londona, Kiyevə, Tbilisə, Ankaraya, Karsa və digər yerlərə gedərdin, biz sənin yolunu gözləyərdik. Bu ümid və inamla yenə də səni gözləyirik.

**Gələrsən**

*Gözləyirəm, gözüm üstə yerin var,*
*Günəş doğub qızaranda, qayıt gəl.*
*Qış ötüşüb yetişməmiş ilk bahar*
*Boz ay gülüb bozaranda, qayıt gəl.*

*Qışın çəni qar gətirir – bilirəm,*
*Yazın çəni bar gətirir – bilirəm,*
*Nar ağacı nar gətirir – bilirəm,*
*Lalə çıxıb qızaranda, qayıt gəl.*

*Çox istədin, çox bağlandın, sən mənə*
*Görünmədin bir an gəldi gün mənə,*
*Necə getdin eləcə də dön yenə,*
*Nə qədər var ürək canda, qayıt gəl.*

*Sənsiz mən tək dərd görməyib kölə də,*
*Arzu, ümid deyən qalıb tələdə.*
*Sən yandırıb döndərirsən külə də,*
*Çaylar daşıb, coşan anda, qayıt gəl.*

*Ruhun hər an mənimlədir – bir yerdə*
*Vallah, billah heç kəs dözməz bu dərdə*
*Nədir axı aramızda bu pərdə?!*
*Geciksən də, son gümanda, qayıt gəl.*

*İmkan yoxsa son ünvanda gələrsən*
*Namərd çoxdur, axı mərdsən, qayıt gəl*
*Yandırırsan, öldürürsən, qayıt gəl*
*Bil ki, mənə ağır dərdsən, qayıt gəl.*

*Dağ başını duman alıb, çən alıb*
*Buludxanın heyva kimi saralıb*
*Kimlər gəlib, kimlər gedib, kim qalıb?!*
*Həsrətimə inananda, qayıt gəl.*



**Qənirə Paşayeva**
*bacın, millət vəkili*

# SƏN GEDƏNDƏ GÖRÜŞMƏDİN... MƏN GƏLƏRƏM GÖRÜŞƏRİK...

İbrahim Nizamioğlu!..

Gülərüzlülüyü, ciddiyyəti ilə harmoniya içində – "təkcan" olan bir yeni nəsil aydını, bir intellektual və bir dost-qardaşdı o..! Məni onunla işgüzar, yaradıcı mühit tanış etmişdi və biz bu mühitdə bir-birimizi yaxından tanıdıqca, ona sayğım gün-bəgün artdı. İbrahim işinin peşəkarı idi. İbrahim eşqli, ruhlu adam idi. Bilirsiz, peşəkarlıqla, sözün ən yaxşı anlamında həvəskarlığı – daha dəqiq desək, işinə həvəsli, eşqli yanaşmanı yanaşı sürdürmək heç də hər adama nəsib olmur.

İbrahim çox işləyirdi – ona görə yox ki, işini yaxşı planlaşdıra bilmirdi – ona görə ki, işini də, öz ailəsini də çox sevirdi... Və mən onun vəfatı xəbərini eşidərkən düşündüm ki, rəhmətlik təhtəlşüurla ömrünün qısalığını duyurmuşcasına çox çalışırmış, sanki... – Gələcəyə işləyirmiş hər "bugün"ünü... İstəyirmiş, ondan sonra ailəsi korluq çəkməsin!..

İbrahim mənimlə, demək olar, həmyaşıd idi – fəaliyyət, yaxud maraq sahəmiz də aşağı-yuxarı yaxın sahələrdi: jurnalistlik, elmi araşdırma, bir sözlə, yazı-pozu... vətəndaş cəmiy-

yəti quruculuğu, ictimai fəallıq və s. Ancaq onu mənə ən doğma olan yönü YAXŞI İNSAN olması idi!.. Yuxarıda da vurğuladığım kimi, o öz sözünü gizlətmədən, öz səmimiyyəti və açıqsözlülüyü ilə hər cür sayğını, məhəbbəti haqq edirdi. Ona sayğı bəsləməmək, ona məhəbbətlə yanaşmamaq, sadəcə olaraq, mümkün deyildi... İbrahim millətinə dərindən bağlı, dövlətimizi canı qədər sevən, sevinci ilə sevinən, kədəri, acısı, ağrısı ilə ağrıyan dəyərli bir ziyalı idi. Ermənistanda qalan tarixi torpaqlarımız, oradakı tarixi, dini, mədəni abidələrimizin, qəbristanlıqlarımızın dağıdılması, Qarabağ ağrı-acısı, köçkünlərimizin bitməyən yurd həsrəti onu hər gün deyil, hər saat, hər dəqiqə düşündürərdi. Çox söhbətlər etmişdik bu barədə onunla. Torpaqlarımızın azad olunacağı günü və xəbəri səbirsizliklə gözləyənlərdən biri idi və bu istiqamətdə əlindən gələn hər şeyi etməyə hazır bir ziyalı idi.

Dediyimiz kimi, onu adətən gərgin işləyən görmüşdüm... Bununla belə ailəsi ilə yaxından tanış olduqca, bir həqiqət üzə çıxdı: o, ailəsinin qayğılarına, istək və arzularına da sanki "vaxtı genişləndirərək" vaxt içində vaxt ayırırmış, vaxt kimi vaxt ayırırmış...

* * *

*İbrahim!*

*Dəyərli soydaşım!*

*Yerin görünür! – Elə bilirsən, bu hər haqq dünyasında olana nəsib olan aqibətdir?..*

*Aqibətin xeyirdir, qardaş!*

*Qardaş, ruhun şad olsun – qardaş ruhun..!*

*Burda vidalaşmadan getdin, neynək, orda salama gələrsən...*

*Görüşəcəyik!*

*Mənə hər zaman bacı deyə müraciət edərdin. Bu kiçik yazını da elə bir bacı kimi yazdım. Nur içində yat, əziz qardaşımız.*



**Nəcəf Nəcəfov,**
*"Azərbaycan məktəbi" jurnalının baş redaktoru, AYB və AJB-nin üzvü, əməkdar müəllim, dosent*

# ÖMÜR VƏFA ETSƏYDİ

İbrahim müəllim ömrünün ən qaynar vaxtında həyatını dəyişdi. Onun bitib – tükənməyən arzuları ürəyində qaldı. O, yaxşı oğul, yaxşı qardaş, sədaqətli dost, gözəl ailə başçısı kimi tanınırdı. Xarizmatik xarakterinə görə, gənc yaşlarından ağıllı, müdrik insanlarla əhatə olunmuşdu. Bəli, bəxti onda gətirmişdi ki, taleyinə yaxşı dostlar düşmüşdü. O, bütün məsələlərdə prof. Teymur Əhmədovla, prof. Buludxan Xəlilovla və digər dünyagörmüş dostları ilə məsləhətləşərdi.

İbrahim qısa ömründə özünəməxsus həyat tərzi yaşamışdır. O böyüyüb, boya-başa çatdığı ailəsinə, onun hər bir üzvünə həmişə diqqətli olmuşdur. Yaxın adamları çətinliklərlə üzləşəndə ən ağır yükü üzərinə məhz İbrahim götürərdi.

Çox maraqlı keçmişi olan doğma Ağbaba torpağı onun üçün unudulmaz yurd yeri idi. Ağbabanın axar-baxar tabloları, Arpagölü, Arpaçayı onun beynində yeniyetməlik illərinin xatirələri kimi yaşayırdı. Bu təbiət gözəllikləri onun daima müşahidə etdiyi peyzajlar idi. Qış günlərində Ağbaba aşıqlarını dinləmək

də onun qəlbində coşqun həyat həvəsi oyatmışdı. Mənfur qonşuların üzündən o yerlərdən ayrılandan sonra da bu canlı xatirələr onu rahat buraxmırdı. Türkiyə və Borçalı ilə sərhəddə yerləşən Ağbaba igid oğulları ilə də yadda qalmışdır. Ağbabanın hazırda elm, təhsil sahəsində çalışan ziyalıları da az deyildir. Ömür vəfa etsəydi bu barədə onun yazıları da olacaqdı. O, jurnalist qələmini bu yolda da sınamaq istəyirdi. Onun ilk yazıları da bu daxili narahatlıqların nəticəsi idi.

İbrahim sadə və təvazökar insan, öz şərəfli peşəsi və həyat yolu ilə yaşıdlarına nümunə olan ziyalı idi. O həmişə özünü yaşlı adamlar kimi aparırdı. Bu da ondan irəli gəlirdi ki, o, adət-ənənələrə hörmət edən bir ailə tərbiyəsi almışdı.

Mən İbrahimə həmişə gələcəyi olan bir gənc kimi baxırdım. O, məndən 40 yaş cavan idi. Ona görə də mən onun atası Nizamini, qaynatası Yusif müəllimi, yaxın qohum dünya şöhrətli həkim-cərrah Kamran Musayevi daha yaxşı tanıyırdım. Yusif müəllimlə nə az, nə çox 50 il dostluq etmişəm. Ən yadda qalan günlərim Yusif müəllimlə bağlıdır. Onunla Şamaxıda tanış olub, bir məktəbdə işləmişəm. Bu dostluğumuz onun son gününə qədər davam etmişdir. Yusif müəllim Bakıda 36 nömrəli məktəbdə direktor işləyəndə mənim dörd övladım onun məktəbində oxumuşdu. Uşaqlar öz müəllimlərinə çox böyük hörmətlə yanaşırdılar. O bizə gələndə toy-bayram olurdu. O şagirdlərini, şagirdləri də onu tərifləyirdi. O mənim sirdaşım olmuşdur. Bu münasibət qarşılıqlı idi. Yadımdadır, bir dəfə sevinə-sevinə mənə zəng elədi ki məni təbrik elə, qızım olubdur. Mən soruşdum ki, adını nə qoymaq istəyirsiniz. O cavab verdi ki, adını sən qoyacaqsan. Mən gözləmədən cavab verdim: Elnarə! O zaman mənim balaca qızım Elnarənin 10 yaşı vardı. İndi o, pedaqogika üzrə fəlsəfə doktorudur. Yusif müəllim də ona riyaziyyatdan dərs demişdi. Ona dedim ki, qoy hərəmizin

bir Elnarəsi olsun. Xatirimdə bir şey qalmışdı: Xalq yazıçısı Süleyman Rəhimov bir dəfə dedi ki, oğlumun adını Aqil qoydum. Bununla da üç dost – yazıçının üç dost Aqili oldu. O fikir mənim də beynimdə qalmışdı və  məndə belə bir işə maraq oyatmışdı. Yusif müəllim yeganə qızının adını Elnarə qoydu. Tale elə gətirdi ki,  Yusif müəllimin yeganə qızı  Elnarə İbrahimlə ailə qurdu. Toyunda iştirak etdim. Onların gülüzlü balaları oldu. Biz ailəlikcə tez-tez Elnarədən xəbər bilirdik. Qismətə bax ki, Elnarə bizim rayondan olan ailəyə gəlin düşdü. Çox gözəl dolanırdılar. İbrahim onu Səməd Vurğun demişkən "quş kimi yemləyirdi". İbrahim çox ailəcanlı idi. Düşdüyü mühit gənc yaşında belə onu yetkin bir adama çevirmişdi.

Sözümü M.Rahimin bir bənd şeiri ilə qurtarmaq istəyirəm:

*Ömür dedikləri coşqun çay kimi,*
*Kükrəyib, köpürüb hər zaman gedir,*
*Ona bel bağlama o qədər də sən,*
*Bəzən açılmamış gül, bağban gedir.*

Heyf, İbrahimdən!



**Məhərrəm Hüseynov** *(dostu),*
*filologiya elmləri doktoru, professor*

# İnsanlıq etalonu, ləyaqət mücəssəməsi, saflıq zirvəsi

Bir müdrik kəlamda deyilir ki, yaxşı və pis adamların dünyaya gəlişi ilə gedişində fərqli cəhətlər var. Onların dünyaya gəlişi eynidir, gediş tamam fərqlidir. Yaxşı adamlar dünyaya gəlir, lakin dünyadan getmirlər. Çünki belə adamlara məhəbbət bəsləyən yaxınlar, dost-tanışlar, qohumlar, ümumiyyətlə, gərəkli və ləyaqətli insanlar onları öz ürəklərində tutub saxlayırlar, dünyadan getməyə qoymurlar. Özünün misilsiz məziyyətləri ilə hamının heyrətini qazanmış İbrahim yaxşıların yaxşısı kimi məhz belə bir əbədiyaşarlıq qazanmış şəxsiyyətlərdən idi.

Keçmiş çox zaman şirin olsa da, İbrahim kimi əvəzedilməz bir dost barədə keçmiş zamanda danışmaqdan ağır şey yoxdur. Ancaq nə etməli? Unudulmaz İbrahimin mənalı ömrü keçmişin olsa da, parlaq xatirəsi indinindir, sabahındır.

İbrahimin timsalında görünür ki, əbədi ayrılığın, fiziki yoxluğun doğurduğu iztirab, ağrı, acı onun insan qəlbində yarat-

dığı təəssüratların dərəcəsindən asılıdır. O da qətiləşir ki, İbrahim kimi insanlar bu dünyaya öz layiqli yerinə gəlirlər. Həyatdan gedəndə isə onların yeri görünür, böyük boşluq hiss olunur. İbrahim bu vəfasız dünyadan getməklə elə dünyanın özü boyda bir boşluq yaratdı. Heç bir qüvvə, heç bir möcüzə bu boşluğu doldurmaq iqtidarında deyil. Bununla belə, insanın ürəyi İbrahimin bu dünya ilə vidalaşmasından yaranan boşluğu xatirələrlə doldurmağa səy göstərir. Ancaq o da var ki, heç də hər bir insan İbrahim kimi özündən sonra zəngin xatirə yarada bilmir.

İbrahimin bütün mənəvi və fiziki gözəllikləri sanki Allah vergisi idi. O, öz büllur təmizliyini İbrahim adının simvoluna çevirə bilən nadir şəxsiyyətlərdən idi. Bunun bünövrəsində təbii amillər dayanırdı, çünki İbrahim çox əla tərbiyə görmüş, təmiz ailədən həyat dərsi almış insan idi. Onun mərdanəliyi təmiz vicdana, elmi araşdırmaları – zəngin biliyə və məntiqə, hazırcavablığı geniş, əhatəli mütaliəyə, mehribanlığı büllur əxlaqa söykənirdi. Onun öz orijinal xarakteri vardı. Bütün davranışları, həyat və düşüncə tərzi təpədən-dırnağa qədər özünəməxsus idi: ən adi vərdişlərdən, etalonlaşmış reaksiyalarından proqressiv reaksiyalarına qədər. Onun insanlıq titulu hər şeydən uca idi, vicdanın səsini kağızlara köçürən jurnalist qələmi olduqca qüdrətli idi.

İbrahimin vətəndaşlıq ləyaqəti, insan orijinallığı dönə-dönə təsdiq edirdi ki, onun şəxsiyyəti təkrarolunmaz xislətdir. Ləyaqət, kolorit, mənəvi ucalıq onun fitrətində idi. Həyatının bütün məqamlarında İbrahim həmişə özü oldu, özünü kimsəyə oxşatmadı. Kimsənin də ona bənzəməsi mümkünsüz idi. Ən önəmlisi odur ki, onun hərəkət və əməlləri formal poza deyildi. Bütün hərəkət və əməllər İbrahimin öz qəlbinin, ruhunun əks-sədası idi. Bu bənzərsizliyin özülündə onun bizə

məlum olan bütün insanlıq sifətləri cəmləşmişdi. İbrahim ifrat dərəcədə sadə və təvazökar idi. Özü də onun təvazökarlığı bir çoxlarında gördüyümüz iddialı, təmənnalı və saxta təvazökarlıq deyildi. Fitri təvazökarlıq idi. Ailə tərbiyəsindən, el-oba mədəniyyətindən gələn ənənəvi, genetik təvazökarlıq idi. Biz müdrik və təmkinli İbrahimin fitri, natural xilqətini – sadəliyini və təvazökarlığını görüb tanımışdıq, onu belə qəbul etmişdik, ona belə öyrəşmişdik.

İbrahim bəşəri dəyərlərin bütün parametrlərinə görə hər ləyaqətin fövqündə dayanırdı. İşıqlı təfəkkürü onu yüksəldirdi. Onun bütün hərəkətləri ölçülü-biçili idi, lakin standart, qəlibləşmiş deyildi. Bu ölçü-biçinin meyarı onun daxilindəki fitri mənbələrdən gəlirdi. Təmiz əxlaq onun bütün bioloji, psixoloji və fizioloji hərəkətlərini nizama salırdı. Onun mədəni reaksiyalarına, həyəcanlarına və düşüncələrinə həm təkan verən, həm də bu təkanları nizama, sistemə salan mexanizm qəlbinin, ruhunun içərisində idi. İbrahimin təfəkkür tərzində, düşüncələrində, həyəcanlarında, hiss və duyğularında olan saflıq və potensial tükənməz enerji idi.

Hər şeyə tez reaksiya verən, inpulsiv təbiətə malik olan İbrahimin mərdanəliyi, kişi xarakterinə, əzəmət və orijinallığı onunla təmasda, ünsiyyətdə olanların qəlbinə dərindən nüfuz edir, ona rəğbət və ehtiram qazandırırdı.

İbrahimin sinəsində olduqca təmiz bir ürək çırpınırdı. Bu təmizlik bütün hallarda sadəliklə müşaiyət olunurdu. Həqiqi sadəlik onun əbədi stixiyası idi. Sadəlik onun ziyalı xarakterinin bütövlüyünü təsdiq edən faktor idi. Sadəlik, mənəvi zənginlik onun varlığına elə sirayət etmişdi ki, o, həmişə maddi cəhətdən də tox görünürdü. Bu məziyyəti o, ideal səviyyəyə qaldıra bilmişdi. Gözütox, məğrur, etibarlı, sözündə bütöv, dediyinin ağası olan bir insan kimi bizim xəyalımızda olduqca

möhtəşəm obrazı ilə böyükdür. Bu böyüklük İbrahimin təbiətində idi. O, dərin düşüncələrində, ağlında, zəkasında, müdrikliyində, sadəliyində, təbiiliyində görünən böyük insan idi. O, yaşlı adamlar, ağsaqqallar qarşısında özünün təbii mədəniyyətini büruzə verir, özünü kiçik kimi apararkən də, özünü kiçiltməklə də böyük görünürdü. O, saxta şöhrət düşkünü deyildi, lakin hər cür şöhrət tacına ləyaqəti çatırdı. Dissertasiyasını bitirmişdi, alimlik iddiasından uzaq idi, bununla belə güclü alimlik istedadı var idi.

Bəli, biz belə bir insanı itirdik: son dərəcə təvazökar insan, əvəzedilməz vətəndaş, etibarlı dost, sınanmış sirdaş, istiqanlı qohum, gözəl ata, təmkinli və qayğıkeş ailə başçısı... İbrahimi.

İbrahim bizdən uzaqlaşdıqca, bizə daha çox yaxınlaşır. Bu yaxınlığı onun şəxsiyyətində gördüyümüz bütövlük, mərdanəlik, mənəvi saflıq stimullaşdırır. Bir həqiqət də vardır ki, İbrahim kimi yaxşı insanlar bizə uzaqdan da uca görünürlər, gözəl görünürlər və biz bu görüntülərdən də xüsusi müdriklik, həyat dərsi əxz edirik. İbrahimin timsalında onu da dərk etmək məcburiyyətindəyik ki, xatirəyə dönmək həyatda yaşamaqdan daha çətindir.

Əbədi və şirin xatirəyə dönmək bir insan olaraq İbrahim kimi öz varlığını təsdiq etmək hünərinə sahib olmaq gərəkdir. Çünki İbrahim öz ağlının nuru, zəngin daxili məzmunu, xeyirxah əməlləri, saf niyyətləri, insanlara ziyansız xisləti ilə xatirələrdə təcəlla tapır. Mən əminəm ki, İbrahim haqqındakı xatirələrdə eyni sözlər tez-tez təkrarlanacaq. Bunun real əsası vardır. Əsas ondan ibarətdir ki, İbrahim haqqında yaxşı danışanlar istəsələr də, istəməsələr də, mütləq həmrəydirlər. Söz və fikir təkrarları İbrahimin ürəklərə hopmuş məhəbbətindən, şüurlarda yaranan təsəvvür eyniliyindən qaynaqlanır.

Ömrünün sonuna qədər dəyişməz qalmaq tək-tək insana

nəsib olur. İbrahimi dərindən duyanlarda belə bir davamlı inam yaranmaya bilmir ki, İbrahim öz təbiətindəki sabitqədəmliyi, formalaşmış xarakterini öz fitrəti ilə, tərbiyəsi, iradəsi və nümunəvi əxlaqı ilə "mühafizə" edirdi. İbrahim fitri istedad idi, son dərəcə dəqiq adam idi. Lakin dəqiqlik onda pedantizm – xırdaçılıq psixologiyası yarada bilməmişdi. Çünki o, özünə, özünün naturasına sadiq qalmağı bacarırdı. Bunu bütün əyaniliyi ilə öz şəxsiyyətində əyaniləşdirən, əks etdirən İbrahimin ecazkar təbiətini görüb heyrətlənməmək mümkün deyildi.

İbrahim son dərəcə səbirli insan idi. Təmkinini heç zaman pozmadı. Giley-güzar onun təbiətinə tamamilə yad idi. Ən gözəl bəşəri sifətlər onun zəngin naturasında birləşib güclü bir insan xarakteri yaratmışdı. Hər bir hərəkətindən, sözündən, əməlindən həyat eşqi yağırdı. Ondakı nikbinlik – ünsiyyətdə olduğu insanlara da sirayət edirdi. Bəlkə elə bunun üçündür ki, dost-tanışları say və sanbal baxımından üstünlük təşkil edirdi. Çünki İbrahim əsl dost idi, yüzlərlə insanların sevimlisinə çevrilməsinin sirri bunda idi. Öz əhatəsində inam və etiqad simvoluna çevrilmişdi. Onun öz sözü, öz meyarları, öz nizam-tərəzisi vardı. Hərəkətdə olan təfəkkürü həmişə ayıq və fəal idi. Ulu Tanrı ona işıq xisləti əta etmişdi. Harada olsa insanların diqqətini cəlb edirdi. (Onun bədnəzərə gəlmə ehtimalı da var). İbrahimin adi söhbətlərində, düşüncə və mühakimələrində güclü məntiq və inandırıcılıq da hamıda xoş təəssürat oyadırdı.

İbrahimlə bağlı təəssüratları sözə çevirmək olduqca müşgül məsələdir. İbrahim itkisini qəlbin, mehrin-məhəbbətin gözü ilə görmədən, bu itkinin miqyasını müəyyənləşdirmək çox çətindir.

Mən bu kiçik xatirəni yazıb qurtarana qədər İbrahimin intizarla dolu baxışları gözlərim qarşısında dayandı, onun nura qərq olmuş müqəddəs obrazı göz önündən getmədi. Bu baxış-

lar, bu doğma surət həm mənim xatirə yazmağıma mane olur, həm də mənə kömək edirdi. Yazdıqca bütün təfərrüatları ilə hiss edirəm ki, İbrahimi tanıyanların, onun dostlarının, yaxın qohum-əqrəbalarının qəlbində zəngin, tükənməz xatirələr dəftəri vardır. Bu dəftər heç zaman ağ qalmayacaqdır. Bir təskinlik yerini də unutmaq olmaz. Xatirəyə dönməyin özü də həyatı təzədən yaşamaq deməkdir. Çin filosofu Konfutsi deyirdi: "Lazımlı adam haqqında danışmamaq onu itirmək deməkdir". İbrahim hamımız üçün çox lazımlı adam idi. Xatirələrdə yaşamaq, itməmək, ünsiyyətdə olduğu insanların ürəyinin daimi sakini olmaq haqqını o, sağlığında qazanmışdı.



**Sərdar Zeynal,**
*Heç zaman yadından çıxarmağı bacarmayan, hər an küçədə qarşılaşacağına ümid bəsləyən dostu*
*şair, filologiya üzrə elmlər doktoru*

# DOSTLARIN ÖLƏNDƏ SƏN ÖLƏCƏKSƏN

Özümü anlayandan, dünyanı başa düşəndən, həmişə hisslərimin, istəyimin ağası olmağa çalışmışam. Nə çoxlu var-dövlət axtarmışam, nə şan-şöhrət ummuşam. Həmişə sözümün üstündə dayanan, vüqarı yerində olan, imkan dairəsində, kömək umanların köməkçisinə çevrilməyə çalışmışam. Bütün bunları vicdanla, təmənnasız, eyni zamanda kifayət qədər yerli-yerində, keyfiyyətlə yerinə yetirməyə çalışmışam. Yalnız bəzi məsələlərdə hissimin, duyğumun əleyhinə gedə bilməmişəm. Ən əziz sandığım, hər şeydən qiymətli bildiyim hər an üzlərini görməyə ehtiyac duyduğum dostlarımı mən axtarıb tapmamışam. Onları tale gətirib mənimlə qarşılaşdırıb, həyatımın mənasız keçməməsi üçün Allah onları mənim qarşıma çıxarıb əziz və qiymətli bir nemət kimi.

Qarşılaşdığım adamlar olub, onlardan bəzilərini keçmişdə olub, indi həyatdan köçən ehtiram bəslədiyim adamlara bənzətmişəm onun yerişini, duruşunu. Həmin itirdiyim gözəl

insan sanki yenidən gəlib qarşımda dayanıb. Sevinmişəm ki, heç olmasa itirdiyimin özünü tapmasam da, heç olmasa bir oxşarını tapmışam.

Sonradan yaxından tanış olandan sonra anlamışam ki, bu yeni tapdığım adam itirdiyim adamın zahiri oxşarıdır. Əqidəsi də, hərəkəti də, istəyi də tamamilə başqa şeydir.

Ayağımın altını qazan olub, kölgəmi qılınclayan olubdur. Belələrindən, ancaq onlara nifrət edə bilməmişəm, bütün yaramazlıqlarını, yanlışlıqlarını onu bənzətdiyim insanın böyük-



*Sağdan birinci İbrahim, ikinci Sərdar*

lüyünə bağışlamışam.

Ancaq eləsi ilə də qarşılaşmışam ki, onu heç kəsə bənzətməmişəm, ümumiyyətlə, bənzərinə rast gəlməmişəm, həyatda beləsi ilə ilk dəfə qarşılaşmışam. Heç kəsə oxşamayan, heç kəsə bənzəri olmayan, yalnız özü – özünə oxşayan, özü – özünü tamamlayan İbrahim müəllim kimi. (O məndən 23 yaş balaca olsa da, mən onu heç zaman adı ilə çağırmadım, həmişə adının arxasına bir müəllim sözünü əlavə elədim).

Onunla, təqribən, on-on üç il bundan qabaq tanış olmuşdum. Bir dəfə əziz dostum professor Buludxan Xəlilov zəng vurub dedi ki, yanına bir nəfər əziz dostumu göndərirəm, əgər imkanın olsa, işlərinə kömək edərsən. O sonradan yaxşı tanıdığım Cavanşir adlı bir dostu ilə gəlmişdi. Arxasınca gəldiyi iş də elə bir çətin iş deyildi. Gəldilər, düzəldi və qayıtdılar. O gündən sonra aramızda isti münasibət yarandı. Hərdən şəhərdə Buludxan müəllimlə görüşəndə onunla da görüşürdüm. Bu adi tanışlıq möhkəm bir dostluğa çevrildi. Getdikcə aramızdakı münasibət daha da istiləşdi. Hər dəfə şəhərə getdikcə, vaxt olduqca "Xalq qəzeti"ndəki kabinetində görüşməyə başladıq. Görüşlərimizdə onun səmimi, təmənnasız, həm də həddindən artıq qayğıkeş bir insan olduğuna əmin oldum.

Bir neçə kitabımın araya - ərsəyə gəlməsində yaxından köməklik göstərdi. Kitabların dizaynının, formatının necə olacağının ağırlığı hamısı onun üzərinə düşdü.

İşinin ağır olduğunu görüb ona əziyyət verməməyə çalışırdım. Lakin nə qədər gizlətsəm də, işlərimlə onun özü maraqlanırdı.

Görüşcək soruşurdu:

- Yaradıcılıq nə yerdədir? Hələ kitab nəşr etdirmirsən? Nə vaxt çap etdirməyə imkanın olacaq? Mən isə ondan heç nəyi gizlətməzdim. Nə vaxt ki, kitabı nəşr etdirməyə hazırlaşırdım,

deyirdi ki, gətir bir baxım. Oxuyub baxırdı və qısa bir vaxt ərzində gözəl tərtibatlı, maraqlı bir kitab formatı hazırlayırdı. Nə qədər təkid etsəm də, adını dizayner, redaktor və s. kimi həmin kitaba yazmağa icazə verməzdi. Ancaq sonralar hazırlanan kitabların bir neçəsində özüm ondan xəbərsiz adını qeyd elədim.

Mən gördüyüm işlərin hamısını əvvəlcədən planlaşdırıb, yaşıma uyğun olub-olmadığına xüsusi diqqət yetirirəm. Mənə ən böyük uğur gətirən iş olsa belə, yaşıma uyğun gəlməyəndə həmişə ondan vaz keçməyə çalışıram. 1999-cu ildə namizədlik dissertasiyası müdafiə edəndən sonra yenidən mövzu götürüb, doktorluq dissertasiyasını hazırladım. 50 yaşım tamam olanda artıq dissertasiyanı yazıb bitirmişdim. Lakin, onu müdafiə etməkdən vaz keçdim. Birinci yaşımın keçməsi, ikinci tərəfdən isə namizədlik dissertasiyasının təsdiqini gözləyəndə keçirdiyim stres. Yenidən həmin stresi yaşamağa imkan vermədim. Bir dəfə söhbət zamanı təsadüfən elmi yaradıcılığımla bağlı soruşanda doktorluq işimin nə yerdə olduğu ilə maraqlandı. Onda isə mənim 60 yaşımın tamam olmasına 4-5 il qalırdı. Mən işimin hazır olduğunu, bu yaşda isə müdafiəyə ehtiyacım olmadığını söylədim. O isə qəti surətdə bu işi mənim yerinə yetirib sona çatdırmağımı tələb etdi. Hələ bir zarafata salıb söylədi ki, elmlər doktoru kimi ölməyin özü də bir şərəfdir.

Müdafiə ilə bağlı hər bir müdafiəçidən həmin mövzu ilə bağlı bir neçə məqalənin xarici elmi jurnallarda dərc olunma tələbi qarşıya çıxandan sonra, lazım olan jurnalların ünvanının tapılmasında və həmin ünvana məqalə göndərilməsində qabağa düşüb öz köməyini əsirgəmədi.

Yayın isti günlərində bir neçə dəfə onu dostum, həm də İbrahimin ən yaxın dostu prof. Buludxan Xəlilovla birlikdə Bilgəhdə dəniz kənarında dincəlməyə dəvət etdim. Onlardan yalnız bircəsində bir yerdə şəkil çəkdirmək bizə nəsib oldu. Başqa adam



*Sağdan birinci Buludxan, ikinci Sərdar*

olmadığına görə üçümüz bir yerdə şəkil çəkdirə bilmədik. Əvvəl İbrahim müəllim mənlə Buludxan müəllimi, sonra isə Buludxan müəllim mənlə İbrahimin bir yerdə şəklini çəkdi.

Həmişə görüşəndə dənizin sahilindəki qayğısız anlardan söhbət düşəndə elə hey deyərdi ki, sizdə yediyim o soyutmanın dadı doğrudan da tamam başqa idi. Bu il yayda, Allah

qoysa, yenə bir oturub bir an da olsa qayğılardan uzaqlaşarıq.

Min təəssüflər olsun ki, o qarşıdan gələn həmin yayı gözləmədi, digər dostları kimi mənim də 2014-cü il baharımı və yayımı, qarlı – boranlı qışa çevirdi.

Sumqayıt Dövlət Universitetinə prorektor getməmişdən bir neçə ay əvvəl iş otağında oturub söhbətləşərkən, birdən-birə söhbəti öz işlərindən saldı və dedi ki, daha bu cür işlərdən doymuşam. Nə qədər eyni işin arxasınca gedib-gəlmək olar? İşimi başqa formada qurmaq, yaratmaq istəyirəm. Burda nə qədər ürəkdən çalışsam da, insanların diqqətini daha çox cəlb edəcək elə bir fövqəladə iş qurub-yaratmaq olmur. İstəyirəm mənim əhatə edəcəyim sahə daha geniş olsun, uğurlarımdan daha çox insanlar bəhrələnsin.

Qısa bir müddətdən sonra onun Sumqayıt Dövlət universitetinə – son iş yerinə dəyişildiyi xəbərini eşitdim. Bir tərəfdən onun yüksək vəzifəyə getməsindən fəxarət hissi duysam da, bir tərəfdən kədərləndim, çünki onu daha tez-tez görməyim, qeyri-mümkün idi. Tez-tez danışsaq da ancaq tez-tez görüşmək çətin olurdu.

Hər gün işdən qayıdandan sonra kompyuterin arxasına keçib gündəlik xəbərlərlə tanış olmaq mənim yeni vərdişimdir. (Çünki əvvəllər bütün xəbərləri qəzet alıb, qəzetlərdən oxuyurdum)

Martın 15-də axşama yaxın yenə kompyuteri açıb xəbərlərlə tanış olmaq üçün düyməni basanda bir anda onun gülərüz surəti qarşımda dayandı. Yanındakı yazının sərlövhəsindəki ölüm sözünü oxuyanda elə başa düşdüm ki, İbrahim müəllim Sumqayıt universitetində dünyasını dəyişmiş hansısa bir nəfər haqqında yazı verib.

Diqqətlə oxuyanda, dünya başıma fırlandı, yazılan yazıdan heç nə oxuya bilmədim. O dəqiqə Buludxan müəllimə zəng

vurdum. Bu ağır, mənim üçün çox ağır olan qara xəbərin doğruluğunu o da təsdiq etdi. Sanki yer – göy başıma hərləndi.

Bir onu deyə bilərəm ki, bu cür sarsıntını ilk dəfə atam öləndə keçirmişdim. Düzdür onun yaşının 60-dan bir az yuxarı, övladlarının hamısının ağlıkəsən, bir işin sahibi olduğundan təskinlik tapmışdım. Lakin İbrahimin yoxluğu tamam başqa ağrı, tamam başqa faciyədi mənim üçün. Bir neçə ay bu ağrı-acı məni çox üzdü, həyatımı zəhərə döndərdi. Həyatın belə boş, mənasız, vəfasız olduğu hər şeyi gözümdən saldı. Bu genişlikdə şəhərdə özümə yer tapa bilmədim. Sanki yaşamağa dözümüm azaldı. Qorxudan onun iş yerinə yaxın olan küçələrdən uzaq qaçdım. Təskinlik verəcək elə bir şey bu acı ağrıdan məni azad edə bilmədi. 3-4 ay keçəndən sonra, onunla bir yerdə işləyən gənc bir qızla rastlaşdım. (İbrahim müəllimin yanına gedəndə o həmişə yazılar gətirib göstərər və məsləhət alandan sonra öz iş otağına qayıdardı). İbrahim müəllimin hesabına, onunla da aramızda xatir-hörmətimiz vardı. Hal-əhval tutandan sonra, söhbətimizin ilk sözü İbrahim müəllim oldu. Çəkdiyim ağrı-acını, iztirabı, həsrəti dilə gətirdim. Məndən 40 yaş kiçik olan bu qız mənə nə desə yaxşıdır?!!!

- Sərdar müəllim, İbrahim müəllimin itkisi hamımız üçün ağırdır. Ancaq təskinlik tapmaqdan başqa ayrı əlacımız yoxdur. Biz elə düşünürük ki, o yenə xaricə oxumağa gedib və nə vaxtsa qayıdacaq. Ona görə siz də elə hesab edin ki, o xaricə oxumağa gedib və nə vaxtsa o qayıdacaq. Siz onun qayıdacağı günü gözləyin və bu ümidlə də yaşayın. Onda ağrı-acınız az da olsa azalmalıdır.

Düzdür, o gənc qızın mənə verdiyi məsləhətdən sonra ağrım – acım az da olsa azaldı. İndi də bu fikirdəyəm ki, o hansısa uzaq bir xarici ölkəyə sonsuz bir məzuniyyətə gedib və nə vaxtsa qayıdacaq.

Ancaq mənim həyatda aldanmağım və aldadılmağım çox çətin, bəlkə də qeyri – mümkündür. Çünki, heç özüm də özümü aldada bilmirəm...

Ondan sonra onunla bağlı heç nə yazmadım. Heç yaza da bilmədim, çünki yolunu intizarla gözlədiyin insan haqqında nəsə yazmaq qeyri-mümkündür. Lakin onunla bağlı o ağrılı–acılı düşüncələrim əbədi bir qəm parçasına çevrilib misra–misra qəlbimdə fəğana döndü.

## Getmisən

*37 yaşında dünyadan nakam getmiş əziz dostum*
*İbrahim Ömərovun əziz xatirəsinə*

*Bu dəli həsrətə qaya da dözməz,*
*Bəs niyə sən bizi qoyub getmisən?!*
*Yerini kim verər, kim edər əvəz,*
*De bizə bəs necə qıyıb getmisən?!*

*Gözucu baxmadın dünya varına,*
*Namərdin əhdinə, etibarına,*
*Təşnəydin işindən kimsə barına*
*De hansı istəyə uyub getmisən?!*

*Getmisən qəlbimdə sevinc də qəmdi,*
*Nə başa çatdırdın, hamısı kəmdi,*
*Yad elə çevirib doğmaca kəndi,*
*Qəlbimi min yerdən oyub getmisən.*

*Kədərin ərköyün, səfərin uzaq,*
*Adından ələnir qəm qucaq – qucaq,*
*Kimsəsiz qalıbdır bir ev, bir ocaq,*
*Dünyanın heçliyin duyub getmisən.*

*Əməlin zülmətdə kor gözə işıq,*
*İradın fərəhdi, sevinc qarışıq,*
*Bu sonsuz həsrətlə necə barışıb,*
*Min qəlbi min yerdən oyub getmisən.*

*Hər qəlbi oxşayan kəsdən yar olmaz,*
*"Can" deyən hər kəsdə etibar olmaz,*
*Salamı əl kəsər, şüşəni almaz,*
*Sən bizi tiyana yayıb getmisən.*

*Bir dəli kədər var bu təmənnada,*
*İçimdə od yanır – düşürsən yada,*
*Müqəddəs dostluğu tez verdin bada,*
*Sel idin, dost arxın yuyub getmisən.*

*Ömərov soyadın, İbrahim adın,*
*Getmisən, qırılıb qolum, qanadım,*
*Qədrini bilməkçün yaxının, yadın,*
*Cənnəti əbədi sayıb getmisən.*

*Tumurcuq ömrümüz kül oldu qında,*
*O acı xəbərin yetişən anda,*
*Qəlbinə dağ çəkdin Buludxanın da,*
*Onun da qəddini əyib getmisən.*

*Hər addım qəhərsən Sərdar Zeynala,*
*Xəyalın sevincdir, həsrətin bəla,*
*Taleyim "Ya qismət", nə ola, ola,*
*Onun da sevincin geyib getmisən.*

9. VI. 2014.

## Silinməz dağ çəkdin

*Dostum, dünyadan nakam getmiş*
*İbrahim Ömərovun əziz xatirəsinə*

*Qönçə tək vədəsiz qurudun qında,*
*Vədəsiz içirtdin zəhəri bizə.*
*Gözümüz qaynayıb gülən zamanda,*
*Silinməz dağ çəkdin ürəyimizə.*

*Yuxuydun, qoxuydun, nə tez yox oldun?*
*Haraya baxıram yerin görünür.*
*Bir acı qəhər tək qəlbimə doldun,*
*Gedirəm qarşımca duman sürünür.*

*Sözünə ağaydın, sözünə bəndə*
*Heç zaman olmadın sözündən qaçan,*
*Ürəyin təmizdi, saf idin həm də,*
*Köməyə çatardın çağırsan haçan.*

*Tarixə verəcək illəri, illər*
*Nəvən də olacaq, gəlinlərin də.*
*Qəhərdən əsəcək gül tutan əllər,*
*Göz yaşı olassan hər vaxt o dəmdə.*

*Yağı da çəkməsin mən çəkənləri,*
*Yanmamış yerim yox daha canımda,*
*Gözünü yumduğun gecədən bəri,*
*Belini qırmısan Buludxanın da.*

*Bir acı həsrətdir o ötən çağım,*
*Beynimdə qaynayır gülüşün, səsin,*
*Bizlərə çəkdiyin o həsrət dağın,*
*Allahım pisə də heç göstərməsin.*

*Yanmamış yerim yox daha canımda,*
*Qəlbimdə yaşayıb öləni tək sən,*
*Nə qədər varıqsa, sən varsan onda,*
*Dostların öləndə sən öləcəksən.*

16. XII. 2014.



**Mehman Rzayev,**
*dostu*

# LƏYAQƏTLİ ÖMRÜNLƏ NÜMUNƏSƏN

Əziz dostum, sənin haqqında xatirə yazmaq mənim üçün çox ağırdır... Adətən xatirəni yaşa dolaraq arzularını qismən yerinə yetirmiş insanlar haqqında yazarlar. Həm də mənim içimdəkiləri sözlərə köçürmək bacarığım zəifdir. Alın yazısından yan keçmək mümkün deyil. Sən ailənə, qohumlarına, dostlarına həmişəlik əlvida dedin.

Vaxtsız dünyanı dəyişdin, amma gördüyün işlər, fəaliyyətin, bir insan ömrünə bəs edəcək qədər xeyirxah, qayğıkeş və qədirbilən olmuşdur.

O, gözünü indi düşmən tapdağı altında olan Qərbi Azərbaycanda açmışdı. Yaxşı yadımdadır – tez-tez internetdə öz kəndini, yaşadıqları evlərini, el-obanın yatdığı qəbiristanlığı seyr edir, bir neçə il əvvəl dünyadan köçmüş atasından, qohumlarından, uşaqlığından olan xatirələrini bizimlə bölüşürdü.

Son zamanlar çox qayğılı görünürdü. Səbəbini soruşanda yaxın dostlarından birinin çətin vəziyyətdə olduğunu və ona

kömək etmək istədiyini bildirirdi. Hətta bu məsələdə onun özünün də ziyan çəkdiyini sonralar bildim, lakin o özü haqqında düşünməyərək dostunun işlərinin yaxşı olmasına kömək etmək üçün çox səy göstərirdi.

O, ömrü boyu düz-çörəyi itirmədi,dost-tanışa biganə olmadı, dönük çıxmadı...

Yaşlı adamları daha tez başa düşər və onların qayğısına qalmağı sevərdi. Həddən artıq istiqanlı, şirindilli insan idi.

Uşaqlarının və ailəsinin xöşbəxt olması üçün gecə-gündüz çalışırdı. Doğma, dadlı-duzlu ləhcəsi bütün koloriti ilə həyatına hopmuşdu. Həmişə emosional, çılğın, şən, gümrah görünərdi, sözlərində saxtalıq, ifratçılıq olmazdı. Ona görə də dostları onun xətirini çox istəyirdilər. Sənin haqqında keçmiş zamanda yazmaq mümkün deyil: var idin və indi də aramızdasan – fikirlərimizdə, xəyalımızda, düşüncələrimizdə. Hər an gözümüzün önündəsən, hər an bizimləsən.

Ən əsası yadigar saxladığın övladlarına xoşbəxtlik arzulayıram. Ləyaqətli ömrünlə onların fəxr edəcəkləri qədər ən böyük nümunəsən...



**Arif Kazımov,**
*müəllim - jurnalist*

## ÜRƏKLƏRDƏ YERİN VAR...

Onu belə görmüşəm; şən , gülərüz zarafatçıl... bir də əlində kitab və ya qəzet harasa, tələsən....

Nə az, nə çox düz 20 il bundan əvvəl İbrahim müəllimlə tanış olmuşam. Tanışlığımızın ilk ünvanı "Respublika" qəzetinin redaksiyası oldu. Yenicə formalaşmış redaksiyada İbrahim müəllim kompüter mərkəzində yığıcı, mən isə informasiya şöbəsində müxbir vəzifəsində çalışırdım. Hərdənbir fasilə vaxtı redaksiyanın giriş qapısı yaxınlığındakı foyedə görüşərdik. Sanki redaksiya əməkdaşlarının çoxu İbrahim müəllimin foyeyə gəlişinə bənd idi. Dərhal onun başına toplaşardıq. Həmişə olduğu kimi öncə, baməzə söhbətləri, incə yumorları ilə hamımızı güldürərədi, sonra da ciddi bir görkəmdə bu sözləri gülərək deyərdi: "Yaxşı yığışmayın, gedin yazınızla məşğul olun! Kompüterdə yazılası bir şey yoxdur..."

İbrahim müəllimlə bağlı xatirələrim çoxdur... Amma unuda bilmədiyim, ən ümdəsindən biri isə budur.

Günlərin birində İbrahim müəllimlə "Xalq qəzeti"nin yerləşdiyi binanın qarşısında rastlaşdıq. Hal-əhvalımı soruşduqdan sonra əlimdəki kitabı alıb vərəqlədi. Sonra kitabımın üz qabığını kimin hazırladığını və hansı nəşriyyatda çap etdirdiyimi soruşdu. Nəşriyyatın adını eşidən kimi başını yellədi: "Başqa kitabın olsa, mənə gətirərsən, birgə üz qabığını fikirləşərik".

"Durğu işarələrinin işlədilməsi qaydaları" vəsaitim hazır olanda, sözün düzü, kitabın məzmununa uyğun üz qabığını fikirləşməkdə çətinlik çəkirdim. Vəsaitin tərtibi ilə əlaqədar təklif olunan "dizaynlar" ın heç biri xoşuma gəlmirdi. Birdən İbrahim müəllimin sözləri yadıma düşdü. Lakin işinin həmişə çox olduğunu bildiyimə görə, ona əziyyət vermək istəmirdim. Gizli deyildi, bütövlükdə "Xalq qəzeti" nin yükü onun çiyinləri üstündə idi. Hələ üstəlik dil kursuna getməklə yanaşı, digər işlərlə də məşğul olurdu. Xeyli vaxtdan sonra əlaqə saxlayıb redaksiyaya getdim. İki saata yaxın olanlardan-keçənlərdən danışdıq. Vaxtın necə tez gəlib keçdiyindən xəbərimiz olmadı.

Çünki onunla oturub söhbət edən hər bir kəs çox məmnun qalırdı.

İbrahim müəllim hərtərəfli biliyə malik olmaqla yanaşı, istənilən fikri maraqlı detallarla əsaslandıra bilirdi...

Az müddətdə kitabın üz qabığını hazırlayıb, mənə təqdim etdi. Nüsxəni görəndə gözlərimə inanmadım. İndiyədək belə gözəl tərtibatla hazırlanmış kitab üzü görməmişdim. Qara, qırmızı, sarı rənglərin harmoniyasından ibarət olan üz qabığını görən hər kəs ilk növbədə onun kim tərəfindən hazırlanması ilə maraqlanırdı. Yeri gəlmişkən qeyd edim ki, İbrahim müəllim onu da mənə dönə -dönə tapşırmışdı ki,əgər kimsə kitab üzü ilə maraqlansa , onun adını çəkməyim. Bu da

səbəbsiz deyildi. Çünki onun əl qabiliyyəti, bu sahədə səriştəsi çoxlarına bələd idi. Ona müraciət edən şəxsləri nə vaxtsa, naümid yola salmaq onun  xarakterinə  uyğun deyildi. Ona görə istəmirdi ki, kimsə ona müraciət etsin. Və bu müraciətin müqabilində o, yaxşılıq etməsin.

Nəhayət, vəsaiti çap etdirmək üçün "Nurlan" (Elm və təhsil) nəşriyyatına  müraciət etdim. Nəşriyyatın direktoru, prof. N.Məmmədli əlimdəki kitabın üz qabığını görən kimi soruşdu. "Kitabın üz qabığını kim hazırlayıb."  Mənim cavab verməkdə tərəddüt etdiyimi görüb əlavə etdi: "Bu yalnız İbrahimin işi ola bilər..."  Sonra İbrahim müəllimin vaxtilə nəşriyyat üçün hazırladığı kitablari mənə göstərdi; mübaliğəsiz  demək olardı ki, hamsı  bir - birindən  fərqli və  gözəl idi.

İbrahim müəllimin hazırladığı vəsaitin bir nüsxəsi hal –hazırda kafedramızın  (Azərbaycan dili və onun tədrisi metodikası) kitab rəfində saxlanılır. Rəfdə müxtəlif illərə dair müxtəlif  çeşidli kitablar da vardır. Amma İbrahim müəllimin şəxsən mənim üçün  xüsusi zövqlə hazırladığı kitab üzü indiyədək çoxlarının diqqətini cəlb etməkdədir. Hər dəfə o kitabı görəndə İbrahim müəllim yadıma düşür, ruhu qarşısında baş əyir və ona rəhmət oxuyuram .

Ruhun şad olsun , unudulmaz və əvəzsiz insan!.



**Əsgər Zeynalov,**
*filologiya elmləri doktoru, professor*

# O, GƏNC İKƏN MÜDRİK İDİ

...İbrahim mənim həyatımda gördüyüm ən qeyrətli, cəsarətli, istiqanlı, çevik, ağıllı, qabiliyyətli gənclərdən biri idi. Mənim keçmiş tələbəm, İbrahimin isə müəllimi Elnarə onun ölüm xəbərini mənə verəndə bərk sarsıldım. Mənə hədsiz dərəcədə pis təsir etdi.

Mən İbrahimi təxminən 15 ildən bir az artıq idi tanıyırdım. Təxminən 1998-ci il idi. "İrəvan ziyalıları" kitabını nəşrə hazırlayırdım. Professor Mirəli Seyidovla bərabər elmi rəhbərim olmuş "Respublika" qəzetinin baş redaktoru, professor Teymur Əhmədov qəzetin əməkdaşları İbrahim və Nicata tapşırmışdı ki, kitabın kompüter məsələlərində mənə köməklik etsinlər. Redaktor müavini Hümbət Musayevin göstərişi ilə onların hər ikisi mənə vicdanla köməklik etdilər. Hərdən onlarla birlikdə nəşriyyatın bufetində əyləşib çay süfrəsi arxasında şirin söhbətlər edərdik. Sonralar Nicatı görə bilmədim, ancaq İbrahimlə aramızdakı səmimiyyət son anlara qədər – axıradək davam etdi. Bunun əsas səbəbi İbrahimin daha çox istiqanlı ol-

masından, böyüyün – kiçiyin yerini bilməsindən irəli gəlirdi.

İbrahim müəyyən müddətdən sonra iş yerini dəyişmişdi. – O, "Xalq" qəzetində işləyirdi.

Bir dəfə bizim qonşu İrəvan yaxınlığındakı Zəngibasar rayonunun Zəngilər kəndindən olan bir dostum mənə dedi ki, oğlum ADU-nun Litoqrafiya ixtisası üzrə təhsil alır, onu bir özəl qəzetin redaksiyasına düzəltmək istəyirəm. Dedim ki, "Xalq" qəzetində bir dostumuz var, ona deyim, imkan daxilində ona kömək edəcək. Soruşdu ki, nə vaxt gedək? Dedim, elə indi, bu saat. İbrahim onu yanında işə götürdü, təkmilləşdirdi, indi də həmin oğlan "Xalq" qəzetində işləyir.

Bir dəfə İbrahim mənə dedi ki, Əsgər müəllim, ingilis dilini öyrənmək istəyirəm, mənə yaxşı bir müəllim lazımdır. Cavab verdim ki, problem deyil. Mən üç il yarım ali məktəbdə dərs dediyim, həm savadına, həm də səmimiyyətinə inandığım, hazırda ADU-da birlikdə işlədiyimiz Elnarə Məmmədova ilə İbrahimi tanış etdim. Elnarə həmişə məni görəndə İbrahimin mədəniyyətindən, qabiliyyətindən, əsl kişilərə məxsus xarakterindən ağızdolusu danışırdı. İbrahim də onun savadından, səmimiliyindən ağızdolusu danışırdı.

İbrahim "Xalq" qəzetində işlədiyi müddətdə mənim bu qəzetdə yazılarım gedib, bəzən də mənim kitablarım, özüm haqqında resenziyalar, məqalələr dərc olunubdur. Hər dəfə "Xalq" qəzetinə, İbrahimin yanına gedəndə, onun işlədiyi otağa daxil olanda tez ayağa qalxıb, irəli gəlib, öpüşüb-görüşər, yer göstərər, çay təşkil edib, şirin söhbətə başlardı. Həmişə söhbətimiz xeyli çəkərdi. Özünəməxsus qəhqəhəli, şən gülüşü vardı. Geniş dünyagörüşə malik idi.

İbrahimlə bağlı görüşlər, xəbərlər çox olsa da, birini xüsusi vurğulamaq istərdim. Təxminən bir il əvvəl kiçik qızım Səkinə ADRA-nın dissertantlığına qəbul olunmaq istəyirdi. Mötəbər

mətbuat orqanlarında təcili iki məqalə nəşr olunmalıydı. Evdə məndən soruşulanda ki, nəşr etdirə biləcəksənmi? Gözümün qabağına o saat iki şəxs gəldi: “Respublika” qəzetinin baş redaktoru T. Əhmədov və “Xalq” qəzetinin şöbə müdiri İbrahim. Onu da yaxşı başa düşürdüm ki, “Xalq” qəzetinin baş redaktoru Həsən Həsənov da İbrahimin xatirini çox istəyir. Adətən İbrahimə hədsiz dərəcədə inandığı üçün, onun bir sözünü iki etməzdi. Onu da etiraf etmək lazımdır ki, baş redaktorla münasibətimiz yaxşı olsa da, hər halda İbrahimlə olan münasibət qədər yaxın deyildi. Nə isə, İrəvan teatrının səhnəqrafiyası ilə bağlı iki yazı hazır oldu və dekabr ayının 15-i, 2013-cü il tarixdə həm “Respublika”, həm də “Xalq” qəzetində məqalələr dərc olundu. Bəli, bir gündə iki məqalə. Burada T. Əhmədovla, İbrahimlə yanaşı H. Həsənov və H. Musayevin xeyirxahlığını da unutmaq olmaz.

İbrahim elə insan idi ki, həmişə ona üz tutmaq olardı. O, çox gənc yaşından böyük nüfuz qazanmışdı. Mərasimdə bunun mən bir daha şahidi oldum. Bu günlərdə böyük hörmət bəslədiyim professor Buludxan Xəlilov mənə zəng edib, İbrahim haqqında kitab hazırlandığını və ora məqalə yazmalı olduğumu bildirdikdə, artıq fikirləşmək lazım deyildi.

“Ölüm sevinməsin qoy” – bu sözlərə İbrahim daha çox şamil edilənlərdəndir. İbrahim onu tanıyanların qəlbində, söhbətlərində həmişə yaşayacaqdır. O, unudulan deyil. Ancaq nə qədər insanların hələ onun xeyirxahlığına ehtiyacı olacaqdı. Eramızdan əvvəl V əsrdə yaşamış yunan filosofu Menandrın bir sözü az da olsa bizə təsəlli verir: “Allah tərəfindən sevilənlər cavan ölürlər”. Görünür, İbrahim Allahın sevdiyi bəndələrindən biri idi. Bu sözlər bizə bir az təsəlli verir.



**Nazim Mustafa,**
*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının şöbə müdiri*

# Tez parlayıb, tez sönən ulduza bənzəyir İbrahim

Əziz, doğma bir insan haqqında xatirə yazmağın necə çətin və ağır bir iş olduğunu ilk dəfə uşaqlıq dostum, sonralar "Xalq qəzeti"ndə bir yerdə işlədiyim baş redaktorun birinci müavini Qəzənfər Qəribovun vəfatından sonra hiss etmişdim. Qəzənfər müalicəsi hələ ki tapılmayan xərçəng xəstəliyinə tutulmuşdu və gözlərimiz önündə günü-gündən əriyirdi. Heç bir il çəkmədi ki, əbədiyyətə qovuşdu. Qəzənfər nurlu çöhrəsi, məzəli-duzlu söhbətləri, xeyirxah əməlləri ilə xatirələrdə qaldı.

İndi dərk edirəm ki, Qəzənfərlə İbrahim arasında dostluğa sədaqətdə, xasiyyətdə, alın yazısında, qismətdə bir bənzərlik var imiş. Bilmirəm, onlar bir-birlərini tanıyırdılar, yoxsa, yox. Tanısaydılar, yaş fərqinə baxmadan mütləq möhkəm dost olardılar.

Mən İbrahimi tanımazdan öncə onun əsil-nəcabətini tanımışam. Atam onların kəndində müəllim işləmiş, orada özünə çoxlu dost qazanmışdı. Sonradan bu dostluq qohumluqla nə-

ticələnmişdi. Mən 1980-88-ci illərdə Amasiyada komsomol və partiya işində işləyəndə tez-tez kəndlərdə olurdum. İclasların qrafikləri tutulanda xahiş edirdim ki, məni ya Ellərkəndə, ya da Göllü kəndinə göndərsinlər. Ellərkənd İbrahimin və mənim ən sadiq dostumuz Buludxan müəllimin doğulub boya-başa çatdığı kənd idi. Buludxan müəllimin atası Əziz Xəlilov bizim ailəmizin sınanmış dostu idi.

Doğulduğum Güllübulaqla Göllü kəndi arasında azı 30-35 km məsafə olmasına baxmayaraq, Göllüdə demək olar ki, hamı məni tanıyırdı. İbrahimin atasının əmisi oğlu, dostum Mövlə müəllim əvvəlcə məktəbdə pioner baş dəstə rəhbəri, sonra isə sovxozun komsomol və partiya təşkilatının katibi işləmişdi. Daha sonralar Mövlə müəllimlə rayon partiya komitəsində birgə işlədik. Hər dəfə Göllüyə gedib, işlərimi görüb qurtarandan sonra ya təzə qohumumuz Hacı dayı, ya Mövlə müəllimin atası Osman dayı, ya İbrahimin babası Həmid dayı məni evlərinə dəvət edərdilər. Onda İbrahim hələ uşaq idi. İbrahimin atası Nizami ilə də salam-kəlamımız var idi. O, yaxşı mühasib kimi rayonda ad çıxarmışdı. Nizaminin şairliyindən Bakıya köçəndən sonra xəbər tutdum. 2011-ci ildə Qarsda olarkən Nizaminin şeirlər kitabını mənə əslən Göllüdən olan, Qaçaq Usubun qardaşı nəvəsi, işadamı Özər göstərdi. Bakıya qayıtdıqdan sonra İbrahimə dedim, atasının kitablarından bir neçəsini göndərdi Prezident Kitabxanasının fonduna daxil etdik.

İbrahimlə ilk tanışlığım onun "Respublika" qəzetinin kompüter mərkəzində işlədiyi vaxta təsadüf edir. Həmin qəzetin redaktor müavini, yaxın dostum Hümbət Musayev məni bacısının oğlu İbrahimlə tanış etmişdi. "Respublika"da işləyən Qafar Çaxmaqlı da İbrahimin çox yaxşı oğlan olduğunu mənə daha əvvəl söyləmişdi. Ağbaba və Şörəyelin tarixi ilə bağlı yazılarımı İbrahimə verib kompüterdə yığdırardım. Lakin nə

qədər təkid etsəm də o, məndən pul götürməzdi. Sonra İbrahim "Respublika"dan getdi.

Sonralar hər ikimizin dostu Mirzə Ənsərlidən öyrənmişdim ki, İbrahim "Elm" qəzetinin redaksiyasında işləyir. Lakin onunla əlaqəm kəsilmişdi. 2002-ci ildə mənim əvvəllər tanıdığım və səmimi münasibətimiz olan Həsən Həsənov "Xalq qəzeti"nə baş redaktor təyin edildi. Bir müddət sonra Həsən müəllim mənə dedi ki, kompüter mərkəzinin rəhbəri Elçin başqa yerdə işlədiyi üçün redaksiyadan getmək istəyir. Həsən müəllim qəzet dizaynını işini yaxşı bilən bir mütəxəssis axtardığını söylədi. Mən Həsən müəllimə bu işin öhdəsindən gələ biləcək İbrahim adında bir oğlanı tanıdığımı söylədim. Həsən müəllim dedi ki, təcili İbrahimi tapıb onun yanına göndərim. Mirzə Ənsərliyə zəng etdim ki, İbrahimi tapsın və Həsən müəllimin onu görmək istədiyini söyləsin. Bir azdan İbrahim gəldi. Həsən müəllim elə həmin gün İbrahimi kompüter mərkəzinə müdir təyin etdi. İbrahim tez bir zamanda redaksiyanın sevimlisinə çevrildi. Özündən böyüklərə xüsusi hörmətlə yanaşması onun özünə hörmət qazandırırdı. İbrahimlə eyni mərtəbədə otururduq. Hər səhər işə gələndə əvvəlcə redaksiyanın ağsaqqalı Telman Heydərova baş çəkər, sonra üzbəüzdəki bizim otağa daxil olub mənimlə hal-əhval tutar, bundan sonra öz otağının qapısını açardı.

İbrahimin "Professor" deyə müraciət etdiyi Buludxan müəllim və Məsiağa müəllim tez-tez redaksiyaya gələrdilər. Aralarında xeyli yaş fərqi olmasına baxmayaraq məzəli, duzlu söhbət edərdilər. İbrahimin qəhqəhəsi bütün dəhlizə yayılardı.

Bir hadisəni heç vaxt unutmuram. "Xalq qəzeti"nin analitik şöbəsində işləyirdim. Bəzən olurdu ki, iş gününün sonuna yaxın Prezident Administrasiyasından tapşırıq verilirdi ki, filan mövzuda təcili bir yazı dərc edilməlidir. Baş redaktorun

tapşırığı ilə işdən sonra qalıb həmin sifarişli yazılardan birini nömrəyə hazırlayırdım. Axşam saat 8 radələrində yazını tamamlayıb kompüter otağına verdim ki, yığsınlar. Növbətçi qızlardan biri qəsdən mənim yazımı yığmır, gün ərzində yığılmış yazıların "pravkası" ilə oynayırdı. Dəfələrlə baş çəksəm də vecinə almırdı. Artıq saat 10-u ötmüşdü. İbrahim otağımızın işığının yandığını görüb, mənim nə üçün evə getmədiyimi soruşdu. Dedim ki, yazımın yığılmağını gözləyirəm ki, oxuyub təhvil verim. İbrahim məsələnin nə yerdə olduğunu başa düşdü. Bir neçə dəqiqədən sonra artıq yazı hazır idi. Ertəsi gün səhər işə gələn kimi, axşam mənim yazımı yığmaq istəməyən kompüterçi xanım içəri daxil olub məndən üzr istədi. Sonra bildim ki, İbrahim həmin xanımdan tələb edibmiş ki, səhər tezdən işə başlamazdan öncə Nazim müəllimdən üzr istəməlisən.

2004-cü ilin sonunadək "Xalq qəzeti"ndə işlədim. İbrahimdən kiçik qardaş hörməti gördüm. Xeyirdən, şərdən qalmazdı, təşkilatçılıq edərdi. Dostlarla yeyib-içmək üçün fürsət axtarırdı. Məclislərdə "Xalq qəzeti"nə mənim məsləhətimlə gəldiyini söyləyərdi. Mənə deyərdi: "Nə zaman kitab çap etdirmək istəsən elektron variantını ver mənə, sonrası ilə işin olmasın, gəl kitablarını apar." Özü dizayn vermək və çap xərcini özü çəkmək istəyirdi. İbrahim ölkədə gözəl kitab dizayneri kimi nəşriyyatlar arasında nüfuz qazanmışdı. Qocaman jurnalist Telman Heydərovun nəfis şəkildə çap olunan kitabı İbrahimin sayəsində ərsəyə gəlmişdi.

Gözəl arzuları var idi. Pedaqoji Universitetin fizika fakültəsini bitirmişdi. Memarlıq və İnşaat Universitetinin və Qafqaz Universitetinin magistraturasını bitirdikdən sonra Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspiranturasına daxil olmuşdu. Ona Beynəlxalq Valyuta Fondunun Türkiyə ilə əlaqələrinə dair qəliz bir dissertasiya mövzusu vermişdilər.

Material toplamaqda çətinlik çəkirdi. Deyirdi ki, gərək gedib Türkiyədə araşdırma aparasan. İbrahimi Prezident Kitabxanasının elektron resurslar şöbəsinin müdiri Təpəkəndli (Amasiya rayonu) Zakir İsmayılovla tanış etmişdim. İbrahimin dissertasiya mövzusu ilə bağlı Prezident Kitabxanasının fondlarına daxil olan materialları Zakir müəllim toplayıb İbrahimə göndərirdi.



*İbrahim dostlarının arasında: sağ tərəfdə ayaq üstdə (İbrahim) , sağ tərəfdə oturan yerdə, ikinci Nazim Mustafa*

Həsən müəllim İbrahimin zəhmətsevərliyini və sədaqətini qiymətləndirib redaktor müavini təyin etmişdi. Aralarında böyük yaş fərqi olmasına baxmayaraq İbrahimlə Həsən müəllim qardaşdan da yaxın dost idilər. Son vaxtlar onları həmişə bir yerdə görərdim. Həsən müəllimin qızlarının toyunda İbrahim bütün təşkilatçılıq işlərinin məsuliyyətini öz üzərinə götürmüşdü. Həsən müəllimin kiçik qızının toyunda İbrahim bütün dostlarını bir masanın ətrafına yığmışdı. İbrahimin ən

yaxın dostlarından biri, ilk dəfə gördüyüm Mahir Qabiloğlu həmin gecə şux zarafatları ilə "avtonom" məclisi ələ almışdı. Həmin toyda Mahirlə İbrahimin ayaq üstə duraraq birgə çəkdirdiyimiz şəkil məncə, İbrahimin ən yaxın dostlarının əksəriyyətinin cəm olduğu yeganə şəkildir.

Son vaxtlar az-az rastlaşırdıq. İbrahimin Sumqayıt Dövlət Universitetinə prorektor təyin edilməsindən xəbərim yox idi. Martın 14-də fasilə zamanı idi. Mirzə Ənsərlidən zəng gəldi. Məndən soruşdu ki, İbrahimdən xəbərin varmı. Dedim ki, yox, xeyli vaxtdır zəngləşmirik. Dedi ki, deyirlər İbrahim xəstələnib, hələ bir redaksiyaya zəng elə. İttifaq Mirzəbəyliyə zəng eləyib soruşdum ki, haradasan. Dedi ki, Əmircanda, İbrahim rəhmətə gedib, onun dəfnindəyik...

Allah-Təala ona digər həmyaşıdlarından artıq pay - qabiliyyət, bacarıq, istedad vermişdi. Sanki Tanrı ona verdiyi artıq payın əvəzini onun ömründən kəsməklə əvəzini çıxdı. İbrahimin taleyi tez parlayıb, tez sönən ulduzların taleyinə bənzəyir.

Hər dəfə İbrahimin şəkillərinə baxanda onda necə böyük həyat eşqinin olduğunu görürsən. Onun yoxluğuna inana bilmirsən. İbrahimin xüsusi intonasiya ilə tez-tez işlətdiyi "qadan alım" sözləri daim qulaqlarımda səslənir. İbrahim maddi dünyanı cismən tərk etsə də, o, ürəklərdə, qəlblərdə yaşayır.

Allah-Təala İbrahimin elədikləri yaxşılıqların əvəzini onun gül balalarının qismətinə yazsın!



**Nüşabə Hüseynli,**
*BSU-nin Jurnalistika fakültəsinin baş müəllimi, SPACE televiziyasının redaktoru, filologiya üzrə fəlsəfə doktoru*

## SEVDİYIN ADAM ÖLÜRSƏ...

Ölümü ilk dəfə görəndə 19-20 yaşım olardı. Çox sevdiyim 9 aylıq bir körpə öldü qucağımda. Mən nə qorxdum, nə ağlımı itirdim. Dərk etmədiyin bir şeyin nəyindən qorxasan ki?! Sadəcə, ölümün körpəni xəbisliklə əlimdən alıb qaçması mənə yer elədi. Bununla indiyədək də barışa bilmirəm. Acizlik qədər nifrət etdiyim ikinci bir hiss yoxdur. İndinin özündə də həmin anlar yadıma düşəndə özümdən iyrənirəm.

İkinci dəfə ölüm müharibə qiyafəsini geyinib gəldi və çevrəmdəki sevdiyim adamlardan birini götürüb apardı. Ölümün əslində nə olduğunu bax onda başa düşməyə başladım.

Ölüm hər şeydən əvvəl AYRILIQ deməkdir. Dilin-dodağın beş yerdən çartlasa belə, bircə anlığa da olsa, uzaqdan-uzağa görmək üçün bütün müqəddəslərə and verib gecə-gündüz dua eləsən belə, onu BİR DƏ HEÇ VAXT, eşidirsən, HEÇ VAXT GÖRMƏYƏCƏKSƏN deməkdir... ZƏHMƏT ÇƏK, CANIN ÇIXSIN, ONSUZ YAŞA deməkdir.

Sən də özünü onun yanında görmək – yəni ölmək arzusu

ilə günləri bir-birinin dalınca yola salırsan. Zəhmət çəkməyinə çəkirsən, amma canın çıxmır – beləcə yaşayırsan. Və həyatında bəzi şeylər dəyişir...

Çalışırsan heç kimə ürəkdən bağlanmayasan. Sonradan ölüm səni yandırıb-yaxmasın deyə qəlbinə heç kimi buraxmamağa çalışırsan. Beləcə, özünü təkrar müqəddəslərə minnətçi düşməkdən sığortalayırsan. Ölümün acığına sevmirsən. Sevmirsən ki, sənsiz qəbul edilmiş ayrılıq qərarına kişi kimi dözməyi bacarasan, yaşadığına görə özün özündən utanmayasan, özün öz yanında biabır olmayasan...

Və beləcə, ömrünün ən maraqlı sayılan illərini rəfiqəsiz, dostsuz, yoldaşsız, sevgisiz, amma sığortalı yaşayırsan...

Di gəl günlərin bir günü elə adamlarla rastlaşırsan ki, onları sevməmək, onlara qəlbinin qapılarını açmamaq mümkün olmur. Özünçün uydurduğun sığorta-filan, hamısı gedir işinin dalınca. Başlayırsan dirilməyə, ağ-qara həyatın bir anın içində rənglənir, ətrafında hər şey, hər şey gözəlləşir. Qarşına çıxan insanların hər biri ilə əzizinmiş kimi davranmağa başlayırsan, qısası – HƏYATA, insan kimi YAŞAMAĞA qayıdırsan.

Mən belə adamların biri ilə deyil, birdən-birə bir neçəsi ilə rastlaşdım. Sanki yaşamadığım illərin əvəzini çıxmaq üçün sevgi dolu insanların hamısı birdən yoluma çıxdı. Və şeytan məni yenə tovladı – əhdimə xilaf çıxıb yenə sevməyə başladım.

Üstündən uzun illər keçib və mən indi başa düşürəm ki, biz ona görə bir-birimizə belə bağlanmışıq ki, həmin vaxt hərənin özünə görə bir səbəbi olsa da, əslində, hamımızın bir-birimizə ehtiyacı olub, daha doğrusu, bir-birimizin sevgisinə. Sanki Allahın hamımıza birdən yazığı gəlmişdi, bizi bir-birimizi yaşatmaq üçün bir otağa yığmışdı. Bu, unudulmayacaq sevgi idi. Və nə yaxşı ki, belə idi. Sevginin qütbləri - Məsiağa müəllim,



*İbrahim dostları ilə birgə: sağdan ikinci İbrahim*

Xaqani, Vüqar, Əfqan, Jalə, Fatma, mən və İbrahim. İbrahim ən sonda qoşulmuşdu bizə.

Əla oğlan idi İbrahim... Onu sevməmək mümkün deyildi.

Mən onu nə vaxtdan sevməyə başladım, yadımda deyil. Onun isə hər şey çox gözəl yadında idi. Bir yerə yığışanda "Siz bilirsiz mən Nüşünü nə vaxtdan sevməyə başladım?" deyib mənim çoxdan unutduğum, özünün isə dəqiq xatırladığı bir əhvalatı danışardı.

İllər keçdi, hərəmiz bir tərəfə üz tutduq. Amma ayrılmadıq, görüşəndə görüşdük, danışanda danışdıq. Hər görəndə deyərdim ki, İbrahim, adamın sənin kimi dostu ola. İnciyirmiş kimi: "Dostun deyiləm ki?" deyərdi.

Bax indi hər şeyi o qədər gözəl xatırlayıram ki... əsgərlikdə olanda Xaqaninin yanına, hərbi hissəyə getməyimizi, yol boyu söhbətlərimizi, müdafiə günü gəlməsən də göndərdiyin o gözəl qızılgülləri, Məsiağa müəllim sən və mən oturub saat-

larla dərdləşməyimizi... Selcana tort almağını, hər dəfə də Selcanı soruşanda “Gəlinimə yaxşı bax. Qızı heç kimə vermirsən ha” atmacalarını, gələcəklə bağlı məzəli planlarını, məsələn, gəl uşaqlara toy eləyəndə filankəsi çağırmayaq, filan şeyi belə eləyək kimi sözlərini... çox şeyi...

Facebookdakı yazışmamıza baxıram. Ən axırıncısı ötən il, mayın 14-də sənin ad günündə olub.

“Diqqətinə görə minnətdaram, əziz bacım! Amma inan ki, ad günlərini heç sevmədim. Biz sevinirik ki, doğum günümüzdür, ancaq qocaldığımızı unuduruq. Mən isə vaxtından əvvəl qocaldığım üçün ad günlərini, demək olar ki, sevmirəm. Çox sağ ol, əziz bacım. Sənin kimi dostum və bacım olduğu üçün çox xoşbəxtəm!”

Sənsə adamı xoşbəxt olmağa qoymadın, dost. Və səni itirməklə mən bir şeyi başa düşdüm - ölüm, ayrılıq hər zaman amansızdır. Onun sənə heç vaxt yazığı gəlmir. Sevdiklərini çalır, aparır və sənin sevgisiz qoyduğu sonrakı həyatına tüpürmək belə istəmir.

Tək bircə təsəllim var – bizim çəkdiyimiz ayrılıq acısını sən bizim kimi yaşamırsan. Sənə orda xoşdursa, biz dözərik. Guya dözməyib neyləyəcəyik ki?

Amma bir xahişim də var – aradabir yuxuma gəl. Oturub dərdləşək, ordan-burdan danışaq, uşaqların toyunu müzakirə edək.

Dostumsan, sözümü yerə salma, İbrahim…



**Elnarə Məmmədova,**
*Azərbaycan Dövlət Dillər Universitetinin baş müəllimi, İbrahimin ingilis dili müəllimi*

## ELƏ QAYĞIKEŞ, MƏRHƏMƏTLİ, MEHRİBAN İDİ Kİ...

Məni İbrahimlə fransız dili müəllimim, universitetimizin professoru Əsgər Zeynalov tanış etmişdi.

Çox sağ olun, Əsgər müəllim, sizin sayənizdə mən də bu gözəl insanı tanıdım. İbrahim haqqında keçmişdə danışmaq mənim üçün çox ağırdır, çünki belə bir güclü, istedadlı insanın yaşayıb yaradacağına şübhəm yox idi.

Mən İbrahimi yalnız dil öyrətdiyim tələbə kimi deyil, həm də bir dost kimi tanıdım, məsləhətlərinin dəyərli olduğunu da görürdüm.

İbrahimin ingilis dilinə olan sonsuz marağını görüb deyərdim ki, İbrahim, nə yaxşı ki, sənin kimi gənclər var.

Demək olar ki, hər dərsdə aldığı yeni kitabları həvəslə mənə göstərərdi və dediyi kimi də növbəti dərsə çalışardı ki, kitabı oxuyub bitirsin. Oxuduğu kitabların əksəriyyəti tarixi kitablar idi.

İbrahim səyahət etməyi çox sevərdi. Elə buna görə də müəy-

yən qədər ingilis dilini öyrənib Londona getdi.

Oradan qayıtdıqdan sonra gördüklərini, öyrəndiklərini həvəslə, maraqla bölüşürdü. Elə bil ki, dünyanı tez tərk edəcəyini hiss edirdi...

İngilis dilində də belə bir ifadə var. – “Only the good die young”. – “Yalnız yaxşılar gənc yaşında dünyasını dəyişir”.

İbrahimin vasitəsilə mən professor Buludxan Xəlilovu tanıdım. Bu iki insanın səmimi, möhkəm dostluğunu heç nə ilə sarsıtmaq olmazdı.

Buludxan müəllim haqqında danışanda İbrahim dostluqlarının həyatın enişli-yoxuşlu yollarında sınandığını deyərdi. Bu iki dosta, qardaşa baxanda mən də hər ikisi üçün sevinərdim, çünki gözəl dostluq nümunəsi idilər. İbrahim çalışardı ki, ondan asılı olan köməyi ətrafındakılara etsin, mən bunun dəfələrlə şahidi olmuşam.

Çalışardı ki, imkanı daxilində insanlara yardımçı olsun, problemin həllini görəndə sevinərdi.

Qısa bir ömür yaşamasına baxmayaraq, İbrahim kifayət qədər özünə hörmət qazandı. Elə qayğıkeş, mərhəmətli, mehriban idi ki... Xarakterindəki yumor hissi ətrafındakılara problemlərini unutdururdu.

Təbiidir ki, insanlar müxtəlifdir, lakin İbrahim kimi bir insana yenidən rast gəlməyəcəyimə əminəm. Sənin yoxluğuna inanmaq çox çətindir, əziz tələbəm!



**Ədalət Məmmədov,**
*Şamaxı Rayon Təhsil Şöbəsi Metodkabinetinin müdiri, Azərbaycan Respublikasının Qabaqcıl Təhsil işçisi, "Qızıl qələm", "Məmməd Araz" və "El ziyalısı" media mükafatları laureatı, Tədqiqatçı-filoloq, Qabilşünas*

# MƏNİM XİLASKARIM!

***Nüfuzlu "Xalq qəzeti"-nin baş redaktorunun sabiq müavini, Sumqayıt Dövlət Universitetinin prorektoru İbrahim Nizami oğlu Ömərovun əziz xatirəsinə***

Mənim İbrahim Nizami oğlu ilə ilk tanışlığım xalq şairi Qabil 2007-ci ildə rəhmətə gedən vaxtda oldu.

Artıq 40 mərasimi ərəfəsində mənim yazdığım "Qabilin sənət dünyası" kitabım işıq üzü görmüş və bundan 50 ədədini Mahirə vermişdim. Mahir də bu kitabı şair və yazıçılara, o cümlədən, o zaman "Xalq qəzeti"ndə baş redaktorun müavini işləyən İbrahimə vermişdi.

Beləliklə, bizim İbrahimlə qiyabi tanışlığımız belə başladı.

Az keçmədi ki, mən Mahirə müraciət edərək atası və bizim ailənin əzizi, böyük şair haqqında müxtəlif qəzet və dərgilərdə məqalələr verməyimi bildirəndə, o birinci olaraq "Xalq qəzeti"-ni məsləhət bildi.

Bundan sonra mən hiss-həyacanla yazdığım "Qabil - əbədiyaşar böyük şair" adlı məqaləmlə redaksiyaya getdim. Mahirlə İbrahim burda məni gözləyirdilər.

Sözsüz ki, Mahir mənim barəmdə İbrahimə ətraflı məlumat vermişdi.

Bununla yanaşı, giriş söhbətindən sonra zarafatından qalmayan Mahir İbrahimi mənə təqdim edərkən bir neçə atmaca işlədərək onunla tələbəlik illərinin dostu olduğunu, burada da redaktor müavini işlədiyini pafosla mənə çatdırdı.

Həmin gün İbrahim bizə yaxşı qonaqlıq da verdi.

Beləcə tanışlıqdan sonra get-gəllərin sayı artdı və İbrahimi daha yaxından tanımağa başladım.

Olduqca mənə qarşı diqqətli olan İbrahim müəllim hər görüşümüzdə Şamaxıdan söhbət açar, Xaqanidən, Nəsimidən, Seyid Əzimdən, Sabirdən, xüsusən Abbas Səhhətdən daha çox danışar, maarifpərvər Şamaxı ziyalılarına böyük hörməti olduğunu bildirərdi.

Bir dəfə tanınmış bəstəkar barədə material hazırlayıb ona təqdim edəndə gülümsəyərək dedi:

- Bu da yəqin ki, Şamaxılıdır:

Mən də gülümsəyərək:

- İbrahim müəllim, bu Şamaxılı yox, Şamaxılının qohumudur.

7 ilə yaxın mən İbrahimlə mütəmadi  olaraq görüşdüm. Bu illər ərzində bir dəfə də olsun o, mənə üz turşutmadı. Demədi ki, bu materialı verməkdə bir az çətinliyimiz var.

O, həqiqətən Mahirlə möhkəm dost idi. Ona görə də İbrahim çalışırdı ki, nəinki mənim məqalələrim dərc olunsun, hətta o, başqa təkliflər edir, problemlərimi  də yaxından öyrənirdi.

Təkliflərindən biri də mənim kitablarımdan birinin çıxmasına təmənnasız köməklik göstərməsi fikri idi. Bununla əlaqə-

dar mən dərin minnətdarlığımı bildirib, əlavə etdim ki, elə bu məqalələrimin dərc edilməsinə gördüyüm diqqət mənə bəsdir.

Əsas mətləbə gəlim ki, İbrahim müəllim haqqında, onun dərin düşüncəsi, hər bir kəsi öz dilində danışdıra bilmək qabiliyyəti, bir çox mənəvi dəyərləri barədə saatlarla danışa bilərəm. Baxmayaraq ki, mən şəxsən onunla üst-üstə heç bir ay günləri qədər belə görüşümün vaxtı olmasa belə.

İlahi! Bu insan nə qədər diqqətli idi. Onun bir neçə mobil telefon nömrələri var idi ki, onların hamısını mənə vermişdi. Və həmişə deyirdi:

-Ədalət müəllim! Gecə saat ikidə də istəsən mənə zəng edə bilərsən. Onunla bağlı bir neçə maraqlı epizodlar da danışa bilərdim. Lakin dilim gəlmir ki, onların nəyini və kimə danışım, axı onlar yada düşəndə İbrahimsiz heç bir mənası yoxdur. Belə ki, onunla Mahirin qızının toyundakı maraqlı söhbətlərimiz və dediyi sağlıqlar indi də yaddançıxmaz qızıl dəqiqələrimizdəndir.

Gözəl insan, əziz və doğma saydığımız insan İbrahim Nizami oğlu mənə atası haqqında kitabın üstünə aftoqrafını yazanda belə bir ifadə işlətmişdi:

- Şamaxının 1 № -li ziyalısına! Bunu oxuyan kimi dedim:

- İbrahim müəllim, çox da şişirtmə.

Vaxt elə gətirdi ki, məndə ürək ağrıları tez-tez tutmağa başladı. Hətta iş elə gətirdi ki, mən yeyib-içə bilmirdim, gecələr boğulurdum və s...

Nəhayət, "Neftçilər" klinikasında müayinə bildirdi ki, klapanın biri işləmir. Açıq əməliyyat olunmağımı qərarlaşdırdılar.

Məsələ çox ciddiləşdi və harda əməliyyat olunmağım bütün qohum-əqrəbanı bir-birinə salmışdı. Hərə bir yeri – İranı, Türkiyəni və s.-ni göstərdilər. Mən isə Bakı deyib durdum.

Ona görə də Mahirə zəng açdım. O, dərhal bildirdi ki, Mər-

kəzi Klinika hamısından yaxşıdır. Papam özü də elə orda əməliyyat olunub. Oranın baş həkimi Kamran həkimdir və İbrahimin dayısıdır.

Mən bu saat İbrahimə deyəcəm, sonra sən onunla danışarsan. Heç 5 dəqiqə keçmədi ki, İbrahim mənə zəng etdi. İlk sözü bu oldu: "Ədalət müəllim, heç nədən qorxma! Allah sənin işini avand eləsin. Mahir mənə deyən kimi Kamranla danışdım. Nə lazımsa dedim. Təzədən müayinə edəcək. Nə məsləhət bilsə elə də et. Səhər tezdən 9:00-da Mərkəzi Klinikada ol ki, əməliyyatdan qabaq səni qəbul etsin.

Uzun söhbətin qısası hər şey öz yerini aldı, əməliyyat müvəffəqiyyətlə bitdi. Bütün bunları deməkdə məqsədim budur ki, Baş həkim – Kamran həkim ilk dəfə "palata"ya gələndə, hal-əhvaldan sonra, 2 həkim və 5-6 "medsestra"nın yanında pafosla belə dedi:

– Ədalət müəllimi tanıyırsınız? Bu bizə çox vacib olan bir ziyalıdır, özü də Şamaxının 1 nömrəli ziyalısı.

Mən onda bildim ki, həmin ifadəni ilk dəfə işlədən İbrahim müəllim Kamran həkimə də bu şəkildə demişdir.

... Sonra mən onunla yenə də telefonla danışdım. İbrahim müəllim:

-A kişi! Mən sənə dedim ki, hər şey yaxşı qurtaracaq.

Bəs, özü barədə axı yaxşı qurtarmadı. Bu sonluğun da bir dəhşətli tarixçəsi var. Mən əməliyyatdan sonra 2 dəfə Türkiyədə oldum. İkinci dəfə uzunmüddətli Almaniyada oldum, həm də xalq şairi Qabil haqqında "Türk dünyasının böyük şairi adlı" kitabımı da yekunlaşdırdım.

Şamaxıya qayıdıb Mahirə zəng açdım ki, bu kitabımla bağlı nəsə edək və İbrahim də tanış olsun bu işimlə. Bunu demişdim ki, Mahir hiss-həyəcanla:

- Sən bilmirsən ki, artıq İbrahim yoxdur! Və açıqlamaları

məni sanki  qane etmədi. Axı belə bir insan, özü də sağlam, deyib-gülən bir insan.

Çox ağır olsa da, bu xatirəmlə mən nisbətən təsəlli tapır, Azərbaycanımızın Vətən təəssübkeşli böyük oğlu İbrahim Nizami oğluna Allahdan rəhmət diləyir, qəbri nurla dolsun deyirəm. Amin!

*01.02.2015-ci il*



**İsrail Məmmədov,**
*ADPU, Fizika fakültəsi,*
*"Elektrik və optika" kafedrası,*
*Fizika üzrə fəlsəfə doktoru*

# ÜRƏKLƏRƏ KÖÇƏN, YADDAŞLARDA YAŞAYAN MÜQƏDDƏS İNSAN

*Unutmaz tarixin böyük günləri*
*Dünyaya mərd gəlib, mərd gedənləri.*
***Səməd Vurğun***

İbrahim bənzərsiz idi. Bu bənzərsizlik bütün səviyyələrdə özünü təzahür etdirirdi. O, öz elmi-helmi, ürfanı, əqidəsi, əxlaqı, tərbiyəsi, ünsiyyət mədəniyyəti, iti analitik təfəkkürü, həssaslığı, qayğıkeşliyi, istiqanlılığı, səxavəti, ürəkgenişliyi ... ilə sözün tam və dürüst mənasında hamıdan fərqlənirdi. Hər dəfə xəyalımda onun müqəddəs obrazını canlandıranda məni heyrət bürüyür. Sağlığında bəlkə də əhəmiyyət vermədiyim cizgiləri məni ovsunlayır, kövrəldir, için-için ağladır. Onun gözlərində inam dolu həsrət, cavabsız qalan və sükuta dönən suallar, yarımçıq sevinc cizgiləri, insanın iliyinə-sümüyünə qədər işləyən, dünyanı tərpədə biləcək saflıq, səsində insan ruhunun şeiriyyəti, müdriklik cazibəsi, ürəyində yalnız onun

özünəməxsus dəyişməz kolorit baxışlarında həmişə axtardığımız, möhtac olduğumuz, gec-gec tapa bildiyimiz bir bəşəri doğmalıq var idi. Bütün bunlar İbrahimin insan portretini tamamlayan yüksək bəşəri cizgiləri idi. Ən gözəl insani sifətlərə malik olan İbrahimi xatırladıqca burnumun ucu göynəyir. "Ölüm haqdır"-deyirlər, lakin İbrahim kimi əvəzedilməz bir varlığın yoxluğundan elə sarsılırsan ki, istər-istəməz həyatın, dünyanın qanunları ilə barışmaq istəmirsən. Axı, İbrahimin özü maraqlı bir dünya idi. Romantika ilə reallığı, iztirabla sevinci, inamla-inamsızlığı, qalibiyyətlə məğlubiyyəti qəribə bir məntiqlə birləşdirməyi, sintez etməyi bacaran bir intellekt sahibi idi, cavan yaşında müdriklik səlahiyyəti qazanmış ulu şəxsiyyət idi. Onun naturasında təbii proporsiya pozulmazdı.

İbrahimin davranışları, söhbətləri son dərəcə cazibədar, məzmunca o qədər zəngin idi ki, insan yorulmurdu. Onun sözləri və hərəkətləri həzz mənbəyi idi. Bu həzz tədricən estetik zövqə və qavrayışa çevrilirdi. O, qeyri-təbii, süni, quru leksikadan uzaq idi. İbrahimin nitqində, danışığında sözün bütün ifadə imkanları cəmləşmişdi. Onun nitqində müdrik hazırcavablıq, yumor, zarafat, sözün bütün prozaik və romantik çalarları sintez halında idi. Onda sükutu canlı, dramatik sözə döndərmək sehri çox güclü idi.

İbrahimə hər mənada etibar etmək olardı. O, canıyanan, istiqanlı idi. O, insanların bütün qayğılarına müqəddəs ayin kimi baxırdı və bununla bağlı heç vaxt ağızucu danışmazdı, nə deyirdisə, nə edirdisə ürəkdən deyir, ürəkdən edirdi.

Onun ölümü mənalı və məğrur bir həyatın vaxtsız qürubu kimi xatirələrdə qalır. Vaxtsız ölüm yalnız onun canını ala bildi. Ruhunu, nüfuzunu, şöhrətini apara bilmədi. Çünki İbrahimin az müddətdə həyatda qazandıqları ağır yük idi, ölüm onu çəkib apara bilməzdi və apara da bilmədi. Onun parlaq

şəxsiyyətindən bənzərsiz atributlar bizə yadigar qalıb.

İbrahimin haqq dünyaya vaxtsız qovuşması onun çoxsaylı əhatəsinə, dost-tanışlarının hər birinə ən yaxın, ən doğma, ən munis bir insan itkisinin dəhşətini yaşatdı. Onun bu fani dünyadan əbədi aramgaha qəflətən, bir göz qırpımında getməsi hamımızı dərindən sarsıtdı. Ancaq nə etməli? Taleyin hökmü belə imiş. O, misilsiz bir insan nümunəsi kimi, dost-qardaş kimi bizim qəlbimizdə abidələşdi, onu intəhasız məhəbbətlə sevən ürəyimizdə özünün sədaqət, etibar, səmimiyyət, mənəvi ucalıq heykəlini ucaltdı. İbrahim adı, İbrahim şəxsiyyəti onu yaxından tanıyanların, onunla az da olsa təmasda olanların şüurunda simvollaşdı, yüksək bəşəri dəyərləri, xeyirxah əməlləri, mənəviyyatının ucalığı ilə fövqəlbəşərilik rəmzinə çevrildi.

İbrahim ölmədi. O, dünyasını dəyişdi. Allah rəhmət eləsin. Qəbri nurla dolsun!



**Ağasən Bədəlzadə,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# AĞLIN ZİRVƏSİNDƏ SÖNƏN BİR ÇIRAQ

*Qardaşım Buludxanın İbrahim dərdinə qoşuluram!*

*Ürəyi məhəbbət, mehr sərgisi,*
*İnsanlıq ən böyük istedadıydı,*
*İşıqlı zəkası Allah vergisi,*
*İnsanlıq qəlbinin öz icadıydı.*

*Kölgələr sürünür, işıq sürünməz,*
*Bu işıq haqqa da çatırmış demə.*
*Deyirlər mələklər gözə görünməz,*
*Belə ürəklərdə yatırmış demə!*

*İşıq yaradırdı o, arzularda,*
*O, ömründən kəsib, ömr uzadardı.*
*Xıdır İlyas idi çətində, darda,*
*İnsanın dadına necə çatardı!*

*Səhraların qumu dönüb dağ olmur,*
*Dağın da qum olmaq qorxusu varmış.*
*Bir zərif ürəkdə, inanmaq olmur*
*Bəlkə bir kainat qərar tutarmış!*

*Bu ölüm bir haqqın məhviydi bəlkə,*
*Heçdən ümid verən özü heç oldu.*
*Çaşqın taleyinin səhviydi bəlkə,*
*Qayıda bilmədi, daha gec oldu.*

*Dərdi bir gizli dərd yürüşü idi,*
*Yaxşılıq eşqiyçün doğulmuş demə.*
*Görüşü bir bahar görüşü idi,*
*Gülüşü günəşdən yoğrulmuş demə.*

*İnsana sevgisi ömürlük oldu,*
*Ona min bir ümid gözünü dikdi.*
*İnsanlığı elə artıb yük oldu,*
*Ürəyə sığmadı, ürəyi çökdü.*

*Ölüm qısqanmırdı onu havayı,*
*Bu, bir görünməmiş rəqabət idi.*
*Payı, səxavəti Hatəmi-Tai,*
*İnsanlığı ayrı səxavət idi.*

*Ömür baharına düşdü bir xəzan,*
*Ölmə də can verib, yaşatsın deyə.*
*Ömrü gödək olan nurlu bir insan*
*Öldü, öz ömrünü uzatsın deyə.*

*Dansaq da, yansaq da, belədir həyat.*
*Azacıq pay verir ürəklilərə.*
*Allahın şöhrəti artardı min qat.*
*Çox ömür versəydi gərəklilərə!*

*Gör həyat kimindir, gör ölüm kimin?*
*Ömür qazanırmı hər ömür sürən?*
*Gücü çatmaz idi ona ölümün,*
*Həyat eşqi idi onu öldürən.*

*Beləymiş taleyin, beləymiş əmri,*
*Hər yanan bir ömür işığa dönməz.*
*Ağlın işığıyla toqquşdu ömrü,*
*İşığın içində işıq görünməz.*

*Demə sünbül yanıb, qaldı qup-quru.*
*Sünbülün tutaşan küləşi vardı.*
*Ulduztək günəşdən almadı nuru,*
*Onun öz qəlbinin Günəşi vardı.*

*Ağlın işığından ölüm qorxaraq,*
*Əbədi hökmünü dandı təzədən.*
*Ağlın zirvəsində sönən bir çıraq,*
*Min-min ürəklərdə yandı təzədən.*

*Ölümdən çox qabaq gəlib ömür-gün,*
*Ölüm namərd oldu dünyada ancaq.*
*Ölüm bu dünyada öz varlığıyçün,*
*Həyata borcludur, həyata ancaq!*

*30.01.2015-ci il*



**Sarvan İbrahimov,**
*"Azərbaycan müəllimi"*
*qəzetinin baş redaktor müavini*

## DOST İTKİSİ

Haqqında danışmaq nə qədər rahat olsa da, onu xatirələr işığında yada salmaq mənim üçün bir o qədər ağırdır. Qəfil açılan güllə kimi amansız ölüm onu gülə-gülə aramızdan vaxtsız apardı. Qapılarımızın Novruz müjdəsilə açıldığı bir yaz gecəsi ömür qapısı üzünə əbədi bağlandı.

2014-cü ilin 14 mart səhəri... O acı xəbəri eşidəndə elə bil yerimdə donub qaldım. Bir anlıq yuxuda olduğumu zənn etdim. Telefonun uzaq məsafəsindən gələn aydın səs hələ də qulağımdan getmir: "Dünən gecə İbrahim rəhmətə gedib...". Nə etmək olardı? Bu, acı həqiqət idi. Təəssüf etməkdən, göz yaşımı içimdə boğmaqdan başqa əlimdən bir şey gəlmirdi.

Düşmənə sinəsini sipər edən, dosta kürəyini arxa verən əsl dost kimi xatırlayıram onu. Müdriklərdən biri deyib ki, yaxşı dost təkcə dar gündə deyil, yaxşı gündə də tanınır. O, mənim üçün məhz belə bir dost idi.

İllər öncə "Xalq qəzeti"ndə tanışlığımızın qəribə tarixçəsi olmasa da, o günü yaxşı xatırlayıram. Məzuniyyətdən təzəcə

qayıtmışdım. Redaksiyaya təzə bir işçinin – texniki direktorun gəlməyindən artıq xəbər tutmuşdum. Onunla ilk görüşüm də elə kompüter mərkəzində yaddaşıma köçdü. Əl uzadaraq nurlu çöhrəsi üzümə güldü: "Tanış olaq, İbrahim Öмərov", - deyə ədəb-ərkanla, yaşının az olmasına baxmayaraq, əsl ziyalıya xas ehtiramla özünü təqdim etdi.

Bir redaksiyada çalışdığımız neçə illər ərzində bir-birimizi yaxından tanıdıq. Sevincimizi paylaşmağı, dərdimizə şərik çıxmağı bacardıq. Taleyin qismətindən "Xalq qəzeti"ndən "Azərbaycan müəllimi"nə pənah gətirəndən sonra da əlaqələrimiz kəsilmədi. Tez-tez görüşə bilməsək də, bir-birimizdən hal-əhval tutardıq. Hər dəfə də "özündən muğayat ol", - deyə mənə ürək qızdırardı. Doğrusu, özümüzdən muğayat olmağa çalışsaq da, onu qoruya bilmədik.

Qısa bir ömür yaşadı İbrahim Ömərov. Lakin şərəfli bir yol keçdi. Bu qısa zaman kəsiyində isə qazandıqları itirdiklərindən çox oldu.

Bir ayın tamamında idi ki, Sumqayıt Dövlət Universitetinə prorektor təyin olunmuşdu. Dostları, yaxınları hələ ürəklə təbrik etməyə macal tapmamış əcəl onun ürəyinə hakim kəsildi. Nə edək ki, təyinatının sevincini onunla bölüşə bilmədik. Yoxluğu isə yaman sarsıtdı bizi. Artıq bir ilə yaxındır ki, İbrahim Ömərov aramızda yoxdur. Nə yaxşı ki, onunla bağlı isti xatirələrimiz ürəyimizə bir qədər təskinlik verir.

Həmişə tezliklə görüşərik deyərdi. İndi isə nə vaxtsa görüşəcəyimizi TANRININ qismətinə buraxıram. Görüşənədək deyirəm.

Ruhun şad olsun, əziz dost!

# İBRAHİMİN ÖMRÜNDƏN SƏHİFƏLƏR: ŞƏKİLLƏR, SƏNƏDLƏR



**Nizami Məmmədcanlı**
**(Ömərov),**
*İbrahimin atası*

## OĞLUMA

Ay oğul, kükrəyib dənizə dönsən,
Gurla ildırımtək, çax şimşək kimi.
Dağlara ucalsan, düzlərə ensən,
Gərək ol hamıya sən çörək kimi.

Ömrün qədrini bil, qiymətini bil,
Qəlbindən kədəri, qəmi tamam sil.
Vaxtsız açan çiçək, ləçəklənən gül,
Ürəyi oxşamaz gül-çiçək kimi.

Öz ana yurdunun dayağı ol sən,
Koroğlu, Ziyadxan sayağı ol sən.
Torpağın ömürlük oyağı ol sən,
Titrə yaz mehitək, əs külək kimi!

Mənim öyüdümü sırğa et, oğul,
Dünya bir nağıldır, həyat bir nağıl.
Tutsun əllərindən hər zaman ağıl,
Həqiqət üstündə bir çələng kimi!










*İbrahimin uşaqlığı-anası və qardaşları ilə birgə: sağdan birinci İbrahim, ikinci Sarıbaba, üçüncü Həzi, dördüncü Mehdi, ortada anaları Səadət xanım*

Göydə bulud bulan-bulan bulanar,
Yaralarım göz-göz olub sulanar,
Anan gəlib məzarına dolanar,
Qara torpaq, İbrahimi neylədin?!
Yoxsa qurda-quşa qismət elədin?!

* * *

Getmir gözümdən baxışı,
Getdi, ömrümün naxışı,
Ürəyim yanıb köz olur,
Kəsməyir gözümün yaşı.

* * *

Sən hara, ölüm hara?!
Dözməm mən əzablara.
Yerin ürəyimdədir
Niyə getdin məzara?!

***İbrahimin anası Səadət xanımın dilindən***



*İbrahim anası ilə birgə*

Dost getdi, ah, yağı gəldi
Sinəmə dərd dağı gəldi.
İbrahim deyən dilimdən
Layla getdi, ağı gəldi.

* * *

Gül fəslinə yağdı qar,
Qara günüm ahu-zar.
Səni yaman tez aldı
Əlimizdən ruzigar.

***İbrahimin anası Səadət xanımın dilindən***



*İbrahim pioner düşərgəsində*




*İbrahim oturan yerdə soldan birinci*



*İbrahim ailəsi ilə birgə: İbrahim, həyat yoldaşı Elnarə xanım, oğlu Alı*





*İbrahim yaxınları arasında: soldan birinci*




*İbrahim yaxınları arasında: sağdan ayaq üstə üçüncü*



*Ulu öndərin qəbrini ziyarət edərkən: İbrahim ön cərgədə soldan birinci*




*İbrahim Buludxanla elmi tədbirdə*



*"Dünya Azərbaycanlılarının Həmrəylik günü" ilə bağlı tədbirdən sonra: dostu Buludxan (soldan), İbrahim*



*Dostları arasında: (sağdan) İbrahim, Həsən Həsənov, Mahir Qabiloğlu*





*Toy məclisində: İbrahim və müğənni Manana*



*İbrahim övladları Alı və Nizami ilə*



*İbrahim övladları Alı və Nizami ilə Milli parkda*



*İbrahim övladları ilə istirahətdə*



*İbrahim övladları Alı və Nizami ilə gəzinti zamanı*



*İbrahim övladları Alı və Nizami ilə birgə*



*İbrahim övladları ilə İçərişəhərdəki tədbirdə*



*İbrahim ailə üzvləri ilə: həyat yoldaşı Elnarə, oğlu Nizami*



*İbrahim Qusarda: övladları Alı və Nizami ilə*




*İbrahim, oğlu Alı, anası Səadət xanım*




*İbrahim Xınalıqda*



*İbrahim və oğlu Nizami*




*İbrahim və övladları: Alı, Nizami*



*İbrahim, anası və qohum uşaqlar Şəkidə istirahət zamanı*



*İbrahim qohumları arasında Şəkidə istirahət zamanı*



*İbrahim və böyük oğlu*



*İbrahim və oğlu Alı*




*İbrahim və ailə üzvləri Dənizkənarı Parkda*




*İbrahim və övladları: Alı, Nizami*



*İbrahim və övladları*



*İbrahim və ailə üzvləri*



*İbrahim və oğlu*



*İbrahim və övladları*




*İbrahim ailəsi ilə birgə istirahət zamanı*




*İbrahim və oğlu Alı*




*İbrahim və oğlu Alı*



*İbrahim və həyat yoldaşı Elnarə xanım*



*İbrahim və ailə üzvləri*




*İbrahim Şəkidə*



*İbrahim Qusarda istirahət zamanı*



DİPLOM ALİ TƏHSİL HAQQINDA

DÖVLƏT SƏNƏDİDİR

A № 029165

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ SƏDRİ:

REKTOR: prof. Ə.İ. Ağayev

M.Y.

QEYDİYYAT NÖMRƏSİ 1021

AZƏRBAYCAN RESPUBLİKASI

DİPLOM

N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ

7 iyul 1998 TARİXLİ QƏRARI İLƏ

Ömərov

İbrahim Nizamioğlu

Maarif

Fizika

ALİ PEŞƏ İSTİQAMƏTİ ÜZRƏ BAKALAVR DƏRƏCƏSİ VERİLİR

Bakı şəhəri 1998 il



DİPLOM ALİ TƏHSİL HAQQINDA
DÖVLƏT SƏNƏDİDİR

B № 056943

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ SƏDRİ

REKTOR

QEYDİYYAT NÖMRƏSİ 65

AZƏRBAYCAN RESPUBLİKASI

DİPLOM

Azərbaycan
Memarlıq və İnşaat Universiteti
(Ali təhsil müəssisəsinin adı)

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ

"05" iyul 2006-cı il TARİXLİ QƏRARI İLƏ

Ömərov
(Soyadı)
İbrahim Nizami oğluna
(Adı, atasının adı)
Mühəndis iqtisadiyyatı və idarəetmə
İstehsalat və xidmət sahələrinin
iqtisadiyyatı və idarə edilməsi (tikintinin
iqtisadiyyatı və idarə edilməsi")

ALİ PEŞƏ İSTİQAMƏTİ ÜZRƏ BAKALAVR DƏRƏCƏSİ VERİLİR

Bakı şəhəri 21.07.2006 il



MAGİSTR DİPLOMU ALİ TƏHSİL
VƏ ELMİ DƏRƏCƏ HAQQINDA
DÖVLƏT SƏNƏDİDİR

MNB № 019286

İXTİSASLAŞDIRILMIŞ ELMİ ŞURANIN SƏDRİ

REKTOR

M.Y.

QEYDİYYAT NÖMRƏSİ 09.M.233

AZƏRBAYCAN RESPUBLİKASI

MAGİSTR
DİPLOMU
FƏRQLƏNMƏ

Qafqaz
Universiteti
(Ali təhsil müəssisəsinin adı)

İXTİSASLAŞDIRILMIŞ ELMİ ŞURANIN 18.12.09 TARİXLİ QƏRARI İLƏ

Ömərov
(Soyadı)
İbrahim Nizami
(Adı, atasının adı)
Mühəndis iqtisadiyyatı
və idarəetmə İSTİQAMƏTİNİN

Biznesin təşkili və
idarəedilməsi İXTİSASLAŞMASI ÜZRƏ

MAGİSTR
DƏRƏCƏSİ VERİLİR



5008, Sumqayıt şəhəri, 43-cü məh. tel. 2-02-70

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

ƏMR

№ K-02-058/2

«28» 01 2014-cü il

Əmək müqaviləsi barədə

Ömərov İbrahim Nizami oğlu (alitəhsilli)

1. Universitetin İnzibati təsərrüfat işləri üzrə prorektor vəzifəsinə əmək müqaviləsi ilə 28.01.2014-cü il tarixindən qəbul edilsin.
Əməkhaqqı ştat cədvəli üzrə ödənilsin və SDU-nin büdcədənkənar gəlirlər hesabından 400 (dörd yüz) manat məbləğində əlavə əməkhaqqı (maddi yardım) ödənilsin.

2 Əsas Azər.Resp Təhsil Naziri M.Cabbarovun №-11 73 27 01.2014-cü il tarixli əmri rektor vəzifəsini icra edən E.B.Hüseynovun dərkənarı ilə və əmək müqaviləsi.

**Rektor vəzifəsini icra edən** **dos.E.B.Hüseynov**

Layihənı tərtib etdi
KŞ-nin müdiri N.Ş Əhmədov

Razılaşdırıldı:
Baş mühasib Ş.H.Abdu ayev
Baş hüquqşünas Ə.A.Həsənova

Sumqayıt Dövlət Universiteti
Əslı ilə düzdür:
Təsdiq edirəm: Ümumi şöbənin müdiri E.E.Məmmədova
«18» 01 2014

**15 mart 2014-cü il** **AZƏRBAYCAN**

Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov Sumqayıt Dövlət Universitetinin prorektoru

**İBRAHİM ÖMƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir

# İBRAHİM "RESPUBLİKA" QƏZETİNDƏ: AĞSAQQAL SÖZÜ, MƏHƏBBƏT BURADAN BAŞLADI DÜZÜ



**Teymur Əhmədov,**
*professor, "Respublika" qəzetinin baş redaktoru*

## İBRAHİMİN ƏZİZ XATİRƏSİNƏ

Həyatda bəzən elə insanla rastlaşırsan ki, ilk görüşdən adamda doğmalıq hissi oyadır.

Harada olursa-olsun, yaxında ya uzaqda onu unutmursan. Onunla həmsöhbət olmaq, əməkdaşlıq etmək istəyirsən. Onunla hər görüş səndə xoş ovqat yaradır.

İbrahim Ömərov belə bir insan idi.

Mən "Respublika" qəzeti redaksiyasını təşkil edəndə onu Kompüter Mərkəzinə texniki redaktor vəzifəsinə götürmüşdüm. O, ilk gündən məndə işgüzar, mehriban və istiqanlı gənc təəssüratı oyatmışdı. İbrahim öhdəsinə düşən işi həmişə ləyaqətlə yerinə yetirərdi. O, öz sənətinin vurğunu idi. Kompüter mərkəzində iş yoldaşlarına da köməyini əsirgəmirdi, onlara kompüterin "sirlərini" öyrətməkdən usanmırdı. Hamı ona hörmət bəsləyirdi.

İbrahim ailə qurduğu Elnarə ilə "Respublika" qəzetində birlikdə çalışırdı. Onların münasibətlərini biləndə mən bir böyük kimi onlara daim dəstək oldum. Çünki ikisinin də xətrini çox istəyirdim.

Günlərin bir günü mənim qəbuluma orta boy, dolu bədənli bir nəfər gəlib iki əlini uzadıb sağ əlimi sıxdı, mehribancasına görüşdü. Mən onu tanımırdım.

-Elnarənin atası Yusif müəlliməm- dedi- gəldim sizinlə məsləhətləşim.

Eşitmişdim ki, Elnarənin atası Abşeron rayon təhsil şöbəsinin müdir müavinidir, tanınmış maarif xadimidir, amma şəxsən tanımırdım.

-Çox şadam, buyurun.

-Məni bağışlayın həmyerli kimi ərk eliyib gəlmişəm. Sizin İbrahim adlı işçiniz mənim qızıma elçi göndərmək istəyir. Onun haqqında sizin fikrinizi bilmək niyyəti ilə gəlmişəm. İndiki gəncləri tanımaq olmur...

-Bəli, elədir. Adamları uzaqdan-uzağa tanımaq çətindir - dedim- İbrahim on ildən çox olar ki, bu redaksiyada işləyir. Ürəklə deyə bilərəm ki, o qızıl oğlandır: saf, təmiz, tərbiyəli, işgüzar, ailə-canlı bir gəncdir. Kaş, bütün cavanlarımız belə olsun. Elnarə də bir az dillidir, ancaq çox səmimi, açıq ürəkli, tərbiyəli qızdır. İnanıram ki, onlar bir-birlərini ürəkdən sevirlərsə, ailədə öz xoşbəxtliklərini tapacaqlar. Amma siz valideynlərin də nəzarəti, qayğısı olmalıdır.

Elnarənin atası güldü: –Elnarə ailədə tək qızdır, ərköyün böyütmüşük. Düz deyirsiniz, gənc ailə təzə becərilmiş bağa bənzər ona qayğı vacibdir –deyərək fikrimi təsdiqlədi.

Yusif müəllim ayağa durub yenə əlimi sıxdı, razılıq edib xoş ovqatla ayrıldı.

...İbrahim Elnarə ilə evləndi. İlk uşaqları Alı anadan olanda

da, Nizami dünyaya gələndə də həmişə onlarla maraqlanırdım. Elnarənin uşaqlara daha çox diqqət və qayğı göstəməsi üçün onun redaksiyada işini asanlaşdırmışdım. Yazılarını evdə yazır, sonra redaksiyaya göndərirdi.

İbrahim nişanlanandan sonra öz ərizəsi ilə işdən ayrıldı. Bir müddət sonra "Xalq" qəzetində işə düzəldi.

"Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov telefon açıb məndən soruşdu: İbrahim Ömərov sizdə işləyib, necə adamdır?

Mən ona dedim: İbrahimi çox bacarıqlı, işgüzar, etibarlı adamdır.

İbrahim "Xalq qəzeti"ndə Kompüter Mərkəzinə rəhbərlik etdi. Sonra baş redaktor müavini, birinci müavin vəzifəsinədək yüksəldi. Mənimlə ara-sıra telefon əlaqəsi saxlayırdı, məsləhətləşirdi. Çap kağızı qıtlığı yarananda bir müddət tanışları vasitəsilə "Respublika" qəzetinə köməyini əsirgəmədi. Biz onlardan ucuz qiymətə tonlarla çap kağızı, dozakl alırdıq.

İbrahim işinin ağır və çətinliyinə baxmayaraq təhsilini davam etdirirdi. Onun uğurları məni sevindirirdi.

İbrahim hərdən telefonla zəng vursa da görüşə bilmirdik. Gərgin iş rejimi var idi.

Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarov İbrahim Ömərovu Sumqayıt Dövlət Universitetinə prorektor təyin edəndə bu xəbəri sevinclə qarşıladım. Lakin İbrahimin vaxtsız dünyasını dəyişməsi xəbəri onu tanıyan və xətrini istəyən hər kəsin faciəsi oldu.

Böyük zəhməti, bacarığı, istedadı ilə gələcəyə can atan İbrahim Ömərovun arzularını onun bir cüt fərasətli oğul balası-Alı və Nizaminin ləyaqətlə davam etdirəcəyinə qəlbən inanıram. Onlar İbrahim kimi təkcə müqəddəs ocaq üçün deyil, doğma xalq üçün, vətən üçün qeyrətli,ağıllı vətəndaşlar olacaqlar. Allah onlara yar olsun!



**Zümrüd QURBANQIZI,**
*"Respublika" qəzeti*

# ÖMÜR YAMAN VƏFASIZMIŞ

*İndi çox cavanlaşıb ölüm. Adiləşib. Ehtiyatsızlıq, səhlənkarlıq, məsuliyyətsizlik üzündən hər an neçə-neçə insan həyata vida deyir. Sağlamlıqlarına da laqeydləşiblər insanlar indi. Hər şey o qədər önə keçib ki, "ağrımağa" da vaxt tapılmır. Qəfil gələn kəmfürsət ölüm isə gizli-gizli yol gəlir bizə doğru, istədiyi vaxtda, istədiyi yerdə və istədiyi yaşda haqlayır insanı. Elə ölüm var ki, hər kəsi yandırır. Bu yaz səhərinin biri ölüm xəbəri ilə açıldı üzümüzə. Bahar hələ gəlməsə də, yerdə, göydə bir oyanış vardı, canlanmağa təzələnməyə, yenidən doğulmağa tələsirdi təbiət. Novruz ılıq nəfəsilə qapılarımızı döyməyə hazırlaşırdı. Bu gözəlliyə ürəkmi dözərdi? O da ola İbrahim kimi həssas, gül ləçəyi kimi zərif ürəyi olan bir insanın ürəyi... Bu bayramı, baharın bu min bir gözəlliklərini o necə də sevirdi, necə də gözləyirdi. Amma heyif, min heyif ki, əcəl aman vermədi...*

Ölüm xəbəri redaksiyaya ildırım sürətilə gəlib çatmışdı: "Bu gecə İbrahim vəfat edib". Eşidən hər kəs eyni sualı verirdi: "Hansı İbrahim?" Cavab: "Bizim ..."

Bir anlığa son vaxtlar itirdiyimiz iş yoldaşlarımızı xatırla-

dım: şair təbiətli Südabə xanım, hamının ana bildiyi Şeyda xanım, çoxlarının dərd ortağı Nərgiz xanım, yeri hələ çox görünəcək İlham Paşayev... İndi də bu. Kollektivimizdə az çalışıb yaxşı iz, xoş xatirələr qoyub gedən gənc həmkarımız İbrahim...

1996-cı il. Onda 19 yaşlı İbrahim "Respublika" qəzetində işləmək təklifi almışdı. Əvvəl kompüter mərkəzində operator kimi işə başlamış, texniki redaktor, dizayner vəzifəsində işləmişdi. Sonra, 1998-ci ildən AMEA İnformasiya Texnologiyaları İnstitutunun "Elm" İnformasiya Agentliyində müxbir, 2003-cü ildə AMEA Rəyasət Heyəti Aparatında aparıcı mütəxəssis kimi çalışır. Elə həmin il "Xalq qəzeti"nə işə düzəlir və beləcə, qısa ömrünün böyük bir hissəsini qəzetçiliklə bağlamalı olur.

Dəli-dolu gəncliyinin ən çılğın dövrü bu kollektivdə keçmişdi. Sevgisini də burada tapmış, burada ona qovuşmuşdu. Birgə işlədiyi gələcək həyat yoldaşı Elnarəgilin qapılarına da öz elçilərini bu kollektivin ağsaqqallarının xeyir-duası ilə göndərmiş, toy-büsatını onlarla birgə qeyd etmiş, həyatının ən xoş anlarının sevincini də onlarla bölüşmüşdü.

İbrahim qısa bir müddətdə dizayn, tərtibat işinin incəliklərini öyrənmiş, peşəkar bir mütəxəssis kimi püxtələşmiş, qəzetçiliyin sirlərinə dərindən yiyələnmişdi. Buna görə də "Xalq qəzeti"ndə baş redaktorun birinci müavini vəzifəsinə irəli çəkilmişdi. Bu da təsadüfi deyildi. O çalışır, öz üzərində işləyir, biliyini, intellektual səviyyəsini artırırdı. Bütün bunlar isə nəticəsiz qalmırdı, təbii ki.

İbrahim Ömərov. Onun qısa ömür tarixçəşini vərəqləyirik... 1977-ci il may ayının 14-ü. Qərbi Azərbaycanın Ağbaba mahalının Göllü kəndində məhz bu tarixdə dünyaya gəlib. Ailədə üçüncü övlad olub. Sonra balaca İbrahimin taleyinə yazılmış qaçqınlıq həyatı başlayır. Ömərovlar ailəsi Bakıda məskunlaşır, İbrahim Suraxanı rayonundakı 114 saylı tam orta məktəbi başa

vurub Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika və riyaziyyat fakültəsinə daxil olur və oranı müvəffəqiyyətlə bitirir. Lakin bununla kifayətlənmir, işləyə-işləyə təhsilini də davam etdirir. 2006-cı ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində ikinci təhsilini başa vurub mühəndis iqtisadiyyatı və idarəetmə fakültəsində daha bir ixtisasa yiyələnir. İbrahim axtarışda idi, bəlkə də bu peşələrin içində özünü axtarırdı o. 2007-ci ildə Azərbaycan Qafqaz Universitetinin biznesin təşkili və idarəedilməsi fakültəsinin magistratura pilləsinə daxil olanda heç kəs təəccüblənmir, çünki onu tanıyanlar İbrahimin bu cür sürprizlərinə, sözün əsl mənasında, adət etmişdilər. İbrahim həmçinin 2012-ci ildən AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Şərq-Qərb" şöbəsinin doktorantı, onlarca elmi-kütləvi məqalənin müəllifi idi.

O tələsirdi, sanki istəklərinə daha tez çatmaq üçün zamanı qabaqlamağa çalışırdı. Özü də bilmirdi ki, iti sürətlə axıb gedən vaxt həm də ömründən gedir, onu elə həmin sürətlə də qısaldırdı. Bu da var ki, onun ömür payı qısaldıqca, öz dəyərini, çəkisini də artırırdı.

Bütün bunların fonunda bir ailə başçısı kimi də üzərinə düşən vəzifəni layiqincə yerinə yetirirdi. Ailəsinin ehtiyaclarını ödəyir, onları maddi sıxıntı keçirməyə qoymurdu. Oğlanları Alı və Nizami orta məktəbdə təhsil alır, yaxşı oxuyur, onu sevindirirdilər. Gənc atanın oğlanları ilə bağlı arzuları böyük idi.

2013-cü ildə İbrahim bir təklif alır. Sumqayıt Dövlət Universitetində prorektor işləmək təklifi ailədə heç də hamı tərəfindən dəstəklənmir. Ona görə yox ki, onun bu işi bacaracağına şübhə edirdilər. Yaxınları İbrahimin zəhmətsevərliyini, bacarığını, prinsipiallığını yaxşı bilir və bu işdə də özünü doğruldacağına inanırdılar. Səbəb başqa idi. Anası Səadət xanım: "Ay bala, özünü dilə-dişə salma, bədnəzərdən qorxuram, sənə bir

şey olsa, evim yıxılar", - demişdi. Elə Elnarə də bu məsələdə qaynanasının fikirlərinə dəstək olmuş: "Şükür Allaha, dolanırıq, anan düz deyir" - desə də, İbrahim öz qərarını vermişdi.

Əslində bu işin onun ölümü ilə heç bir əlaqəsi yoxdur, sadəcə, ana ürəyi nədənsə narahat idi və bu nigaranlığın səbəbini özü də bilə bilməzdi...

2014-cü il martın 14-ü. Novruzun gəlişinə sayılı günlər qalır. Son çərşənbənin alış-verişini edib evə dönmüş, axşam övladları ilə sağollaşıb yatağına uzanmışdı. Gecə yarısı ağrıya oyanmış, təcili yardım gələnəcən birtəhər dözmüşdü. Həkimlər infarkt əlamətlərinin olduğunu deyəndə inanmaq belə istəməmişdi. Axı indiyədək ürəyindən heç vaxt gileylənməmişdi. Nə yazıqlar ki, İbrahimin ürəyi məhz həmin gecə dayandı, özü də əbədi. Nə yazıqlar ki, indiyədək susan, hər şeyə dözən, hər ağırlığa tab gətirən ürək öz işini gizlin-gizlin görmüş, onu içdən zərrə-zərrə yemişdi.

Bəlkə elə buna görə idi ki, yaşından yaşlı və müdrik görünürdü İbrahim. 37 il... Cəmi bu qədər yaşadı. Əslində ömrünün sonuncu, 37-ci ilini də başa vura bilmədi. Ömür vəfa etmədi. Ölüm onu yaşının tamamına ikicə ay qalmış haqlamışdı. Ölümü ilə çoxlarını kədərləndirdi, doğmalarını yandırıb-yaxdı. Nə qədər arzuları yarımçıq qaldı. Onun yarımçıq ömrü yaralı durna ömrünə bənzədi. İndi heç nəyi geriyə qaytarmaq, nəyisə dəyişmək mümkün deyil. Elə sağlığında qazandığı hörmət, sevgi, yaxşı ad kimi... Təkcə doğmalarından getmədi, sıramızdakı yaxşılardan daha biri azaldı, elə bizdən getdi, əməlləri, insani keyfiyyətləri ilə bizimkiləşməyi bacaran bizim İbrahim...

O ürəklə yaşadı həyatda, ürəyi, qəlbi ilə sevdi bu gəlimli, gedimli, son ucu ölümlü dünyanı.

*"Görünür, ürəklə yaşayanların*
*Elə ölümü də ürəkdən olur".*

# İBRAHİM "ELM" QƏZETİNDƏ: İBRAHİMİ VƏ ELMİ SEVƏN DOSTLAR



**Ağahüseyn Şükürov,**
*AMEA-nın vitse-prezidentinin köməkçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*

## GƏNCLİK İLLƏRİNİN BİR ÜMMAN XATİRƏSİ

İbrahimlə 1999-cu ildən "Elm" qəzeti redaksiyasında bir yerdə işləyirdik. İstər klassik quruluşu, istərsə də ən müasir bilikləri dərindən mənimsəmiş poliqrafçı-dizayner, peşəkar qəzet tərtibatçısı idi. Qısa müddətdə onun iştirakıyla 4 səhifəlik qəzeti 16 (bəzən də 24, 32) səhifəyə çatdırdıq. Qəzetin məsul katibi, sonradan da baş redaktorun müavini olduğum üçün demək olar ki, başqalarına nisbətən İbrahimlə ən çox ünsiyyətdə olan mən olurdum. İş arası İbrahimin duzlu-məzəli söhbətləri ilə hər dəfə bir yekə qovluq materialı elə yerbəyer eləyirdik ki, vaxtın necə keçdiyini belə hiss eləmirdik. Bir də baxıb görürdük ki, iş vaxtı çoxdan bitib, hava haçandır qaralıb. Bizim bərabər iş birliyimizlə bağlı bu proses 1999-cu ilin apre-

lindən düz 2007-ci ilin oktyabr ayınadək davam etdi. Sonra bir müddət yollarımız ayrıldı – o, "Xalq qəzeti"nə baş redaktorun müavini, mən isə "Azərbaycan" qəzetinə məsul katibin müavini vəzifələrinə keçdik. Ayrı çalışdığımız bir neçə il müddətində də İbrahimlə tez-tez əlaqə saxlayar, zəngləşər, gərgin işdən sonra ani də olsa vaxt tapıb "atüstü" görüşərdik. Bizim bu "atüstü" görüşümüz bəzən saatlarla uzana bilirdi...

İbrahim yaxşı dost idi. Yaş fərqimizə baxmayaraq o mənimlə tay-tuş kimi davranar (digər dostları ilə də beləydi), o qədər ləzzətli söhbətlər edərdi ki, bəzən lap sözün həqiqi mənasında qəşş eləyib az qala özümüzdən gedirdik. Onunla dostluq münasibətlərimizdə heç bir sərhəd-filan olmazdı.

İbrahim fədakar ailə başçısı idi. Onun bir neçə iş yerində az qala "tükənənə" qədər çalışdığının həmişə şahidi olmuşam. Həyat yoldaşı ilə də məhz belə bir qaynar mühitdə tanış olmuşdu. Mehriban, qayğıkeş ata, ailə başçılığını İbrahimin timsalında da görüb mənimlə bu oxşar xarakterini çox bəyənmişdim. İbrahim qeyrətli oğul, qayğıkeş qardaş idi. Valideynlərini, ailə üzvlərini çox istəyirdi.

İbrahim vətənini hədsiz dərəcədə çox sevən bir oğul idi. Bir çoxları kimi dilində, yaxud yazılarında yox, məhz qəlbdən və ürəkdən sevən. Bəzən lap köhnə kişilər kimi Qərbi Azərbaycanın Amasiya rayonu ətrafında keçirdiyi illəri (burada isə uşaqlıq dövrünün az hissəsini yaşamışdı) sevincqarışıq duyğu, hərdən də dərin kədər və təəssüf hissi ilə xatırlayır, doğma vətən torpağının xiffətini çəkirdi. İbrahim həmin illərdən elə xatirələr danışırdı, adam heyrətlənirdi ki, görəsən o, uşaq hafizəsi ilə bu hadisələri necə yadda saxlaya bilib – qələmə alsaydın, bir kitab bəs eləməzdi. Doğma ləhcəsini danışığında yaşadırdı. Xalq ruhu ilə aşılanmış elə baməzə əhvalatlar, olmuş hadisələr, atmacalar danışar, zarafatlar edər, bəzən də eşitdiyi

əhvalatları elə canlı nəql edərdi ki, elə bil o hadisələrin hamısı gözləri önündə baş vermişdi.

İbrahim elə bir mühitdə yaşayıb işləmişdi ki, az müddətdə ağsaqqal müdrikliyini əxz edə bilmiş, rəhbər işçi formasını almışdı. Lap yeniyetmə yaşlarından "Respublika", "Elm", sonradan "Xalq qəzeti" (hələ tərtibat verdiyi bir çox başqa qəzet-jurnalları demirəm), eləcə də Azərbaycan Milli Elmlər Akademiyası və son zamanlar Sumqayıt Dövlət Universiteti mühitlərində böyük təcrübə və hikmət məktəbi keçmiş, özündən böyüklərin və kiçiklərin (həm yaşca, həm də vəzifə cəhətdən) dərin rəğbətini qazanmışdı...

Qəfil ölüm xəbərini dostlarımızın növbəti bir zarafatı kimi qəbul etdiyimiz, sonradan isə yoxluğuna için-için ağladığımız, həmişə hamının köməyinə çatan İbrahim yaxşılığı, qayğıkeşliyi ilə yanaşı, səmimiyyəti, açıqürəkliliyi, eləcə də məsuliyyəti və ürəkdən "tikan çıxaran" işi ilə yaddaşlarda qaldı...

Qəbrin nurla dolsun, İbrahim!

Allah balalarını torpağın sanı yaşatsın!

Hər yadımıza düşəndə qəlbimizi sızlatsan da, qısa ömründə elədiklərin, qazandıqların, yadigar qoyub getdiklərinlə daima yada düşəcək və heç vaxt unuda bilmədiyimiz xatirələrinlə qəlbimizdə yaşayacaqsan. Təbəssümlü baxışınla, məkrdən uzaq xislətinlə, bir də ki, Allahtərəfi mövqeyinlə daima gözlərimiz önündə şax dayanacaqsan. Bu duruş isə hər oğlana nəsib olmur!



**Aqşin MƏMMƏDOV,**
*filologiya üzrə fəlsəfə doktoru*

## "Ölmək üçün əvvəlcə yaşamaq lazımdır..."

Bu sətirləri o, 2011-ci il mayın 17-də (ömrünün 34-cü baharını qeyd etdiyi gündən 3 gün sonra) "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşmışdı. Həmin tarixdən sonra o, cəmi 3 il yaşadı. 37 illik həyatında o, sözün həqiqi mənasında YAŞAMAQ istədi. Bu səbəbdən hər zaman axtarışda idi: düzgün və maraqlı insan, əsl dost, vicdanlı ziyalı və s. axtarışında. Ona görə də qeyd edirdi ki: "Yanılmamaq üçün hər kəs düzgün insanı tapmaq istəyir. Təəssüf ki, heç kim düzgün insan olmaq üçün cəhd etmir!".

...O, daima harasa tələsirdi. Bəlkə də, ömrün qısalığını duyduğundandır ki, bu qısa ömrə arzularını sığdırmaq istəyirdi.

Yoxluğuna inanmadan yaşadığımız bu bir ildə mənə bu acını qismən unutduran onunla birgə keçirdiyimiz günlərin xatirələridir. Qəti əminəm ki, bu xatirələr mənimlə qəbir evinədək yol yoldaşı olacaqdır.

...O, 37 illik həyatında əmək fəaliyyətinə başladığı tarixdən bir neçə kollektivdə çalışmışdı. Bəlkə də, bu səbəbdən idi ki,

yaşının gənc olmasına baxmayaraq həyat təcrübəsi ilə dolu insan idi. Bu həyat təctrübəsi hadisələrin axarını qabaqcadan duymaq və səbrlə münasibət bildirmək müdrikliyini ona aşılamışdı. Çalışdığı hər bir kollektivdə hamının rəğbətini, hörmətini, sevgisini qazana bildiyindəndir ki, hamı ona "BİZİM İBRAHİM" deyirdi.



*İbrahim Aqşinlə*

...Qəribədir ki, mənim İbrahimlə ilk tanışlığım heç də xoş olmayan bir hadisədən sonra başlamışdı. AMEA Rəyasət Heyətinin mətbu orqanı olan "Elm" qəzetində yenicə müxbir vəzifəsində işləməyə başlamışdım. Bir tədbirlə bağlı hazırladığım materialı səhifədə yerləşdirmək üçün hələ üzünü görmədiyim texniki redaktor, dizaynerin – İbrahimin çalışdığı 508-ci otağa qalxdım. Baş redaktorun materialı səhifədə yerləşdirməyini və gözlədiyini dedim. O isə indi əlində işi olduğunu, sonra edə biləcəyini dedi. Baş redaktorun gözlədiyini desəm də, o, bir

azdan vaxtı olacağını dedi (o vaxtlar İbrahim əlavə iş götürərək kitab səhifələyər, dizayn edər yenicə qurduğu ailənin tələbatlarını ödəməyə çalışardı. Aramızda o anlaşılmaz hadisə baş verən zaman onun yanında Respublika Xəstəxanasının tanınmış həkimlərindən biri olan Sahib doktor var idi. Onun kitabını səhifələyirdi). Mübahisəmiz düşdü... Sonradan hər dəfə bu epizodu xatırlayanda o deyirdi: "Belə bir məsəl var: "Çəkişməsən, bərkiməzsən". Bəlkə, o hadisə olmasaydı, biz bir-birimizi bu qədər yaxından tanımazdıq". Hətta sonradan münasibətlərimiz o həddə qədər gəlib çatdı ki, kollektivdə bir-birinə ən çox etibar edən iki dost olduq.

...O, hər şeydən öncə təmənnasız İNSAN idi. Ona hər hansı bir problemlə bağlı müraciət edən hər bir kəsə imkanı daxilində (bəzən hətta imkanları xaricində olsa belə) kömək etməyə çalışardı. Ona görə Lev Tolstoyun bu fikrini paylaşırdı: "Həyatda unuda bilməyəcəyiniz ən böyük peşmanlıq, peşman olaram deyə etmədiklərinizdir". Bir dəfə Akademiyada işdə problem yarandığından işimi dəyişmək istəyirdim. Münasib bir iş axtarışında idim. Həmişə mənə səbrli olmağı tövsiyə edən İbrahim fikrimin qətiliyini görüb məndən xəbərsiz "Respublika" qəzetinin baş redaktoru, görkəmli alim, el ağsaqqalı Teymur Əhmədova mənim haqqımda danışmışdı. (İbrahim Teymur müəllim haqqında danışanda həmişə deyərdi ki, o, həyatda tanıdığım tək-tək mərd kişilərdən biridir, həqiqi ağsaqqaldır, sözü bütöv və çəkisi olan insandır). Məhz İbrahimin təqdimatının nəticəsi idi ki, Teymur müəllimlə görüşdə o, sınamadan birbaşa humanitar şöbənin müdiri vəzifəsini mənə təklif etmişdi. Bu, heç şübhəsiz, İbrahimin həyatda qazandığı hörmət və etibarın nəticəsi idi.

Bircə şeyə çox təəssüf edirəm ki, İbrahimin səmimiyyətindən, təmənnasız insan kimi səxavətindən, bəlkə də, ən çox is-

tifadə edən, faydalanan bəzi insanlar onun dəfn mərasimində iştirak etmədilər. Belə də düşünmək olardı ki, bəlkə, onlar bu itkidən çox təsirləndikləri üçün onun mərasimlərində iştirak etmədilər. Lakin onu da unutmayaq ki, zaman ən yaxşı loğmandır. Bizə itki ilə yaşamağı öyrədəndir. Yəni toparlanıb bu bir il ərzində bircə dəfə də olsun onun Əmircan qəbiristanlığındakı qəbrinin üstünə getməkdəmi olmazdı?! Özü də kollektivlə birlikdə. Axı o, hər zaman hamının xeyrində-şərində iştirak edib, hamının bir yerdə olmasına, kollektivin bütöv olmasına çalışıb. Hər halda Cənab Haqq hər şeyi görür. Halallıq yaxşı şeydir.

...Bəzən işə həddən çox bağlı olduğumu görəndə o, mənə şəxsi həyatıma, xüsusilə doktorluq işimə də vaxt ayırmağı məsləhət görürdü. Və incə yumorundan da qalmırdı. AMEA Rəyasət Heyətinin 5-ci mərtəbəsində yerləşən doğma 508-ci otağın pəncərəsindən aydın görünən Şəhidlər xiyabanını



*İbrahim dostları Aqşin və Rafiqlə*

(bəzən də Fəxri xiyabanı) göstərərək deyirdi: "Aqşin, elə bilirsən orada yatanlar işlərini qurtarıb sonra ora gediblər. Əsla yox! Çünki insan arzuları sonsuzdur, bitib-tükənməyəndir. İnsanın arzuları onun ömrünə heç vaxt sığmır ki...". Vaxt keçdi Akademiyada sonrakı mərhələdə işdə baş verən hadisələr onun nə qədər haqlı olduğunu göstərdi. Bu, bəlkə də, özünün qeyd etdiyi kimi, bir neçə kollektivdə işlədiyi üçün öz qısa ömründə əldə etdiyi təcrübənin bariz nəticəsi idi.

Son illər o, həyatında məna axtarışında idi. Bəlkə, bu səbəbdəndir ki, "Facebook" səhifəsində bu fikirləri də bölüşürdü: "Həyatımda mənasız keçən bir həftəni də beləcə yola verdim... Məna - necə də gözəl səslənir. Bəzən yaradana üsyan edərək həyatımın mənalı olmasını istəyirəm, amma hər kəs üçün bir formada olan məna nədənsə mənim üçün formasız olaraq qalır! Sizcə, "məna" nədir?". Bu məqamı əslində özünü, həyatı dərk etməyə çalışan hər bir yaradıcı insan yaşayır. Daxilən zəngin insan həyatında daima yenilik istəyində, axtarışında olur. İbrahim də son illər çox mütaliə edir, özünü təkmilləşdirir, ingilis dilini öyrənirdi, hətta istəyinin dalınca Londona qədər gedib çıxmışdı.

"Zər qədrini zərgər bilər". O, həqiqi ziyalılara böyük dəyər verərdi. Məhz bunun nəticəsi idi ki, o, həqiqi ziyalılarla, alim və yazıçılarla dostluq edirdi. Özü də doktoranturaya daxil olaraq iqtisadi sahədəki biliklərini təkmilləşdirmək, əsl ziyalıların sayını artırmaq niyyətində idi.

O həm də gözəl ailə başçısı, qayğıkeş ata idi. Mən bunu hər dəfə oğlanları (Əli və Nizami) haqqında danışarkən bir ata kimi işıldayan gözlərindən oxuyurdum. Amma bunun canlı şahidi isə bir dəfə Bakı Dövlət Sirkinə birlikdə bilet alıb uşaqları apararkən orada övladlarına qayğıkeş ata kimi münasibətində gördüm. İbrahim bir zaman Hötenin bu fikrini də



*İbrahim dostları Aqşin, Səbinə və Sevillə*

bizimlə paylaşmışdı: "Ən mükəmməl qadın uşaqlarına atalarının yoxluğunda ata ola biləcək qadındır". Bu gün onun ömür-gün yoldaşı Elnarə xanımın zərif çiyinlərinə iki oğul övladına İbrahimin yoxluğunda ata ola bilmək kimi çətin bir yük də düşüb. Bu çətin yolda Allah hər zaman ona və balalarına kömək olsun!

Kənardan İbrahimin dinə münasibətdə radikal mövqedə durduğunu müşahidə etmək olardı. Əslində o, dinə deyil, onu düzgün təqdim və təbliğ edə bilməyən din xadimlərinə qarşı müxalifətdə idi. Millətinin fərqli gələcəyini düşünən, soykökümüzə sıx bağlı olan bir çox vətənpərvər ziyalılar kimi o da islam dininin mahiyyətini dərk edərək onun düzgün təbliğ olunmasını istəyirdi. "Budurmu ədalət?" başlığı altında paylaşdığı bir yazısında qeyd edirdi ki, "Bu gün müqəddəs Rama-

zan bayramı münasibətilə dünya müsəlmanları oruc tutmaq, ibadət etmək, Allahdan bağışlanmalarını istəməklə məşğuldurlar. Çox az sayda ölkələrdə, Türkiyə və bir neçə müsəlman ölkəsində aclıqla mübarizə aparan insanlara yardım etmək üçün kampaniyalara rast gəlmək olar. Nə üçün bir neçə ölkə? Axı, ey müsəlmanlar, Sizlər Allahdan bağışlanmağınızı oruc tutmaq və dua etməklə bitmiş hesab edirsiniz. Yaradan sizləri yaradanda hamınızı eyni formada yaratdı! Amma sizlər çeşidlərə ayrılaraq bir-birinizin qənimi kəsildiniz. Fikir verin, Misir dövlətinin qonşuluğunda baş verən hadisələr elə bil heç kim tərəfindən görünmür və ya görünürsə də önəmsənmir. Dünən fironluq edən, bu gün isə qəfəsə düşən Misir fironu Mübarəkin dünyanın müxtəlif ölkələrində milyardları tapılır. Amma Afrikada və digər qitələrdə insanlar bir damcı suya, bir parça çörəyə möhtacdırlar. Ədalət budurmu? Bu gün Qafqaz Müsəlmanları İdarəsi nə işlə məşğuldur? Onlar da bu uşaqlara yardım kampaniyaları təşkil edə bilməzlərmi? ...Özü də Ramazan bayramı ərəfəsində. Məncə, əsl müsəlmançılıq bu insanlara yardım etmək olardı! İnanın ki, tutduğunuz oruc və etdiyiniz dualardan daha çox, insanlığa göstərəcəyiniz kömək Sizi Allah qarşısında daha möhtərəm edəcək!". Məncə, əlavə şərhə ehtiyac yoxdur. Bu sətirləri oxuyan hər kəs İbrahimin nə qədər böyük ürəyə, dini inanca  sahib olduğunu dərk edə bilər...

Əslində, İbrahimin əksər statuslarında elə bil həyatdan tez gedəcəyinin siqnalları hiss olunur. Təəssüf ki, biz bu acı həqiqəti ancaq indi hiss edirik: "Ayrılıqlar acı olsa da, bəzən getmək lazımdır!". Getdin... bizi öz şirin xatirələrin, incə yumorun, lətifələrinlə baş-başa qoyub getdin. Amma, QARDAŞ, bunları sənsiz yaşamaq o qədər çətindir ki...

...Bir neçə dəfə əlimə qələm alıb SƏNİN haqqında yazmaq

istəmişəm. Amma hər dəfə məni dərin bir kədər bürüyüb (əslində heç tərk etməyib ki məni...), əlim titrəyib. Əslində, bilirsən niyə?! Səni itirdiyimizlə barışmaq istəməmişəm. Elə bilmişəm ki, indicə gələcək və şən səsinlə deyəcəksən: "Bəsdi işlədiniz, durun gedək bir yerdə oturaq, yemək yeyək, söhbətləşib-dərdləşək". O qədər darıxırıq ki o günlər üçün...

Son günlər yuxularıma çox tez-tez gəlirsən, DOST. Sanki Balzakın xoşladığın bu sözlərini pıçıldayırsan qulağıma: "Dünəni unutmalı, bu günü yaşamalısınız. Çünki dünən ilə bu gün arasında bir döyüş çıxarsa, sabahı itirərsiniz!" Sənin olduğun dünəni itirmək qeyri-mümkündür! Sən öz qısa ömründə əməllərinlə sağlığında özünə rəhmət qazanan nadir insanlardan birisən. Bu gün sən sağlığında qazandığın mənim kimi yüzlərlə dostunun, həmkarının qəlbində yaşayırsan və həmişə də yaşayacaqsan. Biz də sadəcə bu böyük itki ilə YAŞAMAĞA məcburuq...

Ruhun şad olsun, QARDAŞ!



**Rafiq RZAYEV,**
*AMEA-nın İqtisadiyyat İnstitutunun baş mütəxəssisi*

# BÖYÜK VƏ TƏMƏNNASIZ DOST

"Bu həyatda ən böyük qazancım mənim dostlarımdır." Bu sözləri biz vaxtaşırı İbrahimin dilindən eşidirdik. O İbrahim ki, sözün əsl mənasında böyük və təmənnasız dost idi. Dost sözü ilə təmənna sözünün yanaşı işlənməsi bəlkə də bir çoxumuza təəccüblü gələ bilər, amma yəqin əksəriyyətimiz də etiraf edə bilərik ki, yaşamağa məhkum olduğumuz bu dünyada artıq insanların dəyərlər anlayışı ciddi şəkildə dəyişmişdir. Biz insanlar, hətta özümüzü dost adlandırsaq belə bəzən bir-birimizə nəyəsə, kiməsə görə, yaxud nələrisə, kimlərisə nəzərə alaraq, bir növ "hesab-kitab yaparaq" qiymət və dəyər veririk. Lakin İbrahim istisna təşkil edən insanlardan idi. O, əsl dost, daha doğrusu, böyük dost idi. Necə ki, böyük alimlər, böyük ictimai-siyasi xadimlər, böyük şəxsiyyətlər və ziyalılar olur. İbrahim də bütün bu sadaladığım şəxslərə xas keyfiyyətləri öz varlığında birləşdirən, eyni zamanda sadə və səmimi qalmağı bacaran, ən əsası isə insanları təmənnasız olaraq sevən bir insan, böyük dost idi. Və mən inanıram ki, tanıdıqlarının hamısı tərəfindən sevilən bir şəxs idi İbrahim... Bəli,

O, alimliyin bir addımlığında idi. Bir neçə ali təhsili olan İbrahim doktorantura təhsili alırdı və alimliyə aparan yolda inamla irəliləyirdi... İctimai-siyasi xadim də adlandırmaq olardı İbrahimi. Əgər belə olmasaydı, "Xalq" qəzetinin baş redaktorunun birinci müavini kimi məsuliyyətli bir vəzifəyə layiq görməzdilər Onu. Və heç şübhəsiz ki, Onu tanıyan, Onunla ünsiyyətdə olan hər kəs mütləq Onun ictimai-siyasi nöqteyi-nəzərdən necə özünəməxsus incə, analitik bir düşüncə və mühakimə tərzinə, hadisələri və insanları dəyərləndirmə qabiliyyətinə malik olduğunun şahidi olmuşdur... Bizi əbədi olaraq tərk etməsindən bir neçə ay öncə Sumqayıt Dövlət Universitetinin prorektoru təyin edilmişdi İbrahim. Onu bu mərtəbəyə yüksək intellekti, zəhmətsevərliyi, dürüstlüyü gətirib çıxarmışdı. Yalnız Ona göstərilən bu etimad, təyin olunduğu bu vəzifə deyil, həm də daxili aləmindəki işıq, xalqımıza, dövlətimizə olan dərin sevgisi və millətimizin maariflənməsi, tərəqqisi üçün bacardığını var qüvvəsi ilə həyata keçirmək istəyi Onun ziyalılığından, dəyərli bir şəxsiyyət olmasından xəbər verirdi... Bilmirəm, ola bilsin İbrahim haqqındakı bu fikirlər yalnız mənə məxsus, sırf subyektiv fikirlərdir, amma mən Onu belə gördüm, belə tanıdım, belə dostluq etdim və çox təəssüf ki, vaxtsız olaraq belə də itirdim...

Müdrikcəsinə deyib atalarımız: "Yaxşı gündə düşmən gələr dost olar, igid odur yaman gündə dayansın." Yaman günün dostu idi İbrahim. Onu tanıyan bir çoxları kimi, mənim də dəfələrlə Onun köməyinə ehtiyacım olmuşdu. İnanın ki, O, heç vaxt heç nədə köməyini əsirgəmirdi dostlarından. Hətta Onun bacarığını, səlahiyyətlərini aşan işləri də ciddi-cəhdlə həyata keçirməyə, Onun köməyinə ehtiyacı olan insanların sözünü yerə salmamağa çalışırdı. Halbuki İbrahimin yerinə başqası olsaydı, bəlkə də rahatca, müxtəlif bəhanələr gətirərək bu işlər-

dən boyun qaçıra, yaxud onu yubadaraq, uzadaraq, necə deyərlər insanları sadəcə "yola verə bilərdi". Çünki kömək üçün müraciət edənlərin bir çoxunun nə vəzifəsi, nə pulu, nə də cəmiyyətdə elə bir yüksək mövqeyi var idi. Amma İbrahim bu insanların puluna, mövqeyinə deyil, onların mənəviyyatına, insanlığına, aralarındakı dostluğa, yaxınlığa dəyər verirdi. Hətta imkanlı insanlardan da heç nə ummadan və inanıram ki, heç bu barədə bir an belə fikirləşmədən bu yaxşılıqları edirdi. Çünki bu insanlar Onu özlərinə dost bilirdilər. Və dəfələrlə şahidi olmuşam, eşitmişəm ki, İbrahim onlarla, bəlkə də yüzlərlə insana belə təmənnasız olaraq, səmimi şəkildə köməkliklər etmiş, onların sözünü yerə salmamışdır. Çünki O, əsl dost idi, bizim böyük dostumuz idi. Hər bir dostun fəxr edə biləcəyi dost idi İbrahim. Gəldiyi vaxt boşluq dolduran dost deyildi, getdiyi vaxt yeri doldurulmayan dost idi İbrahim...



*İbrahim və Rafiq*

Biz – azərbaycanlılar, adətən, dünyasını dəyişən insanlar haqqında yalnız müsbət fikirlər söyləməyə, həmin şəxsin ancaq pozitiv xüsusiyyətlərini xatırlamağa çalışırıq. Amma əminəm, Onu tanıyan hər bir kəs mənimlə razılaşacaq ki, bu fikirlərimlə mən İbrahimi ideallaşdırmağa çalışmamışam, sadəcə Ona xas keyfiyyətlərin müəyyən bir qismini dilə gətirmi-

şəm. Təbii ki, qüsursuz olan tək Allahdır. İbrahimin də bəzi zəif cəhətləri var idi. Lakin Onun bu cəhətləri, dəryada bir damla kimi, o qədər cüzi idi ki, bu barədə danışmağa belə lüzum yoxdur. Bir də İbrahimin çox siqaret çəkmək kimi zərərli bir vərdişi var idi və bununla O öz sağlamlağına ciddi ziyan vururdu. Dəfələrlə bu mərəzdən can qurtarmağa cəhd etsə də alınmamışdı. Bəzən mənə elə gəlirdi ki, O, həyatda qarşılaşdığı və çox vaxt içinə həbs etdiyi problemlərin, haqsızlıqların acığını, üsyanını ciyərinə çəkdiyi siqaret tüstüsü ilə canından çıxarır, sanki bir az sakitləşirdi... Çünki O, həyatında çox əziyyətlər çəksə də, demək olar ki, heç vaxt heç nədən şikayətlənmir, daxilindəki bu ağrı-acını büruzə verməməyə çalışırdı. Bəlkə də, elə bunların nəticəsi idi ki, O, bizi çox erkən tərk etdi... Bəli, belə bir insan idi İbrahim. Böyük, yaşıl bir ağaca bənzəyirdi O. Çirkli atmosferi - ətrafındakıların, dostlarının mənfi enerjisini, problemlərlə dolu əhval-ruhiyyəsini öz canına çəkir, onlara oksigen – müsbət emosiyalar, şən əhval-ruhiyyə, həyat enerjisi bəxş edirdi...

Həddən artıq həyatsevər idi, insanları ancaq yaxşılıq etməyə həvəsləndirirdi və bunu təkcə sözlərlə deyil, öz şəxsində, öz əməlində də nümayiş etdirirdi. Lətifə danışmaqla da arası xoş idi İbrahimin, xüsusilə də ibrətamiz lətifələr. O bununla insanlarda xoş ovqat yaradır, problemlərini unutmaqda yardımçı olurdu ətrfındakılara. İnanın ki, Onun danışdığı bu şən lətifələrdə həm də böyük hikmətlər, insanların nöqsanlarını, naqisliklərini ifşa edən dərin mənalar gizlənirdi. Biz hətta Ona zarafatla deyirdik ki, Sən axırda lətifələr kitabı buraxacaqsan... İnsanları çox sevirdi İbrahim. Qərbi azərbaycanlılara da xüsusi hüsn-rəğbəti var idi. Bu Onun yerlipərəstliyindən irəli gəlmirdi, belə ki, Onun yaxın dostları arasında Azərbaycanın hər bölgəsindən olan bir çox insanlar var idi. Sanki bu, Onun Vətən həs-



*İbrahim, Səbinə və Rafiq*

rətindən xəbər verirdi, sanki itirilmiş tarixi torpaqlarımızın, uşaqlığının keçdiyi, havasını udduğu kəndinin nisgilini onlarla ovundururdu... Onun bir xüsusiyyəti də çox vaxt bizim diqqətimizi çəkirdi – demək olar ki, hər zaman hər işdə tələsirdi İbrahim. Sanki bu dünyanı, bizləri tez tərk edəcəyini duyurmuş kimi tələsərək hər işə vaxt çatdırmağa çalışırdı. Bəzən nahar fasiləsi ərəfəsində bizi də tələsdirərək deyirdi: "Durun getdik yemək yeməyə, bəsdir işlədiniz, sonra gəlib davam edərsiniz. Onsuz da bu dünyada iş qurtarmayacaq." Sonra isə əlini iş otağının pəncərəsindən Fəxri Xiyabana tərəf uzadaraq əlavə edirdi: "Elə bilirsiz, orda yatan tanınmış insanlar bu həyatda öz işlərini başa vura biliblər? Biz də çatdıra bilməyəciyik. Durun getdik." Və bu sözləri dedikdən sonra özü qabağa düşərək otaqdan çıxırdı... Çox təəssüf ki, həyatda da belə oldu. Qabağa düşdü... Bizi bu dünyada tək qoyaraq yenə tələsdi İbrahim...

Allah Sənə rəhmət eləsin! Ruhun şad olsun, böyük və təmənnasız Dostumuz!



**Səbinə Məhərrəmova,**
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun baş mütəxəssisi*

## Xəbərin varmı heç, arxaya bax, bir ömür ötdü, DOSTUM...

İbrahimlə ilk dəfə AMEA Rəyasət Heyəti binasının yanında qarşılaşdıq. Mənə diqqətlə baxıb çox ciddi və zəhmli bir şəkildə - “Siz bu sahədə işləmisiniz? Sizə sınaq müddəti veriləcək, özünüzü doğrultsanız, yəqin ki, sizinlə işləyərik. Sabahdan sınaq müddəti üçün işə başlayın…” - dedi. Ertəsi gün işə çıxdım, İbrahim otaqda məni qarşıladı, salamlaşıb masanın üstündəki kompüteri göstərdi və 2 səhifəlik bir yazını mənə uzadıb yazmağı xahiş etdi. Nədənsə narahat oldum, həyəcanlandım, amma dərhal yazını yazıb – hazırdı – dedim. İbrahim təəccüblə, qəribə baxışlarla mənə baxdı – artıq hazırdı??? Bəli – deyərək yazını ona uzatdım. Məni otaqda tək qoyub - gəlirəm - deyib çıxdı. Bir gün sonra qəzetin baş redaktoru Afaq xanım məni yanına çağırıb – get ərizəni yaz, sən işə qəbul olundun - dedi. O gündən mən AMEA Rəyasət Heyətinin “Elm” qəzetində işə başladım. Hərçənd ki, mənə 1 həftə sınaq müddəti verilməli idi, lakin İbrahim Afaq xanıma mənim

işgüzarlığımı çox tərifədiyi üçün sınaq müddəti bitməmiş işə qəbul olundum və həmin ayın maaşını hamı kimi tam aldım.

Beləliklə, İbrahimlə mən bir otaqda iş fəaliyyətimə başladım. Zaman keçdikcə İbrahimlə olan münasibətim iş yoldaşlığından dostluğa çevrildi. İbrahim həyatda tanıdığım ən səmimi, dostluğa dəyər verən, insanlara doğru-düzgün qiymət verən, hər kəsi anlayan idi… Mən ondan ilk gündən özümə qarşı hörmət gördüm. Kollektivimizdə qadın əməkdaşların sayı çox olsa da, İbrahimin işlədiyi otaqda qadın işçi yalnız mən idim. Deyirlər insan anadan olmamışdan əvvəl yazılır onun taleyi, bəlkə də İbrahimlə dost olmaq da varıymış qismətimdə və beləliklə, bu gözəl insanla otaq yoldaşı olmaq mənə nəsib oldu. Ümumiyyətlə, elə bir əməkdaşımız yox idi ki, İbrahimin xətrini bir qardaş kimi çox istəməsin, onunla bir otaqda işləmək arzusunda olmasın. İlk vaxtlar İbrahimin zarafatlarından utanırdım. Təklikdə qalanda ona deyirdim ki, ay yeraz, o anekdotlarını danışanda denən mən otaqdan çıxım, Aqşindən, Rafiqdən utanıram. O da gülüb deyirdi: - "Vallah, ay Səbiş, elə bilirəm otaqda 4 kişi oturuRuq, çünki səndə olan kişi qeyrəti indi, demək olar ki, bəzi kişilərdə yoxdu"... Amma çox vaxt məzəli anekdotlarına başlayanda, mənə baxıb deyirdi: - "Ay çuşka, qulaqlarına nauşnik tax, uşaqlara anekdot danışım". Mən də qulaqcıq taxıb mahnıya qulaq asırdım. Həm fikrim kompüterdə olduğundan, həm də qulaqcıqla mahnı dinlədiyim üçün İbrahimin nə danışdığını eşitmirdim. Sadəcə başımı qaldırıb baxanda onun pəncərə tərəfdə dayanaraq siqaret çəkdiyini və mənə əli ilə qulaqcığı çıxartmağımı işarə etdiyini görürdüm. Geri dönüb uşaqların gülməkdən qızarmış üzlərini görəndə başa düşürdüm ki, bizim yerazımız "çox maraqlı anekdot" danışıb yenə.



*Səbinənin oğlu Kənanın Universitetə qəbul olması münasibətilə təşkil olunmuş ziyafətdə*

İşlədiyimiz 15 il ərzində İbrahimin necə mülayim, təmkinli, heç kimin xətrinə dəyməyən, kollektivdə böyük hörmət sahibi bir insan olduğunu hər gün daha çox başa düşürdüm. Çox işgüzar, bir dəqiqə özünə rahatlıq verməyən, qaçaqaçda olan, məsuliyyətli idi İbrahim. Fikri ancaq oxumaq, savadını, bilgilərini artırmaq idi. Deyirdim – "Ay yeraz, oxumaqdan başında tük də qalmayıb, sən uje professorsan, onlar kimi keçəl oldun day, 3-4 ilə dişlərin də tökülər" – "Eybi yox, professor olanda, vəzifədə olanda qəbuluma yazılacaqsan, mən də katibəmə deyəcəm "gözləsin" – deyib ürəkdən gülürdü. Rus dilini tam öyrənmək istəyirdi və mənə - "Ay Səbiş, mənnən rus dilində danış" - çaşıb birdən Azərbaycan dilində nəsə soruşanda, - "Deməmişəm, mənnən rusca danış? Çox paxılsan, istəmirsən dili öyrənim. Bird ə ki, zəhmət olmasa, "Жёлтые тюльпаны" mahnısını qoy qulaq asım, sevirəm o mahnını" - deyib qaşlarını düyünləyirdi və həmin dəqiqəcə bu ciddiliyi əvəz edən üzündəki təbəssüm hamımızı güldürürdü. "Yaxşı, danışaq,

amma neynirsən, bu dilləri öyrənirsən, nəyinə lazımdır? - deyəndə həmişə belə cavab verərdi – "Sokrat demişkən, Nikoqda ne qovori "nikoqda", bir gün lazım olar"…

Nə oldu İbrahim, lazım oldumu? Bu qədər əziyyət çəkirdin, gecələr yuxusuz qalırdın, övladların - Alı və Nizaminin üzündən ancaq gecə yarısı öpüb, onları ancaq yatarkən qoxlayırdın. Yalnız işləmək fikri ilə yaşayıb özünü bu qədər yormana dəydimi?..

Kollektivimizin ən şən, yumor hissi dolu, hamının uğuruna sevinən, problemlərimizi dinləyən, diqqətlə qulaq asıb kömək edən, ağıllı məsləhətlər verən bir insan idi. Lakin öz problemlərini heç kəsə bildirməzdi. Onun uzaqgörənliyi məni heyran edirdi. Şənliklərimizin tacı olan İbrahim, heç kəsin şad günündən geri qalmırdı. Onunla toya getmək bizim üçün ayrıca bir zövq idi, çünki musiqi səslənən kimi kollektivi ayağa qaldırır, ortalıqda rəqs edir və bizi bir-bir rəqsə dəvət edir, toy yiyəsi qədər sevinib şənlənirdi.

İşdə nə olursa olsun, nə qədər gərgin, əsəbi oluruqsa olaq, İbrahim otağa daxil olanda hamı problemini bir anlıq da olsa unudurdu, çünki onun üzündəki təbəssüm hər bir gərginliyi aradan qaldırırdı. Bilmirəm niyə, amma o, həddən artıq çox siqaret çəkirdi. – "Ay İbrahim sən nə qədər siqaret çəkirsən, bəsdir də, boğuldum otaqda, bu qədər çəkmək ziyandır sənə…. – Əşiiii, 50 yaş yaşayım, bəsimdi... Vallah ay Səbiş, elə yorğunam, dincəlmək istəyirəm…. – Siqaret çəkməklə dincəlirsən? Ailənlə bir yerdə get istirahət et, onlar da sənin bu mübarək üzünü görsünlər, bir gün ayılacaqsan ki Əli evlənir, Nizami Universitetə qəbul olub, sən isə rus, ingilis dili öyrənirsən. O isə gülərək belə cavab verdi – "Dayan, dayan, həmin universitetdə rektor olajam, sən də gəlib dejəcəksən ki, nəvəm az bal yığıb ay İbo, neynəyək?.."

İbrahimin "odnoklassnik" səhifəsi vardı, profil şəklini



*Səbinənin oğlu Kənanın Universitetə qəbul olması münasibətilə təşkil olunmuş ziyafətdə*

görüb pis oldum, - "Ay yeraz, bu nədi, elə bil başdaşı şəkli qoymusan. Yığışdır bu şəkli, normal şəkil qoy" - dedim – O isə cavabında - "Ay çuşka, bu şəkli özüm düzəltmişəm, mən öləndə bunu başdaşıma qoyarsız"... – "Aaaaa, bəs oğlum Kənanın toyunda iştirak etməyəcəksən? Bəs deyirdin, yerazları bəyənmirsən, qoy Kənan universiteti bitirsin, mən yeraz onu yaxşı yerə işə düzəldəjəm... Nooldu? Nə tez ölmək fikrinə gəldin, elə çey yoxdur, demisən, eləməlisən" – deyə zarafat etdim. "Dəlisən, mən ölənə kimi Kənanın uşaqları universitetdə oxuyar, tak şto narahat olma. Kənanın toyunda bilirsən nə qədər rəqs edəjəm, özü də yeraz mahnılarıyla, sən də mənnən yeraz mahnısı oynayacaqsan" – deyib həmişəki kimi ürəkdən qəhqəhə çəkdi. İbrahimlə mən həmişə bir-birimizin ləhcəsinə sataşırdıq. O telefonda danışanda «Hələ baxxx…" sözüylə danışığına başlayırdı. Mən də həmişə ona gülərdim – «Ay yeraz, hara baxsın, o telefondadı, heç olmasa denən, hələ eşit…

». O da cavabında "Yox , sizin ləhcəniz yaxşıdı… çaynik qeynədi… həri… qərdeşim…" - deyib gülürdü. İbrahimlə demək olar ki, işlədiyimiz müddətdə hər gün müxtəlif mövzularda mübahisə edirdik, amma bu mübahisələr aramızdakı DOSTluğa heç vaxt zərər vermirdi, bir-birimizdən zərrə qədər də incimirdik. Çünki İbrahim inciməyi bacarmırdı. Ürəyində kin-küdurət olmayan İNSAN idi bizim İBO.

"Elm" qəzeti bağlananda, şöbəmizin işçilərini hərənin öz ixtisasına uyğun AMEA-nın müxtəlif institutlarına yerləşdirdilər. Kollektivimizin ayrılması ona pis təsir etmişdi, baxışları çox qəmgin idi. "İbrahim, ayrılırıq, bəlkə, bir şəkil çəkdirək yadigar qalsın" – dedim. - Çəkdirək, Səbiş, çəkdirək... Bəlkə də, sonuncu şəklimiz oldu, nə bilmək olar" – deyib həmişəki kimi gülümsədi, amma bu gülüş o gülüşdən deyildi... İbrahim, kaş sən o sözü deməyəydin, axı sən hardan bilirdin ki, o şəkil, həqiqətən də, sonuncu şəklimiz olacaq?!..

İbrahimi heç vaxt həyacanlı, təlaşlı görməzdik. Bizə elə gəlirdi ki, o, bu həyata gülmək üçün, zövq almaq üçün gəlib. Xasiyyətindən doğan müsbət aurası var idi. Onunla danışarkən insan dincəlirdi, sanki bütün problemlər unudulurdu. Lakin bir gün İbrahim mənə zəng vurdu, həyəcanlı səslə "Ay Səbiş, Əli həyətdə oynayarkən yaralanıb, ay Səbiş, cərrahiyyə əməliyyatı etdilər, çox narahatam. Sən həmişə pirlərdən danışırsan, nəzir deyirsən, yenə denən, xahiş edirəm, Əliyə kömək olsun, ay Səbiş" – deyəndə, bu neçə ildə ilk dəfə idi ki, İbrahimi bu qədər həyacanlı görürdüm, əslində o elə yerlərə getmirdi, təəccübləndim, onun nə qədər daxilən kövrək və həssas olduğunu anladım.

Hər bir insan özünə yaxın dost axtarır. Xoşbəxt anlarını paylaşacaq, çətin anlarında ona dəstək olan, həll edə bilmədiyi problemlərdə ona yol göstərən, onu sevən, sədaqətli, onu qoruyan, tək buraxmayan könül dostları axtarır. Həyatda ən xoş-



*Səbinənin oğlu Kənanın Universitetə qəbul olması münasibətilə təşkil olunmuş ziyafətdə*

bəxt duyğulardan biri də tək olmağını hiss etməməkdir. Bəzən ətrafında elə bir insan olur ki, gözləmədiyin xoş münasibət görürsən, amma bəzən də çox təəssüf ki, dost bildiyin insanları çətin zamanında nə arxanda, nə də yanında tapa bilirsən... Önəmlisi, onun kim olduğu, hansı nəsildən, necə geyinməsindən, kimin övladı olmasından asılı deyil, önəmli olan onun sənə nə qədər yaxın olması, əzabına nə qədər yanması, sevinəndə səndən də çox sevinən, sən uğur qazandın o isə uğursuzluğa düçar oldu deyə ağız büzməyən birisi olmalıdır və sən də ona qarşı tam səmimiyyətlə qarşılıq verməlisən. Qısacası, səni içdən anlayan birisi olmalıdır sənin Dostun. Əgər sənə kimsə dost deyirsə, deməli, sən də onu daxilən anlamalısan. Dostluq yaşamağı, gülməyi, sevgiyə layiq olmağı, vəfa unutmamağı, sadiqliyi bilənlər üçündür! Biz dostlarımızı tər çiçəklər kimi ovcumuzda deyil, dost itkilərimizi güllə yarası kimi ürəyimizdə gizləyərik.

Can dostum, könül sirdaşım İbrahim 36 yaşında dünyasını dəyişsə də, elə bil, bu dünyanın neçə əsrlik sakini idi. O, ləyaqətli, sadə, səmimi, yanar ürəkli bir DOST idi... Dostun qayğısını öz qayğısı bilirdi. Mənim DOSTum təmənnasız, ETİBARLI, GÖZÜTOX, MƏRD idi. Böyük və saf qəlbi vardı, hər kəsi öz dilində, özünün səviyyəsində danışdırardı. Çox çalışqan, oxumaqdan doymayan bir insan idi. "Ay İbrahim, sən nə vaxta kimi oxuyacaqsan" - soruşanda - "Ölənə kimi!"... – deyə cavab verirdi.

İndiyə kimi yadımdadır... Səhər saat 10 radələri idi, telefonuma zəng gəldi... "Bacı, valerian iç, bir söz deyəcəm… qurban olum, özünü ələ al…. – Noolub axı??? – İbrahim rəhmətə gedib… – Kim?! …. İbrahim..." Bu sözlərdən sonra telefon əlimdən düşdü, hönkürtüylə ağladım …Həmin dəqiqə "Ağıllı, maa bir çay süz, qaçıram, tələsirəm, işim çoxdur, "Xalq"a getməliyəm, qəzet çıxan gündü, mətbəədə gözləyirlər" və s. sözləri qulağıma gəldi, gözümün önündən bir anlıq İbrahimin gülüşü keçdi.

«Я измеряю жизнь количеством друзей» - Əziz DOSTUM İbrahim bizi tərk edəndən bəri hər gün O.Qazmanovun bu mahnısına qulaq asıram. Əziz dostum, səni xatırlamaq nə qədər xoşdursa, yoxluğunla barışmaq bir o qədər çətindir. Lakin ən çətini sənin haqqında yazmaqdır. Sevimli müğənnimiz İslam Rzayevin mahnısında deyildiyi kimi:

*Necə nəğmə qoşum, necə dillənim,*
*Dost gedib, özümə gələ bilmirəm.*
*Elə bil, əllərim yox olub mənim,*
*Gözümün yaşını silə bilmirəm.*

İbrahim, səndən yazmaq çox çətindir, çox… Hər sətri yazdıqca göz yaşlarımı saxlaya bilmirəm, İbo… AMEA Rəyasət

Heyətinin 5-ci mərtəbəsində yerləşən 508-ci otağın pəncərəsinə söykənib dayanmağın, gülüşün gözümün önündən getmir. Bir ildir ki, sən yoxsan aramızda, amma inan ki, bu bir ildə hər gün səni xatırlamışıq, hər gün sənin "sitatlarından" misal gətirmişik, ağlamışıq, gülmüşük. Ailəm də sənin xətrini çox istəyirdi. Sən həmişə mənə deyirdin "Səbiş, burda istədiyim işi qura bilməsəm, ailəmi də götürüb xaricə köçəcəm". Və biz sənin yoxluğunu, aramızdan həmişəlik getməyini – "İbrahim xaricdədir, köçüb, orda qurub həyatını" - kimi qəbul edib özümüzə təsəlli veririk. Lakin heç bir təsəlli sənin yoxluğunu unutdura bilməz. Çox az yaşadın, cəmi 36 il. Amma bu az müddətdə həyatda çox böyük uğurlar qazandın, kişi kimi yaşadın. Ən əsası isə səni tanıyanların qəlbinə bir imza atdın... Bir DOST imzası... Səndən çox şey öyrənirdik. Sən bizə əsl dost necə olmalıdır, bunu öyrətdin. Ürəyimizdə haqqın böyükdür. Onu bizlərə halal elə, DOSTUM. Allah-taəla sevdiyi bəndələrini yanına tez aparır deyirlər. Rahat yat, Əziz DOSTUMUZ! Dualarımız sənə cənnəti qazandırsın. Amin!



**Əbülfəz Əzizov,**
*"Season" MMC-nin direktoru*

# GÖZƏL İNSAN, MEHRİBAN DOST

Mən Ibrahim Ömərovu "Respublika" qəzetində işlədiyi dövrdən tanıyırdım. Tale elə gətirdi ki, sonradan Milli Elmlər Akademiyasında eyni təşkilatda fəaliyyət göstərməyə başladıq. Biz bir otaqda, qarşı-qarşıya yerləşdirilmiş masalarda otururduq ...

Onunla işləmək çox asan idi. Eyni zamanda istər davranışı, istərsə də şux zarafatları, maraqlı söhbətləri ilə insana sanki ruh verirdi. Uzun-uzadı söhbətləri belə adamı bezdirməzdi. O, son dərəcə böyük həyat eşqi ilə yaşayırdı.

Gözəl təşkilatçı idi. Sonralar, "Xalq qəzeti"ndə baş redaktorun müavini işlədiyi dövrdə İbrahimin həqiqətən də bacarıqlı və səriştəli təşkilatçı olması bir daha təsdiq olundu. Ona baxanda insanda böyük inam yaranırdı ki, ölkədə yeni nəsil yetişir. Müasir dünyagörüşlü, yenilikçi, yüksək təşkilatçılıq qabiliyyətinə, gözəl insani keyfiyyətlərə malik olan bir nəsil.

Çox təəssüflər olsun ki, dəhşətli ölüm gözəl dostumuzu aramızdan vaxtsız apardı. Onu yaxından tanıyanlar üçün illər ötsə

belə, İbrahim var, yaşayır və yaşayacaqdır. Mərhum şairimiz Rəfiq Zəka Xəndanın dili ilə desək:

*İlləri tarixə insanlar salır,*
*İllər arxasında insanlar qalır.*

*Qalır əməlləri, gözəllikləri,*
*Adları adlayır yüzillikləri.*

*Onların arzusu, eşqi, niyyəti*
*Daim gəncləşdirir əbədiyyəti.*

*İnsanlar olmasa dünyada, fəqət*
*Nə tarix görünər, nə əbədiyyət.*

# İBRAHİM "XALQ QƏZETİ"NDƏ: "XALQ"IN ÖZÜ, "XALQ"IN SÖZÜ



**Həsən HƏSƏNOV,**
*"Xalq qəzeti"nin baş redaktoru,*
*Azərbaycan Respublikasının Əməkdar jurnalisti*

## ÖMRÜN SON AKKORDU

*Qarlı dağların başında*
*Salxım-salxım olan bulud!*
*Saçın yolub, mənim üçün*
*Yaşın-yaşın ağlarmısan?*
***Yunus İmrə***

İbrahim adi, sönük həyatdan uzaqlaşaraq mənən və ruhən yüksək bir mərtəbəyə qalxmışdı. Onun haqqında yazmaq çətindir mənə. Alışa bilmirəm yoxluğuna. Əlimə qələm alanda ucaboylu, gülümsər çöhrəli İbrahim qarşımda canlanır, parlaq gözlərində həyat qaynayır, gülə-gülə "mən ölümsüzəm" deyir.

Bilirəm, ölümsüz insan olmur. Bir gün dünyaya gələn bir gün də vidalaşıb doğmalarına "əlvida" deyir.

Həyatın haçansa bir ölümlə bitəcəyini bilən, dərk edən insan hər zaman tələsir. İbrahim də tələsirdi. Amma dünyadan köç-

məyə yox. Bitib-tükənməyən arzuları, planları vardı onun. Təkcə özü, ailəsi barədə yox, bütün qohumları, dostları, tanışları barədə. Onlar da bu planlarda yer almışdı. Evsizə ev vermək, işsizə iş vermək, zəifə, kasıba dayaq durmaq istəyirdi. Aman vermədi əcəl. Tanrı öz dərgahına əvvəlcə yaxşıları seçib aparır. Mərd, səmimi, xeyirxah, hər zaman haqqın tərəfini saxlayan İbrahim Ömərov yaxşıların yaxşısı idi. Tanrı dərgahında yeri uca olsun!

Onu çoxdan tanıyırdım. 1996-cı ildə bir neçə ay "Respublika" qəzetində baş redaktorun birinci müavini vəzifəsində ça-



*İbrahim (sağdan), Həsən Həsənov*

lışdım. 19 yaşlı gənc İbrahim operator-dizayner kimi hamının hörmətini qazanmışdı redaksiyada. İlin sonunda mən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində "Xəbərlər" baş redaksiyasına baş redaktor vəzifəsinə təyin olundum və yollarımız ayrıldı. İllər sonra "Xalq qəzeti"nə baş redaktor təyin olundum. Bir gün "Respublika" qəzetində çalışan Nərgiz xanımla rastlaşdıq, İbrahimin işdən çıxdığını söy-

lədi. Onun Amasiya rayonundan olduğunu bilirdim. Odur ki, Amasiyadan olan Nazim Mustafadan İbrahimi tapmasını xahiş etdim. On gün sonra İbrahimi redaksiyada texniki direktor vəzifəsinə təyin etdim. Savadlı, işgüzar bir insan kimi az bir müddətdə kollektivdə hamının rəğbətini qazandı. Bir müddət sonra artıq birinci müavin kimi fəaliyyət göstərirdi. Parlaq gələcəyinə, həyatda yüksək mövqe tutacağına zərrə qədər də şübhə eləmirdim. Bir gün İnşaat Universitetində ikinci ali təhsil almaq arzusunu bildirdi.

– İkinci ali təhsil almaq yaxşı fikirdir. Amma magistratura təhsilini də unutma. Sonra bir şərtim də olacaq, - dedim.

– Həsən müəllim, Sizin şərtlərin bitib-tükəndiyi vaxt olmur ki...

Aspirantura təhsili və dissertasiya müdafiəsi növbəti şərtim oldu. Tanrının qədərindən, yazısından xəbərsiz bax beləcə şərtləşdik.

Bir gün söhbət əsnasında mənə dedi ki, hələ heç bir xarici ölkədə olmamışam. Xaricə səfər olanda məni də nəzərə alsanız, yaxşı olar. Söhbətimizin üstündən bir il vaxt keçmişdi. Lakin səfər üçün müvafiq imkan düşməmişdi. Avqustun qızmar vaxtı idi. Günortaya yaxın kabinetimə daxil oldu. Bir sözü, xahişi olanda, məni dilə tutmaq istəyəndə gülə-gülə gələrdi yanıma. Simasındakı ifadədən nəsə deyəcəyini anladım.

– Sözlü adama oxşayırsan, İbrahim, - dedim.

– Həsən müəllim, demokratiya yeni ideyalardan, fikir və düşüncələri qeyri-adi, qeyri-məbdud axından qidalanan insanların enerjisindən güc alır. Bəlkə, redaktor kimi bu prosesə daha bir töhfə verəsiniz.

Zarafatyana cavab verdim:

– Mövzuya giriş kifayətdir, keç məsələnin məğzinə. Mətbuatın inkişafa pozitiv təsirini gücləndirmək üçün təklifin var, deyəsən.

– Əlbəttə, var. Mass-media sahəsində beynəlxalq təcrübəni



*Həsən Həsənov (sağda), Mahir Qabiloğlu, İbrahim*

öyrənmək istəyirəm. Bəlkə, məni Londona ezam edəsiniz. Neçə vaxtdır ki, ingilis dili kursuna gedirəm. Letuçkada özünüz dediniz ki, beynəlxalq təcrübəni öyrənmədən inteqrasiya prosesləri uğur qazana bilməz.

Yenə zarafata saldım:

– Onda səni Əfqanıstana, İraqa, Sudana göndərəcəm. Qaynar nöqtələrdən reportaj hazırlamağı öyrənərsən.

– Oralara Londondan sonra göndərin, razıyam. Söz verirəm, Londonda qəzet və jurnal redaksiyalarında bizdən fərqli, müsbət nə yenilik varsa, öyrənib qayıdacağam.

Səfər istəyi o qədər güclü, o qədər ürəkdən idi ki, yox deyə bilmədim. Qərara aldıq ki, xərc çox olmasın deyə mehmanxanada qalmasın, kirayə bir mənzil tutsun.

Avqustun sonunda Londona yola düşdü. İki gün sonra "Skype" vasitəsilə danışdıq.

– Dumanlı Albiondan atəşin salamlar! O qədər soyuqdur ki, gələn kimi evdə istilik sistemini işə saldım. Amma bu istilik sistemi bizimkindən çox fərqlidir. Elektriklə işləyir, sayğac az pul yazır, qənaət rejiminə xüsusi fikir verilib.

– Sən istilik sisteminin iş prinsipini yox, media təcrübəsini öyrən.

– Artıq iki redaksiyada olmuşam. Fərqli məqamlar var. Amma, sözün düzü, mən daha çox fərq olacağını düşünürdüm. Deyəsən, biz bunlardan o qədər də geridə deyilik. Əksinə, bunlar təəccüb edirlər ki, qısa müddət ərzində biz necə böyük uğurlara imza atmışıq.

Londondan qayıdanda əsas yükü orada dərc edilən qəzet və jurnallar idi. İşin təşkilində bəzi dəyişikliklər apardıq. Saytımızı yeniləşdirdik. Qəzetin dizaynına, illüstrativ materiallara, mövzu və müəllif seçiminə diqqəti artırdıq.

İbrahim texniki direktor kimi redaksiyanın maddi-texniki bazasının gücləndirilməsi işinə, şöbələrin kompüter və yeni proqram təminatına məsuliyyət daşıyırdı. Odur ki, tez-tez müxtəlif redaksiya və nəşriyyatlarda olur, yeniliklərlə maraqlanır, elektronika mağazalarına baş çəkirdi.

Kompüter sexinin, serverin fəaliyyətini yaxşı qurmuşdu, sahə ilə bağlı yeni proqramlara xüsusi diqqət göstərir, redaksiyada işin daha səmərəli təşkili üçün təkliflər verirdi.

Əvvəllər nəşriyyatda işlədiyinə görə, kitab tərtibatı işini yaxşı bilirdi. Buna görə də dostları, tanışları kitablarına tərtibat verməyi İbrahimdən xahiş edərdilər. Gecəni-gündüzə qatır, mövzuya uyğun elə tərtibat verirdi ki, heyran qalırdın.

Dostlarından, keçmiş iş yoldaşlarından bəziləri xarici ölkələrə getmiş, yaxşı iş, gün-güzəran sahibi olmuşdular. İbrahimi də dəvət edir, hər cür kömək vəd edirdilər. Bir gün Kanadaya getmək arzusunda olduğunu bildirdi.



*İbrahim "Xalq qəzeti"ndə: Həsən Həsənov, Mahir Qabiloğlu və təcrübəçi jurnalistlər*

– Niyə bu qərara gəlmisən? - deyə soruşdum.

– Mən intellektual imkanlarımı orada daha yaxşı reallaşdıra bilərəm.

– Sənin intellektual potensialına burada daha çox ehtiyac var.

– Doğrudur, amma Kanada məni ahən-rüba kimi özünə çəkir. Ora ilə bağlı bəzi planlarım da var.

– Sən həssas, istiqanlı adamsan, dostların, qohumların üçün çox darıxarsan. Orada nə Fikrət müəllim var, nə Məsiağa müəllim, nə də Mehman müəllim. Hələ günün yarısını bir yerdə keçirdiyin professor Buludxan Xəlilovu, Mahir Qabiloğlunu, Cavanşiri demirəm.

– Bax məni saxlayan da elə budur. Bilirəm, anam da mənimlə getməz.

– Bura Vətəndir, qürbətdən Vətən olmaz, - dedim.

Başımı qaldırıb üzünə baxanda hər zaman həyat eşqi qay-

nayan, sevinc çağlayan gözlərində bir kədər gördüm, Vətəni heç zaman tərk etməyəcəyini anladım.

Hərdən vaxt olanda bir günlüyə də olsa, Qubaya, Qusara, Xızı dağlarına gedir, çay kənarında oturub nahar edir, Göyçəni, Ağbabanı xatırlayıb kədərə, qəmə bürünürdük. Hər şey kino lenti kimi gözümüzün önündən keçir, xatirələr bizi qayğısız uşaqlıq illərinə aparırdı. İbrahim Arpa gölünü, mən isə laciverd Göyçə gölünün dumduru sularını, dağ yelinin nəvazişlə sığal çəkdiyi qırçın ləpələrini xatırlayıb için-için qovrulardıq. Vətən həsrətinin göynərtisindən, ağır duyğulardan təsirlənib daxilən sarsılırdıq. Axşam evə dönəndə maşına oturub, hərəmiz öz dünyamıza çəkilib uzun müddət susardıq. Hərdən mənə elə gəlirdi ki, biz bu səfərlərə Vətən həsrətini içimizdə yaşatmaq üçün gedirik. O həsrət bizi geriyə, yurdlarımıza səsləyir, doğmalarımızın gözü yolda qalmış ruhlarının ağrısına məlhəm olmağa, yağı tapdağındakı torpaqlarımız uğrunda son və qəti savaşa çağırır.

Türkün qisası yaman olur. Adil bir savaş var qarşıda. Məni heç tək buraxmazdın, İbrahim. Bu savaşda tək buraxdın məni. Yox, dönüklük sənə yad idi. Fələk niyə qıydı sənə?

Ünlü türk şairi Sezai Karakoçun "Sakın kader deme, kaderin üstünde bir kader vardır" şeirini çox sevirdi İbrahim...

* * *

*Sevgili,*
*En sevgili,*
*Ey sevgili!*

*Uzatma dünya sürgünümü benim!*
*Ülkendeki kuşlardan ne haber vardır?*
*Mezarlardan bile yükselen bir bahar vardır.*

*Aşk celladından ne çıkar, madem ki yar vardır*
*Yoktan da, vardan da öte bir Var vardır.*

*Hep suç bende degil, beni yakıp yıkan bir nazar vardır*
*O şarkıya özenip söylenecek mısralar vardır.*

*Sakın kader deme, kaderin üstünde bir kader vardır*
*Ne yapsalar boş, göklerden gelen bir karar vardır*
*Gün batsa ne olur, geceyi onaran bir mimar vardır.*

*Yanmışsam, külümden yapılan bir hisar vardır*
*Yenilgi-yenilgi büyüyen bir zafer vardır*
*Sırların sırrına ermek için sende anahtar vardır.*

*Göysünde sürgününü geri çağıran bir damar vardır*
*Senden umut kessem, kalbinde merhamet adlı bir çınar vardır.*

*Uzatma dünya sürgünümü benim!*

Kader səni aramızdan vaxtsız apardı, nə sən gözləyirdin o kaderi, nə də biz.

**Dostmu deyim, qardaşmı deyim, bilmirəm. Bircə onu bilirəm ki, sən xeyirxahlıq, səmimiyyət, mərdlik, insanlıq nümunəsi idin!**

**Heyif səndən, İbrahim! Məkanın cənnət olsun!**

***Bakı şəhəri***
***Yanvar, 2015-ci il***

# Xalq qəzeti

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN İŞLƏR İDARƏSİ

SERVICE OF HEAD
OF THE ADMINISTRATIVE DEPARTMENT
OF THE PRESIDENT OF THE REPUBLIC
OF AZERBAIJAN

Ünvan: Bakı, Bülbül prospekti, 30
Tel.: (99412) 4932475  Faks: (99412) 493-02-80

Address: Bulbul av. 30, Baku Azerbaijan
Ph.: (99412) 4932475  Fax: (99412) 493-02-80

№ _____

"21" yanvar 2014

**"Xalq qəzeti" baş redaktorunun**
**birinci müavini, redaksiya kollegiyasının üzvü**
**Ömərov İbrahim Nizami oğluna**

## XASİYYƏTNAMƏ

14 may 1977-ci il təvəllüdlü Ömərov İbrahim Nizami oglu 1994-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika fakültəsinə daxil olmuş, 1998-ci ildə **fizik** ixtisası üzrə universitetin bakalavr pilləsini bitirmişdir. 2001-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə daxil olmuş, 2006-cı ildə həmin universitetin **"mühəndis iqtisadiyyatı və idarəetmə"** ixtisası üzrə bakalavr pilləsini bitirmişdir. 2007-ci ildə Qafqaz Universitetinin Magistraturasına **"Biznesin təşkili və idarəedilməsi"** ixtisası üzrə qəbul olmuş, 2009-cu ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə 1996-cı ildən "Respublika" qəzetində texniki redaktor kimi başlamış, 1998-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İnformasiya Texnologiyaları İnstitutunun "Elm" İnformasiya Agentliyində müxbir, 2003-cü ildən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti Aparatında aparıcı mütəxəssis və 2003-cü ildən "Xalq qəzeti" redaksiyasında texniki direktor, icraçı direktor vəzifələrində çalışmışdır. Hazırda qəzetdə baş redaktorun birinci müavini vəzifəsində fəaliyyət göstərir.

İ.N.Ömərov onlarla elmi-kütləvi məqalənin müəllifidir.

"Xalq qəzeti" redaksiyasında çalışdığı müddətdə daxili nizam-intizam qaydalarına xüsusi diqqət yetirmiş, texniki sahənin modernləşdirilməsinə, mühasibatlıq və kadrlar şöbəsində işin təşkilinə böyük əmək sərf etmiş, bir sıra respublika və beynəlxalq səviyyəli tədbirlərdə fəal iştirak etmişdir.

İşlədiyi müddət ərzində intellektual səviyyəsi, bacarığı, çalışqanlığı, mədəni davranışı ilə kollektivin hörmət və rəğbətini qazanmışdır. İ.N.Ömərov öz işini vicdan və məsuliyyətlə yerinə yetirən mütəxəssis kimi tanınır, yüksək məsuliyyət hissinə malikdir. İ.N.Ömərov bilik və bacarığını daha da yüksəltmək üçün daim öz üzərində çalışır. Rəhbərlik tərəfindən verilən tapşırıqları vaxtında və məsuliyyətlə yerinə yetirir.

Xasiyyətnamə istənilən yerə təqdim etmək üçün verilir.

**Baş redaktor:** **Həsən HƏSƏNOV**

21.01.2014



**Aida ŞÜKÜRLÜ,**
*"Xalq qəzeti"*

## CAVAN ÖMRÜN SON BAHARI...
## Yaxud, təsəllimizə çevrilmiş işıq

Tanrı ondan heç nəyi əsirgəməmişdi. Ağıllı, savadlı, xeyirxah, zəhmətkeş, alicənab, yaraşıqlıydı. Həyat eşqiylə dolu, yaşamağa, yaratmağa həvəsliydi, gələcəyə inamla baxırdı. Həqiqətləri deyə biləcək qədər cəsarətli, insanı sona kimi dinləyə biləcək qədər mədəni, anlaya biləcək qədər həssas idi. Elə bil, çöhrəsinə yazılmışdı daxili aləmi. Bəzən bəxtəvər uşaqlar kimi qayğısız, bəzən ahıllar kimi düşüncəli olurdu. Müsbət aurası vardı – onun olduğu yerdə adam özünü rahat hiss edirdi. Yüksək mədəniyyətə, etikaya malik, mehriban, diqqətcil idi. Daim öyrənməyə, irəliyə getməyə can atırdı. Çalışqan olduğundan passiv insanları qəbul edə bilmirdi. Sözünü deməyi bacarırdı, həyatdan nə istədiyini də bilirdi. Özünə məxsus jestləri ilə seçilir, sevilirdi. Həyatı və insanları sevirdi. O, yaxşıların yaxşılarından idi.

...Lakin əcəl, zaman möhlət vermədi. Deyirlər, zaman dərdlərə dərman, yaralara məlhəmdi, qəm-qüssəni unutdurur, ağrı-acıları yüngülləşdirir. Bəzən isə zaman öz "xeyirxahlıq"

missiyasından çıxaraq aldığının əvəzində heç nə vermir. Zaman onu da bizdən belə ayırdı – aman vermədən. Ölüm ona yaraşmadığını bilirdi. Öz qurbanının qürurlu olduğunu, ona asanlıqla boyun əyməyəcəyini də bilirdi. Ona görə də zamanla əlbir olub gəlmişdi. Yalnız onun özü məsum uşaq kimi taleyin bu amansız oyunundan, qansız ölümün böyür-başında dolanmağından, zamanın xəyanətindən xəbərsiz idi. Ölüm xəbərətərsiz "qəlbinə girərək" onu şah damarından vurdu, saf qəlbi isə bu qəfil zərbəyə tab gətirə bilmədi.

Heyif ki, həyatımızdan ömrünün cavan çağında baharı xəzan olan bir insan da köçdü. Sıradan biri deyil, sevdiyimiz, dəyər verdiyimiz, yoxluğundan sarsıldığımız biri... Qəfil gedişi ilə qəlbimizdə ağır bir itkinin izini qoyan, bəlkə heç vaxt unuda bilməyəcəyimiz biri ... Haqqında söz açarkən nəyisə keçmişdə olduğu kimi danışa bilmədiyimiz, hər an varlığını, aramızda olduğunu hiss etdiyimiz biri... Şux qaməti, yaraşıqlı boy-buxunu, işıqlı siması, şaqraq gülüşləri ilə yaddaşlara həkk olunmuş bu insan sanki özünü sevdirmək üçün gəlmişdi bu dünyaya.

Haqqında yazmaq istədiyim, lakin nə qələmə, nə də barmaqlarıma gümanım yoxkən, ürəyimin hökmü ilə içimdəkiləri bölüşə biləcəyimə inanmaq istərdim özüm də. Bir daha "İbrahim Nizamioğlu" imzasını qəzetimizin səhifələrində görməyi arzuladığım qədər inanmaq istərdim. O, mənim hafizəmdə yarımçıq notu xatırladan bir ömür kimi qaldı. Sanki peşəkar bir bəstəçi sevdiyi, həyat eşqi ilə dolu şahanə əsərini pianoda çalarkən barmaqları sınmış kimi qaldı. Başqa birisi isə heç vaxt səsləndirə bilməzdi bu əsəri...

14 may 1977-ci ildə dünyaya gəlmişdi. 14 mart 2014-cü ildə əcəl onu bu dünyadan, sevdiklərindən, əzizlərindən ayırdı. Oxumaq, biliklərə yiyələnmək ən böyük arzusu idi. 1994-cü ildə Bakının Suraxanı rayonunda orta məktəbi bitirmişdi. 1998-

ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 2006-cı ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini, 2009-ci ildə Qafqaz Universitetinin "Biznesin təşkili və idarə edilməsi" ixtisası üzrə magistraturanı fərqlənmə diplomu ilə başa vurmuşdu. Əmək fəaliyyətinə 1996-cı ildə "Respublika" qəzetində texniki redaktor kimi başlamış, 1998-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İnformasiya Texnologiyaları İnstitutunun "Elm" İnformasiya Agentliyində müxbir, 2003-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti Aparatında aparıcı mütəxəssis və elə həmin ildən "Xalq qəzeti"ndə texniki direktor, icraçı direktor və baş redaktorun birinci müavini vəzifələrində çalışmışdı. 2012-ci ildən AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin doktorantı idi. Xeyli elmi-kütləvi məqalənin müəllifiydi. 2014-cü il yanvarın 28-də Sumqayıt Dövlət Universitetinin prorektoru vəzifəsinə təyin olunmuşdu.

Öyrənmək həvəsi, bacarığı, məsuliyyəti, işinə bağlılığı, zəhmətsevərliyi ilə o, kollektivdə seçilirdi.

...Bu kollektivdə çalışdığım ilk gündən mən də məhrəm, yaxın bir insan kimi onun xatirini çox istədim. İnsanları xoş sözlərlə, xoş təbəssümlə salamlamağı sanki özünə borc bilirdi. İşinin çoxluğundan, vaxtının azlığından asılı olmayaraq, hər kəsi özünəməxsus nəzakətlə qarşılayardı. Ən vacib işini, telefon danışığını belə yarımçıq saxlayıb adamı sona qədər dinləyər, problemi varsa, kömək etmək üçün əlindən gələni əsirgəməzdi. Onun gülüşü ən gərgin anda belə qəlblərə sərinlik, sevinc, fərəh gətirərdi. Bəzən mənə elə gəlir ki, yenə hardansa tələsə-tələsə gələrək özünəxas təbəssümlə hamını salamlayacaq və "bu, bir zarafatdı"deyə könlümüzü alacaq. Ancaq nə fayda... Bu acı həqiqətə inanmaq çox ağırdır – onun yoxluğunu dərk edə biləcək qədər ağır...

Bu otağa girmək çox çətindir... Onun yoxluğuna inanmamaq üçün qapını bircə dəfə açıb içəri boylanmaq yetər. Və sənə elə gələr ki, "qapıda niyə durmusuz, keçin içəri, oturun" – deyib həmişəki nəzakətlə yer göstərəcək. Bunları düşünmək çox xoş, eşidə biləcəyinə inanmaq istəyin də bəlli. Olanları dərk etmək isə ağırdan ağır. Elə ona görə də bu qapının arxasında duranlar da çox olacaq, möcüzə gözləyənlər də. Elə mənim kimi...

Hər axşam beşinci mərtəbədən içəri keçərkən nədənsə onun kabinetinin işığını görürkən sakitlik çökürdü qəlbimə. Və mənə elə gəlirdi ki, bu gün hər şey yaxşı olacaq. O gündən bəri qəribə bir sükut çöküb 5-ci mərtəbəyə. O sükutun ağırlığını hiss edir, səssiz harayını eşidirəm. Yenə də qeyri-ixtiyari bu qapıya, oradan gələn işığa baxıram. Təəssüflə köks ötürüb o sükutun harayına qulaq kəsilirəm.

İlin əvvəlində SDU-ya prorektor təyin olunduğunu eşidərkən uğurlarına sevinsəm də, onun bizdən getməyini heç istəmirdim. İşdən ayrıldıqdan sonra redaksiyaya az-az gəlirdi, onu təbrik etməyə imkanım olmamışdı. Münasib bir vaxt gözləyirdim ürək sözlərimi deməyə. Bir də deyəcəkdim ki, niyə bizdən getdin? Deyə bilmədim. Vaxt imkan vermədi.

Bağışla məni, İbrahim... Sənə xoş sözlər deməyə imkan olmadı. Bu gün ad günündür*, bağışla ki, ömrünün 37-ci baharını təbrik edə bilmədim. Bağışla ki, sənin haqqında bunları yazmağa məcbur oldum. İndi yalnız bunu deyə bilərəm...Heyif səndən, çox heyif. Sənin cismani yoxluğun bizə böyük dərd oldu. Təsəllimiz odur ki, kabinetinin pəncərəsindən süzülən nur kimi, səni tanıyanların qəlbində yandırdığın xeyirxahlıq, səmimiyyət işığı da daim yanır və yanacaq.

Ruhun şad olsun!

* *Məqalə İbrahimin ad günündə yazılmışdır.*



**Anar TURAN,**
*"Xalq qəzeti"*

## SƏMİMİYYƏT NÜMUNƏSİ

O gün görüşəcəkdik... Vədələşmişdik ki, həmin gün redaksiyada görüşək. Əslində, "görüşdük"... Həmişəki kimi, heç birimiz vədimizə xilaf çıxmadıq. Lakin redaksiyada yox.., Əmircan qəbiristanlığında...

Səhər tezdən işə gələrkən aldığımız bəd xəbər hamımızı sarsıtdı: İbrahim dünyasını dəyişmişdi! Heç vaxt ağlımıza gəlməzdi ki, onun yoxluğu ilə qarşılaşacağıq, özü də belə tez. İnsanları sarsıdan da çox vaxt bu olur: ölümündən ehtiyat etdiklərimizin deyil, etmədiklərimizin ölüm xəbəri...

Artıq bundan sonra dostları, yaxınları, 14 mart tarixini heç vaxt xoş bir gün kimi xatırlaya bilməyəcəklər. Bu tarixdə "Xalq qəzeti"nin kollektivi olaraq, biz bir dostumuzu, sevimli həmkarımızı itirdik. Təbii ki, dərin yasa batmış kollektivdə heç kəs bu acı sonluğa inanmaq belə istəmirdi. Lakin bu, həqiqət idi. Nə qədər acı olsa da barışmalı idik. Biz onu itirmişdik... O gün bütün dostları, tanışları, yaxınları onun aramızdan vaxtsız, cavan ikən köçməsinə göz yaşı axıtdı...

O, xaraktercə bütöv insan idi, yarımçıqlığı xoşlamazdı: ürəkdən sevərdi, ürəkdən nifrət edərdi, ürəkdən sevinərdi, ürəkdən gülərdi.., ürəkdən də vəfat etdi.

Bəli, comərdliyinə, səmimiyyətinə, ağlına hörmət bəslədiyimiz bir Azərbaycan oğlunu itirdik. Nə etmək olar... Görünür, bu da bir tale qisməti imiş. İbrahim iki ay da yaşasaydı, dost-tanış yığışıb onun 37 yaşını qeyd edəcəkdi. O, 1977-ci il mayın 14-də (Qəribəliyə bax: mayın 14-də dünyaya gəldi, martın 14-də isə dünyasını dəyişdi) Qərbi Azərbaycanın Ağbaba mahalının Göllü kəndində anadan olmuşdu. 1998-cü ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun fizika fakültəsini, 2006-cı ildə Azərbaycan Memarlıq və İnşaat Universitetininin mühəndis iqtisadiyyatı fakültəsini bitirmişdi. 2007-ci ildə Azərbaycan Qafqaz Univesiteti biznesin təşkili və idarəedilməsi fakültəsinə qəbul olmuş, 2009-cu ildə magistratura pilləsini fərqlənmə diplomu ilə başa vurmuşdu.

İbrahim qeyri-adi insan idi. İnsanlarla münasibətində ədalət prinsiplərinə dəqiqliklə əməl etməyə çalışardı. İradı da elə bildirərdi ki, qarşı tərəfi ümidsizliyə salmasın, xətrinə dəyməsin. Son dərəcə əməksevər idi. Ən gərgin iş saatlarında belə kabinetinə daxil olan insanlara qarşı alicənablığını itirməzdi. Eşitdiyimizə görə, prorektor təyin olunduğu Sumqayıt Dövlət Universitetində də mehriban, səmimi, işgüzar mühit yaratmışdı. İşə çox böyük enerji sərf edər, başladığı işi yeni uğurlu təməllər üzərində qurmaq üçün həvəslə çalışırdı. Buna görə də qısa müddət ərzində kollektivin, rəhbərliyin etimadını qazanmışdı. Bir sözlə, o, əsl insan idi...

Mərhum xalq şairimiz Cabir Novruzun "Sağlığında qiymət verin insanlara" şeirini oxuyanda bu fani dünyadan nakam getmiş, hələ sağ ikən dəyəri, qədri bilinməmiş şəxslər göz önündə canlanır. Belə hallar həmişə olmuş və olacaqdır. İnsan-

lar bəzən hətta özlərinə ən yaxın adamları belə sağ ikən qiymətləndirməyə tələsmirlər. Bu dünyadan köçəndən sonra isə onlar haqqında ağız dolusu danışmağa başlayır və bununla sanki mərhum qarşısında borclarını ödədiklərini sanırlar. Sağlığında dəyəri verilməmiş insanın öləndən sonra haqqında deyilən ən xoş sözlər isə nə qədər cəlbedici görünsə də, bir o qədər də mənasız alınır.

Bu baxımdan o, şanslı idi, ona görə ki, onun dəyəri hələ sağlığında verilmişdi. İbrahim layiqli ömür sürdü. Çalışdı, öyrəndi, əziyyət çəkdi, illərini mətbuat orqanlarında keçirdi, "Respublika" qəzetində, daha sonra isə "Xalq qəzeti"ndə işlədi. Baş redaktorun müavini vəzifəsinədək yüksəldi. AMEA-nın Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun doktorantı oldu. Ay yarım bundan əvvəl Sumqayıt Dövlət Universitetinin prorektoru vəzifəsinə təyin edildi. Müxtəlif beynəlxalq seminar və konfranslarda iştirakçı oldu, çıxışlar etdi. Yəni, o, sağlığında qiymətləndirilməmək kimi bir mənəvi problem yaşamadı. Daim işlədiyi müəsisələrdə sevildi, seçildi, hörmət-izzət sahibi oldu. Üstəlik, Tanrı ona xoşbəxt ailə sahibi, iki gül balanın atası olmaq kimi şərəfli hiss də yaşatdı. Yaşına görə sanballı məqama, əhəmiyyətli uğurlara sahib olmuşdu. Lakin onun çatışmayan bir şeyi var idi. Vaxtı. O, bunu bilməsə də, tale onun barəsində öz hökmünü vermişdi. Amma o, az müddətdə əsl Azərbaycan oğluna yaraşan xasiyyəti ilə, karyerasındakı uğurlarla özünü sübut etməyi bacardı. Taleyi qısa, ömür yolu isə zəngin oldu.

Sosial şəbəkələrdə onun vəfatı barədə xəbərləri paylaşdıqdan dərhal sonra tanışların, yeni insanların, hətta həyatda görüşmədiyi bəzi virtual dostların üzüntülü reaksiyası "isti-isti" özünü büruzə verdi. Onlardan birini diqqətə çatdırmaq istərdik. Gənc tədqiqatçı-alim Yusif Əliyev yazır: "Onun şəklini

görər-görməz düşündüm ki, yəqin, dostumuz növbəti uğura imza atıb, yüksək vəzifəyə təyinat alıb. Nə biləydim ki, İbrahim Allahın dərgahına yüksəlib. Onun ömrünün 37-ci ilində ölümü qəlbimizə 37-ci illərin dağı qədər dağ çəkdi."

Bəli, bu, həqiqətdir ki, İbrahim Nizami oğlu Ömərov belə tezliklə "əlvida" deyiləcək insan deyildi. O, səmimiyyətin özü idi...

Həyatın kimə aman verməsi ilə, kiminlə amansız davranması haqqında ədalət mühakiməsi qurmadan ailəsinə, yaxınlarına, dost-tanışlarına "Başınız sağ olsun" deyirik. Uca Allahdan İbrahimin ruhuna rəhmət diləyirik.

# İBRAHİM SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ: GƏNC PROREKTORUN İKİ AYLIQ FƏALİYYƏTİ



5008, Sumqayıt şəhəri, 43-cü məh. tel. 2-02-70

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

ƏMR

№ K-02-058/2

«28» 01 20 4-cü ı

Əmək müqaviləsi barədə

Ömərov İbrahim Nizami oğlu (alitəhsilli)

1. Universitetin İnzibati təsərrüfat işləri üzrə prorektor vəzifəsinə əmək müqaviləsi ilə 28.01.2014-cü il tarixindən qəbul edilsin. Əməkhaqqı ştat cədvəli üzrə ödənilsin və SDU-nin büdcədənkənar gəlirlər hesabından 400 (dörd yüz) manat məbləğində əlavə əməkhaqqı (maddi yardım) ödənilsin.

2. Əsas Azər.Resp Təhsil Naziri M.Cabbarovun №-11 73 27 01.2014-cü il tarixli əmri rektor vəzifəsini icra edən E.B.Hüseynovun dərkənarı ilə və əmək müqaviləsi.

Rektor vəzifəsini icra edən dos.E.B.Hüseynov

Layihəni tərtib etdi
KŞ-nin müdiri N.Ş Əhmədov

Razılaşdırıldı:
Baş mühasib Ş H.Abdu ayev
Baş hüquqşünas Ə.A.Həsənova

Sumqayıt Dövlət Universiteti
Əslı ilə düzdür:
Təsdiq edirəm: Ümumi şöbənin
müdiri E.E.Məmmədova
«28» 01 2014



**Aslan Bayramov,**
*SDU-nun professoru*

## TƏMƏNNASIZ İBRAHİM

Dahilərdən kimsə insana üç dəfə ad verilməsini deyir. Birinci adı insana anadan olduqdan sonra verilir. Bu ad valideynin uşağına ilk hədiyyəsi sayılır. Hər kəs onu ölənədək qorumağı bacarmalıdır.

Ikinci adı gəncliyində, bacarığına, davranışına və digər fəaliyyətinə görə özü qazanır. Vəzifəsi, təhsili, peşə-sənət fəaliyyəti ilə bağlı olaraq öz adını həyatda doğruldur, daha doğrusu, təsdiq edir. Əgər bunları etmirsə "adı batsın", "adımızı batırdı" deyirlər.

Üçüncü adı isə sağlığında xeyirxah işlər görübsə, hörmət qazanıbsa rəhmətə gedəndən sonra qazanır. Xeyirdə, şərdə, yığıncaq və toplantılarda həmişə yada salınır. Onun xeyirxah əməllərini kimsə dilə gətirir. Yaxşı mənada onun adı hörmət və saygı ilə çəkilir, rəhmətlə anılır.

Öz xeyirxah əməlləri, səmimiliyi, davranışı ilə hörmət qazanan, amma həyatdan vaxtsız köçən insanlar haqqında anılmalar və xatırlamalar daha çox nəzərə çarpır. Bax budur,

öləndən sonra üçüncü dəfə ad qazanmaq. Ona görə də təsadüfi deməyiblər ki, adı ilə yaşasın.

*Ömür dediklərin coşqun çay kimi,*
*Kükrəyib, köpürür hər zaman gedir.*
*Ona bel bağlama o qədər də sən,*
*Bəzən açılmamış gül, bağban gedir.*

Belə nəcib və yaddaqalan insanlardan biri də aramızdan vaxtsız köçən, qəfil ölümün pəncəsindən qurtara bilməyən İbrahim Nizami oğlu Ömərov idi. Onun mənsub olduğu Məmmədcanlı tayfası Ağbaba mahalında çox məşhur idi. Nəsil şəcərəsi XIX əsrin sonu, XX əsrin əvvəllərində Ağbaba, Şörəyel, Pəmbək, Axırkələk, Borçalı, bütövlükdə Qars-Çıldır vilayətlərində igidliyi ilə ad-san qazanan, məşhur Qaçaq Usufa söykənir (Qaçaq Usufun qəbri Göllü kəndində idi).

İbrahimin ata babası Alı kişi, ana babası Kazım kişi, əmiləri Osman və Həmid Ağbabanın azman kişilərindən idilər. Bəli, azman kişilərindən. Amasiya rayonunun Göllü kəndində yaşayırdılar. Qapıları qonaq-qaralı olardı həmişə. Bunu hər bir ağbabalı bilir. Atası Nizami müəllim mənimlə həmyaşıd idi. Amasiya rayon ət tədarükü idarəsinin baş hesabdarı idi. Amasiya maldarlıq rayonu olduğu üçün rayonun 23 kəndində yaşayan azərbaycanlıların o idarə ilə yaxından əlaqəsi var idi. Bununla bağlı olaraq o, hamıya əl tutardı. Nizami Ömərov həm də gözəl poetik biçimli, vətən həsrətli şeirləri ilə də tanınardı. 1989-cu ilin qışında onların da ailəsi qaçqın kimi yaxın qohumları ilə birlikdə Suraxanı qəsəbəsində məskunlaşdılar. Nə yazıq ki, vətən həsrəti, qaçqınlıq Alı kişi, Osman, Həmid və Nizamini də içindən yedi. Hamısı haqqın dərgahına qovuşdular. Qardaşı da vaxtsız rəhmətə getdi. Suraxanı qəbiristan-

lığına yolumuz düşəndə o səmimi, qayğıkeş və qonaqpərvər insanların sıralanmış qəbirlərinə, qəbir daşlarında əbədiləşən çöhrələrinə baxıb köksünü ötürürsən. Nə etmək olar, dünyanın belə işləri də olur.

İbrahim müəllim qurub-yaratmaq eşqi ilə yaşadığı bir vaxtda Təhsil Nazirinin əmri ilə Sumqayıt Dövlət Universitetinə iqtisadi məsələlər üzrə prorektor təyin olundu. Cəmi ay yarım işlədi. Bu qısa vaxtda o öz təşkilatçılıq bacarığını göstərə bildi. Amma, necə deyərlər, tez parladı, tez də söndü. İndi o, bir ildir ki, aramızda yoxdur. Amma mən deyərdim ki, qısa vaxt kəsiyində gördüyü işlərə, alicənablığına, işgüzarlığına və insanlara münasibətindəki səmimiyyətinə görə o hər gün xatırlanır, rəhmətlə anılır. Qısa bir vaxtda universitet kollektivi arasında, həm də rektorluq səviyyəsində işgüzarlığı və mədəniyyətinə görə özünə hörmət qazandı. Universitetin maddi-texniki bazasını möhkəmlətmək üçün gecə-gündüz çalışdı. Bu işə ürəkdən girişdi. İlk öncə yeni ocaqxananın bünövrəsinin qoyulmasında xeyli əmək sərf etdi. Buna o sevinirdi də. İstilik sisteminin yeni texnologiya əsasında çəkilişinə başlanıldı. Yeni mebel dəstlərinin, kompüter və laboratoriya avadanlıqlarının, elektron lövhələrin alınması üçün tez-tez Nazirliyə gedib-gələrdi. Yeni ixtisasların alınması, tələbə qəbulunun artımını nəzərə alaraq auditoriyaların təmiri, əlavə otaqların hazırlanması və digər sahələrin inkişaf etdirilməsi məsələlərində rektorun yaxın köməkçisinə çevrildi.

Universitetin bir çox kafedra, dekanlıq və şöbələrinin yeni avadanlıqlarla təchiz olunmasında onun az rolu olmamışdır. Onun iş otağı hamının üzünə açıq idi. Kim onun iş otağına üz tuturdusa, peşman qayıtmırdı. O, tabeliyində olan təsərrüfat işçilərinə çox qayğı ilə yanaşır, onlara səmimi münasibət göstərirdi.

Yaş fərqimiz çox olmasına baxmayaraq onunla səmimi dost idik. Dostluğumuz tuturdu. Ona görə ki, o böyük-kiçik yeri bilən idi. Bu da bəllidir ki, sadə insanların dostluğu təbii olur.

Ümumiyyətlə, İbrahim kiməsə kömək göstərəndə bundan həzz alırdı. Bu xüsusiyyət ona genindən gəlmişdi.

Yadımdadır, 2000-ci ildə Qərbi Azərbaycanla bağlı olaraq "Oğuz elindən, ozan dilindən" kitabımı - folklor toplusunu çapa hazırlayırdım. Etnoqrafik şəkillərin bərpa edib kitaba yerləşdirilməsi lazım idi. O dövr üçün bu, çətin işlərdən biri idi. Üz tutdum İbrahim müəllimə. O vaxt "Respublika" qəzetinin kompüter mərkəzində işləyirdi. Orada da keyfiyyətli izoqraflar vardı. O, şəkilləri yüksək keyfiyyətlə bərpa edib kitaba saldı. 2007-ci ildə "Kitabi-Dədə Qorqud toponimləri və Qafqaz arealı" adlı dərs vəsaitimi nəşr etdirəndə də dastanla bağlı qala şəkillərini, tərtib etdiyim xəritəni böyük zövqlə mətnlərə yerləşdirdi. Ümumiyyətlə, hər iki kitabın tərtibatı və dizaynını o vermişdir. Bu kitabların nəşr olunmasında mənə təmənnasız köməklik göstərdi.

Həyat eşqi, qurub yaratmaq arzusu ilə yaşayan, ailəsi, qohum-əqrabası, dostları və ətrafındakı insanlara dərin sevgi bəsləyən İbrahim müəllim onu tanıyıb sevənlərin qəlbində özünün xeyirxah əməlləri ilə həmişə yaşayacaqdır. Allah rəhmət eləsin! Heyf ona! Xalq şairi M.Rahim bu şeiri sanki İbrahimi nəzərdə tutaraq yazmışdır:

*Ey könül, fürsəti bada vermə heç,*
*Gün keçir, ay ötür, il yaman gedir.*
*Yarat, sən köçəndə ellər söyləsin*
*Dünyadan nə gözəl bir insan gedir.*



**Avtandil Ağbaba,**
*Respublikanın əməkdar jurnalisti, dosent*

# ÖMÜRDƏN QOPAN KƏRPİCLƏR

Qəfil ölümlər həmişə amansız olub. Hamı kimi mən də qəfil ölümlərin varlığına inanmamışam. Daha doğrusu, inanmaq istəməmişəm. Ölüm onsuz da heç kəsə, heç nəyə baxmadan bildiyini eləyir. Vaxtlı-vaxtsız, vədəli-vədəsiz tutduğunu aparır. Nə qədər acı olsa da, hamı bu sirli varlıqla barışmalı, taleyin hökmünə boyun əyməli olur.

İbrahimin ölüm xəbəri də beləcə oldu. Qəflətən gəldiyi kimi qəflətən də getdi. Özü ilə bir dünya kədər qoydu. İbrahimin yoxluğundan, əbədiyyətə qovuşmasından doğan bir dünya kədər...

Onun gülərüz çöhrəsini, həlim təbəssümünü, şirin danışığını kim unuda bilər?! Sumqayıt Dövlət Universitetində inzibati və təsərrüfat işləri üzrə prorektor işlədiyi qısa bir müddətdə böyük bir kollektivin dərin hörmətini qazandı. Eşqi, amalı yalnız qurub-yaratmaqdı. Qurdu, yaratdı da. Az bir müddət ərzində universitetdə xeyli iş gördü. Onu tanıyanların qəlbində də qurub-yaradan, həmişə yaxşılığa can atan bir insan kimi qaldı.

İbrahim Ömərov Qərbi Azərbaycanın Ağbaba mahalının Göllü kəndində anadan olmuşdu. Babası Alı kişi, atası Nizami Məmmədcanlı Ağbabanın sayılıb-seçilən kişilərindən idi. Dayıları Kamran və Hümbət Musayevlər Azərbaycanın tanınmış ziyalılarıdır. Məmmədcanlılar nəsli Qarsdan, Borçalıdan, Qazaxdan üzü belə səpələnmişdilər. Xeyirxah işləri, işıqlı əməlləri ilə ad-san qazanmışdılar. İbrahimin atası Nizami Məmmədcanlı ilə gəncliyimdə Ağbabanın Öksüz kənd məktəbində müəllim işləmişdim. Sonralar tale elə gətirdi ki, onunla birlikdə "Qaçaq Usuf" dastanını toplayıb Bakıda nəşr etdirdik. Qaçaq Usuf XX əsrin əvvəllərində çar Rusiyasına qarşı mübarizə aparan el qəhrəmanlarından biri olmuşdu. İgidliyi, səxavəti ilə ətraf mahallarda da ad çıxarmışdı. Oğlu Məmmədvəli 1918-ci ildə Qarsın müdafiəsində böyük şücaət göstərmişdi. İndi Qaçaq Usufun törəmələrinin bir tirəsi Qarsda, Türkiyənin digər ərazilərində yaşayırlar.

Nizami Məmmədcanlı bu dastandan, onun qəhrəmanları Qaçaq Usufdan, Allahyar bəydən, Astan ağadan həmişə həyəcanla, sinədolusu danışardı. Nizaminin nəsli də Qaçaq Usufun törəmələrindən idi. 1988-ci ildə deportasiya olunduqdan sonra Bakıda məskunlaşmışdı. Ancaq doğma Ağbabanı, Göllünün buz bulaqlarını, alp çəmənliklərini heç vaxt unuda bilmirdi. Elə bu həsrətlə dünyadan köçdü. Amansız əcəlin sərt küləkləri ulu bir nəslin yarpaq tökümünü biçib qurtarmaqdan doymadı. O yarpaqdan biri də İbrahim oldu. Yaşıl, bahar ətirli bir yarpaq... Qədim bir el bayatısında deyilir:

*Əzizim hər ayından,*
*Hər ulduz, hər ayından,*
*Gündə bir kərpic qopur,*
*Ömrümün sarayından.*

Hər dəfə bu bayatı yaddaşımda dolaşdıqca mənə elə gəlir ki, ömürdən kərpiclər yalnız illərin bir-birini qovması ilə düşmür. Yaxın və doğma adamları itirdikcə bu kərpiclər seyrəlir, bir-bir laxlayıb qopur. İbrahim də neçə-neçə insanın ömür-gün sarayından qəflətən qopan və həmişə yeri görünən qızıl bir kərpic idi...

## İbrahim

***Dünyadan vaxtsız köçmüş***
***İbrahim Ömərovun əziz xatirəsinə***

*Parladı ay kimi, batdı gün kimi,*
*Bahar çiçəyi tək soldu İbrahim.*
*Bir axşam ahəstə yumub gözünü,*
*Əbədi yuxuya daldı İbrahim.*

*Kimsəyə dərdini açmadı, getdi,*
*Əngin fəzalara uçmadı, getdi,*
*Bir cüt balasını qucmadı, getdi,*
*Dərdini tək özü bildi İbrahim.*

*Köksündə min arzu, min bir istəyi,*
*Qurub yaratmaqdı eşqi, diləyi,*
*Baxmadı sözünə namərd ürəyi,*
*Ölümün üstünə güldü İbrahim.*

*Ömür yaz-qış deyil qayıda gələ,*
*Kim əlac tapıb ki vaxtsız əcələ?!*
*Ayrılıb gedəndə eh, gülə-gülə,*
*Yenidən dünyaya gəldi İbrahim.*



**Dəyanət Səlimxanlı,**
*şair-jurnalist, Məmməd Araz və Qızıl qələm mükafatı laureatı*

# Bir səhərin baş Mübtədasından gələn ağrılı, acılı baş

### *Xəbər və ya nekroloq əvəzi*

Gecə doğan bu acı xəbərin çəkisi o qədər ağır idi ki, səhər açılmaq bilmirdi. O gecə bu acı xəbərdən telefon zəngləri ürpəşir, səksənir, inanmır, özünə yer tapa bilmirdi. O gecənin baş xəbəri – dünyasını dəyişdi İbrahim. Əslində elə baş mübtəda da İbrahim idi. İşlədiyi son iş yerində qısa vaxtın böyük məhəbbət, hörmət, istək dünyasını yaşadı İbrahim. Çoxlarının illərlə qazana bilmədiyi sevgi dolu bir ünvanı, ümmanı, imanı qazandı İbrahim. Nə vaxt rastlaşırdımsa, salamlaşmağı bir an cəkirdi. Elə hey, hey, hey tələsirdi. İlk tanışlığımız zamanı iş otağında görüşəndə dedim: Üzündə o qədər nur var, elə bil İlahinin sevgi işığıdır. Bunları deyə-deyə ürəyimdə İbrahimin ömür qatarının son dayanacağını duymuşdum.

Həyatimda Allahın çox sevib uca dərgahına çox tez apardığı cavanları çox görmüşdüm. Yenə İbrahim tələsirdi otaqdan çıxmağa. Bilirsən nə qədər işlər var deyə, bir az da duruxdu.

Qəribə idi. Hər bir işi sona çatdırmağa can atırdı hər gün.

Otaqları bir-bir gəzib, kimin nə ehtiyacı var deyirdi. Tələsirdi İbrahim...

Acı xəbərdən iki gün əvvəl Mətbuat Xidmətinin otağına gəlmişdi. Narahat olmayın, nə lazımdırsa deyin. Bəs mən nə üçün bu vəzifədə işləyirəm. Üzünün təbəssümü o qədər nurlu görünürdü ki, sanki səmadan çox-çox yuxarıdan bir xəbər almışdı. İşlər çox, çox, çox. Amma...

Bir çox otaqların yenilənməsinə, təzələnməsinə, əlavə otaqların tikilməsinə ehtiyac var.

Xeyli işlər görmüşdü, üzüdönmüş ömrün qısa zaman kəsiyində nə qədər işlərə başlamışdı.

Amma, ancaq, lakin. Nə cür yazsaq, hansı formada sözü işlətsək də, artıq ömrünün zaman, an, həyat saatının hərəkət saniyəsi, dəqiqəsi dayandı.

Qəribə olan bu möcüzənin isə mən şahidi oldum, onu hiss etdim. Tabutu ata evindən çıxarkən mən də çiynimi altına verib, əzizləri ilə birlikdə yavaş-yavaş gedərkən o anda elə bil İbrahim yatdığı tabutda da son mənzilə tələsirdi. Tabut o qədər incə və yüngül idi ki....

İbrahim son vida görüşündə belə nə əzizlərini, nə də dostlarını incitmək istəmirdi. Doğrusu kitablar deyirlər Uca Allah öz dostlarını öz dərgahına apararkən yer üzünə mələklər göndərir. O mələklər tabutla birlikdə son mənzilə qədər gedirlər. Hətta cənazə namazını da qılırlar. Bu gözəl gün isə hər insana nəsib olmur. Sən doğurdan da Allah dostlarından idin, İbrahim. Yer üzündə də çoxlu dostların var. Vida anında işlədiyin "Xalq qəzeti"nin kollektivi, baş redaktor Həsən Həsənov, "Respublika" qəzetinin baş redaktoru, professor Teymur Əhmədov, tanıdığım və tanımadığım şəxslərin, ən başlıcası son iş yerinin Sumqayıt Dövlət Universitetinin böyük ağrı, acısı içində son mənzilə aparıldın.

Həyat öz axarındadır. Dəyişən bircə göy üzünün boy-boya verən ulduzları sırasında sənin həyat ulduzun oldu.

Dünyasını dəyişmiş əzizlərinin yanına, behişt dünyasına, cənnət bağçasına. Yerin, yurdun, mənzilin mübarək, qardaşım, İbrahim!

*Bu yaş tarixin ölümündən böyük,*
*Ölümün yığışdı göz yaşlarına.*
*Tabutuna hörmətin əyildi.*
*O yaşlar oxşadı yaz yağışına.*

*Tapdı, boyuna yaraşmadı ölüm,*
*Bu yaşın əməli ölümdən uca.*
*Öz gəlişinə barışmadı ölüm,*
*O səni qaldırdı ucalıqlara.*

*Bu son iş yerində qəlb evi tikdin.*
*Müəllim, tələbə İbrahim dedi.*
*Bir gecə əbədi evinə çəkildin*
*Nə qədər dil dedi, ürək göynədi.*

*Bu da bir tarixdir, bu bir xatirə,*
*Elm məbədində adın qalacaq.*
*Buranı nə qədər məzun bitirə,*
*Hər yolu düşən də səni anacaq.*



**Şeyda Quluyeva,**
*SDU-nin Folklorşünaslıq ETL-nın elmi işçisi*

# XEYİRXAH İNSAN

Belədir, dünya xeyirxah insanların əməlləri üzərində qurulur. Xeyirxahlıq, səmimiyyət olmasa, həyat da yoxdur. Təsadüfi demirlər ki: Yaxşı insanlar olmasa, dünyanın nizamı pozular.

Bu xeyirxah insanlardan biri də Sumqayıt Dövlət Universitetində iqtisadi məsələlər üzrə prorektor işləmiş İbrahim müəllim idi. Onu prorektor işləyəndə, həm də əsl insan, həqiqi vətəndaş kimi tanıdım. Öz səmimiliyi və təmkini ilə hamının diqqətini cəlb edirdi. Az müddət ərzində alicənablığı ilə özünü sevdirməyi bacardı. Onun universitetə gəlişi bir canlanmaya, yeniləşməyə səbəb olmuşdu. Həm də tanımasa belə, insanlara qarşı çox həssas idi. Elə bil ki, bizimlə illərlə bir yerdə işləmişdi. Amma elələri olur ki, qarşılaşanda bir Allahın salamını verirsən sənə cavab vermir, özünü görməməzliyə qoyur. Amma İbrahim müəllim həmişə özü birinci salam verməyə çalışardı. Mənə də belə bir insanla görüşmək qismət olub. Belə ki, mən Sumqayıt Dövlət Universitetinin Folklorşünaslıq ETL-da elmi

işçi işləyirəm, həm də universitetin yataqxanasında qalırdım. Bir gün keçmiş rəhbərlik açarları məndən geri aldı.(İndiyə qədər səbəbini bilmədim, bir ildən çox otaq boş qaldı) Mən məcbur olub maaşımın yarısını kirayəyə verməli oldum. İbrahim müəllim gələndən sonra onun qəbuluna gedib dərdimi dedim. Həmin anda mənim otaqla təmin olunmağım üçün göstərişlər verdi və dedi:

-Hələlik köçün. Hər şey yaxşı olacaq, bizim yataqxanamız da tezliklə boşalacaq. Onda bu məsələyə yenidən baxarıq. Sizə daha geniş otaq verərik.

Mən ona öz təşəkkürümü bildirib dedim ki, buna görə çox sağ olun, bu mənə kifayətdir. Ona mənim ömrüm çatarmı?

Sevincimin həddi-hüdudu yox idi. Sabah dəhlizdə rastlaşdıq, ilk sözü bu oldu:

-Müəllimə köçdünmü?

-Yox-dedim.

-Günü bu gün köçün, nəyi gözləyirsiniz?

Mən hiss etdim ki, onunla sabah da rastlaşsam yenə "köçdünmü?" soruşacaq. Yağışlı bir gecədə köçdüm yataqxanaya...

Bu söhbətdən iki gün sonra onun qəfil ölümü bizi sarsıtdı.

O insan hamıya xeyirxahlıq etməyə tələsirdi... Amma onun ömrü çatmadı arzuladığı yenilikləri etməyə... O, cəmi iki aya yaxın prorektor işlədi. Vaxtsız ölümü Universitet əməkdaşlarını yandırıb yaxdı. İndi hamı onu rəhmətlə xatırlayır.

Belə işıqlı arzularla qəlbi dolu olan bir insanın xatirəsi həmişə yaddaşlarda qalacaq. Çünki belə insanlar ölmürlər, həmişəyaşar olurlar. Allah ona rəhmət eləsin!

# İBRAHİM HAQQINDA MAHİR QABİLOĞLUNUN XATİRƏLƏRİ



**Mahir Qabiloğlu,**
*Yazıçı - jurnalist*

## Yeraz Abbasəlinin təəssüfü, Yeraz İbrahimin arzusu...

1988-ci ilin yay ayları idi. Yardımlıda idik. Nənəmgildə. Atam, anam, mən, xalam Raisə, xalamın əri Abbasəli, oğlu Anar... Şəhərin səs-küyündən uzaq, şəlaləli, bulaqlı, meşəlik bir mühitdə... Darıxmırdıq. Anam üçün anası, atası, bacısı, mənim üçün Anar, atam üçünsə həmpiyalə bacanaq Abbasəli. Qarşıda isə 2 aylıq bir yay tətili...

Günlərin bir günü Abbasəli dedi ki, "ay Qabil, sabah gedəcəyəm şəhərə, xalaoğlu Gülmalı ilə gedəcəyik Vətənə - Dərələyəzə (Ermənistan SSR-ə). Uşaqlığımızı yada salacağıq, qohumlarla görüşəcəyik. Bulaqlardan su içəcəyik".

Bu sözləri dedikcə Abbasəlinin gözləri parıldayırdı, işıq sa-

çırdı. Bilirdi ki, bu gün Yardımlı bulağından su içən Abbasəli, sabah bu vaxt Dərələyəzdə olacaq. Uşaqlıq dostlarıyla birlikdə. Qəbrüstünə gedəcəklər, odun daşıyıb tonqal qalayacaqlar. Toğlu kəsib kabab bişirəcəklər.

"Kimiydik. Adi, yetim kənd uşağı. İndi isə polkovnikik, prokurorуruq, idarə rəisiyik" deyərək qoyun otaran balacalara özlərini örnək də göstərəcəklər.

Üstündən iki gün keçdi. Abbasəli Dərələyəzə getmədi. Atam səbəbin soruşanda "Qabil, nə isə Gülmalının işi çıxdı, gedə bilmədik" dedi. Atam sevindi. Abbbasəli getsəydi darıxacaqdı axı...

Yay tətilin başa vurduq. Hamıya məlum, əslində məhcul hadisələr başlandı. Növbəti yay yenə də Yardımlıdaydıq. 1989-cu il idi. Abbasəli qəmgin idi. Dərələyəz yenə də Yardımlıdan cəmi-cümlətanı bir addımlıqda idi. Gülmalı da vəzifədən çıxmışdı. Boş idi. Amma o yerlərə havalanmaq ümidi boşa çıxmışdı. Ara qarışmışdı. Yenə ümid var idi. Bəlkə gələn il... Amma simalarda ümiddən daha çox sual var idi. Keçənilki ümid real idi, builki ümid isə sual. Bütün bunların isə bir cavabı vardı: Təəssüf. Abbasəli bir də Dərələyəzi görməyəcəkdi. Dəfələrlə məzuniyyətə çıxacaqdı. Görməyəcəkdi. Sərhəd Qoşunlarının baş komandanı olacaqdı. Görməyəcəkdi. General-mayor olacaqdı. Görməyəcəkdi. Gülmalı öləcəkdi. Görməyəcəkdi. Eks olacaqdı. Görməyəcəkdi. Bütün bu illərədə onu bir təəssüf boğacaqdı. Allah Gülmalının evin tiksin. Heç olmasa axırıncı dəfə o yerləri görəcəkdik... Üç nöqtə qoyub, köks ötürəcəkdi...

Amma, çifayda...

İbrahim də Ermənıstan SSR-də doğulub. Babası el ağsaqqalı olub. Atası da "myaskombinat"ın direktoru. Kef çəkib. Toyuqları o qədər yumurtlayıb ki, top yerinə yumurtayla basketbol

oynayıb. Evləri həmişə qonaq-qaralı olub. Evin qızları qızlar bulağından, İbrahim isə kişilər məclisindən su içib. Ta o vaxtacan ki, məlum, amma məchul hadisələr başlanıb. Bakıya köçüblər. Suraxınada bir ev alıb sığınıblar. Hər şeyləri olub. Bircə Vətəndən yetim olublar.

İlk günlər siyasi liderləri maksimum, minimum proqramlardan bəhs ediblər. Fikirləşiblər ki, yəqin düzdür, tezliklə Vətənə qayıdacaqlar. Sonra isə siyasi qüvvəyə çevriliblər. Seçkilərdə qalib də gəliblər. Hər şey əldə ediblər. Vətənlərindən başqa. Sonra İbrahim məktəbi bitirib. İnstituta girib. İşə düzəlib. Vətənə can atıb. Deyib ki, "gedəcəm Vətənə, "Siyəzən-broyler"in yumurtalarından aparıb, basketbol oynayacağam. Uşaqlığımı yada salacağam. Mənə kişilik məktəbi keçən, adını daşıdığım babamın məzarını ziyarət edəcəyəm. Ağlayacağam, kövrələcəyəm, sevinəcəyəm. Qonşu ermənininin pəncərəsinə daş atacağam. Haykanuşa göz eləyəcəyəm. Ona "Bahadır və Sona"nağılı oxuyacağam. Göycə gölündən farel balığı tutacağam. Gölün suyunda soyutma bişirəcəyəm. Bakıdan gətirdiyim araqdan babamın ruhuna yüz-yüz vuracağam da".

"İbrahim, İbrahim, ayıl, ayıl. Yaman fikrə getmisən. Səninlə deyiləm?". Müdiri Həsən müəllimdir. Eloğludur. Göyçədəndir. İkisi də kompüterin qabağındadır. Ququlda ("Google") kəndlərinin kosmosdan çəkilən görüntülərinə baxırlar.

"Bura bizim məktəbdir. 4 mərtəbəli. Bura isə kəndin o biri başındakı məktəbdir. 3 mərtəbəli. Bura çay. Bura bulaq. Bura Mayıf Qasımın evi. Bura isə kolxoz sədrinin evi. Bura çəmən, bura orman. Ora isə meşə. Obamız, elimiz. Uşaqlığımız, Gəncliyimiz, İlk məhəbbətimiz..."

*14.05.2013*

## "Salam, ölüm!"... "Sağ ol ölüm"

Dostum İbrahim "İçərişəhər" metrostansiyasının yaxınlığında yaşayır. Səhər tezdən evindən çıxır, işinə tələsir. Güllü-çiçəkli, süpürülmüş İstiqlaliyyət küçəsiylə "Torqovı"ya tərəf enir. Məktəbə, uşaq bağçasına gedən balacaların əhatəsində addımlayır. Baxıb ürəyi açılır. Səhər idmanı ilə məşğul olanların biri o tərəfindən keçir, biri bu tərəfindən. Gözəl mağazaların vitrinində manikenlər sanki ona əl edir. Arabir yanından keçən gözəl xanımlara çəpəki nəzər də yetirir. Elələri olur ki, gözlərini tam metrajla da açmalı olur. Neyləsin həyat budur. Gözəlliyə baxarlar, həzz alarlar. Axşam dostlarıyla "Torqovı"nın hansı kafesində oturub söhbətləşəcəyi yerləri də gözəyarı edir. Alla Puqaçovanın "Million alıx roz" mahnısını zümzümə edə-edə işə çatır. Bu əhval-ruhiyyəsindən, müsbət emosiyasından ətrafdakılara da pay düşür. İş günü beləcə xoş, yüksək ruh yüksəkliyi ilə keçir. İşdən sonra yorğun olsa belə, bu yolları geri qayıtdıqca eyni təəssüratı yaşayır. Dincəlir. Deyir: "Yaşamağa dəyər. Ey həyat, sən nə gözəlsən?"

Mən isə Sirkin yanında yaşayıram. Səməd Vurğun küçəsinə çıxanacan artıq tıxaca düşmüşəm. Yox elə bilməyin ki, pik vaxtıdır, ona görə. Əsla... Buralar həmişə belə olur. Üstündə "çadır", "Ağ çadır", "VİP xidmət" yazılan yük maşınları məhlə içi karvan qurub yolu tutublar. Bəzilərinin yedəyində səyyar tualetlər də var. Kişiyçün ayrı, qadınçün ayrı. Bir təhər bunların arasından keçib çıxıram Səməd Vurğun küçəsinə - üzü Əjdərbəy məscidinə tərəf.

Düz Sirkin yanından Göy məscidə kimi qara rəngli, şüşələri qara plyonkayla örtülmüş, təmizlikdən bərq vuran "Merse-

des", "Hyunday" markalı mikroavtobus tipli, amma içərisi ancaq tabuta hesablanmış maşınlar köç qurub. Bəziləri arxa qapısın da açıb. Bəh-bəh içərisinə necə də gözəl, nəfis xalça da salınıb. Ətir qoxuyur. On-on beşi birdən düzülüb gözləyirlər. Birdən elə başa düşərsiniz ki, məni gözləyirlər a?... Yox. Düz məscidin qapısınacan sürücülər məni baxışlarıyla yola salırlar.

Sərnişin üstündə davaya, bəzən də bıçaqlaşmaya çıxan taksi sürücüləri kimi deyillər. Guya ki, hüznlüdürlər, kədərlidirlər. Hətta "kliyent" gəlsə də belə, sevinclərini boğa, hüznlərini əvvəlki qaydada saxlamağı bacarırlar. Yay vaxtı heç olmasa maşının üstünə "Kondisionerlidir" yazıb yapışdırırdılar. İndi onu da yığışdırıblar. Bir az irəliləyirəm. Məscidə çatanda tıxac yaranır. Bütün hərəkət iflic olur. Heç kim siqnal vermir. Axı məscidin ölüxanasına meyit gətiriblər yumağa? Bircə qulaqların çəkirlər: "Allah göstərməsin. Evlərdən uzaq". Bir təhər yol açılır. Davam edirəm. İşə çatıram. O soruşur ki, niyə qanın qaradır, bu soruşur ki, niyə kefin yoxdur? Nə deyim? Deyim ki, hər gün evdən çıxanda nə ilə rastlaşıram?

Desəm də cavab verəcəklər ki, "lap yaxşı da. Biz ildə, ayda bir dəfə qəbrüstünə gedəndə bunu başa düşürük ki, hər şeyin axırı ölümdür. Sən isə bunu hər gün anlayırsan, təmizlənirsən, mənən saflaşırsan". Mən də razı. Amma Allah kəssin belə saflaşmanı.

İş vaxtım qurtarır. Eyni marşrutla evə qayıdıram. Şopenin "Ölüm marşı"nın təntənəli sədaları altında məscidin, ölü maşınlarının, çadır karvanlarının qarşısından təntənəylə keçirəm. Təzim edirəm. "Salam, ölüm" deyə qışqırıram. Sürücülər də yerbəyerdən cavab verirlər: "Salam, salam, salam". Minbərdən azan səsi ucalır. Dinməzcə durub qulaq asıram. Beləcə evimə çatıram. Arxadan ağlamaq səsləri gəlir. Kiminsə ölü namazı qılınır.



*İbrahim Mahirlə*

Evə girirəm. Dostum İbrahim yadıma düşür. O işə çatanda deyir ki, “Həyat gözəldir. Yaşamağa dəyər”. Mən isə bilmirəm nə deyim. Deyim ki, “ölüm gözəldir. Yaşamağa dəyməz?”. Yox, bilirəm nə deyim. Sadəcə bundan sonra da elədiyimi davam etdirim. Səhərlər “Salam, ölüm!” deyib işə gedim, axşamlar isə “Sağ ol, ölüm!” deyib evimə.

*06.X.2013*

# Mikayıl Cabbarov, üzr istəyirəm! Həsən müəllim, bağışla...

Həmişə ailəmlə bir yerə yığışanda onlarla belə zarafatlaşırdım. Mən yetiməm. Nə atam var, nə anam, nə bacım, nə qardaşım. İki qızım, bir arvadım da deyirdilər ki, yetim niyə olursan? Bəs biz?

Əlbəttə ki, bu bir zarafatdır edirəm onlarla. Bir az cırnadıram, bir az kövrəldirəm. Qardaşlarım, bacılarım olmasa da yaxşı xala, əmi, dayıuşaqlarım, bacanaqlarım, qayınlarım, baldızlarım var. Tələbəlik, AzTV , "Xalq qəzeti"ndə işlədiyim illərdən qazandığım gözəl dostlarım, yoldaşlarım var.

Mənə deyirdilər ki, bəs dost bir olar. İkinci dost sayılmır. Sadəcə yoldaşdır. Buna hardasa inanırdım. Amma 2008-ci il yanvarın 1-də "Xalq qəzeti"nə ayağımı basandan inandım ki, dost məhdud söz deyil. Həyatın boyu özünə nə qədər istəsən dost qazana bilərsən. Məni "Xalq qəzeti"nə özümə dost bildiyim Həsən Həsənov gətirmişdi. Axşamlar gəlib kabinetində oturar, qəzetçiliyin mənə məlum olmayan incəliklərini ondan öyrənərdim. İş gecə saat on ikiyə, birə çəkəndə deyərdi ki, düşək bir şam edək. Bir dəfə də şama gedəndə əlini selektora apardı. Ərkyana "İbrahim, düş, aşağıda gözləyirik" dedi. Küçəyə çıxanda məndən hündür, cüssəli, gülərüz, saçı tökülmüş biriylə rastlaşdım. Həsən müəllim "Mahir tanış ol. İbrahim Ömərovdur. Qəzetimizin texniki direktorudur"

Getdik şam elədik, yenidən redaksiyaya qayıtdıq. Bu cür şam yeməkləri üç-dörd dəfə təkrarlandı. Amma sanki İbrahimi yüz ildi ki, tanıyırdım. Artıq Həsən müəllimin kabenitində oturmaqla fəaliyyətimi məhdudlaşdırmırdım. Beşinci mərtə-



bəyə qalxıb İbrahimin otağına girirdim. Mənim 41, onun isə 30 yaşı vardı. Amma özünü 50-60 yaşlı bişmiş adam kimi aparırdı. Tez çay gətizdirir, şokolad konfetləri ortaya tökürdü. Hələ şkafına göz eləyib "müəllim,yaxşı viskim var, bəlkə bir 50 qram..." deyə işarə də edirdi.

Atamın ölümündən sonra əsəb xəstəsi olmuşdum. Depressiyadan çıxa bilmirdim. Ağzımı açmağımı görürdüm. Danışmağa qoymurdu. "Dur getdik Şıxova balıq yeməyə. Müdiri də get özün yola gətir" deyirdi. Həsən müəllimlə müdir-işçi məsafəsini saxlayırdı. Amma demə məsələlər başqa məcraya yönəlirdi. Bunu nə Həsən müəllim, nə də mən bilirdim. Bilsəydik onu həmən "Xalq qəzeti"ndən, ümumiyyətlə həyatımızdan uzaqlaşdırardıq. Bu haqda sonra...

Günlərin bir günü Həsən müəllim soruşdu ki, "Mahir, bu İbrahim necə oğlandır?" Dedim ki, ay Həsən müəllim, pis olsaydı işə götürməzdin ki? Bir də beş ildir yanında çalışır, mən onu iki aydır tanıyıram. Amma sonra başa düşdüm ki, İbrahimə güvənmək olarmı mənasında soruşur. İbrahimi hardasa 12 ildir ki, tanıdığı, sınağa çəkdiyi mən Mahirlə paralel və ya müqayisəsinə cavab almaq istəyir. "Hə. Bizim adamdır. Təmiz oğlandır".

Beləcə “Xalq qəzeti”ndə Mahir Həsən müəllim dostluğuna üçüncüsü də əlavə olundu. İbrahim Nizami oğlu Ömərov.

Hər dəfə otağına girəndə yanında müxtəlif adamlar olurdu. Qarşılarında çay, konfet. İçəri girmək istəməyəndə, təkid edirdi.

“Mahir, tanış ol. Fikrət müəllimdir, Rzayev. Professordur. Görkəmli alim, pedaqoq. DOSTUMDUR. Fikrət müəllim, Mahir xalq şairi Qabilin oğludur. Bizim qəzetdə informasiya şöbəsinin müdiridir. İstəyirəm siz də dost olasınız”.

“Mahir, tanış ol, professor Buludxan Xəlilovdur. ADPU-nun filologiya fakültəsinin dekanı. DOSTUMDUR. İstəyirəm siz də dost olasınız”

“Mahir, tanış ol, professor, şərqşünas Məsiağa Məhəmmədi. Əla kişidir. DOSTUMDUR. İstəyirəm siz də dost olasınız.”

“Mahir, tanış ol. Mehman müəllimdir.”, “Mahir, tanış ol, şair Səlim Babullaoğludur”, “Mahir, tanış ol Azər Sarıyevdir”, “Mahir, tanış ol, Cavanşirdir. Dostum yox e... Bir yana gedəndə ailəmi qardaşlarıma yox, ona tapşırıram”. “Tanış ol, Xaqanidir, Əfqandır, Nüşabədir...” Hamısını böyük fəxrlə təqdim edirdi. Bəziləri özlərindən kiçik olmasına baxmayaraq, İbrahimi dost kimi qəbul edirdilər, ərk edirdilər, şıltaqlıq edirdilər. Elə biri mən özüm.

Hamısını da “Dostum” deyərək böyük fəxrlə təqdim edirdi. Sanki “Dostlar dünyası”na düşmüşdüm. Hər dəfə bir məclisdə oturanda görürdüm ki, 31 yaşı olmasına baxmayaraq İbrahim artıq qocalıb, müdrikləşib. Babası ona həmişə deyirmiş ki, “İbrahim, əsl ziyalılarla dostluq elə”. O da bu sözə qulaq asmışdı, asırdı.

Həsən müəllimə isə daha çox yaxınlaşırdı. Əlbəttə ki, bir yerdə işləyirdilər. Amma vaxt keçdikcə onlar arasında ata-oğul doğmalığı hiss edirdim. Artıq dairədə mən yox idim. İkisiydi.

Zəng edib deyirdilər ki, gedirik "obed"ə, gəl filan yerə. Gedirik bağa, sən də gəl. Dənizə gedirik, səni də götürəkmi? Yaddan çıxartmırdılar məni.

Həsən müəllimin bir xasiyyəti vardı. AzTV-dən bilirdim. Dediyini eləsən, ərkini başa düşsən, sənin də hər hansı bir sözün onun üçün qanun idi. Düzdür hər adama da ərk eləmirdi. Biri mən idim, biri də İbrahim. Mən yavaş-yavaş aradan çıxmışdım. He düz əməlli işə də gəlmirdim. Atama belə ərköyünlük eləməmişdim. Sanki Həsən müəllimin iki oğlu vardı biri ərköyün, biri isə ağıllı, sözə baxan. İbrahim mənim də vəzifəmi yerinə yetirirdi.

Vaxt keçdikcə mən də İbrahimi öz dostlarımla tanış etməyə başladım. "Qaynım Ramiz Əkbərov. Polkovnik, həkim. Bacanağım Rəfail. Baldızımın oğlu Nahid Zairov cərrah-podpolkovnik. Cəlil Qaryağdı – heykəltaraş. Mərhum Cəlal Qaryağdının oğlu. Və ən nəhayət jurnalist Eldəniz Elgün."

Ziyalılarla çox maraqlanırdı. Onlar haqqında söhbət edirdim. Anarı, Fikrət Qocanı, Elçini, Səməd Vurğunu, Osman Sarıvəllini və digər görkəmli ziyalılarımızı adından tanısa da, mən onları insan kimi İbrahimə təqdim edirdim. Mənfi, müsbət cəhətlərini açırdım. Atamın adı gələndə isə yanıb-tökülürdü.

"Axı, mən səni niyə vaxtında tanımadım. Kişi məni tanısaydı səni çoxdan oğulluqdan çıxarardı. Gələcəkdi hər gün bura. O yeyib-içən, mən yeyib-içən. Deyəcəkdi Şamaxıya gedək! Gedəcəkdim. Deyəcəkdi Amerikaya gedək! Yenə gedəcəkdim. Sən necə adam olmusan ə? Arağı gizlətmisən. İçməyə qoymamısan. Heyf. Mənim atam da şairdir. Nizami Məmmədcanlı. Onunla da tanış edəcəkdim."

Hər dəfə beləcə təəssüflənirdi. Artıq bir-birimizə çox bağlanmışdıq. Gündə iki dəfə zəngləşməsəydik elə bilirdim ki, nəsə çatışmır. Bütün günü də qarışqa kimi çalışırdı. İngilis di-

lini mükəmməl öyrənirdi. Mən onu tanıyanda iki ali məktəbin bakalavr pilləsini, bir ali məktəbin isə magistraturasını bitirmişdi. İngiltərəyə gedib öz şəxsi hesabına üç aylıq kurs keçmişdi. Gəlib Akademiyanın doktoranturasına qəbul olunmuşdu. Paralel olaraq Milli Elmlər Akademiyasında çalışırdı. Kitablar tərtib edirdi. Hamısında da "İ.Nizamioğlu" imzası qoyurdu. Deyirdim ki, bütöv yaz da adıvı. Deyirdi ki, "yox. Atamı itirdim, onun adını yaşatmalıyam. Biz tərəfdə kişilər 56-57 yaş yaşayır. Mənim də maksimum 20 ilim qalıb. Hər şeyi çatdırmalıyam. Oğlanlarıma yüksək təhsil verməliyəm, xaricdə oxutdurmalıyam".

Birinci sinifdən onlara repetitor tutmuşdu. Müdafiə etməyə hazırlaşırdı. Jurnalistlər üçün tikilən binada ev almaq istəyirdi. Ona görə yox ki, ehtiyacı vardı. On il idi ki, "Xalq qəzeti"ndə çalışmışdı, baş redaktorun 1-ci müavini vəzifəsinə qədər ucalmışdı. İstəyirdi ki, etdiklərindən nəsə bir xatirə qalsın. Və Həsən müəllim növbəti dəfə onun da adını siyahıya salsın.

Nəhayət... Günlərin bir günü gəldi ki, bəs qəbuldaydım. Təhsil naziri Mikayıl Cabbarov məni qəbul etdi. Bir saat söhbət elədi. Ondan əvvəl də 7-8 ay idi ki, təzə təhsil naziri haqqnda yazılar yazırdı. Nəsə vurulmuşdu onun fəaliyyətinə. Mən isə öz köşə yazılarımda o cümlədən Mikayıl Cabbarovu da tənqid edirdim. Az qalırdı ki, yumruğu başıma vursun ki, bəsdir də...əl çək də ondan. Yazmağa başqa mövzun yoxdur? Qoy işləsin də. O qədər işləməyən var, yazmırsan, işləyəni də ruhdan salmaq istəyirsən. İlk yazılarımı üç nəfər oxuyurdu, İbrahim, həyat yoldaşım Sevinc, bir də Eldəniz Elgün. Amma Mikayıl Cabbarovun adı olan yazılarımı İbrahimə göstərmirdim.

Nazir onu qəbul edəndən sonra Sumqayıt Dövlət Universitetinə prorektor təyin etdi. Yox elə bilməyin ki, İbrahimin rüşvət verməyə pulu, ya tapşırtdırmağa day-dayısı vardı. Mikayıl



*Mahirlə İbrahim*

Cabbarov da təmiz adamdır. Sadəcə DOSTLARI vardı. Mikayıl müəllimin də xoşuna gəlmişdi. Özü işləyən adam olduğu üçün İbrahim kimi gənc, enerjili adamlara ehtiyacı vardı. Mikayıl müəllimin bütün atdığı addımlardan danışırdı mənə. Özü də ağızdolusu. Hər dəfə də deyirdi ki, görərsən Mikayıl müəllim təhsilimizi nə yüksəklərə qaldıracaq. Mən də qulaq asırdım, bir mütərəqqi adam kimi sevinirdim də. Amma nə edim ki, qələmi əlimə alanda ilhamım tam əks tərəfə çevrilirdi. Tikanlı sözlər kağıza düzülürdü. Özümdən asılı deyildi. Yenə gəlirdi ki, "Mahir işin olmasın da Mikayıl müəllimdə. Səndən xahiş edirəm. Bax, qaqaşını da aparıb prorektor qoydu. Sabah daha da yüksəldə bilər. Amma xəbər tutsa ki, biz dostuq, ətrafındakılar bunu başqa cürə yoza bilərlər. Səndən xahiş edirəm, Mikayıl Cabbarov haqqında yazma. Yaz e, yaxşı yaz". Hətta Eldəniz Elgünə dəfələrlə tapşırmışdı ki, Mahir təhsil nazirliyi haqda yazsa, qoyma çapa versin. Ölümünə iki gün qalmış isə Məsiağa Mə-

həmmədiylə üçümüz birgə yeyib-içərkən professoru da öz tərəfinə çəkdi. O da məni qınadı. Və söz verdim ki, "İbrahim, qurtardıq.Bir də Mikayıl Cabbarovun adını çəkməyəcəyəm".

İki gündən sonra isə İbrahimin ölüm xəbərini aldım. Amma vədimə xilaf çıxdım. Mikayıl Cabbarovun adı olan bir yazı da yazdım. Hörmətli Mikayıl müəllim. Bilirəm yazdıqlarımın sizin üçün heç bir əhəmiyyəti yoxdur. Öz gözəl işlərinizi, fəaliyyətinizi davam etdirməkdəsiniz. Komandanızda indi İbrahim Ömərov yoxdur. Sizi çox istəyirdi. Sizə çox inanırdı. Bu yolda yanınızda olmaq istəyirdi. İrəli getmək istəyirdi. İbrahimin ruhu sakit olsun deyə , Mikayıl Cabbarov, sizdən üzr istəyirəm!

Həsən müəllim, sən isə məni bağışla. İbrahimin hüzüründə mənalı-mənalı süzdün məni. Bilirəm ki, günahım var. Sizi mən yaxınlaşdırdım. Özüm isə aradan çıxdım. İbrahim səninçün çox şey idi. Oğlun yox, oğuldan da doğma idi. 60 yaşında oğul itirmək isə çox ağırdır. Hönkürməkdən başqa isə heç bir əlacın yoxdur.

***SON***

İbrahim, dünən səni dəfn edəndən sonra Eldənizlə oturub səni sənsayağı yad etdik. Ağlamağımı saxlaya bilmirdim. Eldəniz dedi ki, ay axmaq, niyə ağlayırsan. Həmişə bir yerdə oturanda İbrahim demirdi ki, atalarımız da burdadır? Onların sağlığı olsun. İndi o da, şair Qabil də, Nizami əmi də burdadırlar. Ağlama. Bir mərifətli sağlıq de, içək. Özümü toplayıb dedim:

- Papa, o vaxt Həsən müəllimə də demişdim. İbrahim yaxşı oğlandır.Götür oğulluğa. Həsən müəllim, Məsiağa, Fikrət, Səlim, Mehman, mənim kimi sonda hönkürüb, peşman olmayacaqsan. Peşman olmayacaqsan ki, niyə axı onu tanıdıq ki,

indi də yoxluğuna yanırıq. Kaş ki, heç tanımayaydıq deyirik. Biz itirdik, siz qazandınız. Özü də ki, əbədi. Bir də ki, papa, o ziyalıları çox sevir, tanış elə onlarla. Dostluq etməyi sevir. Fani dünyadakı dostlarını da çox sevir. Bir də gördün ki, yuxumuza girib bizi də təzə dostlarıyla tanış etdi "Mahir, tanış ol. Bu Nizami Gəncəvidir. DOSTUMDUR. Bu isə Səməd Vurğun. O da DOSTUMDUR". İbrahim, sənin sağlığına. Sənin yeni həyatının, yeni dostlarının sağlığına.

*15.03.2014*

## İbrahimin öldüyü gündən həyat davam eləyir

Səhər tezdən bu nə telefon zəngidir e? İlk dəfəydi ki, belə rahat yatırdım. Gözəl yuxular görürdüm.

- Alo.

- Mahir müəllim, salam. Çox gözəl məqaləydi. İdarəmizin rəhbərliyi adından minnətdarlığımı bildirirəm.

- Kimdir? Füzuli, sənsən?

- Bəli, Mahir müəllim. Minnətdarlığımızı bildiririk. Çox sağ olun.

- Siz də sağ olun.

Bu Füzulinin də başı xarab olub e... Mənə "Mahir müəllim" deyir. İndi Həsən müəllimə bir xahişdir də eləmişəm. İndi buna görə səhər saat doqquzun yarısında adamı yuxudan oyadarlar. Yəqin rəhbərlik yanındaymış. Ona görə özünü belə rəsmi aparır. Gül kimi yuxu görürdüm də... İki huri mələk vardı. Yox. Kimə danışıram ki, bunları. Qoy gözümü yumum. Bəlkə yenidən qayıtdılar. Sonra da gedərəm redaksiyaya. Həm minnətdarlığı ünvanına çatdıraram, həm də İbrahimlə görüşərəm. Bizim də görüşməyimizdən olmaz e. Əl veririk, sonra da başımızı başımıza vururuq. Bir-birimizi öpmürük. Kişi kişiylə öpüşməz axı. Uşaqlıqda başımız birinin başına dəyəndə deyirdik ki, bəs gəl bir də kəllələrimizi toqquşduraq. Keçəl olarıq, axı. Amma İbrahimlə bundan qorxumuz yoxdur. O da keçəldir, mən də. Hələ vaxt var. İş 10-da başlayır. Bir az da yatım.

Hə... Qayıdırlar yenə. Nə gözəldirlər. Özü də iki nəfərdir. Lap İbrahimin yeri məlum. Bah... bu nədir e... Bilsəydim telefonu söndürərədim. İldə, ayda bir namaz, onu da telefon qoy-

maz. Yox. Deyəsən heç yerinə düşmədi bu misal.

- Alo.

- Mahir. Ay Mahir, bilmirəm necə deyim?

Ay Allah. Necə deyir desin. Amma tez desin. Yuxum yarımçıq qalıb axı...

- Nə olub ki? Nəsə həkimlik bir işiniz var?

- İbrahim ölüb.

Yox. İlk olaraq "ola bilməz", "inanmıram" demirəm. Realistəm. Bircə

- İndi hardadır?

- Suraxanıda. Atası evində.

Yerimdən dururam. Hamama girirəm. Əl-üzümü yuyuram. Başqa vaxt 3-4 gündən bir saqqalımı təraş edərəm. Amma dünəndən bugünə çıxan tüklərimi qırxıram. Üstündən odekolon vururam.

- Maşın sürmə. Özündə deyilsən,- deyə yoldaşım səslənir.

- Niyə ki? İnanmıram. Sözdür də deyirlər.

Evdən çıxıram. Maşına minib mənə bu xəbəri çatdıranları da yolüstü götürürəm. Yol alırıq Suraxanıya. İbrahimin qaçqın ata ocağına. Həyətlərinə girirəm. Kişilər divar boyu dayanıb. Balaca otaqdan qadınlar ağlayır. "İbrahim hanı?" soruşuram. Dostu deyir ki, bəs indi məsciddən gətirmişik.

- Heyf.

Haşiyə:

- İbrahim, kisələnirsən?

- Hə.

- Burda lap məsciddəki kimidir. Atamı yuduzduranda görmüşəm. Orda da belə daşdır. Uzanırsan. O üz, bu üz çevirirlər. Kisələyirlər. Sabunlayırlar. Heç fərqi yoxdur.

- Oxayyy. Ay kisəçi, bir az yavaş ol. Belə getsə çirkə çıxacam. Mahir, sən də gicləmə də... Gör nə yadına düşdü e? Orda mür-

dəşirdir, burda kisəçi. Orda çimdirəndən sonra ölü namazı qılırlar, burda "həmişə təmizlikdə deyirlər". Orda qəbirə qoyub ağzına torpaq tökürlər. Burda... indi kisə qurtarsın, səni bilmirəm. Mən "Efes" pivəsi içəcəyəm. (SON)

- Bəs mənə niyə xəbər verməmisiniz?

- İstəmədik gecəylə narahat edək.

İçəri baxıram. Ortada tabut. Ətrafda da qadınlar. Anası baş tərəfdədir. Həyat yoldaşı ortada. Əllərini tabut boyu gəzdirirlər. "İbrahim, İbrahim" deyə oxşayırlar. Deməli tabutdakı İbrahimdir. Mənim dostum. Bəs onda niyə otağa girmirəm. Həmişəki kimi görüşmürəm. Başımı başına vurmuram. Yox, olmaz. Axı, otaqda qadınlar var. Bəs, nə edim? İcazəmi alım? Başa düşmədim. Dostumla salamlaşmağa icazəmi almalıyam. Küçəyə çıxıram. O baş bu başa gəzirəm. Ağlayıram. Niyə ağlayıram? Dostumla görüşə icazə almaq istədiyimə görəmi, yoxsa bunun görüş yox... Yox inanmıram. Axı, mən realistəm. Gözümlə gördüyümə inanıram. Həmişə olduğu kimi hamama da çağırmayıb məni. Fikirləşirəm. Lap nə olursa olsun. Əgər İbrahim o otaqdadırsa onunla həmişəki kimi görüşməliyəm. Əgər deyilənlər düzdürsə sonra gec ola bilər. Bəlkə dəfni gözləyim? Elə ki, tabutu məzarın yanına qoydular, xalçanı açdılar, irəli keçib diz çöküm. Qucaqlayım, başımı başına vurum, salamlaşım. Həmişə olduğu kimi. O da desin ki, "çay içirsənmi?". Mən də "əgər şokolad varsa, içərəm" deyə naz edim. Yox, düzgün alınmır. Əgər dəfndə belə etsəm belə çıxacaq ki, özümü göstərirəm. Yaxşısı budur həyətə qayıdım, qardaşlarından icazə alıb görüşüm.

Yenidən geri qayıdıram. Sağ olsunlar icazə verirlər. Qadınları tabutun ətrafından azca da olsa uzaqlaşdırıb özümə balaca yer edirəm. Dizimi xalçaya qoyub başımı başına yaxınlaşdırıram. Toqquşdururam. Ağ kəfənin təmasından alnını, burnunu,

dodaqlarını, çənəsini, üzünü hiss edirəm. Öpmək istəyirəm. Amma sözləri yadıma düşür: "Kişi kişiylə öpüşməz". Amma bu sözü eşitmirəm. Sanki, "mən təmizəm. Cənnətə gedirəm. Məni ağız suyunla, göz yaşlarınla mundarlama" deyir. Amma, "sanki"...

Qohumları ayağa qaldırır məni. Həyətdən çıxıram. Təklif edirlər ki, çadıra gedib bir stəkan çay içim. Soruşuram. Nə ilə? Cavab verirlər ki, İbrahimin halvasıyla.

Razılaşıram. Əynimdə təzə gödəkcə var. Çay içəndə üstümə tökürəm. Ləkəsi qalır. Yanımda oturan biri deyir: "Təzə gödəkçədir. Hayıf oldu". Deyirəm ki, eybi yox, gələn mövsüm təzəsini alaram. Fikirləşirəm. Əgər köhnə olsaydı, deyəcəkdilər ki, "onsuz da köhnəydi də... bir şey itirməmisən?". Amma təzədir. Ona görə "Hayıf oldu" deyirlər.

Bir an düşünürəm. İbrahim cavan idi. Belə çıxır ki, ölmədi? Hayıf oldu. Eləmi? Bəs 48 yaşında təzədən İbrahim kimisini hardan tapım?

Bu an xəbər gəlir ki, bəs vaxtdır. Qəbiristanlığa getməliyik. Yola düşürük. Mənzil başına çatırıq. İbrahimi qəbirə sallayırlar. Qardaşı yanına düşür. Molla isə...

HAŞİYƏ: Uşaq bağçasındayam. Günorta yeməyini yemişik. Yatmaq vaxtıdır. Tərbiyəçi üstümüzə qışqırır. "Hamı sağ böyrü üstə çevrilsin. Hər iki əlini cütləşdirib başının altına qoysun. Gözünü də yumsun". Mən də belə edirəm. Düzdür, yuxum gəlmir. Amma qorxuram. Tərbiyəçimdən qorxuram. Gözümü yumub, sağ böyrüm üstə özümü yatmağa məcbur edirəm. Hərdən gözümü açıram. Tərbiyəçi bunu sezir. Hər yanımdan keçəndə əlini sol çiynimə qoyub adımı deyərək çiynimi tərpədir. "Mahir, yat" deyir. (SON)

Molla isə "qardaş, İbrahimi sağ böyrü üstə çevir. Üzü əks tərəfə. Əlini sol çiyninə qoy. Hər dəfə adını deyəndə çiynini

tərpət" deyir. Beləcə üç-dörd dəfə. Yenə fikirləşirəm. Yox, belə olmaz. Axı, İbrahim ölmək üçün yox, yaşamaq üçün yaşayırdı. Qəbrə də özü düşmədi. Qohumları güclə düşürtdülər. Qardaşı da çiyninə vurub-vurub yatızdırdı. Yuxuya gedən kimi də üzərinə yorğan örtdülər. Al qumaşdan, gül-çiçəkdən.

Bir anlıq fikrə getdim. Mənim qardaşım yox. Oğlum yox. Bəs mən öləndə qəbirə kim girəcək? Dözmədim. Ağladım. Yox, hönkürdüm. İbrahimə görə yox. Nə vaxtsa sol çiynimi sığallayıb məni yatızdıracaq qardaşımı itirdiyimə görə.

"Mahir, ayıl. Özünə gəl. Yekə kişisən. Bu nədir? Ağlamağı yığışdır".

Eldəniz Elgündür. Əlini çiynimə salaraq özünə sıxıb. Əliylə sol çiynimi ovuşdurur, başını başıma vurur. Özündən asılı olmayaraq bəzən yavaş, bəzən zərblə. Görəsən niyə belə edir? İbrahimlə mənim bu cür görüşməyimdən xəbəri varmı? Yox. Özü də başını başıma çox vurur. Bir, iki, beş, altı, 10... Biz İbrahimlə görüşəndə bir dəfə toqquşdururduq. Bu lap sərhədi keçdi. Bəlkə İbrahimlə görüşmədiyim günlərin əvəzini çıxır? Ola bilər. Bəs bizim aramızda olan bu özəl salamlaşmanı hardan bilir? Həəə. Keçən dəfə demişdi axı. İbrahim burdadır. Bir mərifətli sağlıq de, "vuraq". Bunu da o başa salıb yəqin.

Qardaşı İbrahimin çiynini sığallayıb həmişəlik yatızdırdı. Eldəniz isə çiynimi ovuşdurub yuxudan oyadır: "Bir bax. Uşaqlar tonqaldan hoppanırlar. Bayramdır. Nəvələri, qızları təbrik etmisən? Bu gün mənim qızım Leyluşun ad günüydü. Sabah da şəhərə çıxacağam...".

Həyat davam edir. İbrahimin öldüyü gün dayandığı yerdən...

*08.04.2014*

# Gözəl İbrahim

***hekayə***

*Dostum İbrahim Nizami oğlu Ömərovun*
*əziz xatirəsinə*

Saray. Padşah öz taxtında oturub. Ətrafında fərraşlar. Baş vəzir, vəzir, vəkil, əyanlar da başlarını aşağı salıb, durublar. Heç kim dinmir. Padşah da dərin xəyala gedib. Birdən:

- Adı nədir onun?
- İbrahim.
- Silahlıdır?
- Xeyr, şah sağ olsun.
- Ətrafına, başına qoşun yığır?
- Xeyr, şah sağ olsun.
- Bəlkə, məmləkətimin, taxt-tacımın əleyhinə nəsə hədyanlar danışır?
- Xeyr, şah sağ olsun.
- Cadugərdir onda.
- O da yox.
- Bəs nə? Nədir axı sizi qorxudan ki, üstümə qaçmısınız.
- Bilmirik, şah sağ olsun. Qonşu məmləkətdən məktub gəlib. Yazırlar ki, "İbrahimdən axır ki, canımızı qurtardıq. Hüdudlarımızacan təqib elədik. O da keçdi sizin tərəfə. Bizdən deməkdir – ehtiyatlı olun. Çox təhlükəli adamdır".
- Nədir axı, bunun təhlükəsi?
- Başqa heç nə yazmırlar.
- Bəs təhlükəliydisə, niyə edam eləməyiblər?
- Təhlükə də, deyəsən, bundadır, şah sağ olsun. İbrahimə

toxunmaq mümkün deyil.

- Heç nə anlamıram. Eybi yox - qoy gəlsin. Mən onunçün qonşu məmləkətin padşahı deyiləm. Mənim qorxumdan göydə uçan quş da qanad salar. Bu məmləkətdə nə dedim, o da olmalıdır. Yoxsa ki, durub bir İbrahimdən qorxsam, day mənə niyə padşah desinlər ki? Hardadır indi o məlun?

- Torpağımızı kənd-kənd, şəhər-şəhər gəzərək gəlir. Hamısında da yəqin öz küfrünü yayır.

- Bəs qazilər, valilər nəylə məşğuldurlar? Bir əncam çəkmirlər. Gərək hökmən paytaxta gəlib çıxsın, sonra? Hər şeyə mən qərar verməliyəm?

- Hamısına məktub göndərmişik. Cavab gəlib ki, heç nə edə bilmirik İbrahimə. Nə həbs etmək mümkündür, nə də boynun vurdurmaq.

- Qəribə işə düşdük də... Dövlət işləri qalıb bir yanda, bu boyda padşah işini-gücünü buraxıb hansısa İbrahim haqqında düşünməlidir.

Ortaya sükut çökür. Padşah da fikrə dalır. Saray əyanları da başlarını aşağı salıb guya ki, vəziyyətdən çıxış yolunu arayırlar. Bu an carçılardan biri çaparaq sarayın həyətinə daxil olur. Tezcə padşahın hüzuruna gələrək təzim edir.

- Şahım!

- Hə, nə olub? Tez de. Belə çaparaq gəlməyindən başa düşülür ki, vacib məsələdir.

- Bəli, qibleyi-aləm. İbrahim paytaxta daxil oldu.

- Nə?! Vacib xəbər budur? Yox. Ya siz məndən nəsə gizlədirsiniz, ya da ki, bu İbrahim doğurdan da təhlükəli adamdır.

- Şah sağ olsun, tutub gətirəkmi saraya?

- Nə edib?

- Heç nə.

- Bəs onda nə səbəb göstərəcəksiniz həbsinə. Siz məni rəiy-

yət arasında biabırmı etmək istəyirsiniz? Bu məmləkətdə qanunlar var. Bu qanunlara da hamı tabedir. O cümlədən mən də, şahzadələr də, vəzir-əyanlar da. Məni el içində xarmı etmək istəyirsiniz? Xalq nə deyər? Deməzmi ki, taqsırı olmayan bir adamı tutub apardılar. Qoy yaşasın. Özünü pis aparsa, qazi var, divan var. Cəzasını da onlar verər.

- Başüstə, qibleyi-aləm.

Padşah yenidən fikrə gedir. Yox, bəlkə düz deyirlər. Xatalı adamdır bu İbrahim. Vaxtında tədbir görülməsə sonra gec olar. Dərviş paltarı geyinib gecə çıxaram şəhərə. Gözümlə görsəm yaxşıdır.

- Hamınız azadsınız. Vəzir, sən qal.

- Başüstə, qibleyi-aləm.

Hamı çıxdıqdan sonra:

- Vəzir, öyrən o İbrahimin qaldığı evi. Gecə dərviş paltarı geyib ziyarətinə gedəcəyik. Görək bu necə adamdır.

Gecə düşür. Padşah vəziriylə dərviş paltarında şəhərə çıxır. İbrahimin gecələdiyi komanın yanına gəlib qapısını döyürlər.

- Qapı açıqdır. Gəlin.

- Salam.

- Buyurun, xoş gəlmisiniz. Deyəsən, uzaq yoldan gəlirsiniz.

- Hardan bildiniz?

- Geyiminizdən. Özü də elmli adama oxşayırsınız. Səhv etmirəmsə dərvişsiniz.

- Düz tapdız. Kənd-kənd gəzib öz təriqətimizi yayırıq, təbliğ edirik. Siz bu şəhərdə çoxdan yaşayırsınız?

- Yox, elə mən də bir növ sizin kimi dərvişəm. Amma heç bir dini, elmi yaymaq fikrim yoxdur. Hamı kimi yaşamaq, ev-eşik sahibi olmaq, ailə qurmaq istəyirəm. Amma hara gedirəmsə bir aydan artıq qalmağa qoymurlar. Sürgün edirlər. Bilmirəm nə etmişəm bu insanlara. İndi də bu məmləkətə gəl-

mişəm. Deyirlər padşahı çox adil bir insandır. Görüm bəxtim gətirsə, bu şəhərdə qalıb yaşayacağam. Ta ömrümün axırınacan.

- Kimə nə etmisən ki, elə hey sürgün edirlər səni?

- Heç nə. Amma hara gedirəmsə şahzadələrin, saray əyanlarının gözü götürmür məni. Mən kim, onlar kim. Mən adi, səfil, dilənçi bir adamam. Amma nədənsə onların qəzəbinə tuş gəlirəm.

Padşah mat-mat vəzirinə baxır. Axı bu İbrahim nə danışır? Bir şey başa düşdünmü? Vəzir də başını bulayır. Yəni ki, heç nə.

- Axı bir şey eləməsən sənə kimin haqqıdır ki, nəsə deyə. Yəqin nəsə var ki, qəzəbə tuş gəlirsən.

- Yox, bir şey etsəm zindana salarlar, edam edərlər. Amma heç kim mənə heç nə etmir. Sadəcə qovurlar. Bir şəhərdən o biri şəhərə, bir məmləkətdən o biri məmləkətə. Beləcə, sərgərdan həyatı keçirirəm. Yəqin ac olarsınız.

İbrahim ayağa durur. Boxçasını gətirib açır. Süfrə salır. Lavaş, pendir, göy soğanı ortaya qoyur. Lavaşdan qoparır. Arasına pendirlə soğan qoyaraq dürmək düzəldir. Birini şaha, o birini vəzirə verir. Dolçada su gətirib bardaqlara tökür.

- Nuş edin. Kasıbın olanından. Görüm sabah nə iş tapıram. Gələn dəfə gələndə yəqin sizi başqa cürə qonaq edərəm.

- Əlindən nə gəlir ki?

- Heç nə. Bir yerdə dura bilirəm ki, bir sənət də öyrənim?

- Bəs nəylə dolanırsan?

- Xalq sağ olsun, onlar dolandırırlar. Biri çörək gətirir, biri su. Hərənin gücü çatdığından. Bu daxmanı da birisi verib mənə ki, yaşa. Hara gedirəmsə çox istəyir sadə camaat məni.

- Axı nəyə görə?

- Heç özüm də bilmirəm. Yaxşı, səhər açılır. Siz dincəlin, uzun yol gəlmisiniz. Mənim isə işim var, getməliyəm. Hə, ya-

dımdan çıxdı. Adım İbrahimdir – Gözəl İbrahim. Gözəl ləqəbini də xalq verib mənə. Xudahafiz.

İbrahim evdən çıxır. Padşah vəzirə:

- Bu, hara getdi səhər erkən. Bu yandan da deyir ki, iş-güc sahibi deyiləm. Bəlkə arxasınca gedək.

- Yox, şahım, dan yeri sökülür. Saraya qayıtmağımız məsləhətdir. Bu İbrahim axmaq adama oxşayır. Bəlkə də başdanxarabdır. Əgər çox maraqlısınızsa, nəzarət təyin edərik. Nə olsa gəlib çatdırarlar. Biz də hali olarıq. Bundan daha vacib dövlət işləri var.

Saray. Günortaya yaxın carçılar bir-birinin dalıyca saraya axışırlar:

- Şah sağ olsun, İbrahim bütün şəhəri başına alıb. Hamını səhər tezdən, dan yeri qızarmamış Əmircan dağına çağırır.

- Niyə?

- Bilmirik. Hamıya deyir ki, vacib sözüm var sizlərə.

- Nə söz?

- Bilmirik.

- Nəzarət eləyin. Görün nə hoqqa çıxarır bu İbrahim.

- Şahım, İbrahim yox, Gözəl İbrahim. Xalq onu Gözəl İbrahim çağırır.

- Yaxşı, hamınız gedin. Vəzir sən isə qal.

- Başüstə, qibleyi-aləm.

Hamı otaqdan çıxır.

- Vəzir, bəlkə dərviş paltarı geyinib biz də gedək ora.

- Qətiyyən, şahım, şərəfləndirmiş olarsınız o axmağı. Yəqin nəsə sarsaqlayacaq. Buna görə dəyməz ora getmək. Tapşırmışam. Nə olsa gəlib çatdıracaqlar.

Ertəsi gün. Yenidən saray. Sakitlik hökm sürür. Padşah fikrə gedib. Əyanların cınqırı da çıxmır. Birdən sarayın darvazası önündə hay-küy qopur, qışqırıq sədaları gəlməyə başlayır.

Vəzir tez eyvana çıxır.

- Üsyan, padşahım. Camaat saraya hücuma keçib. Əsgərlər qabaqlarını güclə alırlar. Çoxdurlar, padşahım. Ordunu köməyə çağırmaq lazımdır. Tez zirzəmiyə enin. Bura sizinçün təhlükəli ola bilər.

- Axı niyə üsyan edirlər ki? Tələbləri nədir? Düşüb bəlkə öyrənəsən?

- Yox, şahım, qorxuludur. Gözləri qızıb. Yox, şahım, eyvana çıxmayın qorxuludur.

- Əllərində silahmı var?

- Yox.

- Daş atırlarmı?

- Yox.

- Bəs əllərində nə var?

- Gül. Hərəsi əlində bir dənə gül tutub.

- Nə?

- Gül.

- Çəkilin.

Padşah sarayın eyvanına çıxır. Və saraya hücum çəkən əhaliyə səslənir.

- Ay camaat, nə olub?

- Sən kimsən? Bizə padşah lazımdır. Onu görmək istəyirik.

Şah qəzəbini boğaraq:

- Mənəm - padşahınızam.

- Əgər padşah sənsənsə, əmr ver bizi saraya buraxsınlar. Sənə vacib sözümüz var.

- Buraxın onları. Hamısını buraxın.

Saray əyanları etiraz etsələr də, bunun təhlükəli olduğunu bildirsələr də, şahı fikrindən döndərə bilmirlər. Camaat saraya doluşaraq gəlib padşahın hüzurunda dayanır. Baş əymirlər. Gözlərini heyranlıqla şahın gözlərinə dikib dururlar.

- Buyurun, nə sözünüz var? Kim sizə haqsızlıq edib ki, belə qeyzlənmisiniz. Deyin cəzasını verim.

- Heç kim, qibleyi-aləm.

- Bəs bu nə hücumdur çəkirsiz saraya? Qorxmursunuz ki, qanunu, asayişi pozduğunuza görə kəlləniz gedər?

-Yox, şahım, biz gəlmişik ki, sizə ürək sözümüzü deyək.

-Deyin, qorxmayın. Xalqımın xatirinə dəyəni gözünüzün önündə edam elətdirərəm. Deyin.

Camaatın içindən ən yaşlısı irəli çıxaraq şaha yaxınlaşır. Əlindəki gülü ona verərək:

- Şahım, mən səni çox sevirəm. - deyir və saraydan çıxır.

Onun arxasınca bir başqası da şaha yaxınlaşır. Gülü təqdim edərək o da:

- Şahım, mən səni çox sevirəm. - deyir.

Şah və bütün saray əhli bir-birinə mat-məəttəl baxaraq nə baş verdiyini anlamaq istəyir. Amma heyrətdən donub bu mənzərəni seyr edirlər. Beləcə, saraya hücum edən yüzlərlə insan bir-bir padşaha yaxınlaşır, ona gül təqdim edir, "şahım, mən səni çox sevirəm" deyib, çıxır gedir. Beləcə, saray boşalır. Padşah isə bu mənzərədən xoşhal olsa da, heyrətindən gül-çiçək selinin içində donub yerindən tərpənmir. Handan-hana:

- Vəzir, bu nə idi?

- Baş açmadım, şahım. Vaxt verin araşdırım. Əvvəl-axır hər şey aydın olacaq.

Bir müddətdən sonra Gözəl İbrahimə göz qoyanlardan biri çaparaq saraya yaxınlaşır. Şahın önünə gəlir:

- Anlat görüm, nə baş verir şəhərdə? Gözəl İbrahim nə edir?

- Şahım, səhər tezdən Gözəl İbrahim Əmircan dağının ətəyinə çıxdı. Əhali də ora axışmağa başladı. Üç yüz nəfər olardı. Gözəl İbrahim üzünü onlara tutub belə dedi: "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin".

Vəssalam.

- Elə bu?

- Bu.

- Bəs camaat onu daşa basmadı? "Bizi işimizdən-gücümüzdən edib buna görəmi bura çağırmısan?" demədi.

- Demədilər. Əksinə, soruşdular ki, bəs biz padşahımızı çox sevirik. Adil bir hökmdardır. Bugünəcən görməmişik onu. Heç üzdən də tanımırıq. Onu nə qədər çox sevdiyimizi necə çatdıraq? Nə edək?

- Gözəl İbrahim nə cavab verdi?

- Gözəl İbrahim də cavab verdi ki, bəs bilmirsiniz ki, padşah harda yaşayır? Sarayı tanımırsınız? Gedin ora. Özünə deyin. Camaat da ordan bir baş axışdı saraya.

- Nə gözəl. Bu İbrahim nə müdrik adammış. Xalqımın gözündə bir qədər də qaldırdı məni. Bircə cümləsiylə. Necə dedi?

- "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin".

- Vəzir, yaz bu kəlmələri. Qiymətli sözlərdir. Siz də deyirdiniz ki, xatalı adamdır. Burda xatalı nə var ki? "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin". Görəsən hardan öyrənib bu sözləri. Mən ilk dəfədir ki, eşidirəm. Vəzir, sən necə?

- Mən də, qibleyi-aləm.

- İşiniz olmasın Gözəl İbrahimlə. Qoy necə istəyir, öz həyatını yaşasın. Əlbəttə ki, qanunlarımıza riayət etmək şərtiylə.

Səhəri gün padşah "Şah sağ olsun!", "Şahımıza uzun ömür" sədalarına yuxudan oyandı. Eyvana çıxanda sarayın qabağına əllərində gül tutmuş yüzlərlə insanın toplaşdığını gördü. Onlara əl elədi. "Şahımız, sizə sözümüz var. Bizi qəbul elə" deyə kütlə dilləndi. Şah da tezcə taxtına oturub camaatı saraya buraxmağı əmr etdi. İnsanlar taxtın qarşısına gəlib heyranlıqla

ona tamaşa eləməyə başladılar. Qəfildən biri irəli çıxıb əlindəki gülü şaha təqdim edərək "şahım, mən səni çox sevirəm" deyib, sarayı tərk etdi. Digərləri də bir-bir şaha yaxınlaşaraq, gül verərək eyni sözləri təkrar edib, bir-bir saraydan uzaqlaşmağa başladılar. Taxt gül-çiçəyin içində görünməz oldu. Şahın sevinci isə yerə-göyə sığmırdı. Xoşbəxtlikdən uçmağa qanadı yox idi. Bir azdan Gözəl İbrahimə qoşduqları nəzarətçilərdən biri də gəlib çıxdı:

- Bu gün İbrahim nə edib?

- Heç nə, şahım. Dünənki kimi, Əmircan dağının ətəyinə çıxdı. Gələnlərin sayı da dünənkindən çox idi. Beş yüz nəfər olardı. Yenə də eyni sözləri təkrar etdi: "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin".

- Vəssalam?

- Vəssalam. Sonra da camaat dağılışıb getdi işinə-gücünə.

- Eybi yox. Qoy yaşasın mənim məmləkətimdə. Bəs özü nə iş görür?

- Heç nə, şahım. Hara gedirsə, ayağa dururlar. Xurcununa pay qoyurlar. Pay deyəndə ki, çörək, yağ-pendir, tərəvəz. O da şəhəri məhlə-məhlə dolaşır. İnsanlarla xoş söhbət edir. İnsanlar da ona ürəyini açır, məsləhət istəyirlər.

- Nə məsləhət?

- Biri deyir ki, arvadıyla yola getmir. O biri deyir ki, qonşum pisdir. Xırda məişət problemləri.

- Bəs o, nə məsləhət verir?

- Bircə bunu deyir: "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin". Bir də sizin ədalətli hökmdar olmağınız dilindən düşmür. Kimə yaxınlaşırsa, birinci bunu deyir. Deyir ki, ay camaat, mən çox ölkələr gəzmişəm, çox padşahlar görmüşəm. Beləsini görməmişəm. Siz çox xoşbəxt adamsınız ki, belə gözəl, adil hökmdarı olan məmlə-

kətdə yaşayırsınız.

- Lap yaxşı, lap əla. Qoy gəzib-dolansın. Pis iş görmür ki? Yox. Onda nə deyə bilərik ki, ona? Heç nə. Düz deyirəmmi, vəzir?

- Siz bilən məsləhətdir, qibleyi-aləm. Amma burda nəsə başqa bir əmma var.

- Nə əmma?

- Bilmirəm, yəqin yavaş-yavaş hər şey açılar.

Ertəsi gün erkən yenə əhali sarayın önünə yığışır. Bu dəfə dünənkindən də çox. Padşah da böyük həvəslə onları qəbul etmək üçün taxtına əyləşir. Əmr verir ki, insanları saraya buraxsınlar. Əhali də böyük heyranlıqla şahlarına baxır, heç bir təzim qaydalarına əməl etmədən bir-bir ona yaxınlaşır, gətirdikləri gülü verərək "şahım, mən səni çox sevirəm" söyləyərək sarayı tərk edirlər.

- Vəzir, görürsən də, xalqım məni nə çox sevir?

- Sevir, şahım. Amma...

- Nə amma. Bunun nə əmması var ki?

- Şahım, artıq üçüncü gündür ki, sarayda bütün dövlət işləri dayanıb. Yalnız insanları -qəbul edib, gül almaqla məşğulsunuz. Bəlkə təxirə salaq bu işləri.

- Necə? Xalq gəlib mənə öz məhəbbətini izhar etmək istəyəcək, mən də onları qapımdan qovum? Bunumu istəyirsən?

- Xeyr, qibleyi-aləm. Sadəcə belə davam edə bilməz. Məmləkətimiz böyük. Hər gün də Gözəl İbrahimin çağırışına qoşulanların sayı artmaqda. Belə getsə saraya gələnləri qəbul etmək üçün gərək gecəni də yatmayasınız.

- Qoy belə davam etsin. Görək axırı nə olur. Lazım olsa bir əncam çəkərik. Yaxşı hansı dövlət işləri var? De bir-bir gəlsinlər.

Qazı taxta yaxınlaşır. Təzim edir.

- Qazı əfəndi, nə işin var. De.

- Heç bir işim yoxdur, şahım. Sadəcə hər həftənin bu günü sizin hüzurunuza gəlməliyəm. Verdiyim qərarlar barədə sizə məlumat vermək, ölüm hökmlərini təsdiq edilməsi üçün. Odur ki, burdayam.

- Hər dəfə əlində qalın qovluq olardı. İndi görmürəm.

- Əhalidən bir xeyli şikayət vardı. Amma son üç gündə hamısı gəlib geri götürdülər.

- Aydın danış.

- Biri qonşusundan şikayət vermişdi ki, bəs məni bütün günü təhqir edir. Araşdırdıq gördük ki, düz deyir. Saldıq qonşusunu zindana. Srağa gün gəlib ki, bəs mən qonşumu bağışlayıram. Daha şikayətçi deyiləm. Şikayət etdiyi adama da bir dənə gül bağışlayaraq, "bütün insanlar bir-birini sevməlidir və bunu bir-birinə deməkdən çəkinməməlidir" deyib, gözümün qabağında qucaqlayıb öpdü. Mən də məcbur olub buraxdım onu.

- Lap yaxşı. Burda pis nə var ki? Sonra.

- Biri şikayətə gəldi ki, bəs çörək dükanından oğurluq olub. Fərraşları göndərib yaxaladıq oğrunu. Bircə dənə lavaş oğurlamışdı. Saldıq zindana. Dünən isə gəlib ki, bəs "buraxın onu, taqsır məndədir. Yaxınlaşdı ki, bəs acından ölürəm, mənə bir tikə çörək ver yeyim. Mən də söyüb qovdum onu. Amma indi bilmişəm ki, bütün insanlar bir-birini sevməlidir. Bir insan digərinin ac qalmasını istəməməlidir". Bu gün istəyirdim ki, oğurluq etdiyi sağ əlini camaatın gözü qabağında – meydanda vurdurum. Ki, hamıya dərs olsun. Amma şikayət geri götürüldüyündən məcbur olub azad etdim.

- Ədalətli qərar vermisən. Sonra. Davam et.

- Amma iki nəfər var. Dünəndən bəri qərar verə bilmirəm. Zina edib. Qonşunun nişanlı qızına sataşıb. Onu da yoldan çı-

xarıb. Yaxşı ki, vaxtında xəbər tutub şikayət ediblər. İkisini də tutub zindana saldırdım. Qanuna görə edam edilməlidirlər. Əlbəttə ki, siz padşahımızın hökmündən sonra.

- Gətirin onları bura.

Cavan oğlanla qızı əli-qolu bağlı şahın hüzuruna gətirirlər. Oğlan diz çökərək yalvarmağa başlayır:

- Qibleyi-aləm, mənim taqsırım yoxdur. Uşaqlıqdan sevirdim o qızı. Amma varı-dövləti olan bir qoca kişiyə nişanladılar. Mən də artıq dözə bilmədim. Onu sevdiyimi gizlətməyib özünə dedim. Demə, o da məni sevirmiş. O da mənim məhəbbətimə sevgiylə cavab verdi. Nişanlısı da hardansa xəbər tutub qaziyə şikayət etdi. Əgər bir günah etmişiksə, bağışlayın bizi.

- Şah sağ olsun, edam olunmalıdırlar. Allah qarşısında böyük günah ediblər.

- Bu qızın o yaşlı adamla kəbini varmı?

- Yox. Amma ata-anası razılıq verib. Üzük taxılıb. El-oba bilir. Oğlanın da ata-anası xəcalətlərindən el arasına çıxa bilmirlər. Onlar edam yox, daş-qalaq edilməsini tələb edirlər.

- Oğlan qıza nə deyib?

- Deyib ki, “mən səni sevirəm”. Qız da yoldan çıxıb, cavab verib ki, “mən də səni sevirəm”.

- Elə bu? Gündə yüzlərlə insan saraya gəlib mənə “şahım, mən səni çox sevirəm” deyir. Onda mən də gərək onların hamısını edam elətdirim, hə?

- Bu sevmək o sevməkdən deyil, şahım. - qazı dillənir.

- Xalqım məni sevir, mən də onu. Bizi bir-birimizdən ayıra bilərsənmi?

- Kimin haqqı nədir ki, şahım! Amma qanunlar var. Biz bunları cəzalandırmasaq, digərləri də...

- Bəs onda mən niyə bu iki sevən gənci bir-birindən ayırmalıyam? Qətllərinə fərman verməliyəm. Bir də ki, Gözəl İbrahi-

min də bu barədə kəlamı var. Vəzir, necədir o?

- "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin".

- Qazı, gözəl sözlərdir, elə deyilmi?

- Düz buyurursunuz, şahım. Amma...

- Amması-zadı yoxdur. Bu iki gənci bağışlayıram. Böyük sevginin xatirinə.

Fərraşlar oğlanla qızın qandallarını açıb buraxırlar.

- Düz etdimmi, vəzir?

- Bəli, hökmdarım. Amma, özünüz verdiyiniz qanunları pozdunuz.

- Qanunları dəyişirəm. Bu gündən mənim məmləkətimdə sevgi azaddır. Qızı kiminsə var-dövlətinə satmaq cinayətdir.

- Bəs onda gərək birinci saraydan başlayaq, hərəmxananı bağlayaq.

- Düz deyirsən, vəzir. Hərəmxanada 50 qadın var. Hamısına da təhsil, yüksək mədəniyyət dərsləri keçilib. Hərəsini də bir kənddən, obadan ailəsindən ayırıb gətirib bura salmışıq. Qoy qayıtsınlar öz el-obalarına. Ordakılara da yazıb-oxumağı öyrətsinlər.

- Bəs onda rəiyyətdən nə fərqimiz oldu, şahım!

- Mənim əmrimə qarşımı gedirsən?

- Başüstə, hökmdarım.

Bu an Gözəl İbrahimə qoyulan nəzarətçilərdən biri çaparaq saraya yaxınlaşır. İçəri girir. Taxta yaxınlaşıb, təzim edir.

- Hə, bu gün nə olub?

- Gözəl İbrahim yenə də tezdən dağın ətəyinə getdi. Ziyarətinə gələnlər də dünənkindən daha çox idi. Yenə də eyni sözləri dedi. "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin". Sonra da camaat dağılışıb getdi işinə-gücünə. Gözəl İbrahim də şəhəri gəzib yenidən qayıtdı komasına.

- Komasında daha kimlər var?

- Heç kim. Təkcə özüdür.

- Bəs yanına gələn yoxdur?

- Xeyr, hökmdarım.

-Yaxşı. Nəzarəti davam etdirin. Nə olsa xəbər verin. Görürsən də, vəzir, Gözəl İbrahim sən deyən qədər də təhlükəli deyil.

- Hələ bilmək olmaz. Cəmi dörd gündür ki, şəhərdədir.

Ertəsi gün padşah yenidən səs-küyə yerindən oyanır. Vəzir özünü hövllü yataq otağına salaraq:

- Şahım, üsyandır. Əhali əsgərlərə hücum edib nizə-qalxanlarını əllərindən alırlar. Tez zirzəmiyə düşün. Şahzadələr də artıq ordadır.

- Yaxşı, əsgərləri tərksilah ediblərsə, üsyandırsa, bəs onda hardadırlar? Niyə otağıma gəlmirlər? Məni öldürmürlər.

- Doğurdan e... Heç bunu fikirləşməmişdim. Səs-küy də azalır. Eyvana çıxım, bir vəziyyətə baxım.

- Çəkil.

Padşah vəziri kənara itələyib özü eyvana çıxır. Görür ki, bir kəndli yapışıb əsgərin nizəsindən. Əlindən almaq istəyir. O da müqavimət göstərir. O biri əsgərlər isə gözə görünmür.

- Ay bala, nə edirsən?

- Şahım, dünəndən paytaxtda izdivaca girənlərin sayı çoxalıb. Yığışıb elliklə onlara yurd salırıq, ev tikirik. Alətlərimiz isə çatışmır. Gəldik əsgərlərə dedik ki, biz sizi çox sevirik. Siz də bizi sevin. Müvəqqəti olaraq silahlarınızı bizə verin, lazımdır. Onlar isə imtina elədilər. Sonra isə başa düşəndə özləri də əhaliyə qoşulub getdilər. Bircə bu qalıb. Nə qədər başa salıram, qanmır ki, qanmır.

- Neyləyirsiniz ki, silahı. Silah düşmənə qarşıdır, siz isə mənim sevimli rəiyyətimsiniz.

- Hökmdarım, dedim axı, alətlərimiz çatmır. Torpaq da bərkdir. Nizənin iti ucuyla döyüb-döyüb yumşaldacağıq. Sonra torpağı qalxanın içinə doldurub daşıyacağıq. Palçıq tutmağa da yarıyır. Həmişəlik aparmırıq ki... işi qurtaran kimi qaytaracağıq da...

Heyrətindən nə deyəcəyini bilməyən padşah üzünü vəzirə tərəf çevirir. O da çiyinlərini çəkir.

- Yaxşı, Allah xeyir versin. Tikin, yaradın. Nə köməklik olsa, mən də hazıram.

- Allah ömrünüzü uzun eləsin, şahım. Nəzərinizi üstümüzdən əskik eləməsin. Bir də ki, sizin zəhminizdən bir düşmən də üstümüzə gələ bilməz. Odur ki, əsgərlər bizə yardım göstərsələr, minnətdar olarıq.

- Vəzir, əmrimi çatdır bütün əsgərlərə. Əhaliyə tikinti işlərində köməklik etsinlər. Bəs tikintiyçün lazım olan daşı-kəsəyi, taxtanı hardan götürürsünüz?

- Allaha şükür, torpağımız zəngindir. Daş-kəsəyi dağdan çapıb, arabalarla gətiririk. Qalan şeyləri isə tacirlərlə danışmışıq. Götürürük, əvəzinə isə onlara lazım olan malları veririk. Bu ay toy-düyünümüz çox olacaq, şahım.

- Allah xoşbəxt eləsin. Allah mübarək eləsin.

- Sağ ol, şahım. Allah səni üstümüzdən əskik eləməsin.

Şahın keyfi bir az da yüksəlir. Çöhrəsində gülüş sarayın həyətində gəzməyə başlayır. Bu vaxt çaparlardan biri saraya gəlir.

- Nə xəbər gətirmisən, çapar?

- Gözəl İbrahimdən.

- Nəsə hoqqa çıxarıb?

- Xeyir, şahım. Pis bir iş tutmayıb. O biri gün olduğu kimi, yenə dağın ətəyinə getdi. Ziyarətə gələnləri də çox idi. Yenə də eyni sözləri dedi: "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin". Sonda camaatdan soruşdu

ki, bəs niyə toy-düyün səsləri gəlmir evlərdən. Onlar da dedi ki, nə evimiz var, nə torpağımız, nə də tikməyə pulumuz. Gözəl İbrahim də onlara öz məsləhətlərini verdi.

- Nə dedi?

- Dedi ki, elliklə yığışın bir-birinizə ev tikin. Biri su daşısın, biri dağı çapıb daş gətirsin, biri palçığa qatmaq üçün yumurta. Bir də görəcəksiniz ki, ev hazırdır. Kim bu işə qoşulmaq istəməsə mənim sözlərimi təkrar edin: “Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin”.

- Ay Gözəl İbrahim, axı bizim torpağımız da yoxdur.

- Bəs bura nədir? Çölü-biyaban. Burda tikin, abadlaşdırın, ağac əkin, evlənin, uşaq səsi aləmi götürsün.

- Bura şahımızın torpağıdır, axı.

- Heç bir padşah ölkəsində gedən abadlığa etiraz etməz. Siz başlayın, görəcəksiniz, hətta özü də köməklik edəcək. Sizin şahınız çox müdrik və ədalətli hökmdardır. Bu qədər, şahım. Başqa heç nə demədi.

- Görürsən də, vəzir. Bu Gözəl İbrahim məni xalqımın içində necə göylərə qaldırır. İnsanlara düzgün yol göstərir.

- Bəs qanunlar? Axı ora sizin torpaqlardır. Bu insanlar da qanunlarınızı pozmuş sayılır.

- Neyləyirəm torpaqları. Qoy tiksinlər, əkib-becərsinlər, abadlaşdırsınlar. Əyanlara da denən ki, işləri olmasın camaatla.

- Qazı gəlib, şah sağ olsun.

- Gəlsin.

- Qibleyi-aləm, bir iş var. Lap çətinə düşmüşəm. Sizin müdrikliyiniz lazımdır. Cəza verən də sizsiniz, əfv edən də.

- De. Nə işdir?

- Şahım, biri qonşusunun inəyini oğurlayıb. Aparıb başqa şəhərdə satıb. Sonra da qayıdıb. Bir neçə gündən sonra aydın

olub ki, bəs oğru bu imiş. Qonşusunun şikayəti əsasında tutub salmışıq zindana. Dünən də şikayətçiylə təbib gəliblər ki, bəs burax onu, günahsızdır.

- Təbib niyə gəlib ki?

- Demə, bu tutulanın uşağı xəstəymiş. Aparıb təbibə. O da müalicəyə, dava-dərmana görə pul istəyib. Bu kasıb da gəlib varlı qonşusundan kömək diləyib. O da bunu qapısından qovub. Naəlac qalıb qonşunun inəyini oğurlayıb, satıb. Pulu da təbibə verib, uşağını ölümdən qurtarıb. İndi bunlar da gəlib ki, bəs biz onda başa düşməmişik ki, insanlar bir-birini sevməlidir.

İndi isə bunu anlayırıq. Taqsır onda yox, bizdədir. Təbib də hamıya car çəkib ki, bu gündən müalicəni pulsuz edəcək, dava-dərmanı da pulsuz paylayacaq. İndi mən nə edim, padşahım. Qanunda bu haqda heç nə yazılmayıb. Əfvə isə ancaq sizin ixtiyarınız çatar.

- Əfv edirəm. Hamıya da mənim qərarımı yayın. Mənim məmləkətimdə bütün insanlar bir-birlərini sevməli, ağır günündə əl tutmalıdırlar. Təbibin bu addımını isə yüksək qiymətləndirirəm. Sağ olsun.

- Siz sağ olun, hökmdarım. Adil qərar verdiniz.

Qazi gedir. Hökmdar məmnun halda:

- Hə, vəzir, düz etdimmi?

- Bəli hökmdarım. Amma...

- Nə amma?

- Hökmdarım, məmləkət böyük, kəndlər, şəhərlər, insanlar çox. Qanunu pozanlar da bir o qədər. Hamısı da sizin əfvinizi umacaqlar. Hisslər yox, qanunlar işləməlidir ki, ən kiçik kəndi də idarə edə bilək. Yoxsa hərc-mərclik başlayacaq.

- Heç vaxt. Əvvəllər ola bilərdi. Amma Gözəl İbrahimin o sehrli sözlərindən sonra heç nə olmayacaq. Əksinə, insanlar

daha salim olacaqlar. Çünki onları qanunlar yox, sevgi idarə edir.

Günlər bir-birini əvəz etdikcə saraya insan axını daha da artırdı. Rəiyyət padşahlarıyla görüşür, ona gül təqdim edir, ürək sözlərini deyirdilər. Vəzir, saray əyanları, hətta vəliəhd şahzadə də şahı bu təmasdan çəkindirməyə çalışsalar da, həyatı əvvəlki məcraya qaytarmaq alınmırdı. Əksinə, hər gün yeni bir şey ortaya çıxırdı.

- Şahım, axund hüzurunuza gəlmək istəyir.

- Gəlsin.

- Şah sağ olsun, məmləkətdə qəribə işlər baş verir.

- Nə işlər?

- İnsanlar sübh namazına gəlmirlər. Gələnlər də mənimlə söz güləşdirirlər. Mollaların da hörməti azalıb. Mollaxanalar bağlanmaq üzrədir. Vergi yığa bilmirik. Abır-həya əldən gedir. Düz-əməlli yas mərasimi də keçirə bilmirik.

- Niyə? Kim cürət edir Allahın yazdığı qanunları pozmağa?

- Gözəl İbrahim, şahım.

- Nə edir ki, o qərib?

- Heç nə.

- Bəs onda niyə onu günahlandırırsan? Əgər qanunları pozubsa, özü də Allah tərəfindən göndərilən qanunları, dərhal edam edilməlidir.

- Xeyr, şahım. Sadəcə əhalimiz arasında küfür yayır.

- Nə deyir, axı?

- Deyir ki, “Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin”.

- Burda bir günahmı var?

- Yox. Sadəcə hər səhər onun bu sözünü eşitmək üçün camaat Əmircan dağına axışır, sübh namazına isə gəlmirlər. Məni, din xadimlərini saymırlar.

- Deməli, sənin sözündən belə çıxır ki, İbrahim onları məscidə getməkdən çəkindirir.

- Əsla, şahım. Heç məscidin adını da çəkmir. Dinimizə qarşı hörmət-ehtiramını da bildirir.

- Bəs onda nədir bu məlunun günahı? De, edam elətdirim. Özü də xalqın gözünün qarşısında.

- Şahım, o gün hörmətli ağsaqqalımız Hüseyn Ağa rəhmətə gedib. Bütün şəhər camaatı bu xəbəri sevinclə qarşılayıb, gülüb, sevinirlər. Hətta bir-birlərinə gözaydınlığı da verirlər.

- Başa düşmədim. Hüseyn Ağa yaxşı insan olub axı. Bildiyimə görə, hamıya da əl tutan olub.

- Şahım, dəfn mərasimini özüm aparırdım. Hamı da qəmgin şəkildə dayanıb ağlayırdı. Mərhumu məzara qoyandan sonra dedim ki, "ay camaat, Hüseyn Ağa gözəl insan idi, yaxşı adam idi. Burda olanların hamısına yaxşılığı keçib. Qapısına gələni əliboş yola salmazdı. Yəqin ki, onun bu xidmətləri də yüksək qiymətləndiriləcək. O dünyada yeri Behişt olacaq, cənnətməkan olacaq". Bu sözləri dedikcə camaat bir az da bərkdən ağlamağa başladı. Birdən bu Gözəl İbrahim qabağa çıxaraq nə desə yaxşıdır?

- Nə?

- Ay insanlar, niyə ağlayırsınız? Axund dedi ki, çox hörmətli Hüseyn Ağa cənnətməkan olacaq. Buna sevinmək lazımdır. Ömrü boyu yaşayıb buna çalışmırıqmı ki, haqq dünyasında qiymətimizi alaq, cənnətə düşək. İndi axund belə deyirsə, buna sevinmək lazımdır, ağlamaq yox. Bunu deməyini gördüm. Hamı başladı qucaqlaşmağa, öpüşməyə, "çox şükür ki, Hüseyn Ağa Cənnətə düşdü" deyərək bir-birinə gözaydınlığı verməyə.

- Axund, öləndən sonra cənnətə getmək yaxşıdır, cəhənnəmə.

- Cənnətə, şahım.

- Bəs onda Gözəl İbrahim nə küfr yayır ki? Hüseyn Ağanın cənnətməkan olması sizi qüssələndirir, yoxsa sevindirir?

- Allahın hamıya rəhmi gəlib belə bir gün qismət eləsin inşallah.

- Amin. Bunu başa düşdük. Sonra nə deyir bu Gözəl İbrahim.

- Mollaxanalar yavaş-yavaş bağlanır, şahım. Hamı uşağını təhsildən uzaqlaşdırır.

- Bu niyə? Gözəl İbrahim nə haqla insanları cəhalətə sürükləyir?

- Xeyr, şahım. Sadəcə sizin hərəmxanadan azad etdiyiniz xatunlar evlərində dərsxanələr açıblar. Özü də pulsuz. Camaat da uşaqlarını onların yanına aparır.

- Elə niyə? Mollaların savadı onlarınkından aşağıdırmı?

- Əsla. İş bunda deyil. Sadəcə bizdə dərsini bilməyəndə falaqqa işə düşürdü, cəza verirdik. Amma bu xatunlar uşaqların başlarını sığallayırlar. Səbrlə bir də başa salırlar. Sarayda öyrəndikləri dünyəvi elmlərdən bəhs edirlər. Sizin də adilliyiniz dillərindən düşmür.

- Əla, əla. Bəs Gözəl İbrahimin burda nə günahı?

- Günahı bircə kəlməsindədir- "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin".

- Lap yaxşı. Burda pis nə var ki? Bunu da anladıq. Sonra nə edir bu Gözəl İbrahim?

- Məsciddə moizə oxuya bilmirəm. Dindarlar mənə cavab qaytarır.

- Anlamadım.

- Deyirəm ki, ey insanlar, Allah böyükdür, o hər birimizin günahlarını da görür, yaxşı işlərini də. Allahdan qorxun. Pis əməllərdən çəkinin. Qayıdıb mənə desələr yaxşıdır?

- Nə?

- Allah böyükdür. Biz bunu qəbul edirik. O müqəddəsdir, o adildir, o bizi yaradandır, bizə ruzi, işıq, su, od verəndir. Ondan niyə qorxmalıyıq ki? Biz Allahımızı sevirik. Çox sevirik. Belə bir Allahın bəndələri olmaqdan məmnunuq.

- Hə... Bu bir az qəliz məsələ oldu. Deyirsən ki, bunu Gözəl İbrahim aşılayıb onlara?

- Bəli, şahım. Amma gözəl sözlərdir. “Biz Allahımızı sevirik. Çox sevirik. Belə bir Allahın bəndələri olmaqdan məmnunuq”.

- Yox. Bu Gözəl İbrahim səfil, ağılsız adama oxşamır. Başqa sözün varmı?

- Var, şahım. Paytaxtda dövlət idarələri bağlanır, məmurlar işlərini atıb gedirlər. Əhali vergi vermir. İşçilər məvaciblərini almaqdan imtina edirlər.

- Təfsilatıyla izah elə.

- Şahım, şəhərdə heç kim pula nəsə satmır. Kimə çörək lazımdırsa, tələbatına görə çörəkçidən götürür. Çörəkçiyə paltar lazımdırsa, dərzi havayı tikir. Loğman hamını havayı müalicə edir. Əczaçı dərmanı pula satmır. Bir sözlə, öz aralarında mal, ərzaq mübadiləsi edirlər. Pul verirsən, götürmürlər. Əgər bir iş bacarmırsansa, bir işə yaramırsansa, lap bir küp qızılın olsun ac qalırsan. Gərək hökmən bir işin qulpundan yapışmalısan, insanlara, məmləkətinə xeyir verməlisən. Ən azı fəhləlik etməlisən ki, insan olan kəs sən insanı sevsin. Əyanlar da yaxınlaşıb çörək almaq istəyəndə çörəkçi pullarını qəbul etmir, çörək də vermir. Onlar ”bütün insanlar bir-birini sevməlidir” deyəndə soruşur ki, sən insanları sevib nə etmisən ki? “Əyanam” cavabını verən kimi qapıdan qovurlar. Ona görə də varlıların bir çoxu ac qalmaqdan qorxub gediblər ev tikməyə, su daşımağa, ağac əkməyə, bir sözlə, insanlara faydalı olmağa. Çox şükür ki, çörək yiyəsi olublar.

- Sonra?

- Deyəndə ki, vergi ver, o saat cavab qaytarırlar ki, qazancımız var ki, vergi verək? Malın üstünə pul qoyub satırıq ki, hələ bir nəsə də ödəyək? Əlavə pul qazanıb nə edirdik? Ev tikirdik, ya paltar tikdirirdik. İndi bunların hamısı havayıdır. Pul keçmir. İnsanlar bir-birini insanlıqlarına görə sevməlidir, qazanc əldə etməyə görə yox. Dünya malı bu dünyada qalır, o dünyaya bir-iki metr kəfən aparırsan. İnsan gərək nəfsini boğsun. Aza qane olsun. Haram yeməsin.

- Axund, düz demirlər?

- Şahım, düz demək nədir? Cümə namazında camaata dediklərimi özümə qaytarırlar.

- Yaxşı, Gözəl İbrahimin bunda nə günahı?

- Heç nə, şahım. Özüm də məəttəl qalmışam. Bütün bunlar onun "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin" küfründən sonra başlayıb. İnsanlarda nə qorxu qalıb, nə də bizə qarşı bir hörmət-izzət.

- Axund, sözündən belə çıxır ki, bir sözə görə Gözəl İbrahimi edam etdirməliyəm, eləmi?

Axund fikrə gedir. Dinmir. Başını aşağı salır.

- Cavabını gözləyirəm.

- Xeyr, şahım.

- Onda gedə bilərsən.

Ortaya yenə sükut çökür.

- Vəzir, sənin bütün bu baş verənlərə münasibətin necədir?

- Şahım, əlbəttə ki, yaxşısını siz bilirsiniz. Amma nə qədər gec deyil Gözəl İbrahimi biz də sürgün etməliyik.

- Günahı nədir?

- Bilmirəm.

- İnsanlara sevgi aşıladığı üçünmü?

- Bilmirəm.

Beləcə, günlər bir-birini əvəz edir. Məmləkətdə əmin-amanlıq hökm sürür.

Saray. Şah taxtına oturub. Vəzir, vəkil, əyanlar ətrafında ayaq üstə dayanıb. Hökmdar fikrə gedib. Heç kim dinib-danışmır.

- Vəzir, hüzuruma kimsə gəlibmi?

- Xeyr, şahım.

- Qazı, axund da çoxdandır görsənmirlər.

- Sizi narahat edəsi bir işləri yoxdur. Əhalidən şikayət yox, cinayət törədən yox. Zindanlar da bomboşdur.

- Gözəl. Gör necə adil hökmdaram ki, məmləkətimdə əmin-amanlıqdır.

Bu an bir kəndli saraya daxil olur. Gəlib taxtın qabağında dayanır.

- Şahım, sənə sözüm var.

- Sən kimsən? Vəzir, kim icazə verib bunun saraya girməsinə?

- Şahım, mən sənin rəiyyətinəm. Mən səni çox sevirəm. – deyib əlindəki gülü ona təqdim edərək sarayı tərk edir.

- Vəzir, bu nə özbaşınalıqdır. Əsgərlər, eşik ağası hara baxır?

- Şahım, sarayda bizdən, şahzadələrdən başqa heç kim yoxdur. Əsgərlər tikintidə işləyirlər. O vaxtdan geri qayıtmayıblar.

- Əla. Əgər mənim düşmənim yoxdursa, xalq məni sevirsə, onda keşikçiyə, əsgərə nə ehtiyac? Vəzir, son günlər insanlar da saraya axışmır, mənə gül vermir, sevgilərini ifadə etmirlər. Bircə bugünkü kəndlidən başqa.

- Mən də məəttəl qalmışam. Əvvəllər ehtiyat edirdim ki, gecəmiz-gündüzümüz olmayacaq bunların əlindən. Amma indi heç kim gözə dəymir.

- Gözəl İbrahimdən nə xəbər?

- Təzə bir şey yoxdur. Yenə əvvəlki kimi Əmircan dağının ətəyinə çıxır, həmişə dediyi sözləri də təkrar edir: “Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin”

- Başqa təzə nə xəbər var?

- Şahım, sarayda yeməyə də, içməyə də bir şey yoxdur. Anbarlar boşalıb.

- Xəzinədən qızıl götürüb, gedib alsınlar. Bununla da mən məşğul olmalıyam? Bu nə cürət.

- Şahım, bazarda pul-para işləmir. Hətta deyəndə ki, saray üçün, şah üçün alırıq, yenə heç nə satmırlar. Nə pula satırlar, nə havayı.

- Niyə?

- Bilmirik.

- Fərraşları götür get. Pulla satmasalar məcburi al əllərindən.

- Şahım, dedim axı, sarayda heç kim qalmayıb. Bir bizik.

- Onda özüm gedəcəyəm. Dur gedək. Burda nə isə bir müəmma var. Amma yenə demə ki, taqsır Gözəl İbrahimdədir.

- Şahım, bəlkə dərviş paltarı geyinəsiniz.

- Lüzum yox. Onsuz da hamı məni üzdən tanıyır. Gedək görək şahlarına qarşı bu nə hörmətsizlikdir? “Şahım, səni sevirəm” demələri nədir, bu etdikləri nə...

Şah, vəzir və əyanlar bazar meydanına gəlirlər. Əhali şahı görcək, üzük qaşı kimi dövrəyə almağa başlayır. “Adil, Adil” sədaları, alqış sədaları aləmi bürüyür. Şah üzünü vəzirə tutaraq:

- Vəzir, Adil kimdir?

- Bilmirəm, şahım. Bir az səbr elə aydın olar.

Alqış sədaları səngidikdən sonra şah hündür bir yerə qalxıb üzünü xalqa tutur.

- Ey mənim rəiyyətim, necəsiz, necə dolanırsınız?

- Hər şey yaxşıdır. Sayənizdə dolanırıq. Allaha çox şükür, hər şeyimiz var.- deyə yerbəyerdən səslənirlər.

- Eşitdim pulu, qızılı yaxına buraxmırsınız. Məmləkətdə hər şey havayıdır. Bunu necə izah edirsiniz?

Kütlədən bir ağsaqqal qabağa çıxıb:

- Adil hökmdar, Gözəl İbrahim məmləkətimizə gələndən, bizim ürəyimizə sevgi salandan sonra məlum oldu ki, bütün bədbəxtçiliklərimizə səbəb pul-para imiş. Qızımızı ərə pula görə verirmişik, qonşumuzun inəyini pula görə oğurlayırmışıq, loğman xəstəni pula görə müalicə edirmiş, pulu olmayanlar xəstəlikdən tələf olurlarmış, pulu olmayan dərman ala bilmirmiş, ac adam pulu olmadığına görə ac qalırmış və sonda çörək oğurlayıb zindana düşürmüş, fərraşlar pul qazanmaq üçün insanları incidirlərmiş, cəllad xəzinədən məvacib almaq üçün boyun vururmuş. Adil hökmdar, sözü uzadıb nə başınızı ağrıdım. Buna görə də pulu-qızılı həyatımızdan sildik. Hətta cəlladınız da indi boyun vurmur, şum vurur, insanların canını almır, torpağın canını alır, əkir, becərir, bolluq yaradır. Siz də sağ olun ki, nəzərlərinizi bizim üzərimizdən əksik etmirsiniz. Dəstək verirsiniz.

- Bəs onda saraya niyə ərzaq satmaqdan imtina edirsiniz? Bu yaxşılığıma görəmi?

- Əsla, adil hökmdar. Sizdən incimişdik, ona görə.

- Anlamadım!

- Adil hökmdar, hər səhər əlimizdə gül saraya axışdıq, bir-bir sizə sevgimizi bildirdik. Amma bunun müqabilində bircə dəfə də sizin bir kəlmənizi eşitmədik.

- Bundan artıq nə sevgi. Torpağımı əkib-becərirsiniz, istədiyiniz qanunları tətbiq edirsiniz. Bu vaxtacan bir söz də deməmişəm. Bundan artıq nə sevgi?

- Adil hökmdar, Gözəl İbrahim deyir ki, “Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin” . Biz bunu deməkdən çəkinmədik, indi növbə Sizindir.

Kütlədən “Adil, Adil” sədaları, alqış səsləri yenidən ətrafı bürüyür. Şah:

- Ey insanlar, mən də sizi sevirəm və bunu sizə deməkdən çəkinmirəm.

Yenidən alqış sədaları zilə qalxır.

- Adil hökmdar, əyanlarına de ki, bir də bizə pul təklif etməsinlər. Sarayın tələbatı nə qədərdirsə, götürüb aparsınlar. Bu məmləkətdə hər şey sizindir. Siz ki, hər şeyinizi bizimlə bölürsünüz, sizə malımız nədir, canımız da qurban.

- Başqa bir şeyə ehtiyacınız varmı?

- Var, şahım.

- Nəyə?

- Sizə. Sizin xeyir-duanıza. Alqışınıza. İstəyirik hər gün bizim aramızda olasınız. Bizə dayaq olasınız. Xeyrimizdə-şərimizdə iştirak edəsiniz. Sizin sevginizə ehtiyacımız var.

Şah qocanın bu sözlərindən məmnun qalır. Camaatla sağollaşıb başının ətrafıyla yenidən saraya qayıdır.

- Vəzir, araşdırdınmı bu “Adil, Adil” deyirdilər e... nə deməkdir?

- Bəli, şahım. Əmircan dağında Gözəl İbrahim əhaliyə sual verib ki, bəs şahınızın adı nədir? Onlar da çiyinlərini çəkib cavab verə bilməyiblər. O da “əsas şaha atasının verdiyi ad deyil, xalqın ona verdiyi addır. Əgər ki, dilinizdən “adil hökmdar” kəlməsi düşmürsə, onda şahınızın da adını Adil çağırın” deyib.

- Müdrik adammış bu Gözəl İbrahim. Siz də deyirdiniz ki, axmağın biridir, xatalıdır, sürgün etmək lazımdır.

Həmin gündən şah hər gün əyanlarıyla şəhərə çıxır, cama-

atla birlikdə namaz qılır. Qayğılarıyla maraqlanır. Əhali dünyaya gələn oğlan uşaqlarına Adil, qızlara isə Adilə adı verməyə başlayır. Məmləkətin şöhrəti hüdudlarından kənara da yayılır. Digər xalqlar da öz şahlarından üz döndərib bu məmləkətə axışmağa başlayırlar. Şahın hökmranlığı gündən-günə möhkəmlənir. Həyat belə davam etdikcə vəzir-vüzəranın, əyanların da nüfuzları azalır. Şah bütün günü xalqın arasında olur. Hətta naharını, şamını da onlarla yeyir. Süfrədə yanında vəzirini yox, Gözəl İbrahimi əyləşdirir. Buna görə də sarayda qısqanclıq artır. Hətta şahzadələr, gələcəyin taxt-tac sahibləri də təlaşa düşürlər. Bir müddət sonra şah Gözəl İbrahimi saraya gətirir. Vəzir təyin edir. Baş vəzir daha da narahat olmağa başlayır. Üzünü vəliəhd şahzadəyə tutur:

- Şahzadəm, şahımız Gözəl İbrahimi vəzir təyin elədi.

- Hökmdarın hökmünə qarşısanmı?

- Əsla. Sadəcə bir xüsusu nəzərinizə çatdırmaq istəyirəm. Yəqin ki, bir azdan məni də saraydan uzaqlaşdırıb Gözəl İbrahimi baş vəzir qoyacaq. Sonra isə növbə sizə çatacaq.

- Aydın danış.

- Şahzadəm, xalq Gözəl İbrahimi sevir. Allah eləməsin, sabah şahımızın başına bir iş gəlsə kimin taxta çıxmasına tərəfdar olarlar? Sizin, yoxsa İbrahimin?

- Xalqın buna nə həddi çatar ki? Dövlətin ordusu var, topu, silahı var. Otuzduraram onları yerində.

- Şahzadəm, nə ordumuz var, nə də silahımız. Heç fərraşlarımız, cəlladımız da yoxdur. Hamısı Gözəl İbrahimin yanındadır. Qanunlar da işləmir. Şahımız isə bunlara göz yumur. Elə hey "xalqım, səni sevirəm" deyə-deyə gəzir.

- Məsləhətin nədir?

- Məsləhət sizindir, şahzadəm. Nə qədər gec deyil, bir əncam çəkməlisiniz.

- Nə etməliyəm? Atamı zəhərləyib, öldürüb taxta keçməliyəmmi?

- Allah eləməsin, şahzadəm.

- Bəs məsləhətin nədir?

- Məsləhət sizindir, şahzadəm.

* * *

Günlər isə, beləcə, davam edirdi. Günlərin bir günü baş vəzir təlaş içində şaha yaxınlaşır. Xəbər verir ki, bəs qonşu dövlətin padşahı hüdudlarımızı aşıb. Qoşunuyla paytaxta doğru irəliləyir. Yolunda nə görürsə darmadağın edir. İnsanları qılıncdan keçirir. Padşah xalqı bir yerə yığıb silahlanmağı əmr edir:

- Ey xalqım, düşmən qoşunla-ləşkərlə üstümüzə gəlir. Vuruşub öz torpaqlarımızı yağı düşməndən qorumalıyıq. Qurub-yaratdıqlarımızı müdafiə etmək üçün silaha sarılmalıyıq. Torpaqlarımızı müdafiə etməliyik.

- Adil hökmdar, üstümüzə gələnlər insandırlarmı? - deyə kütlədən biri səslənir.

- Bəli.

- Daha niyə silaha sarılaq ki... Gözəl İbrahimlə gedib çıxarıq qarşılarına və müdrik kəlamdan onları da xali edərik. Deyərik ki, "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin"

- Onlar düşməndirlər, sizi öldürməyə, qan tökməyə gəlirlər. Başa düşürsünüzmü?

- Xeyr, Adil hökmdar. Onlar da bizim kimi insandırlar. Sadəcə ürəklərində sevgi yoxdur. Qoy silahla gəlsinlər, amma biz onların qabağına gül ilə çıxarıq. Ürəklərinə sevgi toxumu səpərik, başa salarıq.

- Ey nadanlar, onlar düşməndirlər. Gözlərini qan örtüb. Başa düşün. Gözəl İbrahim də sizə bunu deyir.

- Ay camaat, əsla. – deyə Gözəl İbrahim yerindən səslənir. - Mən belə demirəm. İnsanlar, siz düz deyirsiniz. Hər hansı bir qəddar insanı da sevgi düz yola gətirər. Siz özünüz əvvəllər necəydiniz, indi necəsiniz?

Bu zaman carçı çaparaq şaha yaxınlaşır.

- Şahım, düşmən artıq sərhədimizi keçib. Kəndlərimizi, şəhərlərimizi viran qoya-qoya, insanları qılıncdan keçirə-keçirə irəliləyir. Artıq paytaxta yaxınlaşmaq üzrədirlər - əlli min silahlıyla, toplarla. Bir tədbir görmək lazımdır.

- Baş vəzir, şahzadələrim, əyanlar, silahlanın! Düşmənin qabağına özümüz çıxacağıq.

Beləcə, şah iyirmi nəfərlik ətrafıyla silahlanıb, paytaxt darvazalarından çıxırlar. Gözəl İbrahim də vəzir kimi qucağına bir dəstə gül alıb onlara qoşulur. Silah götürməkdən imtina edir. Paytaxtdan bir qədər uzaqlaşırlar. Amma düşmən gözə dəymir. Bir qədər də gedirlər. Yenə ordu gözə dəymir. Bir kəndə çatırlar. Görürlər ki, insanlar öz işində- gücündədirlər. Qan iyi yox, gül ətri gəlir. Əhali də onları alqışlarla qarşılayır. Bir qədər də irəli gedirlər. Amma düşmən qarşılarına çıxmır ki, çıxmır. Beləcə, gəlib çıxırlar məmləkətin hüdudlarına. Şah dodağını dişləyir. Burda başqa bir oyunun olduğunu anlayır. Ona görə də üzünü baş vəzirə tutub:

- Bəs carçı çaparaq gəldi ki, qoşun yaxınlaşır, rəiyyətimi qılıncdan keçirir. Hanı bəs düşmən?

- Şahım, düşmən olsaydı, nə edəcəkdik ki?

- Bu nə axmaq sualdır? Vuruşacaqdıq.

- Əlli minlik düşmən qoşununa biz iyirmi nəfər nə edə biləcəkdik ki?

-Əsas bu deyil. Əsl şah, şahzadə, əsilzadələr əgər məğlub

olacağını bilsə belə, döyüş meydanında vuruşub birinci həlak olmalıdır. Ki, rəiyyətinin necə qılıncdan keçirildiyini, məmləkətinin, torpağının necə viran olduğunu görməsin.

- Şahım, deməli, siz də əminsiniz ki, Gözəl İbrahimin bir dəstə gülü və müdrik kəlamıyla düşməni durdurmaq, ona qalib gəlmək mümkün deyil.

- Əlbəttə ki.

- Şahım, mən də, şahzadələr də, əyanlar da başa düşürdük ki, sevgi gözəl bir şeydir. Amma Vətənə sevgi bütün sevgilərdən üstündür. Gözəl İbrahim yaydığı sevgiylə bu müqəddəs sevgini insanların ürəyindən sildi. Və biz meydanda tək qaldıq. Xalq insan sevgisinin dalıyca gedib, Vətənə, torpağa, dövlətə, qanuna sevgisini də unudaraq hətta düşmənə gül bağışlamaq istədi. Vətənə olan sevgisini qurban verdi. Silaha sarılmaqdan da imtina etdi. Hətta əsgərlərimiz də... Bunun isə bir adı var – xəyanət.

Şah başını aşağı salır. Baş vəzirinin düşündüyü oyunu anlayır. Atından yerə enir.

- Kim fikirləşib bu oyunu. Sənin işinə oxşayır, baş vəzir.

- Xeyr, şahım. Şahzadəmizin müdrikliyidir bu.

- Yaxın gəl, oğlum.

Şah tacını çıxarıb oğlunun başına qoyur.

-Ay oğul, gözəl dərs verdin mənə. Amma Gözəl İbrahimin yaydığı sevgidən ovsunlanan mən bundan sonra məmləkətə başçılıq edə bilmərəm. Nə "Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin" deyən məndən şah olar, nə də Gözəl İbrahimdən vəzir. Mən də İbrahimə qoşulub onunla gedirəm. İnsanların ürəyinə sevgi salmaq üçün. Çünki artıq bundan başqa bir iş bacarmıram. Heç sənətim də yoxdur. Lap bu Gözəl İbrahim kimi. Gözəl İbrahim, bəri gəl. Gül dəstəsini mənə ver.

Gözəl İbrahim şaha yaxınlaşıb gül dəstəsini ona verir. Şah qılıncını çıxarıb oğluna uzadır. Şahzadə sağ əliylə qılıncı alıb öpür. Bu dəfə şah gül dəstəsini oğluna uzadır. Şahzadə gülü sol əliylə alıb qoxulayır.

- Get, ay oğul, bu xalq, bu torpaq sənə əmanət. Qoru xalqını, idarə et. Xalqına xidmət elə. Bir əlində ata-babandan yadigar qalan qılınc - qanun olsun, bir əlində isə Gözəl İbrahimin sevgi çiçəkləri. Heç vaxt mənim kimi bunların tarazlığını pozma. Gəl, Gözəl İbrahim, getdik.

Beləcə, Adil Şah və Gözəl İbrahim dəstədən uzaqlaşıb, sərhədi keçirlər. Şahzadə, baş vəzir, əyanlar onları ta gözdən itənəcən gözləriylə yola salırlar. Özləri gözdən itsələr də, uzaqlardan yenə də səsləri gəlir:

"Ey insanlar, bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin".

*15.11.2014*

# İbrahim Ömərovun babasının nəsihəti

İbrahim Ömərov mənim dostum idi. Amma neyləyək ki, bizi tez tərk elədi. Cəmi 36 yaş. 36 yaş nədir ki?

Amma duzlu-məzəli söhbətləri yadda qaldı. Təkcə bir sözünə - "İnsanlar bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin" - kəlamına "Gözəl İbrahim" adlı bir hekayə həsr etdim. Çünki o, ətrafındakı bütün insanları sevirdi. Dilindən bir adamın da adını eşitmədim ki, ona nifrət etsin.

İbrahim həm də adını daşıdığı babasıyla fəxr edirdi. Onun kəlamları, nəsihətləriylə oturub-dururdu. Elə bir məclis olmazdı ki, ondan söz deməsin, rəhmət oxutdurmasın. Babasının nəsihətlərdən birini mənə də nəql eləmişdi:

"Mahir, 7-8 yaşım olardı. Babam isə deyirdi ki, "İbrahim, bax a... arvadın dalınca qaçma, çata bilməzsən". Məəttəl qalırdım ki, nə deyim. Arvada çatmağa nə var ki. Qonşumuz Məmmədəli arvadı onu əsəbiləşdirəndə dalıyca qaçırdı. Qaçıb, çatıb, hələ bir qapaz da vururdu. Hələ evdəkiləri demirəm. Bax indi evlənmişəm. Arvad məndən bərk qaça bilər ki, mən də ona çatmayım? Əsla. Kişi arvadın dalıyca qaçar, ona çatar, hətta ötər də...".

Bir müddət keçdi. İbrahim bir az da yaşlandı. Axır ki, babasının bu nəsihətini başa düşdü: "Mahir, demə İbrahim babam tamam başqa şey deyirmiş. Məsələn: arvad səndən təzə palto istəyir. Bir təhər pul tapıb alırsan. Üstündən bir az keçən kimi beyninə dublyonka düşür. Onu da alırsan. Bir az keçir, arvad artıq şuba xülyasındadır. Onu da alırsan. Köhnə aldığın qara rəngdədirsə, arvada ağ rəngli şuba lazımdır. Yaxud da tək brilliant qaşlı üzük alırsan, buna bab sırğasını istəyir. Sırğa alırsan,

medalyon yada düşür. Sonra bilərzik, saat, daha nələr, nələr. İndi başa düşmüşəm ki, arvadın arzuları çox və sonsuzdur. Hansını həyata keçirsən, yeniləri dünyaya gəlir. İndi-indi babamı başa düşməyə başlamışam. Arvadın arzuları sonsuzdur. Bu arzuların dalınca qaçmaq olmaz – çata bilməzsən. Arvadın dalıyca qaçacaqsan, qaçacaqsan, bir də görəcəksən həyatın sonudur. Sən finişdəsən. Arvadın arzuları isə hələ də startda".

**P.S.** *Əzizim, İbrahim, baban bu sözləri arvadın, gəlinlərin, qız nəvələrin arzularının dalıyca qaçıb-qaçıb, finişə çata-çatda başa düşüb demişdi. Amma biz səni startda itirdik, həyat yoldaşının, gələcək gəlinlərinin, qız nəvələrinin arzuları finişə erkən çatdı.*

*19.11.2014*

# İbrahim, Buludxan, Cavanşir

Bir İbrahim adlı dostumuz vardı. Niyə dostum yox, dostumuz dedim? Çünki onu sevən, bu gün də yaddan çıxarmayan Fikrət Rzayev, Məsiağa Məhəmmədi, Eldəniz Elgün, Seyid Cavanşir, Mehman müəllim, müavinindən daha çox ona dost kimi baxan Həsən müəllim inciyər məndən. Hələ adını çəkmədiyim digər dostları demirəm.

Professor Buludxan Xəlilov da bizim İbrahimin dostu idi. Gündə üç-dörd dəfə telefonla danışmasa, işdən çıxandan sonra "Xalq qəzeti"nə gəlib ona salam verməsə evə getməzdi.

Bağda yaşadığım vaxtlar idi. Qış axşamlarının birində İbrahimin iş telefonuna zəng etdim:

- İbrahim, salam.
- Salam, Maka.
- Yaxşı borş bişirmişəm.
- Gəlirik.

İbrahim mənim bişirdiyim üç yeməyə etiraz edə bilmirdi. Biri kabab çəkməyimə, ikinci bişirdiyim borşa, bir də kartof, motal pendirin qırıntısı qatılmış vermişel-plova. Lap vacib işi olsa belə, atıb bizə gəlməliydi. Demə mən zəng edəndə Buludxanla Cavanşir də otaqdaymışlar. İbrahim də tez kreslosundan sıçrayaraq "Buludxan, Cavanşir getdik bağa, Mahir yaxşı borş bişirib" deyir. Bunu eşidən Buludxan üzünü turşudub deyir: "Nə? Borş?".

Etiraz etməyinə baxmayaraq, İbrahim onu "sən də "Şamaxinka"da düşüb gedərsən evə" bəhanəsiylə mindirir maşına. Üz alırlar Masazıra. Sükanın arxasında da Cavanşir olur. Yol boyu İbrahim ha illah eləsə də ki, "ay Buludxan, Mahirin

borşu, sən yediyin borşlardan deyil. Gəl gedək sən də... Peşman olmazsan" desə də, Buludxan razılaşmayıb ki, razılaşmayıb. Mənim bişirdiyim borşun əleyhinə hələ bir-iki "antisovet" söz də söyləyib, lağa qoyub. "Mən plov yemirəm ki, bığım yağa batar, indi gecə yarısı gedib kakoy-to borş yeyəcəyəm?" deyərək. Beləcə gəlib çıxıblar "Şamaxinka"ya.

Birdən İbrahim Cavanşirə deyib ki, "saxlama, sür birbaşa Masazıra". O da basıb qaza. Bundan sonra Buludxanın etiraz səsləri bir az da qalxıb. Amma nə tövr eləsə də, Cavanşirə maşını saxlatdıra bilməyib. Cavanşirin seyid cəddindən qorxaraq "cəddivə qurban olum" deyərək oturub sakitcə.

Mən isə süfrəni açıb bunları gözləyirəm. İri qazan borş, yanında ev tutmaları, zoğal arağı, xama, təndir çörəyi. Bir də eşitdim ki, darvazanın ağzında maşın dayandı. Səs-küy qalxdı. Bildim ki, gəldilər. Qaça-qaça darvazanı açmağa gedirdim ki, Buludxanın səsi lap zilə qalxdı. Əvvəl başa düşmədim nə məsələdir. Yavaşca qapını açdım. Buludxanın arxası mənə tərəf idi. Ona görə də hiss etmirdi ki, onu mən də eşidirəm. Amma İbrahimlə Cavanşir məni görürdülər. Buludxanın "çıxış"ını kəsmirdilər ki, mən də eşidim:

- Borş. Nə borş? Gecə vaxtı da borş olar. Heç olmasa kabab olsaydı deyərdim hə. Yoxsa ki, borş. Mahir nə borş bişirəcək ki, hələ bir şəhərdən basa-basa gəlmişik bu boyda yolu...

Birdən Buludxan İbrahimlə Cavanşirin gülməyindənmi şübhələndi, ya arxasında hənir hiss etdi. Arxaya çevrildi. Gördü ki, mən dayanmışam. Tez valı dəyişdi:

- Salam, canik. Necəsən? Borş hazırdır?

## Çay, şokolad, viski, qonaqlıq

İbrahimlə Buludxanın qəribə bir dostluğu vardı. Aralarındakı ərk isə ikiqat artıq idi. (Mən ondan geri qalmırdım) İbrahimin kabinetinə girən kimi:

- İbrahim, bu nədir, qonaq gəlib, çay gətizdir.

Çay gəlirdi. Bu dəfə şokolad yada düşürdü. İbrahim şkafı açıb bahalı şokoladlardan götürüb doldururdu qənddana. Sonra qonaqpərvərliklə göz vuraraq "professor, yaxşı viski də var, süzüm?" deyəndə, Buludxan "çox yox. İyirmi-iyirmi" deyə cavab verərdi. İyirmi sonra yuvarlaqlaşıb "yüz" olurdu.

Buludxan Xəlilov Azərbaycan Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı, professordur. Pedaqoqdur. İşdə o qədər ciddidir ki, üzündən...

Günlərin bir günü universitetin yanından keçəndə İbrahim dedi ki, gəl Buludxana dəyək. Demə məqsədi varmış. Məni də əvvəldən xali etdi ki, "alova nöyüt töküm". Girdik binaya, qalxdıq 3-cü mərtəbəyə. Girdik dekanlığa. Otağa girən kimi:

- Professor, bu nədir, qonaq gəlib, çay gətizdir.

Mən isə "Yanında da moskovski şokolad" deyə əlavə etdim.

Buludxan da narahat halda, o biri otaqda olan işçilərinin, tələbələrinin eşitməsindən ehtiyatlanaraq:

- İbrahim, qadan alım. Bura universitetdir e, təhsil ocağıdır. Burda belə şeylər olmur.

- Viski də...

- İbrahim, viski nədir. Bura məktəbdir e, məktəb.

- Başa düşmədim. Onda belə çıxır ki, mənim otağım çayxanadır? Vsyo, sən gələndə mən də sənə çay verməyəcəyəm.

- İbrahim, qadan alım, sən jurnalistikaya baxma. Orda ayıb sayılmır. Amma biz tələbələrə təlim-tərbiyə veririk.

Otaqdan çıxdıq. Qucaqladı öpdü məni ki, sağ ol. Mən danışanda topa yaxşı güllə qoyurdun. Amma bu bir zarafat idi. Axşam yenə də bir yerdəydik. İbrahimin çaylı-şokoladlı, viskili, dostları ətrafında olan otağında. Belə bizim kasıb vaxtımızda olurdu. Şıxovda kütüm balığının qızartması, "Ağ şəhər" kafesində düşbərə, Göyçə xəngəlxanasını hələ demirəm.

## İbrahimin sevdiyi şeir

Elə ki, iyirmi-iyirmi gillədirdik... üç dəfə iyirmidən sonra İbrahimin Buludxandan bir xahişi olurdu:

- Pofessor, qadan alım, Nəbatidən o şeiri de.

Buludxan müəllim də böyük həvəslə, intonasiyayla başlayırdı, nə başlayırdı:

*Səba, məndən söylə o gül'üzarə,*
*Bülbül gülüstanə gəlsin, gəlməsin?*
*Bu hicran düşkünü, illər xəstəsi*
*Qapına dərmanə gəlsin, gəlməsin?*

*Mən qurbanı olum ənbər tellərin,*
*Qönçə dodaqların, püstə dillərin,*
*O lalə rüxsarın, mişkin xalların*
*Oduna pərvanə gəlsin, gəlməsin?*

*Gözüm çox həsrətdir xumar gözünə,*
*Günəş camalına, şəkər sözünə,*
*Utanıram, necə deyim üzünə,*
*Dərdin xəstə canə gəlsin, gəlməsin?*

*Dolaşdır boynuma şümşad qolunu,*
*Qucaqlayıb qucum incə belini,*
*Ləli-ləbin əmim, sorum dilini,*
*İstər ölü canə gəlsin, gəlməsin?*

*Nəbati istəməz sənsiz dünyanı,*
*İzzəti, hörməti, şövkəti, şanı,*
*Bir zada qalmayıb daha gümanı,*
*Bu baş o meydanə gəlsin, gəlməsin?*

## Maka

Mənə zarafatla Maka deyirdi. Bir dəfə Tbilisiyə getmişdik. Girdik “Xingal evi”nə.

Sifarişimizi verdik. Ofisiant qız yeməyi gətirəndə qeyri-iradi soruşdum:



*Gürcüstanda: İbrahim, Mahir və gürcü dostu*

- Devuşka, kak vas zovut.

- Maka.- deyə cavab verdi.

Demə gürcülərdə Maka qız adıymış. İbrahim gözünü mənə zillədi ki, görüm nə deyəcəyəm. Mən isə əvvəlcədən İbrahim məni çağıran kimi Maka deyə cavab verəcəyimi planlaşdırmışdım. Amma gördüm ki, belə alınmayacaq. Ona görə də özümü sındırmadan:

- A menya Makaka.

**P.S.** *Əziz dostumuz İbrahim! Ruhun şad olsun. Yerin yaman görünür. Hər şey qaydasına düşüb. O gün Buludxanın otağına getmişdim. Qabağıma çay da qoydu. Yanında şokolad, quru tut. Öz tort payını da mənə verdi. Meyvəni dilimlətdirib stola düzdü. Bircə viski yox idi. Əminəm ki, yaxın gələcəkdə o da olacaq.*

*O vaxtlar narazı-narazı bağda yediyi borşu yada saldı. Dedim ki, İbrahimdən sonra borş bişirmirəm. Nəbatini xəbər aldım. Dedi ki, Nəbatinin də o vaxtdan ilhamı ölüb. "Xalq qəzeti"ndəki otağında da çay quruyub. Məni də Maka deyə çağıran yoxdur. Bilirsən niyə? ÇÜNKİ SƏN YOXSAN!*

*24.12.2014*

# İBRAHİM QOHUMLARININ DİLİNDƏ



**Mövla Ömərov,**
*əmisi*

## MÜDHİŞ GECƏNİN SARSIDICI XƏBƏRİ!

Bu acı xəbərdən 4-5 gün əvvəl mən İbrahimin yeni vəzifəyə – Sumqayıt Dövlət Universitetinə prorektor təyin edilməsini eşidib onun telefonuna bir neçə dəfə zəng etsəm də, telefonu söndürüldüyündən onunla danışa bilməmişdim. Zəng etmək fikrindən əl çəkib sabah işdən sonra özü ilə görüşməyi qərarlaşdırdım. Görüşməkdə məqsədim onu təbrik etmək, bəzi tövsiyə və məsləhətlərimi vermək istəyirdim. Ancaq el misalında deyildiyi kimi – sən saydığını say, gör fələk nə sayır. Belə ki, bu görüşü Allah mənə qismət etmədi.

O müdhiş gecə – mart ayının 14-də təqribən saat 4 radələrində ev telefonuna gələn aramsız zəng məni yuxudan oyatdı. Mən telefona yaxınlaşanadək zəng kəsildi, yenidən çarpayıya qayıdıb yerimə uzandım. Elə bil ürəyimə nəsə gəlmişdi, həm də çox qorxmuşdum, bir anlıq ürəyim döyünməyə başladı. Mən həyatımda ilk qorxu hissini hələ kəndimizdə olarkən

1988-ci ilin dekabrın 7-də zəlzələ vaxtı hiss etmişdim. Vaxtsız telefon zəngindən qorxmağımın başqa səbəbi də vardı...

Çünki son 10 ildə bir çox ağır itkilərlə üzləşib 10 nəfər əzizlərimizi –atamı, əmilərimi, cavan-cavan əmimoğullarını itirmişdim. İçimdəki bu qorxu hissi mənə nəyisə, hansısa xəbəri demək istəyirdi. Bunu fikirləşirdim ki, yenidən telefon zəng çaldı. Mən tez yataqdan sıçrayıb telefona yaxınlaşmaq istəyərkən, fikrimdən kiminsə səhv zəng çaldığını, məndən üzr istəyəcəyini eşitmək istəyi ilə yenə də qorxa-qorxa dəstəyi əlimə götürdüm.

Telefonda Mehdinin kövrək, həyəcanlı titrək səsini eşitdim. O mənə təcili Mərkəzi Klinik Xəstəxanaya gəlməyimi dedi:

–Əmi, tez gəl! İbrahimin vəziyyəti yaxşı deyil!

–Ay bala, nə olub, yoxsa maşın qəzasımı olub, deyə ondan soruşdum.

–Heç bir qəza olmayıb,onun ürəyi ilə bağlıdır deyərək telefonu söndürdü.

Bir an qulaqlarım tutuldu, ürəyim bərk döyünməyə başladı, nə edəcəyimi bilmədim. Mehdinin sözlərinə inanmaq istəmirdim, düşünürdüm ki, bəlkə mənə düzünü demək istəmirlər. Axı İbrahimin ürəyi ilə bağlı nə ola bilərdi? Yol boyu başımdakı bu fikirləri götür-qoy edə-edə təqribən yarım saatdan sonra xəstaxanaya çatdım. Gecənin bu sükut vaxtı heç kim yox idi.

Mən təcili 3-cü mərtəbədə Mərkəzi Klinikanın baş həkimi, ürək cərrahı Kamran Musayevin kabinetinə qalxdım. Xəstəxananın dəhlizləri sükuta qərq olmuşdu. Bu sükutu pozan isə mənim başımdakı uğultular və ürəyimin çırpıntıları idi.

İçəri daxil olanda Kamran və yanındakı həkimləri gördüm. Onlar da yerlərində elə bil ki, donmuşdular.

Mən artıq məsələnin nə yerdə olduğunu anlayıb aramızda çökən sükutu özümü saxlaya bilməyib içəridə ürəyimi parça-

layan hönkürtülərimlə pozmağa başladım.

Bu an Kamrandan nə üçün kömək etmədin, niyə kömək edə bilmədin, necə oldu ki, sən heç bir tədbir görə bilmədin, nə üçün ..., nə üçün...?!

Beynimdəki bu sualları onun üstünə yağdıraraq ondan cavab istəyirdim. Axı o, İbrahimin doğma dayısı idi.

Ancaq bu fikirlərimdən əl çəkib ondan bəlkə bu işdə başqa səbəblərin olması ehtimalını soruşdum. O, isə mənə hər şeyin ölçülüb-biçildiyini, hər bir məsələnin dəqiqləşdiyini, bu barədə heç bir şübhələrin olmadığını söylədi. O, çox təəsüf hissi ilə böyük zəhmətdən sonra ona kömək etmək imkanının olmadığını və bütün səbəbləri öz sənətinin dili ilə mənə izah etməyə çalışdı.

Artıq hər şey bitmişdi!!!

Bu acı və dəhşətli xəbər bütün şəhərə yayılmışdı. Heç kim xəbərə inanmaq istəmir, edilən zənglərin ardı-arası kəsilmək bilmirdi.

Səhər saat 9:00 radələrində onu sonuncu dəfə anası və əzizləri ilə görüşmək üçün ata evinə gətirdik.

Artıq saat 10:00 radələrində küçə insanlarla dolmuşdu. Bu dəhşətli xəbəri eşidən qohum-əqraba, onun dostları, iş yoldaşları, uzun müddət işlədiyi "Xalq qəzeti"nin və Sumqayıt Dövlət Universiteninin kollektivi də onunla son görüşə gəlmişdilər.

Mən şok vəziyyətdə toplaşan izdihamın içində gəzir, içimdəki məni rahat buraxmayan suallara cavab axtarmağa çalışırdım. Bu məqsədlə SDU-nun rektoru, professor Elxan Hüseynovun, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənovun, ADPU-nun filologiya fakültəsinin dekanı, professor Budxan Xəlilovun İbrahim haqqında xatirələrinə qulaq asır, onu necə ürək ağrısı ilə yad etdiklərinin şahidi olurdum.

Elxan müəllimin dediklərindən: – O, mənim müavinim iş-

lədiyi qısa 2-3 ay müddətində texniki işçilərdən tutmuş müəllim-professor heyyətinin, rəhbərliyin, hamının hörmətini və rəğbətini qazanmışdır. O, hamıya yaxşılıq, xeyirxahlıq etmək üçün çalışırdı, çox məsuliyyətli idi, onun gələcək üçün necə planları var idi. Mənim nəzərimdə o, qeyri-adi bir insan idi. Çox heyif, çox təəssüf!

Onun Həsən müəllimlə ata-oğul münasibəti, eloğlumuz Buludxanla səmimi dostluq və qardaşlıq münasibəti hamı tərəfindən təqdir edilirdi.

Ömrünün 40 ildən çoxunu müəllimlik sənətinə, təhsilə həsr etmiş Uğurlu müəllimin dediklərindən: – İbrahimin cismani yoxluğundan 10 ay keçir. Mənim kiçik qardaşım Buludxan onun yoxluğu ilə heç cür barışa bilmir. Əgər mən ölsəydim qardaşım heç vaxt belə sarsılmazdı.

Dostlarının dediklərindən: –İbrahim bizim üçün etibarlı dost, sədaqətli və qayğıkeş ailə adamı, cibindəki son xərcliyini hər an bizimlə yarı bölməyə hazır olan bir oğul idi. Üzərimizdə onun böyük haqqı var. Biz onu heç vaxt unutmayacağıq!

Ölümun üzü soyuq, səs-sədası isə yüksək olar deyib atalarımız!

Bu müdhiş gözlənilməz xəbər həmin gün mətbuatda, internet saytlarında dövlət qəzetlərində özünə yer tapdı.

Bir çox qəzetlər – o cümlədən, "Xalq", "Respublika" , "Azərbaycan" qəzetlərində yazılar, başsağlığı, nekroloqlar dərc edildi.

Bu gün İbrahimin yoxluğu onun əzizlərini hələ uzun müddət yandıracaq, illər keçəcək, onun yarımçıq qalmış həyat yolu, arzuları kimlərin xatirində necə yaşayacaq mən onu deyə bilmərəm.

Bildiklərim isə bunlardır: Mən körpəlikdən onu sevirdim, çünki o mənim babamın adını daşıyırdı. Orta məktəbdə, ali

məktəbdə oxuyanda, işləyəndə həmişə təklikdə özümün əlim çatmadığı nəsihətlərimi ona verməyə çalışırdım. Hərdən yolumu onun iş yerindən salır, çoxdan görmədiyim üçün darıxdığımı, ən əsası isə onun nə iş gördüyü ilə maraqlandığım üçün gəldiyimi deyirdim. O, məni görüb qarşılayanda asta və ləngərli yerişini unudub, gülən gözləri ilə sürətli addımları ilə üstümə gələr, öpüşüb bir-birimizə sarılardıq. Mənə aman verməzdi, ilk kəlməsində əmi necəsən? – deyərək məni qarşılayardı. Hal-əhval tutub, söhbət edib beləcə sağollaşıb ayrılardıq.

Onun xarakterindəki qeyri-adilik, istiqanlı, qohumcanlı olması, hətta tanımadığı adamlara xeyirxahlıq və yaxşılıq etmək istəyi onun nəslindən –babalarından, atasından ona sirayət etmişdi. Onun bu əməlləri Ulu Tanrının dərgahında qəbul ediləcəkdir! İnşallah!

Mən uşaq və yeniyetmə olan vaxtımda ömrümdə ən çox sevdiyim nənəm Zeynəbin bir kəlamını heç vaxt yadımdan çıxarmıram: A bala, Şükrünüzü dilinizdən heç vaxt buraxmayın!

Mən inanıram ki, İbrahimin yarımçıq qalmış həyat yolunu və arzularını onun iki oğul övladı – babasının adını vermiş böyük oğlu Alı və atasının adını daşıyan kişik oğlu Nizami qeyrətlə davam etdirəcəklər! Mən arzuladığım o günləri öz gözlərimlə görməyə tələsdiyim üçün bunlara inanıram!

Hər qaranlıq gecənin bir işıqlı gündüzü olduğu kimi!



**Ağbaba İbrahimov,**
*əmisi*

# Biz onun yeni nailiyyətlərini gözləyirdik

İbrahim ailənin üçüncü övladı idi. O, lap kiçik yaşlarından xasiyyəti, davranışları, çalışqanlığı ilə həm yaşıdlarından, həm də qardaşlarından seçilirdi. Düşüncələri də, hadisələrə münasibəti də, sevgisi də fərqli idi. Ailədə ilk ali təhsil alan da İbrahim oldu. Təhsili ilə paralel işləməyə də başladı. Atasından, babasından keçən mərdlik, əliaçıqlıq və səxavətli olmaq xüsusiyyətləri ona çoxlu dost qazandırdı. O, heç yorulmadan araşdırır, öyrənir, təhsilini davam etdirirdi. Bir neçə universitet bitirdi. Atası vəfat edəndən sonra anasına ən çox həyan olan, maddi və mənəvi dayaq olan da İbrahim idi.

Həmişə şən, zarafatcıl, hazırcavab və mehriban idi. Bizi uğurlu işləri, yenilikləri ilə sevindirərdi. Sumqayıt Dövlət Universitetində prorektor kimi çalışmağa başlayandan sonra isə bütün potensialını ora sərf edirdi. Ona tapşırılan işin öhdəsindən layiqincə gəlməyə çalışırdı. Biz onun yeni nailiyyətlərini gözləyirdik. Heç gözləmədiyimiz qəfil ölüm xəbəri bizi çox sarsıtdı. Təsəllimiz isə az ömrünə çox böyük işlər sığdırıb, çox böyük uğurlar qazanmasıdır. Ölümündən sonra qohumlarının, dostlarının qəlbində onun ölümsüzlüq qazandığını da gördük. Bu xatirə kitabı da bunun bir sübutudur.



**Hikmət Babaoğlu,**
*"Yeni Azərbaycan" qəzetinin baş redaktoru*

# İbrahimin uğurları hamımızı sevindirirdi

İnformasiya agentliklərində Sumqayıt Dövlət Universitetinin prorektoru İbrahim Ömərovun vəfat etməsi ilə bağlı yayılan xəbər məni  ciddi şəkildə sarsıtdı... Ancaq tez də özümə təsəlli verməyə başladım... Yox, bu bizim İbrahim deyil, bizim İbrahim "Xalq" qəzetində çalışır axı... Ancaq ad və soyadın eyni olması, üstəlik Ömərov soyadının Azərbaycanda çox az yayılması məni daxilən sakitləşməyə qoymurdu. Həsənov, Hüseynov, Əliyev və s. kimi soyad və adları eyni olan nə qədər desən insan tapmaq olar. Ancaq Ömərov Azərbaycanda nadir soyad sayılır... Xəbəri bir daha oxudum, Sumqayıt Dövlət Universitetinin prorektoru İbrahim Ömərovdan söhbət gedirdi. Heç cür inanmaq istəmirdim ki, bu, bizim İbrahimdir. Nəhayət narahatçılığa son qoymaq üçün yaxınlarıma zəng etdim. Sən demə, İbrahimin son aylarda iş yerini dəyişməsindən mənim xəbərim olmayıb. Qəfil ölümün namərdcəsinə haqladığı İbrahim Ömərov da elə bizim İbrahim imiş... Bunun bir faciə olduğunu, xüsusən də, anası və ailəsi üçün dö-



zülməz bir faciə olduğunu başa düşsəm də, əlimdən gələn heç nə yox idi… Artıq İbrahimi itirmişdik.

Mən İbrahimi lap uşaqlığından tanıyırdım. Sevimli bibimin böyük qızı Səadət xanımın dörd oğul övladından biri idi. Elə uşaqlığından da digər üç qardaşından fərqlənirdi. Özünəməxsus xarakteri, ciddiyyəti, hər şeyə qarşı xüsusi həssas münasibəti var idi. Həmyaşıdlarına nisbətən daha yaşlı, daha təmkinli və ağıllı görünürdü. Sonralar həyat göstərdi ki, doğrudan da, İbrahim xüsusi istedada sahib, aydın dərketmə qabiliyyəti olan, həyat məqsədini müəyyənləşdirən və ona çatmağın yollarını bilən bir gənc imiş. Qısa ömründə əldə etdiyi uğurlar da elə bunun isbatıdır. İbrahim həm də olduqca ünsiyyətcil idi. Ətrafına dostlar yığmaqda, onlarla münasibət saxlamaqda tayı-bərabəri yox idi. Bu keyfiyyətləri ilə atası Nizami Ömə-

rova çox bənzəyirdi. İbrahimin uğurları hamımızı ürəkdən sevindirirdi. Çalışmaq, özü üzərində işləmək, öyrənmək kimi keyfiyyətləri onu elmin böyük məbədinə yaxınlaşdırmışdı. İbrahim həm də elmi işlə məşğul olurdu. Bir gün mənə zəng edib əsərlərindən birinə ekspert rəyi yazmağımı istədi. Mən də məmnuniyyətlə qəbul etdim. Beləliklə də, onun elm sahəsindəki ilk uğurları ilə də tanış oldum. Onun nailiyyətlərinə bütün qohum-əqrəbalar kimi mən də sevinirdim.

Ancaq nə yazıq ki, amansız qədər onu sıralarımızdan tez apardı.

… İbrahim haqqında, onun mənalı, amma qısa həyat yolu haqqında çox yazmaq olar. Amma nə qədər yazsaq da, nə yazıq ki, onların heç biri İbrahimi bircə anlıq da olsun geri qaytarmaq gücündə olmayacaq. Ona görə də, onun ömrünün belə qısa olmağını böyük Yaradanın təqdiri kimi qəbul etməkdən başqa çarəmiz qalmır. Allah sənin o dünyanı versin, anana və ailənə isə səbr versin, İbrahim.



**Vurğun İbrahimov,**
*əmisi oğlu*

## İBRAHİMDƏN QALANLAR

İbrahim Nizami oğlu Ömərov şəxsiyyəti haqqında bir əmioğlu kimi öz-özlüyümdə çox düşündüm, bu insan haqqında fikirlərimi sizlərə hansı sözlərlə çatdırım kı, yaşadığı qısa, ancaq mənalı ömrünün bir hissəsini əhatə etsin. Səmimiyyətimə inanın, duyduğum qəhər hissi, boşluq, ürək yanğısı və mənasını izah edə bilmədiyim hisslərim fikirlərimi çatdırmaqda mənə çətinlik yaratdı.

İbrahim və Ömər babalarımızın adlarını özündə ad və soyad kimi daşıyan İbrahim Nizami oğlu Ömərov doğrudan da həmin nəslin nümunəvi davamçılarından biri olduğunu qısa bir ömür səhifəsində göstərə bilmişdi. İbrahimə çox vaxt qohumlar arasında elə İbrahim baba deyərək də müraciət edirdik.

İbrahim məndən təxminən bir neçə yaş böyük idi. Onunla bağlı ilk xatirələrim təxminən 25 il bundan əvvəlki illəri əhatə edir. İbrahimin uşaqlıq illərini xatırlayanda insanın gözü önünə çevik, zarafatçıl, ağıllı, münasibət qurmağı bacaran bir

oğlan uşağı gəlir. Bu gün də onunla bağlı anları xatırlayanda, babası Alı kişi və Fatma nənəsi ilə etdikləri zarafatlar yada düşür və insanların simasında indi də gülüş yaradır.

İbrahimlə bağlı xatirələri canlandıranda Qərbi Azərbaycanın Amasiya rayonunun Göllü kəndində yaşadığı baba ocağı olan Alı kişinin evinin arxasında "sanka" ilə qışda qarda sürüşdüyü , "çilik-çubuq" və digər oyunların oynadığı, həmçinin məlum müharibə səbəbindən Azərbaycana köç etdikdən sonra uşaqlar üçün yay istirahət düşərgələrində keçirdiyimiz uşaqlıq illərinin qayğısız-qadasız gözəl vaxtları bir kino lenti kimi gözümün önündən gəlib kecir. O vaxtlar fikirləşə bilməzdim ki, bir gün gələcək İbrahim əmioğlu ömrünün 37-ci baharında bizləri tərk edib gedəcək və mən də onun haqqında xatirələrimi yazmağa məcbur qalacam.Allah geridə qalanlarmızı vaxtsız ölümdən qorusun.Artıq o vaxtlardan təxminən çox illər keçib, bir çox böyüklərimiz, əzizlərmiz, doğmalarımız dünyasını dəyişib. Həmin insanları xatırlayanda o illəri , anları yenidən yaşamaq hissi insanın təfəkküründə hər zaman yenidən oyanır. Ancaq çox təəssüf! Dünyanın acımasız düzəni belədir, insanlar dünyadan köçür yalnız xatirələri yaşayır.

Hər bir insanın uşaqlıq illəri öz yerini gənclik illərinə buraxdığı kimi, İbrahim də gözünü açdı və gördü ki, artıq gənclik dövrü onu haqlayıb. İbrahim əmioğlu yaşadığı ev babaocağı olduğu üçün ətrafda olan qohumlar ora tez-tez gedərdik. İbrahim hər zaman elmi biliyini inkişaf etdirmək üçün öz üzərində çalışan, günün çox vaxtlarında kitab oxuyan bir gənc idi. İbrahimin bu yolda atdığı qətiyyətli adımlar tezliklə öz bəhrəsini verdi və bir neçə ali təhsil müəssisəsində təhsil aldıqdan sonra bu istiqamətdə elmi-pedaqoji fəaliyyətini davam etdirdi.

Azərbaycan gəncliyinin inkişafı və gənclər siyasətinin formalaşmasında öz bilik və bacarıqını əsirgəmədi. Bu fəaliyyət

istər ölkə daxilində, istərsə də vətəndən kənarda – ictimai-siyası forumlarda, elmi tədbirlərdə özünü göstərmişdir.İbrahimin qazandığı uğurlar, naliyyətlər sayəsində yeni sahələrə təyinatları biz qohumları həmişə sevindirmiş və bundan qürur hissi duymuşuq.

İbrahimin atası Nizami Alı oğlu Ömərov da öz dövrünün ziyalılarından idi. Atasının yazdığı bir çox şeirlərin, pyeslərin işıq üzü görməsində İbrahimin müstəsna rolu var idi. Atasından irsən keçən mərhəmət, xeyirxahlıq hissləri İbrahimin daxilində daha da formalaşmış və çətində olan insanlara qarşı hər zaman diqqətli olmuş və öz köməkliyini göstərmişdir.

Sonda qeyd etmək istəyirəm ki, bir çoxlarının heç vaxt bacarmadıqlarını, İbrahim yaşadığı 37 illik qısa ancaq şərəfli, mənalı, faydalı bir ömür yolunda edə bildi. Ancaq hələ İbrahimin vətəninə, doğmalarına, ailəsinə, dostlarına edə biləcəyi çox şeylər vardı. İbrahim bu dünyadan köç edib getdi, geridə gözündə qalan arzuları, gözü yaşlı anası, yoldaşı, bir də iki övladı qaldı.

Allah rəhmət eləsin!

**Güllər Məmmədova,**
*xalası*

## VAXTSIZ SÖNƏN ƏZİZİM HAQQINDA YARALI XATİRƏ

İbrahim müstəsna təbiiliyi, nəzakəti, şuxluğu, təbii mədəniyyəti ilə insan adını, övlad adını ləyaqət səviyyəsinə qaldıran bacıoğlu idi. Əhatəsinə hörmət hissi, hamıya xüsusi ehtiramla yanaşmaq, təmannasız xeyirxahlıq, ifrat mənəvi saflıq, ruhi zənginlik, gözütoxluq onun ən gözəl sifətlərini, əsas insani məziyyətlərini təşkil edirdi. Heyrətamiz naturası, dərin zəkası, təfəkkür zənginliyi, alicənablığı ilə ailə üzvlərinin, qohum-əqrəbalarının sevimlisi idi. O, misilsiz bəşəri keyfiyyətləri ilə ürəklərə asanlıqla yol tapırdı, doğmalarının ruhuna, mənəvi dünyasına hopurdu, onların zehninə gözəllikləri ilə həkk olunurdu. Öz zəhmətsevərliyi və uğurları ilə fərqlənən İbrahimin uğurlarına hamımız ürəkdən sevinirdik, xüsusi qürur hissi keçirirdik. Onun zəngin və işıqlı zəkasını, çalışqanlığını heyranlıqla alqışlayırdıq. İbrahim özünün fitri qabiliyyətini təsdiq etdikcə biz də onun bütün göstəriciləri ilə fəxr edirdik. Müvəffəqiyyətlər bu kamil insanın davranışlarına, sadəliyinə zərrə qədər də təsir göstərmirdi. Öyüncəklik, təkəbbür ümumiyyətlə onun xarakterinə yad idi. Sadəlik, mehribanlıq və səmimiyyət onun



fitrətində idi. O, öz emosiyalarını gizli saxlamağı bacarmırdı. Qəlbindəkilər dilinin ucunda idi. Bütün sözləri ürəkdən gəlirdi. Bütün hərəkətlərində o, iddiasızlıq, ucalıq və müdriklik nümunəsi idi. O, özünü sözün yaxşı mənasında gözə soxmağı ağlına belə gətirməzdi. Onun danışıq tərzində, intonasiyasında, sir-sifətində, jestlərində heç bir sünilik yox idi. Bütün danışıqları, müraciətləri onun içindən, saf qəlbindən gəlirdi.

Ülviyyət, qüdriyyət, elm, ürfan, fəal ictimai xidmət üçün doğulmuş bu insan geniş erudisiyasının, parlaq zəkasının özəlliklərini, zəngin mənəviyyatının təkrarolunmazlığını sadalamaq, mahiyyətini olduğu kimi aşkarlamaq mümkün deyil. Ancaq onu qətiyyətlə deyə bilərəm ki, intəhasız elmi və mənəvi potensialını gerçəkləşdirməyə, öz doğmalarını ürəkdən sevindirməyə, ona olan ümidləri doğrultmağa fələk, acı tale İbrahimə imkan vermədi.

Alicənab təbiətli İbrahim qısa ömrü boyu daha çox yaxşılıq etmək, daha çox savab qazanmaq arzuları ilə yaşamışdır. Onun varlığındakı bu gözəl, bu yüksək insani keyfiyyətlər çox güman ki, soykökündən, ata-anasından, qandan-candan gəlmə idi: gəldikcə gəlirdi, gətirdikcə daha da zənginləşirdi.

İbrahim ağrısı ruh ağrısı, könül ağrısıdır, qəlb sızıltısıdır. Bu ağrı, bu sızıltı heç bir söz qəlbinə sığışmır. Bu sızıltıdan danışdıqca ağrı üstünə yeni ağrılar gəlir.

*Coşur kədərim, qəmim,*
*Saya gəlmir ələmim,*
*İbrahimdən yazanda*
*Nalə çəkir qələmim*

*Bu sitəm sinə dağlar,*
*Dil ağlar, ağız ağlar,*
*Qələm "İbrahim"yazsa*
*Qarşımda kağız ağlar*

*Dərdim alov, qor oldu,*
*Xatirələr nur oldu,*
*İbrahimi almaqla*
*Ölüm də məşhur oldu*

*Yalan dünya, yalan dünya*
*Şahmar kimi çalan dünya*
*Oğul verib sevindirən*
*Verdiyini alan dünya*

*Neçə baxtı qara var,*
*Neçə bağrı para var*
*İbrahim itirənin*
*Canında min yara var*

*Ağbabamız dağ yeri*
*Qara baxtın ağ yeri,*
*Oğul dağı çəkilib*
*Var sinəmdə dağ yeri*



**Mais Musayev,**
*İbrahimin dayısı oğlu*

# BAĞIŞLA MƏNİ, İBRAHİM!

*Baxıram dünyanın bu gərdişinə,*
*Dəli bir ağlamaq keçir könlümdən.*
***Alı Mustafayev***

14 mart 2014-cü il, saat 05:30... Yuxudan telefonun zənginə oyandım. Yarıyuxulu "alo" desəm də, qardaşımın həyəcanlı səsi yerimdən dik atılmağımla nəticələndi. Geyinib aşağı düşdüm. Atam oyanmışdı, otağın ortasında sağa-sola var-gəl edirdi. Atamdan nə baş verdiyini soruşdum. "İbrahimi itirdik" - dedi. Bir anlıq donub yerimdə qaldım və qeyri-ixtiyari olaraq "hansı İbrahimi?" deyə soruşdum. Atamın "Bibin oğlu" deməsi ilə, dünya tərsinə döndü sanki... O an nə baş verdiyini tam xatırlamıram. Amma özümə gələndən sonra qarşılaşdığım mənzərə heç vaxt xatirimdən silinməyəcək. Çünki Səadət bibim, yəni İbrahimin anası həmin gün bizdə idi. Axşamdan deyə-gülə söhbət edib, xatirələrə dalmış, maraqlı söhbətlər etmişdik. Səhərin gözü açılmamış isə, o xəbər gəlmişdi. Həmin an bizi bir tərəfdən İbrahimin aramızdan ayrıl-

ması üzür, digər tərəfdən bunu bibimə necə deyəcəyimizin ağırlığı sıxırdı. Çünki bir anaya övladının ölüm xəbərini demək dünyanın yükü çəkilməz ən ağır yüküdür. O an yaşadığım hissləri heç cür sözlə ifadə etmək mümkün deyil. Suraxanıya neçə çatdıq, maşını hansı sürətlə idarə etdim, yolboyu nə düşündüm heç özüm də bilmirəm. Qəhər məni boğurdu... Ağlaya da bilmirdim. Hönkürmək istəyirdim... Hayqırmaq istəyirdim... Amma bibim o acı xəbəri məndən eşitməsin deyə, səssiz ağlayırdım. Nəfəsim çatmırdı, içim yanırdı... İçimdən bu acı xəbərin doğru olmaması üçün Allaha yalvarırdım. Amma nə fayda... O artıq aramızda yox idi...

* * *

İbrahimlə təxminən yaşıd olsaq da, onunla bağlı xatirələrim elə də çox deyil... 1999-cu il idi... Bakı Dövlət Universitetinə qəbul olmuşdum. O vaxt indiki kimi informasiya texnologiyaları geniş yayılmamışdı. İbrahim həmin vaxt "Respublika" qəzetində işləyirdi. Həftədə 2-3 dəfə İbrahimin otaq yoldaşı Nicatın yanına kompüter proqramlarını öyrənməyə gedirdim. Həmin ərəfədə tez-tez görüşürdük. İbrahimin nə qədər aktiv və çalışqan olduğunu elə o vaxtdan müşahidə etmişdim. Bir yerdə dayanmırdı, daim hərəkətdə idi. Açıqcası, qibtə də etmişdim ona. "Bu qədər işi necə olur ki, bir arada çatdıra bilir" - deyə düşünmüşdüm...

Ara-sıra şəhərdə rastlaşırdıq. Heç vaxt tək olmazdı. Yaxın dostlarından ən azı biri həmişə yanında olardı. Sonuncu dəfə Nizami küçəsində görüşmüşdük. Ən yaxın dostlarından biri olan Mahir Qabiloğlu da yanında idi. Bir xeyli dayanıb söhbətləşmişdik.

Bir dəfə də nənəmin yas mərasimində görüşmüşdük. Mahiri

ilk dəfə orda tanış etmişdi mənimlə. "Şair Qabilin oğlu Mahirdi. Canlara dəyən oğlandı. Dostum, qardaşımdı" - demişdi.

İbrahim elə bir insan idi ki, hamıya kömək etməyə, bacardığı qədər müşkül məsələlərini həll etməyə çalışırdı. Hətta bir neçə dəfə dost-tanışlarının müşkülü barədə mənə də demiş, onların dərdinə çarə qılmaq üçün yolları birgə müzakirə etmişdik. Mənim üçün də çox iş görmüşdü İbrahim. Nə vaxt yanına getsəm şən, gülərüz siması ilə qarşılaşırdım. Bu münasibət problemimi unutmağa kifayət edirdi.

Bir gün evə gələndə "İbrahimi prorektor təyin ediblər" - dedilər. Sevincimin həddi-hüdudu yox idi. Uçmaq üçün bircə qanadım çatmırdı desəm, yalan olmaz.

Ancaq bir şeyi ömrüm boyunca özümə bağışlaya bilməyəcəm. Mən İbrahimi onun qazandığı bu uğur, bu nailiyyət münasibətilə təbrik edə bilmədim. Bağışla məni, İbrahim! Bağışla ki, heç olmasa bundan sonra yaşayacağım ömrümdə vicdanımın mənə verdiyi bu əzab az da olsa yüngülləşsin. Bağışla ki, axirətdə yanına gəlməyə üzüm olsun. Bağışla məni, bibioğlu... Bağışla...

* * *

14 mart 2014-cü il... Günorta saatları... Suraxanıdayıq... İbrahimin ata evinin qarşısında... İbrahimin cismən aramızdan ayrılmasına dəqiqələr qalmışdı. Cismən deyirəm, ona görə ki, İbrahimin ruhu bu dəqiqə də başımızın üstündədir. Mərasimə toplaşanlar arasında daha kimlər yox idi ki... İbrahimin dünyasını dəyişməsinə Azərbaycanın bütün gənc, orta və yaşlı nəsil ziyalıları üzülmüşdü... Çünki İbrahim özü gənc olsa da, həm yaşlı, həm də orta nəslin nümayəndələri ilə münasibət qurmağı, onlara hörmət saxlamağı bacarırdı. Böyüklə böyük, kiçiklə kiçik ola bilirdi... İbrahimin böyüklüyü də məhz onda idi.

Rahat uyu, bibioğlu... Bəlkə ideyaların, fikirlərin, düşüncələrin, planların səninlə getdi... Amma bu dünyadakı qısa ömrünə sığdırdığın böyük həyat yolun həmişə var olacaq...

Təsəllim, sənin dost, qardaş dediyin insanların bir qismi ilə tanışlığımdır... Hər dəfə onlarla ünsiyyətdə olduqca səni xatırlayır, səninlə bağlı xatirələri canlandırırıq...

Rahat uyu, qardaş... Onsuz da hər gələn bir gün getməlidir... Mənim bu dünyadan gedişim nə vaxtdır, bilmirəm... Bildiyim bir şey var ki, axirətdə görüşəcəyik, inşallah...



**Mehdi Ömərov,**
*qardaşı*

## İBRAHİM BİZİM ÜÇÜMÜZDƏN DƏ SEÇİLİRDİ

Böyük qardaşın özündən 3 yaş kiçik qardaşını itirməsi böyük zərbədi. Onun haqqında xatirələr yazmaq, keçmiş zamanda danışmaq heç də asan deyil. İbrahim uşaqlıq vaxtında da bizim üçümüzdən seçilirdi. O, çox zirək, səliqəli, hazırcavab, tutduğunu qoparan bir uşaq idi. İllər keçsə də, bu müsbət xarakter onunla birlikdə böyüdü. Bugünkü kimi yadımdadır, bir gün orta məktəbdə İbrahimin sinif rəhbəri məni dəhlizdə görüb yanına səslədi. İbrahim haqqında xoş sözlər söylədi. Belə bir qardaşım olduğu üçün mən qürurlanırdım.

2010-cu ildə atamı itirəndə də çox sarsılmışdıq. Bu itkidən sonra biz bir-birimizə daha da yaxın olduq. Ata evimiz Suraxanıdadır, İbrahim isə şəhərdə yaşayırdı. O, hər həftə bizə, anasının yanına gəlir, hamımıza dəstək olur, problemlərimizlə maraqlanırdı. Yaşca kiçik olmasına baxmayaraq, atamızın dəstək və qayğısını ondan görürdük.

Martın 13-cü gecəsi gələn zəng bizi ikinci dəfə sarsıtdı. Qar-

daşım Həzi ilə Mərkəzi Klinik xəstəxanaya çatanda dayım Kamranın İbrahimin başı üstündə durduğunu, dayımoğlu Oqtayın isə İbrahimin ürəyini masaj etdiyini gördüm. Orda uzanan hərəkətsiz bədənin İbrahim olduğuna inana bilmirdim. Kamranın üzünün ifadəsi məni çox qorxutdu. Bu səhnə heç vaxt gözümün önündən getməyəcək. Bir neçə saatdan sonra Kamran həkim Oqtayla birlikdə gəlib hər şeyin bitdiyini söylədi. Bu həyatda ikinci dəfə dayağımızı, ümid yerimizi itirmişdik. Biz onu cismən itirdik, onun ruhu hər zaman bizimlə olacaq, yaşayacaq.



**Elnarə Ömərova,**
*İbrahimin qardaşı Mehdinin həyat yoldaşı*

# İBRAHİMİ ÖZÜMƏ BÖYÜK QARDAŞ BİLDİM

Mənim ilk dəfə İbrahimlə tanışlığım 1998-ci ilin yanvarında olub. Mən gəlin gələcəyim ocağa qonaq kimi dəvət olunmuşdum. İbrahimlə ilk dəfə həmin vaxt söhbət etmişəm. Salamlaşdıqdan sonra o mənə "yaxşı paltar ütüləməyi bacarırsanmı?" - deyə soruşdu. Mən də çəkinə-çəkinə:

- Belə də - deyərək cavab verdim.

O gülümsəyərək:

- Hələ bir şalvar ütülə görüm necə bacarırsan - dedi.

Mənim onun sözünü yerə salmayıb şalvarı ütülədim. İşim xoşuna gəlmişdi:

- Hə... pis deyil - deyib güldü.

Mən onda bildim ki, qardaşlarından ən səliqəlisi və zövqlə geyinməyi xoşlayan İbrahimdi. O həqiqətən şux qamətli, zövqlə geyinən bir oğlan idi.

Mən onlara gəlin gəldiyim ilk gündən İbrahimi özümə böyük qardaş bildim, o da mənə bacı kimi hörmət edirdi.

Çünki İbrahimin bacısı yox idi. Bir müddətdən sonra bildim ki, onun sevdiyi qızın da adı Elnarədi.

İbrahim həm oxuyurdu, həm də "Respublika" qəzetində çalışırdı. Ona görə də evə gec gəlirdi. Onu yalnız həftəsonları görürdüm. Evdə olduğu vaxtlarda hamı ilə zarafat edir, xətrimizə dəymədən məzəli atmacalar atırdı. Bayramlarda, ad günümdə məni diqqətdən kənarda qoymazdı, həmişə hədiyyələr alırdı, "könlün nə istəyir" - deməyi də unutmurdu. Belə qardaşdan kim inciyərdi...

Martın 13-dən 14-nə keçən gecə saat 02.15-də gələn zəng hər şeyi alt-üst etdi. Bir neçə saat özüm-özümə: "İbrahim hələ cavandı, ona heç nə ola bilməz, o, əzizlərini, doğmalarını atıb getməz" - deyərək otaqda eltim Nurhanla var-gəl elədik. Amma bu dəfə belə olmadı. İbrahim hamını, onu sevənləri, ən başlıcası, anasını, həyat yoldaşını, övladlarını, qardaşlarını gözüyaşlı qoyub getdi. Bu cavan yaşında ona ölüm yaraşmırdı. Bu yara illər keçsə də, qaysaq bağlamaz, onu sevənlərin yaddaşından silinməz.

Allah İbrahimə rəhmət eləsin, onu sevənlərə səbir versin!



**Alı Ömərov,**
*İbrahimin böyük oğlu*

## Elə bilirdim ki, o, yenə də işdədir…

Mənim üçün ən faciəli gün. Səhər tez oyandım. Heç nədən xəbərim yox idi, gözlərimə inanmadım. Dayım, Aynur və Gülüş xala da bizdə idi. Sevindim. Dayım məni qucaqlayıb öpdü. Aynur xala ilə Gülüş xala da həmçinin. Onlar ağlayırdılar. Soruşanda dedilər ki, guya başları ağrıyır. Sonra soruşdum:

- Nə yaxşı səhər saat 7-də gəlmisiniz?

Dedilər, "elə belə…" Mən də inandım.

Sonra dayım soruşdu:

- Atanı çox istəyirsən, yoxsa ananı?
- İkisini də!

Qapı döyüldü. Bu, Səidə xala idi. Lap təəccübləndim. Nolub görəsən?! O bizi öpüb anamın otağına keçdi. Mən də onun arxasınca gedəndə gördüm anam ağlayır. Soruşanda dedi: "dişim ağrıyır". Sonra anam dayıma dedi ki, məni və qardaşımı Aynurun anasıgilə aparsın.

Mən gedəndə anamı öpdüm. Anam dedi ki, "planşeti götürün". Mən lap məəttəl qaldım. Anamdan çıxmayan iş. İstəmədim. Anam məcbur elədi. Aynurun anasıgilə getdik.

Sonra dayım gəlib bizi Suraxanıya, nənəmgilə apardı. Mən soruşdum:

- Dayı, nə yaxşı!?

- Hamı orda yığışıb…

Biz sevindik. Catanda gördüm ki, doğrudan da hamı burda yığışıb və ağlayır...

- Dayı, kim ölüb? – deyə soruşdum.

Mehdi əmi ağlaya-ağlaya bizi qucaqlayıb öpdü. Elə bildim anama nə isə olub. Çünki o, səhər ağlayırdı. Rəngim qaçdı. Əmimin əlindən çıxıb, evə tərəf qaçdım. İçəri girəndə gördüm evin ortasında kimisə uzadıblar, üstünü qırmızı parça ilə örtüblər. Qadınların içində anamı görəndə ürəyim rahatladı.

Adamların arasında atamı axtarmaq heç ağlıma da gəlmirdi. Çünki o, hər səhər biz oyanana kimi qalxıb işə gedirdi. Elə bilirdim ki, o, yenə də işdədir…

Məni görəndə Səadət nənəm daha bərkdən çığırmağa başladı. Anam tez əmimə dedi ki, bizi aparsın…

Yolda əmimdən soruşanda "kim ölüb" dedi bilmirəm…

Qırmızı parçanın altındakı kök adam idi. Dayımın səhər tezdən mənə verdiyi sualı xatırladım: "Atanı çox istəyirsən, yoxsa ananı?!"

Deməli, ya anam olacaqdı, ya da atam. Anamı gördüm, atamı isə yox…

Yenə soruşdum:

- Murad əmi, o… atam idi?

- Bilmirəm.

Biz qardaşımla ağlamağa başladıq. Hər şeyi başa düşmüşdük... Mən maşında "Atam ölüb" deyərək qışqırırdım...



**Elnarə Ömərova,**
*İbrahimin həyat yoldaşı*

## ÖLÜM SEVİNMƏSİN QOY...

*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*
***Səməd Vurğun***

Çox çalışırdın, çox işləyirdin. Evə gec, yorğun gəlirdin. Axşam qapı döyülən kimi uşaqlar yataqlarında olsalar da, "atam gəldi, atam gəldi" deyib qapıya qaçırdılar. Onları görəndə yorğunluğunu da unudurdun. Evinə, ailənə çox bağlı idin. Hara getsəydin, geri dönəndə "adamın öz evi" deyirdin. Nə vaxtdır dönmürsən…

Yayda işinin çoxluğundan istirahətə də qısa müddətlik gedirdik. Amma bu yay fərqli oldu. Demək olar ki, bütün yayı gəzdik, əyləndik. Elə bil hiss eləyirdin ki, tez ayrılacaqsan bizdən.

Yanvar ayında öz facebook səhifəsində status paylaşmışdın:

"Bir gün gəlir qərar verməli olursan, getmək və qalmaq. Necə də çətindir... Bir-birinə bu qədər yaxın və uzaq sözlər – getmək və qalmaq... İnsan bəzən zamanın durmasını, hər şeyin

olduğu kimi qalmasını arzulayır. Amma bizdən asılı olmayan obyektiv və subyektiv səbəblərdən qərar vermək zorunda qalırsan... Bu qərarına sevinənlər, kədərlənənlər, hətta daş kimi soyuq baxışlarla qarşılayanlar da olur, amma qərarın yükünü sahibi çəkir..."

Dostlarından birinin: "Qardaş, Allah amanında! Yolçuluq haraya?" -sualına:

"Salam, qardaş... Bu gedişlə, deyəsən göylərədir...)"- cavabını yazmışdın.

…Özünə dostlar qazanmışdın. Yaşından, vəzivəsindən asılı olmayaraq, fərqli xarakterlərə malik dostlar. Anana həmişə deyirdin: "Ay ana, mənim dostlarım atamın dostları kimi deyil, ziyalı, əsl dostlardır". Dostlarına qarşı səmimi bağlılıq, doğmalıq hissi var idi səndə. Təbii ki, bu, qarşılıqlı idi.

Deyirdin ki, "mən dostlarımın, sevdiyim insanların uğuruna həmişə sevinmişəm, öz uğurum kimi baxmışam. Nə yaxşı ki, sevdiyim insanların sevincinə sevinə bilirəm. Bu, bizə Ulu Tanrının ən böyük mükafatıdır!"

Yeni işə təyin olunandan sonra işinin çoxluğuna baxmayaraq, onlarla daha sıx görüşürdün. Bəlkə də daha uzaq mənzilə köçəcəyini hiss edirdin.

...Hər dəfə ananla, uşaqlarla "yeni mənzilinə" baş çəkəndə dostlarının gətirdiyi gülləri görürəm. Onlarla qarşılaşıram. Unutmayıblar, unutmurlar...

Hər şey eynidi...baxışların, duruşun, təkcə görüş yerin, "evin" dəyişib. Biz ağlayırıq, sən gülümsəyirsən...

*Artıq sənin üçün dayanan zaman*
*Mənimçün dolanır...*
*Gun olur axşam.*
*Vaxt kecir... sən məndən uzaqlaşırsan,*
*Mən sənə günbəgün yaxınlaşıram.*

## MÜNDƏRİCAT

**ÖN SÖZ:** İnsan sığınacaqlara doğru tələsir ........................................3

**SƏNİN YERİN GÖRÜNÜR, QAYIT GƏL .........................................6**
*Buludxan Xəlilov.* Əziz dost, nə vaxt qayıdıb gələcəksən?! ................6
*Qənirə Paşayeva.* Sən gedəndə görüşmədin...
Mən gələrəm görüşərik...........................................................................16
*Nəcəf Nəcəfov.* Ömür vəfa etsəydi.....................................................18
*Məhərrəm Hüseynov.* İnsanlıq etalonu,
ləyaqət mücəssəməsi, saflıq zirvəsi.....................................................21
*Sərdar Zeynal.* Dostların öləndə sən öləcəksən ..................................27
*Mehman Rzayev.* Ləyaqətli ömrünlə nümunəsən...............................38
*Arif Kazımov.* Ürəklərdə yerin var... ....................................................40
*Əsgər Zeynalov.* O, gənc ikən müdrik idi. ..........................................43
*Nazim Mustafa.* Tez parlayıb, tez sönən ulduza
bənzəyir İbrahim ....................................................................................46
*Nüşabə Hüseynli.* Sevdiyin adam ölürsə.............................................52
*Elnarə Məmmədova.* Elə qayğıkeş, mərhəmətli, mehriban idi ki... .......56
*Ədalət Məmmədov.* Mənim xilaskarım! ...................................................58
*İsrail Məmmədov.* Ürəklərə köçən, yaddaşlarda
yaşayan müqəddəs insan.......................................................................63
*Ağasən Bədəlzadə.* Ağlın zirvəsində sönən bir çıraq...........................66
*Sarvan İbrahimov.* Dost itkisi ...............................................................69

**İBRAHİMİN ÖMRÜNDƏN SƏHİFƏLƏR:**
**ŞƏKİLLƏR, SƏNƏDLƏR...................................................................71**

**İBRAHİM "RESPUBLİKA" QƏZETİNDƏ: AĞSAQQAL SÖZÜ,**
**MƏHƏBBƏT BURADAN BAŞLADI DÜZÜ ................................100**
*Teymur Əhmədov.* İbrahimin əziz xatirəsinə ....................................100
*Zümrüd Qurbanqızı.* Ömür yaman vəfasızmış ................................103

**İBRAHİM "ELM" QƏZETİNDƏ: İBRAHİMİ VƏ ELMİ SEVƏN DOSTLAR ....................................................107**

*Ağahüseyn Şükürov.* Gənclik illərinin bir ümman xatirəsi ..............107

*Aqşin Məmmədov.* "Ölmək üçün əvvəlcə yaşamaq lazımdır..." .......110

*Rafiq Rzayev.* Böyük və təmənnasız dost ........................................118

*Səbinə Məhərrəmova.* Xəbərin varmı heç, arxaya bax, bir ömür ötdü, DOSTUM... ...............................................................123

*Əbülfəz Əzizov.* Gözəl insan, mehriban dost ...................................132

**İBRAHİM "XALQ QƏZETİ"NDƏ: "XALQ"IN ÖZÜ, "XALQ"IN SÖZÜ..............................................134**

*Həsən Həsənov.* Ömrün son akkordu ...............................................134

*Aida Şükürlü.* Cavan ömrün son baharı... Yaxud, təsəllimizə çevrilmiş işıq ....................................................143

*Anar Turan.* Səmimiyyət nümunəsi ................................................147

**İBRAHİM SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ: GƏNC PROREKTORUN İKİ AYLIQ FƏALİYYƏTİ.....................11**

*Aslan Bayramov.* Təmənnasız İbrahim..............................................152

*Avtandil Ağbaba.* Ömürdən qopan kərpiclər ...................................156

*Dəyanət Səlimxanlı.* Bir səhərin baş Mübtədasından gələn ağrılı, acılı baş Xəbər və ya nekroloq əvəzi ...............................................159

*Şeyda Quluyeva.* Xeyirxah insan .......................................................162

**İBRAHİM HAQQINDA MAHİR QABİLOĞLUNUN XATİRƏLƏRİ ..................................................164**

Yeraz Abbasəlinin təəssüfü, Yeraz İbrahimin arzusu.......................164

"Salam, ölüm!"... "Sağ ol ölüm" ........................................................167

Mikayıl Cabbarov, üzr istəyirəm! Həsən müəllim, bağışla... ........170

İbrahimin öldüyü gündən həyat davam eləyir ...............................178

Gözəl İbrahim.......................................................................................183

İbrahim Ömərovun babasının nəsihəti ............................................214

İbrahim, Buludxan, Cavanşir ..............................................................216

**İBRAHİM QOHUMLARININ DİLİNDƏ ........................................222**
*Mövla Ömərov.* O müdhiş gecənin sarsıdıcı xəbəri!..........................222
*Ağbaba İbrahimov.* Biz onun yeni nailiyyətlərini gözləyirdik .........227
*Hikmət Babaoğlu.* İbrahimin uğurları hamımızı sevindirirdi .........228
*Vurğun İbrahimov.* İbrahimdən qalanlar ...........................................231
*Güllər Məmmədova.* Vaxtsız sönən əzizim haqqında yaralı xatirə.......234
*Mais Musayev.* Bağışla məni, İbrahim! ..............................................237
*Mehdi Ömərov.* İbrahim bizim üçümüzdən də seçilirdi..................241
*Elnarə Ömərova*. İbrahimi özümə böyük qardaş bildim .................243
*Alı Ömərov.* Elə bilirdim ki, o, yenə də işdədir… ............................245
*Elnarə Ömərova.* Ölüm sevinməsin qoy... .........................................247

Dizayneri:
**Z.Qafarzadə**

Korrektor və operator:
**Aybəniz Sultanova**

Çapa imzalanmışdır: 08.II.2015
Formatı 60x90 1/16. Həcmi: 15,5 ç.v.  Sayı: 500
Sifariş: 40.